BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

Azərbaycan Milli Elmlər Akademiyası

Azərbaycan Yaradıcılıq Fondu

Multikulturalizm

Ədəbi-bədii, elmi-publisistik jurnal

1 2016
yanvar-fevral-mart

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,
Azərbaycan Milli Elmlər Akademiyası
və Azərbaycan Yaradıcılıq Fondunun
birgə nəşri

BAKI
2016

Redaksiya heyəti

Aleksandr İşein
Allahşükür Paşazadə
Anar Rzayev
Asif Hacıyev
Aytən Mustafayeva
Aytən Qəhrəman
Azərpaşa Nemətov
Etibar Babayev
Etimad Başkeçid
Firdovsiyyə Əhmədova
İsa Həbibbəyli
Kamal Abdulla
Kamran İmanov
Qismət Rüstəmov
Lidiya Qranovskaya
Mehman Qaraxanoğlu
Milix Yevdayev
Natiq Rəsulzadə
Nəriman Qasımoğlu
Paşa Əlioğlu
Rəhilə Qeybullayeva
Rəşad Məcid
Robert Mobili
Sevda Sultanova
Sərdar Fərəcov
Vaqif Abbasov

Beynəlxalq redaksiya şurası

Aleksandr Nesterov *(Rusiya)*
Aleksandr Qriç *(ABŞ)*
David Qotsiridze (*Gürcüstan)*
Didye Frankfurt *(Fransa)*
Eero Tarasti *(Finlandiya)*
İrma Ratiani (*Gürcüstan)*
Klaus Volf *(Almaniya)*
Maija Burima *(Latviya)*
Ramazan Qorxmaz *(Türkiyə)*
Sandro Teti *(İtaliya)*
Sudha Svarnakar *(Braziliya)*
Takayuki Yokota Murakami *(Yaponiya)*
Tereza Damasio *(Portuqaliya)*
Valeri Pines (ABŞ)
Vidas Kavalyauskas *(Litva)*
Yeva-Mariya Aux *(Almaniya)*

Baş redaktor
Fəxri Uğurlu

Redaktorlar
Tahir Kazımlı,
Azər Qaraçənli,
Yelena Korneva

Məsul katib
Taleh Eminoğlu

Texniki direktor
Fuad Cəfərov

Texniki redaktor
Əliş Mirzallı

Dizayner
Mətanət Qaraxanlı

Korrektor
Kəmalə Cəfərli

Üz qabığının 1-ci səhifəsi –
Multikulturalizm monumenti (Kanada, Toronto, müəl. Fransisko Pirelli).
Dörd oxşar abidə dünyanın müxtəlif yerlərində – Buffalo (CAR), Çançun (Çin), Sarayevo (Bosniya və Herseqovina), Sidney (Avstraliya) şəhərlərində yerləşir.

Üz qabığının 4-cü səhifəsi –
Azərbaycan heykəltəraşı, Xalq rəssamı Görüş Babayevin "Kitabi-Dədə Qorqud" dastanının motivləri əsasında hazırladığı heykəlciklərin şəkillərindən istifadə olunub.

Redaksiyanın ünvanı:
Az1001, Bakı şəhəri, N.Rəfibəyli küç., 6
tel.: (+994 12) 492 33 29
e-mail: multikulturalizmjurnali@gmail.com
facebook: Multikulturalizm jurnalı

Jurnal ildə 4 dəfə nəşr olunur.
Qeydiyyat: 05/ƏN11-5-5946

Materiallardan istifadə edərkən jurnala istinad vacibdir.

© "Multikulturalizm" jurnalı, 2016

İÇİNDƏKİLƏR

RƏSMİ

2016-cı ilin Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 6

"2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 9

Azərbaycan Respublikası Prezidentinin Pravoslav Xristian İcmasına təbriki 17

BAŞ REDAKTORDAN 18

AZƏRBAYCANÇILIQ

Ramiz MEHDİYEV
Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi 20

ÇOXMƏDƏNİYYƏTLİLİK

Акиф АЛИЗАДЕ
Точная идеологическая цель – мультикультурализм 28

Kamal ABDULLAYEV
Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək 37

Mübariz QURBANLI
Azərbaycan multikulturalizm modeli dünya səviyyəsində ən mükəmməl örnək kimi qəbul olunur 44

Этибар НАДЖАФОВ
Пропаганда достижений азербайджанского мультикультурализма в мире 48

Sevda SULTANOVA
Monokultural estetikaya qarşı kino inqilabı 54

TERROR MULTİKULTURALİZMƏ QARŞI

Хаджар ВЕРДИЕВА, Фахреддин ПАШАЕВ
Армянский терроризм и курды 59

HOMO SAPİENS

Qan TURALI
İnsan olmanın macəra dolu qəddar tarixi 68

Qara ƏHMƏDOV
Bu günə necə gəlib çıxmışıq 73

Aqşin YENİSEY
Köhnə dünyanın kəşfi 80

TARİXİMİZ, BUGÜNÜMÜZ

Məhəbbət PAŞAYEVA
Azərbaycanda qədim alban tayfalarının izləri..... 83

Ульвия ГАДЖИЕВА
Исторические последствия ликвидации Албанского католикосата..... 90

HÖTE ZALI

Harri HARRİSON
Aşkelon küçələri (fantastik hekayə)..... 98

Sofiya MURAŞKOVSKİ
Müasir ingilis ədəbiyyatında multikulturalizm..... 111

AXUNDOV ZALI

Gənc şairlərin şeirləri – **Günel Şamilqızı, Rəbiqə Nazimqızı, Feyziyyə, Alik**..... 118

SÖNMƏYƏN ULDUZLAR

Ramilə QURBANLI
Sənətkar simasındakı həyat əzabı..... 134

Cavid ZEYNALLI
Bir şəklin tarixçəsi..... 141

RESENZİYA

"Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı işıq üzü görüb..... 145

KİTAB RƏFİ

Sərbəst insanlar ölkəsində:
Əhməd Ağaoğlunun həm real, həm də utopik məmləkəti..... 148

«Kitabi-Dədə Qorqud» 25 dildə..... 151

Azərbaycan Yaradıcılıq Fondunun kitabxanası..... 162

MM – MULTİKULTURALİZM MOZAİKASI..... 167

REGİON. *«Multikulturalizm» təqdim edir: Şimal bölgəsinin rəngi*..... 178



“Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda “Multikulturalizm ili” elan olunur”.

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev



2016-cı ilin Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə **qərara alıram**:

1. 2016-cı il Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının təkliflərini nəzərə alaraq, 2016-cı ilin Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 yanvar 2016-cı il.



Распоряжение Президента Азербайджанской Республики об объявлении 2016 года в Азербайджанской Республике «Годом мультикультурализма»

Расположенный на историческом Шелковом пути Азербайджан, являясь пространством слияния различных цивилизаций, испокон веков был известен как край, где сформировалась среда национально-культурного разнообразия, представители отдельных национальностей и конфессий живут в условиях мира, спокойствия, взаимопонимания и диалога. В нашей стране мультикультурализм стал уже образом жизни, не имеющим альтернативы. Создание Бакинского Международного центра мультикультурализма является наглядным примером того, что проводимая в нашей республике на современном этапе политика и сегодня остается приверженной принципам толерантности.

Принятие решения о проведении в 2016 году в городе Баку 7-го Глобального форума Альянса цивилизаций Организации Объединенных Наций является реальным выражением отношения стран мира к мультикультуральной среде в Азербайджане.

Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики, в целях сохранения, дальнейшего развития и широкой пропаганды традиций мультикультурализма в Азербайджане, **постановляю**

1. Объявить 2016 год в Азербайджанской Республике «Годом мультикультурализма».

2.Кабинету Министров Азербайджанской Республики, учитывая предложения Бакинского Международного центра мультикультурализма, Министерства культуры и туризма Азербайджанской Республики, Министерства образования Азербайджанской Республики, Государственного комитета по работе с религиозными образованиями Азербайджанской Республики и Национальной Академии Наук Азербайджана, в месячный срок подготовить и представить Президенту Азербайджанской Республики план мероприятий по объявлению 2016 года в Азербайджанской Республике «Годом мультикультурализма».

Ильхам Алиев
Президент Азербайджанской Республики

город Баку, 11 января 2016 года.



“2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı ilin 11 yanvar tarixli 1673 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram**:

1. “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsinə dair Tədbirlər Planı”nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 mart 2016-cı il.

2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair TƏDBİRLƏR PLANI

Sıra №-si	Tədbirin adı	İcra müddəti	İcraçılar
Azərbaycan multikulturalizmi modeli ilə bağlı ölkədaxili tədbirlər			
1.	Multikulturalizm siyasətinin hüquqi bazasını möhkəmləndirmək məqsədilə ayrı-seçkiliyə qarşı mübarizənin gücləndirilməsi ilə bağlı mövcud normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması	il ərzində	Ədliyyə Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
2.	"Multikulturalizm" adlı xüsusi medalın təsis edilməsi məsələsinə baxılması	il ərzində	Nazirlər Kabineti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
3.	"Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında" mövzusunda ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və müxtəlif dini qurumların üzvləri arasında intellektual müsabiqələrin təşkil olunması	mütəmadi	Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu
4.	"Azərbaycan multikulturalizmi modeli" adlı fənnin tədris edildiyi ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" kafedralarının açılması üçün lazımi metodik hazırlığın aparılması	il ərzində	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi
5.	Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində "Multikulturalizmə giriş", magistratura səviyyəsində isə "Azərbaycan multikulturalizmi modeli" adlı fənlərin tədris proqramlarına daxil edilməsi	mütəmadi	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi
6.	Azərbaycandakı Rus Pravoslav Kilsəsi tərəfindən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə	il ərzində	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mədəniyyət və Turizm

	(BBMM) bağışlanmış Qazax şəhərindəki Müqəddəs Nikolsk Pravoslav kilsəsinin binasında "Multikulturalizm Muzeyi"nin yaradılması və muzeyin BBMM-in balansına verilməsi üçün zəruri sənədləşmə işlərinin görülməsi		Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Qazax Rayon İcra Hakimiyyəti
7.	Azərbaycanın müxtəlif bölgələrində məşğulluğu olmayan gənclərin peşəyönümlü kurslara cəlb edilməsi və bu kurslarda həmçinin multikultural məzmunlu fənlərin tədrisinin təmin edilməsi	mütəmadi	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu
8.	Azərbaycan multikulturalizminin qaynaqları seriyasından olan "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları", "Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları", "Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları" kitablarının hazırlanıb nəşr etdirilməsi və təqdimatlarının keçirilməsi	il ərzində	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları
9.	"Azərbaycan multikulturalizmi" dərsliyinin hazırlanıb nəşr etdirilməsi	il ərzində	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi
10.	Mədəni müxtəliflik, tolerantlıq və konfliktlərin həllində mədəniyyətlərarası dialoqun rolu, multikulturalizmin Azərbaycan modeli və dünya multikulturalizm modelləri mövzularında respublika və beynəlxalq miqyaslı elmi-nəzəri, elmi-praktik konfransların, seminarların, "dəyirmi masa"ların, mühazirələrin, ədəbi-bədii toplantıların keçirilməsi	aprel-dekabr	Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, yerli icra hakimiyyəti orqanları

11.	Azərbaycan dövlətinin multikulturalizm siyasətinin dini təhsil müəssisələrində, dini icmalarda təbliği məqsədilə seminarların keçirilməsi	il ərzində	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Azərbaycan Milli Elmlər Akademiyası
12.	Ölkə məktəbliləri arasında multikulturalizm mövzusunda rəsm müsabiqəsinin keçirilməsi	aprel-may	Təhsil Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı
13.	BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna və "Multikulturalizm ili" nə həsr edilmiş təqdimatların və müzakirələrin təşkili (ali təhsil müəssisələri, Qeyri-Hökumət Təşkilatları və gənclər təşkilatları üçün)	aprel-may	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası
14.	Orta ümumtəhsil və orta ixtisas təhsili müəssisələrində mədəniyyətlərarası kommunikasiya bacarıqları və bilgilərinə həsr olunmuş seminarların və "Azərbaycanda multikulturalizm" mövzusunda kütləvi mühazirələrin təşkili	il ərzində	Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
15.	Multikulturalizm mövzusunda elmi-publisistik məqalə müsabiqələrinin keçirilməsi, məqalələr toplusundan ibarət kitabın nəşr etdirilməsi	aprel-noyabr	Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası
16.	"Multikulturalizm gənclərin gözü ilə" qısametrajlı film müsabiqəsinin təşkili və keçirilməsi	may-sentyabr	Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Kinematoqrafçılar İttifaqı
17.	Dövlət sifarişi ilə Cəlil Məmmədquluzadənin "Kamança",	il ərzində	Mədəniyyət və Turizm Nazirliyi

	Qurban Səidin "Əli və Nino" əsərlərinin hazırlanıb tamaşaya qoyulması		
18.	Teatr və musiqi kollektivlərinin azsaylı xalqların yaşadığı bölgələrə qastrol səfərlərinin təşkili	il ərzində	Mədəniyyət və Turizm Nazirliyi
19.	Dövlət rəsm qalereyalarında "Multikulturalizm alternativsiz həyat tərzidir" devizi ilə rəsm sərgilərinin təşkili	il ərzində	Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı
20.	"Azərbaycan-doğma diyar" devizi altında etnik qrupların V incəsənət festivalının bölgələrdə keçirilməsi	il ərzində	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, yerli icra hakimiyyəti orqanları
21.	Azərbaycan Milli Kitabxanasında multikulturalizm üzrə kitab fondunun yaradılması və "Multikulturalizm və kitab" mövzusunda konfransın keçirilməsi	il ərzində	Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu
22.	"Beynəlxalq abidələr və tarixi yerlər günü" çərçivəsində Lahıc, Xınalıq və Kiş qoruqlarının ərazisində mədəniyyət festivallarının təşkili	18 aprel	Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları
23.	"Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda "Azərbaycan memarlığında dini tolerantlıq" mövzusunda konfransın və tolerantlığı əks etdirən Azərbaycan memarlıq abidələrinin fotosərgisinin keçirilməsi	il ərzində	Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası
24.	Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti nəzdində multikulturalizm problemləri üzrə institutlararası elmi tədqiqat virtual mərkəzinin təsis edilməsi, Fəlsəfə və Hüquq İnstitutunun nəzdində isə "Multikulturalizm" şöbəsinin yaradılması	il ərzində	Azərbaycan Milli Elmlər Akademiyası
25.	"Multikulturalizm ili – 2016: nailiyyətlər və perspektivlər"	dekabr	Mədəniyyət və Turizm Nazirliyi,

	mövzusunda ilin yekununa həsr olunmuş respublika konfransının və ədəbi-bədii tədbirin təşkili		Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
Azərbaycan multikulturalizmi modeli ilə bağlı beynəlxalq tədbirlər			
26.	Bakı Slavyan Universitetində "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda Ulu Öndərin anadan olmasına həsr olunmuş ənənəvi beynəlxalq konfransın keçirilməsi	may	Təhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası
27.	"Azərbaycan multikulturalizmi modeli" adlı fənnin tədris edildiyi yerli və xarici tələbələr üçün Beynəlxalq Multikulturalizm Yay və Qış məktəblərinin təşkili	mütəmadi	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi, Xarici İşlər Nazirliyi
28.	Azərbaycan multikulturalizminin tarixini öyrənmək istiqamətində Qafqaz Albaniyası ilə bağlı "Alban Apostol kilsəsi: dünənimiz və bu günümüz" mövzusunda beynəlxalq konfransın keçirilməsi	iyun	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Xarici İşlər Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
29.	V Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində "Səmavi dinlərin tarixi" layihəsinin I hissəsinə (İudaizm) aid sərginin təşkili	oktyabr	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi
30.	BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu çərçivəsində multikulturalizm mövzusunda sessiyanın təşkili və "Sivilizasiya" kitabının təqdimatının keçirilməsi	aprel	Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası
31.	"Multikultural cəmiyyət və turizm" mövzusunda Ümumdünya Turizm Təşkilatı ilə birlikdə konfransın təşkili	may	Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi

32.	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici ölkələrdə filiallarının açılması istiqamətində zəruri mənəvi dəstəyin göstərilməsi	dekabr	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi
33.	Xarici ölkə universitetlərində "Azərbaycan multikulturalizmi modeli" adlı fənnin tədrisinin davamı üçün müvafiq tədbirlərin görülməsi	mütəmadi	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi
34.	Xarici ölkələrdə işğal altında olan Azərbaycan ərazilərində tarixi-dini və mədəniyyət nümunələrinə qarşı erməni vandalizmini əks etdirən sərgilərin təşkili	il ərzində	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi
35.	İran İslam Respublikasının Təbriz şəhərində "Radikalizmlə mübarizədə İslam həmrəyliyi" devizi altında "Azərbaycan – İslam mədəniyyətinin incisi" adlı fotosərginin təşkili	iyun	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
36.	Amerika Birləşmiş Ştatlarında yəhudi icmalarının iştirakı ilə "Dinlərarası qarşılıqlı anlaşma: birgəyaşayışın modelləri" mövzusunda "dəyirmi masa"nın və "Azərbaycan – tolerantlıq diyarı" mövzusunda fotosərginin keçirilməsi	il ərzində	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi
37.	Böyük Britaniyada "Multikulturalizmin Azərbaycan modeli: Avropa üçün yeni nümunə" adlı beynəlxalq konfransın və eyni mövzuda fotosərginin təşkil edilməsi	may	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi
38.	Birləşmiş Ərəb Əmirlikləri və Qətərdə "Dini tolerantlığın qorunması və radikalizmlə mübarizədə dünya birliyinə Azərbaycanın dəstəyi" devizi altında "Azərbaycan – İslam mədəniyyətinin incisi" adlı fotosərginin keçirilməsi	oktyabr-noyabr	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Xarici İşlər Nazirliyi

39.	Avropa Şurasının Şimal-Cənub Mərkəzi ilə birlikdə Lissabon şəhərində “Avropada dini tolerantlıq və birgəyaşayış təcrübəsi: Azərbaycan modeli” mövzusunda beynəlxalq konfransın və “Azərbaycan – tolerantlıq diyarı” adlı sərginin keçirilməsi	noyabr	Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Xarici İşlər Nazirliyi
Azərbaycan multikulturalizmi modelinin təbliğinin informasiya təminatı			
40.	“Multikulturalizm” adlı jurnalın nəşri və bölgələrdə yayımının təşkili	mütəmadi	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Yaradıcılıq Fondu, yerli icra hakimiyyəti orqanları
41.	“Multikulturalizm ensiklopediyası”nın hazırlanması	2016-2017	Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
42.	Azərbaycan və dünya multikulturalizminin təbliği ilə bağlı televiziya və radio proqramlarının hazırlanması	mütəmadi	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Televiziya və Radio Verilişləri QSC
43.	“Azərbaycan multikulturalizmi” elektron kitabxanasının və veb saytının yaradılması	il ərzində	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Kitabxanası
44.	Ölkənin multikultural dəyərlərini təbliğ edən “Kultura Plyus” internet televiziyasının maddi-texniki bazasının gücləndirilməsi və peyk yayımına keçirilməsi məsələsinə baxılması	il ərzində	Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
45.	Azərbaycanda yaşayan azsaylı xalqların musiqi yaradıcılığından	aprel	Mədəniyyət və Turizm Nazirliyi,

	ibarət CD-lərin buraxılması, onların məişət və adət-ənənələrinə aid sənədli filmin xarici dillərdə hazırlanması və fotokataloqun nəşri		Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi
46.	“Multukulturalizm ili” mövzusunda sosial çarxın çəkilməsi və yayımının təşkili	aprel-dekabr	Mədəniyyət və Turizm Nazirliyi
47.	"Bakı – üç dinin şəhəri” adlı sənədli filmin istehsalının başa çatdırılması və təqdimatının keçirilməsi	il ərzində	Mədəniyyət və Turizm Nazirliyi
48.	“Bakı Prosesi” qlobal multikulturalizmə töhfədir” beynəlxalq foto və məqalə müsabiqəsinin və sənədli filmin hazırlanması (Azərbaycan və ingilis dillərində)	may-oktyabr	Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi
49.	BMT Baş Qərargahında BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun yekunlarının təqdimatı	iyun	Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi

Православной христианской общине Азербайджана

Уважаемые соотечественники!

Сердечно поздравляю вас и всю христианскую общину Азербайджана со священной Пасхой, желаю вам здоровья, счастья и благополучия.

Праздник Пасхи, который отмечается в замечательные весенние дни, является одним из знаменательных дней, вселяющих в людей прекрасное настроение и оптимизм, повышающих чувства милосердия и сострадания, служащих утверждению принципов доброжелательности и солидарности в обществе. Этот праздник широко отмечается в Азербайджане, где различные религиозные конфессии веками мирно сосуществовали в условиях взаимного доверия и спокойствия. Наши соотечественники-христиане свободно отправляют свои религиозные культы и обряды в атмосфере сформировавшейся в нашей стране этно-религиозной толерантности.

Проживающие в Азербайджане представители христианской общины, принимая активное участие в общественно-политической, экономической, культурно-духовной жизни нашей страны, вносят достойный вклад в ее всестороннее развитие. Сформировавшиеся в Азербайджанской Республике образцовые отношения между государством и религией предоставляют христианской общине, как и всем слоям общества, возможность по достоинству использовать свои религиозно-духовные ценности.

Пасха – символ спокойствия, чувств единства и равенства. Пусть этот светлый праздник подарит всем вам хорошее настроение, а вашим семьям – благополучие и радость.

С праздником!

Ильхам Алиев
Президент Азербайджанской Республики

город Баку, 28 апреля 2016 года.

Baş redaktordan

Hörmətli oxucu!

"Multikulturalizm" jurnalının ilk sayı qarşınızdadır. Bu jurnal Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Yaradıcılıq Fondunun birgə nəşridir.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması haqqında Sərəncam imzalayıb. Sərəncamda vurğulanır ki, sivilizasiyaların qovuşduğu Azərbaycan istər xalq, istərsə də dövlət səviyyəsində tolerantlıq prinsiplərinə daim sədaqət nümayiş etdirib və ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib.

Martın 11-də imzaladığı digər bir sərəncamla isə Azərbaycan Prezidenti bu ilin "Multikulturalizm ili" elan olunması ilə əlaqədar nəzərdə tutulmuş Tədbirlər Planını təsdiqlədi. Bu Sərəncamla Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan kimi müəyyənləşdirildi, Nazirlər Kabinetinə isə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırıldı.

2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması ilə bağlı qarşıya qoyulmuş tədbirlər planında "Multikulturalizm" jurnalının mütəmadi qaydada nəşri də nəzərdə tutulub. Jurnalın nəşr olunmasında məqsəd Azərbaycanda əsrlərdən bəri formalaşmış tolerantlıq ənənələrini təbliğ etmək, ölkəmizdə hökm sürən multikultural mühitə töhfə verməkdir. "Multikulturalizm" jurnalı öz fəaliyyətini Azərbaycan Prezidentinin müvafiq sərəncamlarında vurğulanmış dəyərlərin qorunub təbliğ olunması istiqamətində quracaq.

Jurnalımız müxtəlif bölmələrə ayrılıb. "Azərbaycançılıq" adlı rubrikamızda milli həyatın ahəngdarlığından, ölkəmizdə yaşayan bütün etnosların qardaşcasına dinc yanaşı yaşamaq, vahid ideologiyanın çətiri altında birləşmək ənənəsindən bəhs ediləcək.

"Çoxmədəniyyətlilik" adlandırdığımız bölmədə, adından göründüyü kimi, ölkəmizin və dünyanın multikultural mənzərəsindən fraqmentlər əks olunub, mədəni rəngarəngliyin ədəbiyyat, sənət dilində ifadəsinin şərhləri verilib.

"Terror multikulturalizmə qarşı" adlı rubrikada bəşəriyyətin bəlasına çevrilmiş terrorun etnik-milli rəngarəngliyə, multikultural dəyərlərə, tolerantlığa vurduğu zərbələrdən, xalqlar arasına düşmənçilik toxumu səpməyə çalışan ideologiyaların hansı zəmində təşəkkül tapmasından danışılacaq.

"Homo sapiens" bölməsində mədəniyyətlərin formalaşması tarixinə, sivilizasiyanın enişli-yoxuşlu yoluna işıq tutmağa çalışmışıq.

"Tariximiz, bugünümüz" adlı rubrikada niyyətimiz ta qədimdən ölkəmizin ərazisində yaşayan xalqların əsrlər boyu keçdiyi tarixi-mədəni proseslərin keçmişdən indiyə uzanan mənəvi bağlarını tapıb aşkara çıxarmaq olub.

"Höte zalı" adlı rubrikamız dünya ədəbiyyatında gedən multikultural proseslərə, bu yöndə aparılan fəlsəfi-etik-estetik mübahisələrə meydan verəcək. Rubrikanın adı təsadüfən seçilməyib; bildiyiniz kimi, ədəbiyyatşünaslığa "dünya ədəbiyyatı" anlayışını ilk dəfə böyük alman şairi gətirib.

Buna uyğun olaraq Azərbaycan ədəbiyyatına ayırdığımız bölməni də müasir ədəbiyyatımızın banisi Mirzə Fətəlinin şərəfinə "Axundov zalı" adlandırdıq. Bu rubrika

altında hər sayımızda insanlar arasında tolerant münasibətləri təbliğ edən müxtəlif bədii-publisistik örnəklərə yer verməyi planlaşdırırıq.

"Multikulturalizm"in tərəf-müqabili" adlı rubrikada tanınmış ziyalılarımızla ədəbi-estetik, mədəni-fəlsəfi problemlərə həsr olunmuş müsahibələr dərc etməyi nəzərdə tutmuşuq.

"Sönməyən ulduzlar" bölməsində həm tanınmış ədəbiyyat, incəsənət xadimlərinin, həm də sadə sənət adamlarının həyat hekayətləri barədə yazılar, onların zəfər və faciələrinin tarixçələri dərc olunacaq.

"Tənqid və esseistika", "Resenziya", "Kitab rəfi" və "Oxu zalı" kimi rubrikalar altında mədəni müxtəlifliyə, düşüncə rəngarəngliyinə, multikultural dəyərlərə həsr olunmuş kitablar təqdim ediləcək, etnik-mədəni müxtəlifliyin bədii ədəbiyyat nümunələrindəki inikası araşdırılacaq, bəşər mədəniyyətinin qaynaqlarına işıq tutan əsərlərdən parçalar dərc olunacaq.

Jurnalın "Multikulturalizm mozaikası" adlı bölməsində Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Yaradıcılıq Fondu və digər qurumların multikultural dəyərlərin, tolerantlığın təbliği, təşviqi istiqamətində gördüyü işlər, keçirdiyi tədbirlər haqqında mütəmadi məlumat vermək nəzərdə tutulur.

Nəhayət, "Region" bölməsində hər dəfə Azərbaycanın bölgələrindən birinin ədəbi mənzərəsini təqdim etməyi nəzərdə tutmuşuq. Jurnalın ilk nömrəsində respublikamızın şimal bölgəsində yaşayıb-yaradan qələm adamlarımızın yaradıcılığından nümunələrlə, konkret desək, Qubada fəaliyyət göstərən "Ay işığı" ədəbi məclisində təmsil olunan şair və yazıçıların əsərləri, eləcə də ölkəmizdə yaşayan dağ yəhudiləri icması təmsilçilərinin (həm Azərbaycan, həm də dağ yəhudilərinin dilində) və Qusar şairlərinin şeirləri ilə (həm Azərbaycan, həm də ləzgi dilində) tanış ola bilərsiniz.

Onu da deyək ki, bu rubrikaların bəzisi daimi olacaq, bəzisi də nömrədən-nömrəyə yenilənəcək. Təkcə dövlət dilimiz olan Azərbaycan dilində yox, ölkəmizdə danışılan başqa dillərdə də yazılar təqdim ediləcək. Bununla da biz müxtəlif etnik toplumlar arasındakı dil-anlaşma maneəsinin götürülməsinə, xalqların qarşılıqlı ünsiyyətinin tərcüməçilərin inhisarından çıxarılmasına çalışacağıq.

Hörmətli oxucu, "Multikulturalizm" jurnalının kollektivi yurdumuzda əsrlərdən bəri hökm sürən tolerantlıq mühiti, etnik-mədəni müxtəliflik, düşüncə rəngarəngliyi, multikultural dəyərlər barədə sizin biliklərinizi daha da zənginləşdirmək ümidi ilə işə başlayır. Xeyir-duanızı bizdən əsirgəməyin. Ünsiyyətimiz daimi olsun!



Ramiz MEHDİYEV

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, akademik

Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi

Yeni minillikdə Azərbaycan dövlətçiliyinin inkişaf fəlsəfəsini üç determinantın – milli ideyanın formalaşması, şəxsiyyətin rolunun tanınması və millətin məqsədyönlülüyünün dəstəklənməsi determinantlarının təsir dairəsində nəzərdən keçirmək lazımdır. XXI əsrdə Azərbaycanın simasını bu amillər bəri başdan müəyyən edir.

Əsas ideoloji paradiqmaların təşəkkülü tarixinə ötəri nəzər salaraq və milli ideya məkanında ehkam və dəyərlərin konvergensiyasının mümkünlüyünü nəzərdən keçirərək, onlardan hər birinin son illərdə Heydər Əliyev siyasətinin nailiyyətlərindən biri olduğunu təsdiqləyərək, indiki reallıqların təhlilinə keçək və milli Azərbaycan siyasətinin mənzərəsini yenidən canlandırmağa çalışaq.

Bu gün zəmanəmiz suallar zəmanəsi kimi təsəvvür olunur; elə suallar ki, onlara cavabı, çox güman, siyasətçilərin yeni nəsli – iqtisadiyyatın liberallaşdırılmasına yönəldilmiş siyasi xətti davam etdirməyə, onun cəmiyyət üçün məqbulluğunu təmin etməyə, ənənə və təməlləri qorumağa, cəmiyyətin qərbləşdirilməsini (vesternizasiya) uyğunlaşma imkanlarımızın səviyyəsinə çatdırmağa qadir modernistlər nəsli cavab verəcəkdir.

Alman sosioloqu Maks Veber peşə seçimi olaraq siyasətçilər və siyasət barədə düşüncələrində təkcə iradəni, ağlı, ehtirası, borc hissini, xarakteri deyil, həm də fəhmi – "reallıqların təsirinə daxili mütəşəkkilliklə və təmkinlə uyğunlaşmaq bacarığını..." siyasətçinin həlledici psixoloji keyfiyyəti sayırdı. Axı, məhz real vəziyyətə xüsusi həvəslə nüfuz etmək bacarığı dövlət idarəetmə strategiyasının işlənib hazırlanmasına və lazımi anda düzgün qərar qəbul olunmasına kömək edir.

Belə siyasətçilər həmişə öz diqqətini siyasətçinin əsas və real silahdaşı olan cəmiyyətə yönəldir və formalaşmış olan siyasi xəttin varisliyinə müsbət təsir göstərirlər. Nəticədə, yeni siyasi paradiqma, məkan, təfəkkür, mədəniyyət yarana bilər. 2003-cü ilin prezident seçkiləri nəticəsində məhz belə olmuşdur.

Ehtimal etməyə bütün əsaslar var ki, bu seçkilər milli siyasətin məkanını genişləndirir. 2003-cü ilin prezident seçkiləri əvvəlki seçkilərdən təkcə siyasi vəziyyətlə deyil, həm də ölkənin siyasi inkişaf mərhələsi ilə fərqlənir. Başqa sözlə desək, prezident seçkiləri gənc Azərbaycan demokratiyası üçün növbəti kamillik imtahanı oldu və yeni minillikdə Azərbaycanın necə bir dövlət olacağının bünövrəsini qoydu.

Yeni dövr başlanır, amma necə bir dövr? Bu suala Heydər Əliyevin son illər ərzində ölkədə yaratdığı siyasi və iqtisadi vəziyyət cavab verir. Öz mahiyyəti etibarilə yeni dövr cəmiyyətin inkişafının maraqlarına və tələblərinə uyğun olmayan, milli siyasi məkanı məhdudlaşdıran yolu inkar edir. Eyni zamanda bu dövr ölkənin gələcək inkişaf istiqamətlərini də müəyyənləşdirir.

Ölkənin siyasi inkişafının 2003-cü ildəki mərhələsi göstərir ki, siyasi hakimiyyət, resurslar və statuslar uğrunda mübarizə həmişəkindən daha kəskin xarakter almışdır. Seçkiqabağı kampaniyada iştirak müxalifətin bir çox xadimləri üçün özlərinin cəmiyyətdəki mövqelərini qoruyub saxlamaq və ya yaxşılaşdırmaq məqsədi deyil, partiyada tam hakimiyyət uğrunda və öz siyasi gələcəyi uğrunda amansız çarpışmadan duruş gətirmək məqsədi daşımışdır.

Lakin həmin xadimlər bu mübarizədə yalnız bircə faktı təsdiqlədilər ki, onlar istər dünyada gedən siyasi proseslərin, istərsə də öz ölkəsinin və xalqının mənafelərinin mahiyyətini anlaya və dərk edə bilməyərək, tarixi prosesdən kənarda qalmışlar.

Bizə elə gəlir ki, qüvvələrin sınaq dövrü sona yetmişdir. İndi ölkənin siyasi quruluşunu təkmilləşdirməkdən, yeni şəraitə uyğun gələn milli ideologiya hazırlamaqdan, iqtisadiyyatı modernləşdirməyin səmərəli yollarının axtarışından, habelə şəxsiyyətin və dövlətin mənafelərinə cavab verən siyasətin işlənib hazırlanması və həyata keçirilməsindən söhbət gedir.

Bu baxımdan milli ideologiya sağlam vətənpərvərlik, Vətənə məhəbbət hissi kimi öz torpağına hörmət, doğma xalqının özünəməxsus keçmişə malik olmaq və üzvi şəkildə inkişaf etmək hüquqlarını tanımaq kimi təsəvvürə gətirilir. Tarixi yaddaş konyunkturaya müvafiq surətdə yenidən formalaşdırılması mümkün olan ölü material deyildir, əksinə, öz kökləri ilə güclü, öz təzahürlərində bənzərsiz və öz imkanlarında qüdrətli olan canlı orqanizmdir.

Cəmiyyət insan şəxsiyyətinin inkişafını təmin edən, adamlarda mənlik və ləyaqət, haqq-ədalət, qanuna hörmət hissləri doğuran biliklər sisteminin zəruriliyinə daim ehtiyac duyur. Belə sistemi yalnız keçmiş və bu gün barədə dərindən fikirləşmək, gələcək üçün proqnozlar vermək sayəsində qurmaq olar. Bundan ötrü fikir, hisslər, intuisiya və sair xüsusiyyətlərin sintezi gərəkdir. Mənəviyyatla birləşməyən bilik təhlükəli ola bilər.

Ötən illərin tarixi təcrübəsi göstərmişdir ki, cəmiyyətdə canlı və anlaşıqlı ideya olmadıqda, dövlətin və millətin siyasi, iqtisadi və mənəvi inkişafının əsas-

ları sayılan ideoloji oriyentirlər olmadıqda hökmən boşluq yaranır və o, müxtəlif və çox vaxt bir-birinə zidd, ənənəvi sosial-mədəni normalarla vəhdət təşkil etməyən siyasi nəzəriyyə və ideologiyaların qarışığı ilə dolur. Bu, dövlətçiliyin formalaşması prosesinə və millətin simasına mütləq təsir göstərir.

1991-1993-cü illərin praktikası göstərdi ki, dövləti kortəbii, situativ şəkildə idarə etməyə, ictimai şüuru zorakılıqla ideologiyasızlaşdırmağa can atmaq nəyə gətirib çıxara bilər. Odur ki, ideoloji sistemi cəmiyyəti mənən dirçəltməyə, onun yaradıcılıq potensialını gücləndirməyə, ictimai şüuru uğurlu dövlət quruculuğunun başlıca amilinə çevirməyə qadir struktur kimi qurmaq niyyəti Heydər Əliyev siyasətinin əsası olmuşdur. Cəmiyyət-dövlət sistemində insanın yeri və rolu barədə biliklərin məcmusu kimi, milli mənafelərin daxili və xarici siyasət meydanında həyata keçirilməsinin çox mühüm mexanizmi kimi milli ideologiya yeni zəmanənin prioritetinə çevrilmişdir.

"Azərbaycançılıq" anlayışı milli siyasi diskursda nisbətən yaxın vaxtlardan işlədilir. O, ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının verballaşdırılması kimi, 1992-1993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlmişdir. Yeni anlayış ictimaiyyət tərəfindən kifayət qədər tez dəstəklənmiş, təzə, məzmunlu elementlərlə dolğunlaşmışdır. Düşünürük ki, indi "azərbaycançılıq" artıq milli ideologiyanın ilk nümunəsi hesab edilə bilər.

Elmi nəşrlərdə ideologiya sosial qrupların və ya bütün cəmiyyətin mənafelərini ifadə edən, sosial reallığı bu mənafelər prizmasından izah edən və əməli fəaliyyət direktivləri olan nəzəriyyələr, ideyalar və məlumatlar sistemi kimi müəyyənləşdirir. İdeologiya anlayışının şərhi dəfələrlə dəyişmişdir. İndi ideologiyaya cəmiyyətin mənəvi həyatının fenomeni, ictimai şüurun spesifik səviyyəsi kimi baxılır.

İdeoloji düşüncənin spesifikası onun dəyər yönümlülüyü olub sosial gerçəkliyin, ictimai qaydaların, dövlət quruluşunun və sairin qiymətləndirilməsini əhatə edir. İdeologiya mühüm sosial funksiyaları yerinə yetirir: mövcud reallıqlara haqq qazandırır və yaxud inkar edir, insanların fərdi və ya kollektiv davranışı amili kimi çıxış edir, sosial fəaliyyət proqramlarının hazırlanmasına kömək edir.

Deyilənləri nəzərə alaraq təsdiq edə bilərik ki, özünün bütün tərkib hissələri ilə birlikdə azərbaycançılığı tamamilə milli ideologiyanın konkret, spesifik forması hesab etmək olar. Azərbaycançılıq ideyası bir neçə nisbətən müstəqil təhlil cəhəti üzrə nəzərdən keçirilə bilər:

- əsasən antropologiya (etnologiya), etnoqrafiya, sosial psixologiya, linqvistika çərçivəsində nəzərdən keçirilən etnomədəni cəhət;
- sosiologiyanın, politologiyanın və digər cəmiyyətşünaslıq elmlərinin köməyi ilə açılan sosial-siyasi cəhət;
- beynəlxalq siyasət və hüquq sahəsində və digər sahələrdə kompleks elmi fənlər vasitəsilə işlənib hazırlanan geosiyasi cəhət.

Lakin başlıcası odur ki, – bunu xüsusi vurğulamaq istərdik, – araşdırılan problemin təkcə bir cəhəti çərçivəsində qapanıb qalmaq olmaz, çünki bu halda biz ölkədə yaşayan bütün etnosların həmrəyliyinin, sabit, tarixən perspektivli cəmiyyətin şərti kimi onların qarşılıqlı fəaliyyətinin əsası kimi azərbaycançılıq ideyasını sadəcə olaraq köklü surətdə əhatə edə bilmərik. Məruz qaldığı bütün sınaqlara baxmayaraq, milli dövlət ideologiyası kimi azərbaycançılıq bu gün bizim qarşımızda dəqiq ifadə edilmiş ideya kimi durur. Onun ümumi tarixlə, onlarca millətin və etnik qrupun bir ərazidə birgə yaşayış təcrübəsi, onların psixoloji xüsusiyyətlərinin yaxınlığı, ümumi mental xarakteristikaları ilə şərtlənən öz bölgüsü var.

İdeologiya olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və bunların da mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir.

Azərbaycançılıq müstəqil və bənzərsiz Azərbaycanı sivilizasiyalı dövlətlər sırasına çıxaracaq bir yoldur. Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir. Bu, ilk növbədə, real müstəqilliyə nail olmağın, vahid və bölünməz Azərbaycanın qorunub saxlanması və möhkəmləndirilməsinin siyasi əsasıdır.

Bu gün azərbaycançılıq milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir.

Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil edir.

Bu deyilənlərdən görünür ki, ideya-nəzəri və siyasi baxımdan azərbaycançılıq və neokonservatizm bir-biri ilə sıx bağlıdır. Zənnimizcə, azərbaycançılıq coğrafi məkan baxımından neokonservatizmin milli variantı, onun prinsip və ideyalarının Azərbaycanın konkret şəraitində təcəssümüdür.

Metodoloji prinsip baxımından – ümuminin və xüsusinin, yəni birincinin və ikincinin nisbəti baxımından azərbaycançılıq ikinci kimi çıxış edir. Azərbaycançılıq və neokonservatizm bir-birini zənginləşdirərək vahid tam kimi çıxış edir. Buna görə də azərbaycançılığın milli ideologiya kimi qəbul edilməsi ölkəmizin sivilizasiyalı dövlətlər sırasına daxil olması, ümumdünya oriyentirləri və meyilləri kontekstində daha uğurlu inkişafı üçün möhkəm zəmin yaradır.

Neokonservatizm və azərbaycançılıq öz ləyaqətini itirməmiş xalqın sağlam düşüncəsinə, zəkasına eyni dərəcədə söykənir. Bu mənada vətənpərvərlik

öz vətəninə, ölkəsinə, xalqına məhəbbət deməkdir və onun şovinizm ilə, milli müstəsnalıq və etnoeqoizm ilə heç bir əlaqəsi yoxdur.

Əsrlərin, minilliklərin dərinliklərindən gələn ənənəyə mənsubluq bizim mədəniyyətimiz kimi qədim mədəniyyət üçün dövlətçiliyin əsasını, bütün vətəndaşların rifahı naminə dövlətin mövcudluğunun və inkişafının əsasını təşkil edir. Məhz buna görə zəngin keçmişi olan dövlət fərdi və ya qrup mənafelərinin mexaniki məcmusunun ifadəsi deyildir, əksinə, bütün cəmiyyətin ali mənafelərinin təcəssümüdür. O mənafelərin ki, vətəndaş onların naminə təkcə öz mülkiyyətini deyil, həm də həyatını qurban verməyi bacarmalıdır.

"Vətən, onun tarixi, dili və adət-ənənələri olmadan mən bir heç olardım" fikrini dərk edən fərd vətəndaşa çevrilir, çünki başa düşür ki, "vətənə olan təhlükə şəxsən mənə də, yəni mənim firavanlığıma və hətta həyatıma olan təhlükədir". Məhz bu şəkildə milli ideologiya ilə aşılanmış vətəndaşlıq dövlətin öz tərəqqisini, təhlükəsizliyini, ərazi bütövlüyünü, nəsillərin və milli ruhun varisliyini təmin etmək səylərinin əsas amilinə çevrilir.

Tarixi inkişafın mənasını, intellektual fenomeni və mədəni irsi özündə birləşdirən azərbaycançılığı bu gün belə təsəvvür edirik. Belə ideologiya millətin birliyinə, onun ruhunun əzəmətinə və sosiumun fəaliyyətinin məqsədyönlülüyünə çalışaraq gələcəyə körpümüz olmağa qadirdir.

Prezident Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının birinci qurultayında dövlətin siyasətini səciyyələndirərkən onun prioritet hissəsini nəzərə çatdırmışdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Dövlət siyasətinin strategiyası olan azərbaycançılıq dolğun ideologiyanın bütün keyfiyyətlərini qazanır, Azərbaycan xalqının bugünü və gələcəyinin qavranılması və qiymətləndirilməsini müəyyən edir. Xalqın həyatının təşkilinin ali forması, fundamental antropoloji təsisat dövlətdir. Məhz buna görə də dövlətçilikdən məhrum olmuş xalqlar dünya tarixinin səhnəsindən silinmişlər.

Xalqın öz dövlətçiliyinə münasibəti barədə rəylərin dairəsi kifayət qədər genişdir və öz dövlətçiliyinə görə qürur hissindən və dövlət atributlarına çox böyük hörmətdən tutmuş, "xalqın öz hökumətlərini tənqid etməsindən xoşu gəlir" kimi bizim günlərədək mənasını itirməyən qədim Roma deyiminədək ən müxtəlif variantlarda özünü göstərir.

Bəzi tədqiqatçılar milli dövlət ideyasını beynəlxalq münasibətlərin hakim konsepsiyasına qurban verərək bu ideyanı tarixin arxivinə göndərməyə nə qədər tələssələr də, əslində, biz milli dövlət modelinin müəyyən modifikasiyası ilə qarşılaşırıq. Hər bir dövlətin hər bir vətəndaşına aydın olmalıdır ki, beynəlxalq münasibətlərin təşəkkül tapmış müasir sisteminin əsasını suveren dövlətlər təşkil edir.

Milli dövlət öz suverenliyini qorumağa, milli rifahın maksimum səviyyəyə çatmasına nail olmağa çalışır və s. Məhz belə qavrama prizmasından yanaşaraq vurğulamaq lazımdır ki, müasir Azərbaycan dövləti öz vətəndaşlarının

təhlükəsizliyini təmin etməyə və onların sosial rifahına təminat verməyə qadirdir.

Dünyanı öz gözləri ilə görməyə çalışan hər bir insan təkcə milli ənənəyə deyil, həm də dünya sivilizasiyasına mənsub olduğunu dərk etməlidir. Ailə, soy, icma, etnos, dil birliyi həyatımıza təbii surətdə daxil olmuş kateqoriyalardır. Lakin daha yüksək, mücərrəd səpkili, yəni millətin fövqündə duran və onun dünyagörüşünün formalaşmasında fəal iştirak edən dəyərlər var.

Bu, milli ideya, milli ideologiyadır ki, onların təsiri nəticəsində dünya tarixi və siyasətinin müəyyənləşdirdiyi məkanda millətlər və dövlətlər yaranır, inkişaf edir, yaşayır, öz nadirliyini qoruyub saxlayırlar. Bu məkanın özünü sivilizasiya telləri birləşdirir və bunlar bir regionun xalqları və dövlətlərinin milli xüsusiyyətlərini inkar etməyərək və kiçiltməyərək onların yanaşı yaşamasını və əməkdaşlığını mümkün edir.

Azərbaycan Avropa ilə Asiyanın qovuşuğunda yerləşən ölkədir. Bizim sivilizasiyamız əsasən iki güclü qüvvənin təsiri altında formalaşmışdır: Şərq təməli və Qərb təsiri. Məlumdur ki, xalqın ictimai-tarixi inkişafının başlıca istiqamətlərini, onun xarakterini, dünya siyasi meydanında davranışını ən çox coğrafi determinizm amili müəyyən edir. Mütəfəkkirlərin bir çoxu coğrafi mühiti siyasi həyat, dövlət quruluşu formalarının və milli varlığın digər formalarının determinantı kimi qiymətləndirir. Biz bu tədqiqatımız çərçivəsində milli ideologiya kimi azərbaycançılığın mahiyyətini təhlil etməyi qarşımıza məqsəd qoymuruq. İndi bu ideologiya dövlətçiliyimizin bir hissəsidir.

Hegelin belə bir dahiyanə kəlamını xatırlamaq kifayətdir: "Xalqın dövlət quruluşu onun dini, onun incəsənəti və fəlsəfəsi ilə, yaxud heç olmasa onun təsəvvürləri və fikirləri ilə, ümumiyyətlə, onun mədəniyyəti ilə birlikdə vahid substansiyanı, vahid ruhu əmələ gətirir. Dövlət fərdiləşmiş bütöv deməkdir, bu bütövdən onun ən yüksək dərəcəli əhəmiyyətli bir tərəfini də ayırmaq olmaz".

Dərk etmək lazımdır ki, biz keçid iqtisadi sistemi olan, vətəndaş cəmiyyəti təsisatlarının formalaşdığı tranzitar cəmiyyətdə yaşayırıq və Ermənistanla müharibə vəziyyətindəyik. Belə bir şəraitdə azərbaycançılıq inteqrativ ideoloji sistem kimi, "milli ideya" forması kimi təsəvvür edilir. Bu ideyanın əsasında sivilizasiyalı Avrasiya birliyinin bir hissəsi – özünəməxsus milli özgünlüyə, ənənəyə, milli eyniyyətə və mentalitetə malik Azərbaycan haqqında təsəvvür dayanır.

Tarixi inkişafın gedişində inteqrasiya olunan və formasını dəyişən "milli ideya" dövlət quruculuğu prosesində həmişə mühüm yaradıcı rol oynamışdır. Hələ qədim romalıların imperiya istilaları prosesində formalaşmış öz "milli-dövlət" ideyası vardı: "Qoy başqaları metalı yumşaq və mərməri canlı etsinlər və mahir əllərindəki tişələrlə heykəllər yonsunlar: ey romalı, onlar bunu səndən yaxşı bacarırlar! Sən isə bir şeyi – dövlətinlə xalqları idarə etməyi, təkəbbürləri bağışlamağı və devirməyi yadında saxla". Tarixin dönüş məqamlarında milli ideya çox vaxt millətin və dövlətin inkişafının yeni istiqamətini müəyyən etmişdir.

Biz "yenidən ideologiyalaşdırmaya və ideologiyasızlaşdırmaya" çağırışlar dövrünü yaşayaraq ideologiya barəsində elə bir konstruktiv baxışa gəlib çıxmışıq ki, indi ideologiyanı obyektiv surətdə zəruri və müsbət hal kimi, siyasi vəzifələrin həlli üçün lazımi vasitə kimi, ölkəni modernləşdirmək üçün çox mühüm milli resurs kimi qavrayırıq. Bununla yanaşı, azərbaycançılıq bizim üçün, ilk növbədə, cəmiyyətimizdəki dəyərlərin elə bir sistemidir ki, o, ayrıca bir vətəndaşın həyatını ali ümummilli və ümumbəşəri dəyərlər dünyasına qovuşdurmaq üçün çox böyük əhəmiyyətə malikdir.

Azərbaycançılığın məzmunca mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir. Azərbaycançılıq keçmiş tarixi dövrlərin mifologiyasını, mədəni kodlarını və rəmzlərini mənimsəyərək onlardan yeni ideyaları əsaslandırmaq və milli dövlətin inkişafının yeni vektorunu müəyyənləşdirmək üçün istifadə edir. İndi o, cəmiyyətimizdə ən qurucu və dinamik qüvvədir.

Azərbaycançılığın gücü həm də bundadır ki, o, fərdi maraqları və meylləri dövlətin siyasəti ilə birləşdirməyə və xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamağa qadirdir. Təbii ki, milli birliyə mənsubluq hissi həyatın özünə də məna verir və onun əhəmiyyətini müəyyən edir, qarşılıqlı məsuliyyət və ümumi işə bağlılıq hissini gücləndirir, tənhalıq və qəriblik hissini aradan qaldırmağa kömək göstərir. Bu ideologiya Azərbaycanda vahid cəmiyyət, vahid xalq formalaşdırır.

Deyilənləri nəzərə alaraq Qərb tədqiqatçılarının belə bir fikrini müəyyən dərəcədə başa düşmək olar ki, insan "dərin köksalma və demək olar ki, tayfa mənsubiyyəti duyğuları doğuran tarixi ənənələrin mövcudluğu şəraitində özünü müdafiə olunmuş hiss edə bilər".

Onu da nəzərə almaq lazımdır ki, cəmiyyətin modernləşməsi, kosmopolitləşməsi, simasızlaşması və buna müvafiq olaraq öz kökündən qopmaq meylləri gücləndikcə bu tələbat nəinki azalmır, hətta müəyyən şəraitdə qat-qat artır. Belə vəziyyətdə məhz dövlət – insan birliyinin bu özünütəşkil forması bir çox sosial fenomenlərin formalaşması və institusionallaşmasının amilinə çevrilir.

"Mən – sivilizasiya" anlayışının inikası kimi azərbaycançılıq hər kəsin hüquq və azadlıqlarının təmin olunduğu siyasi və dövlət quruluşunun milli mahiyyətinə, inkişaf strategiyasına, formasına etnosiyasi baxış kimi çıxış edir. Azərbaycançılıq cəmiyyətin normativ dəyərlərinin vəhdətinə – dövlət hüquq düşüncəsinin, əmək və işgüzar etika tərbiyəsinə, mənəvi dəyərlərə qovuşmağa səmtlənir və beləliklə də növbəti dəfə neokonservatizmlə çuğlaşır.

Azərbaycançılıq güclü dövlət hakimiyyətinin və möhkəm milli intizamın, milli maraqların və milli özünüdərkin olmasını istəyir. O, ən müxtəlif sosial təbəqələrdə həmrəylik axtarır, daimi, lakin mötədil, millətin və dövlətin real imkanlarından irəli gələn reformizmi təbliğ edir.

Azərbaycançılıq ideyasının dərk olunmasının əsasında Azərbaycan millətinin tarixi, mənəvi-əxlaqi və mədəni ənənələri zəminində birlik ideyası durur və bu, nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların təkcə bir yox, bir

çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik və milli eyniyyət həmin nəsillər üçün layiqli həyatının və şəxsi azadlığının ayrılmaz atributlarına çevriləcəkdir.

Bu gün biz Azərbaycanda milli ideologiyanın formalaşmasının şahidiyik. Xalqın məhz çox böyük potensial ehtiyatlarının və ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadir siyasi elitanın olması onu göstərir ki, neokonservatizmin milli forması kimi azərbaycançılıq Azərbaycan dövlətçiliyi tarixinin yaxın gələcəyi ərzində milli ideologiyanın əsası olaraq qalacaqdır.



Акиф АЛИЗАДЕ

Президент Национальной академии наук Азербайджана, академик

Точная идеологическая цель – мультикультурализм

Пример Азербайджана свидетельствует, что мультикультурализм живет. Несмотря на то, что некоторые политики утверждают, что мультикультурализм потерпел крах. Может быть, где-то и потерпел крах, но в Азербайджане он живет, эти тенденции, идеи усиливаются, получают все большую поддержку со стороны общественности. Мы будем идти по этому пути. Таким образом, нынешний год в Азербайджане объявляется «Годом мультикультурализма».

Ильхам Алиев

Мультикультурализм является образом жизни азербайджанского народа, который испокон веков превратил принципы толерантности, терпимости и уважения к другим религиям и культурам в образ своей жизни. Неслучайно Президент Ильхам Алиев объявил 2016-й год «Годом мультикультурализма» в Азербайджане, что основано на глубоких исторических корнях. Учитывая, что в современном понятии мультикультурализм как один из аспектов толерантности предусматривает параллельное существование различных культур, их взаимопроникновение и взаимообогащение, мы можем утверждать, что решение главы государства является достойным ответом Азербайджана происходящим в мире сложным процессам, столкновениям на расовой, религиозной или национальной почве.

Согласно заключениям ведущих социологов мира, идея мультикультурализма выдвигается, в основном, в экономически развитых странах Запада, столкнувшихся с современными проблемами. События, происходящие в настоящее время в Европе, еще раз показывают, что, хотя ученые континента и дали довольно правдивую оценку происходящему с научной точки зрения, сами государства и общества оказались не в состоянии адекватно ответить призывам истории и не всегда согласны с мнением своих же ученых. С этой точки зрения Азербайджан обладает уникальным опытом, который наш народ накопил задолго до появления самого слова «мультикультурализм». Чтобы обосновать эту мысль, достаточно обратиться к материалам Кавказской археологической экспедиции, которая была организована в XIX веке при Российской академии наук под руководством Адольфа Берже.

Из статистических данных экспедиции очевидно, что в середине XIX века Баку был малонаселенным моноэтническим городом. В конце века значительное увеличение нефтедобычи на Апшероне, выход бакинской нефти на мировой рынок, развитие областей промышленности, открытие заводов, фабрик, банков, прокладка железной дороги Баку — Тифлис привели также и к массовому притоку рабочей силы из-за рубежа. В те годы люди, стекающиеся в Баку как из отдельных регионов соседних Ирана и России, так и из различных стран Европы, обрели на берегах Каспийского моря не только рабочие места, но и свою вторую родину.

Примечательно, что в то время как в большинстве стран евреям отводились специальные кварталы – гетто, в Баку никогда не делалось подобных различий. Такие кварталы до сих пор существуют в столицах Европы. Кварталы, в которых проживают, в том числе и мигранты, прибывающие из Ближнего Востока, считаются постоянной угрозой для общественного порядка, и трагические террористические акты, произошедшие в последнее время в Париже и в Брюсселе, являются доказательством этого. Подобные кварталы есть не только в Европе, но и в священном для трех религий городе Иерусалим. Когда два года назад по приглашению Израильской академии наук я побывал в этом городе, то сам стал свидетелем этого, посетив квартал, в котором проживают ортодоксальные евреи. А ведь сейчас не XIX столетие, мы живем в XXI веке.

У каждой медали есть две стороны, и в случае с притоком в Азербайджан людей различных национальностей оборотная сторона этого процесса привела к освоению нашим народом западной культуры. Отечественная научная мысль обогатилась достижениями европейской науки, появились талантливые изобретатели, среди которых достаточно вспомнить Муртузу Мухтарова. В течение короткого исторического времени в Азербайджане возник сильный научный потенциал, синтез западной и восточной культур проявился больше всего в последующем развитии искусства, впервые на мусульманском Востоке у нас была создана опера,

возникли профессиональные школы изобразительного искусства, музыки, архитектуры.

В отличие от отношения современного Запада к мигрантам, наш народ в то время принял людей, обратившихся к нему, такими, как они есть и создал все условия для сохранения ими своей культуры, религии, языка. Наглядным примером этого являются возведенные в тот период в Баку, Гяндже, Хачмазе, Шамкире и других городах республики храмы, относящиеся к различным религиям, которые и сегодня охраняются и реставрируются государством. Все это доказывает, что здоровое мышление не может возникнуть искусственно, смысл каждого события следует искать в менталитете личности или целого народа. Накопленный нашим народом редкий опыт дал возможность общенациональному лидеру Гейдару Алиеву объявить толерантность и мультикультурализм государственной стратегией Азербайджана, обретшего в конце XX века свою независимость, и эта политика успешно осуществляется Президентом Ильхамом Алиевым, объявившим 2016 год «Годом мультикультурализма».

В документе, принятом президентом Ильхамом Алиевым с целью сохранения в Азербайджане традиций мультикультурализма, еще большего их развития и широкой пропаганды, говорится: «Азербайджан, расположенный на историческом Шелковом пути, являлся местом пересечения различных цивилизаций, формировавшейся на протяжении веков атмосферы национально-культурного разнообразия, был известен как край, в котором мирно, спокойно и в условиях взаимопонимания и диалога проживали представители отдельных народов и конфессий. В нашей стране мультикультурализм превратился в безальтернативный образ жизни. Создание в Баку Международного центра мультикультурализма является наглядным примером того, что осуществляемая сегодня в республике политика остается верной принципам толерантности».

В документе нашли отражение конкретные поручения, данные ряду организаций и учреждений, в том числе и Национальной академии наук Азербайджана. Академия, отечественные ученые не отделяют эти поручения от контекста речи, произнесенной главой государства, Ильхамом Алиевым 9 ноября прошлого года на Общем собрании, посвященном 70-летию Национальной академии наук, воспринимают их как логическое продолжение ее положений и считают программой дальнейших действий.

В своей речи Президент Азербайджана поделился некоторыми мыслями о дальнейшем развитии нашей страны и роли ученых в этом развитии, особо подчеркнув, что мир переживает новый период: «Каждый гражданин видит, что и в регионе, и в мире развитие, к сожалению, идет не в положительном направлении. Возникают новые угрозы, опасности, риски, противостояния, войны. К сожалению, при прогнозировании будущего никаких оснований для оптимизма нет. В таких условиях каждая страна, конечно, должна рассчитывать, в первую очередь, на внутренние ресурсы, в еще большей степени обеспечивать свою безопасность, в период пере-

живаемого в мире финансового и экономического кризиса вносить определенные коррективы в свою экономическую модель. Вот уже много лет Азербайджан, проводя независимую политику, осуществляет независимую деятельность и в политической, и в экономической сферах, и в области международных отношений. Наша деятельность построена на национальных интересах народа. Это главное условие для нас, главная задача, и все наши усилия служат данной цели. Разумеется, наблюдая за процессами, происходящими в мире и регионе, мы должны стараться, насколько это возможно, свести до минимума риски для нашей страны, и мы добиваемся этого. Сегодня в пылающем регионе Азербайджан является островом стабильности, пространством мира и спокойствия. Граждане Азербайджана живут и творят в условиях спокойствия. Уверен, что в результате принимаемых мер и мер, которые будут приняты, эта позитивная динамика, позитивная атмосфера в Азербайджане еще более усилятся».

Значение, которое в нашей стране на самом высоком уровне придается идеологии мультикультурализма, нацеленного на сохранение и еще большее развитие культурного разнообразия, нашло свое утверждение также в учреждении должности Государственного советника Азербайджанской Республики по межнациональным вопросам, вопросам мультикультурализма и религии. Назначение на эту высокую должность видного ученого, действительного члена НАНА Кямала Абдуллаева, несомненно, является показателем высокого доверия отечественной науке в целом.

Для сохранения и еще большего усиления мультикультуральных традиций, их защиты от различных и нередко отрицательных процессов необходимо, в первую очередь, постоянно укреплять их фундамент. Моральным долгом каждого из нас является обращение к наследию общенационального лидера Гейдара Алиева, который заложил основу мультикультуральной политики нашего независимого государства.

Учитывая все вышеизложенное, Национальной академии наук поручено совместно с прочими учреждениями организовать среди студентов высших и средних специальных учебных заведений и интеллектуальные соревнования на тему «Политика Гейдара Алиева в свете ценностей мультикультурализма и толерантности». Поручение стало также возможным в результате проведения, начиная с прошлого года в соответствии с постановлением Президиума НАНА, комплексных мероприятий по организации магистратуры в Академии и осуществления соответствующих работ. Если впервые в прошлом году в магистратуру НАНА были приняты девятнадцать человек по семи специальностям, то в этом году объявлен прием на шестьдесят три места по двадцати одной специальности. При этом, если учесть, что в этом году в Академии по подготовке докторов философии было выделено девяносто три, а по подготовке докторов наук – сорок одно место, можно считать, что заложена основа беспрерывного процесса подготовки ученых будущего, который, благодаря соответствующим постановлениям главы государства, сложился в единую систему.

Еще одним поручением является разработка и издание учебника «Азербайджанский мультикультурализм». Потребность в подготовке подобного учебника чувствовалась давно. В прошлом году по линии Бакинского международного центра мультикультурализма в Бакинском славянском университете была создана Кафедра мультикультурализма, постоянно функционирует Международная летняя школа «Мультикультурализм как образ жизни в Азербайджане: изучай, исследуй и делись», с целью пропаганды ценностей мультикультурализма и толерантности нашего народа в ряде ведущих стран мира открыты филиалы Международного центра мультикультурализма.

Уместно отметить, что 10 марта в Национальной академии наук состоялась презентация книги «Литературно-художественные истоки азербайджанского мультикультурализма», подготовленной и изданной Бакинским международным центром мультикультурализма.

На мероприятии было особо отмечено, что Распоряжение об объявлении 2016 года «Годом мультикультурализма» в Азербайджане определило исторические и национальные ценности азербайджанской модели мультикультурализма, что применение этой модели обязательно принесет ожидаемые результаты для установления мира во всем мире. Книга была высоко оценена учеными, было подчеркнуто, что труд является ценным источником, отмечено, что в книге приведены памятники фольклора и образцы письменной литературы, созданной с древних времен и до начала XX века, в ней нашли отражение призывы и высказывания выдающихся мыслителей о совместном проживании людей, диалоге, взаимном доверии, уважении, солидарности. Также было особо подчеркнуто, что азербайджанская литература, опирающаяся на мультикультуральные ценности, на протяжении веков занимала гуманистическую позицию, являлась глашатаем человеколюбия, справедливости, пропагандировала идеи единства и равенства. Вообще мероприятия, посвященные азербайджанской модели мультикультурализма, проводимые в Академии, носят постоянный характер.

Я бы хотел рассказать читателям о недавно проведенном в Национальном музее истории Азербайджана НАНА мероприятии «Идеи толерантности и мультикультурализма в истории литературной мысли Азербайджана», на котором говорилось об идеях мультикультурализма, нашедших свое отражение в нашем литературном памятнике – эпосе «Китаби Деде Горгуд», произведениях Низами, Физули, Насими и других выдающихся представителей отечественной литературы. При этом выступающие опирались на образцы, приведенные в упомянутых произведениях, отмечали, что в эпосе и в нашем литературном наследии в целом пропагандируются идеи поликонфессиональности – Ислама, христианства и прочих религий, что мультикультурализм, являющийся гуманистической и демократической идеологией, является олицетворением толерантности.

Институты и организации Академии уже начали выполнять поручения, отраженные в третьем пункте Распоряжения – проводить республиканские и международные научно-теоретические, научно-практические конференции, семинары, «круглые столы», лекции, литературно-художественные собрания, посвященные культурному разнообразию, толерантности и роли межкультурного диалога в решении конфликтов, азербайджанской модели мультикультурализма. С этой точки зрения я хотел бы вспомнить Международную научную конференцию «Мусульманское просветительство и современность», проведенную Национальной академией наук совместно с Управлением мусульман Кавказа в Баку в апреле прошлого года. В конференции приняли участие послы мусульманских стран в Азербайджане, теологи, ученые, зарубежные специалисты, которые отметили, в какой степени азербайджанская модель мультикультурализма является образцом для мира в нынешнее сложное время. Следует также отметить, что, в отличие от прошлых лет, согласно соответствующему решению Президиума НАНА, в институтах Академии пишутся и защищаются диссертационные работы, посвященные актуальным темам теологической науки, что можно считать достойным вкладом азербайджанской науки в развитие наших мультикультуральных ценностей.

План мероприятий, утвержденный Президентом Азербайджанской Республики, также предусматривает проведение в средних общеобразовательных и средних специальных учебных заведениях семинаров, посвященных навыкам и знаниям межкультурной коммуникации, и организацию массовых лекций на тему «Мультикультурализм в Азербайджане». Здесь я должен отметить, что в научных учреждениях НАНА для школьников проводятся Дни открытых дверей. В этих мероприятиях активно участвуют и члены Совета молодых ученых, и специалисты Академии. Пропаганда научных достижений, повышение интереса к науке среди подростков – эти вопросы всегда находятся в центре внимания руководства НАНА. С этой целью в Президиуме был создан специальный отдел, в 2014 году впервые в Азербайджане и второй раз на постсоветском пространстве после России в Баку был проведен Фестиваль науки. Учитывая интерес общества к фестивалю, было решено, что в этом году праздник науки будет проведен не только в Баку, но и за его пределами – в Гяндже, Сумгайыте, Нахчыване и Лянкяране.

Одним из наших мероприятий, привлекающих внимание молодого поколения, является выставка, постоянно действующая в основном здании НАНА. С экспозицией, отражающей научные достижения, уже ознакомились учащиеся ряда школ республики. У стендов, демонстрирующих результаты, полученные в научно-исследовательских учреждениях, гостей встречают директора институтов и известные ученые, которые проводят интересные экскурсии. Несомненно, что в соответствии с объявлением в стране «Года мультикультурализма» выставка станет дополнительным

средством для ознакомления молодежи с нашими мультикультуральными ценностями.

Хочу рассказать читателям еще о двух наших проектах – Доме ученых и Музее истории науки. Уже определены места, где будут функционировать эти два новых учреждения, разрабатывается тематико-экспозиционный план музея.

Многочисленные издания Национальной академии – газета «Элм» («Наука»), журнал «Наука и жизнь», сборник «Известия НАНА» и другие, постоянно держат в центре внимания тему мультикультурализма, публикуют научно-публицистические статьи, институты и организации Академии проводят конкурсы, публикуют сборники статей.

Сегодня география азербайджанской науки охватывает почти все регионы страны, сквозь призму науки проходят как природные богатства, находящиеся под землей и на дне Каспийского моря, так и исторические памятники на территории страны. Они становятся целью жизни десятков, сотен ученых и служат нашему народу в виде результатов научных исследований. Благодаря самоотверженному труду ученых почти о каждом движимом и недвижимом памятнике, возведенном нашими предками на протяжении веков, написаны даже не книги, а целые библиотеки. Поэтому проведение в Государственном историко-архитектурном заповеднике «Храм огнепоклонников» в рамках Международного дня охраны памятников и исторических мест конференций «Религиозная толерантность в архитектуре Азербайджана», «Албанская апостольская церковь: вчера и сегодня» и прочих мероприятий, посвященных теме толерантности, будет логическим продолжением работы, постоянно проводимой Академией, ее соответствующими институтами и организациями.

Должен также отметить, что на одном из первых заседаний Президиума, проведенных в этом году, были обсуждены вопросы исполнения Распоряжения Президента Ильхама Алиева об объявлении «Года мультикультурализма». На том заседании с участием ведущих ученых республики были определены пути решения важных задач, поставленных главой государства как перед различными научно-педагогическими, общественно-политическими учреждениями, так и перед НАНА, а также ответственные за это организации и лица. В заслушанном на заседании докладе на тему «Научно-теоретические основы мультикультурализма и перспективы его развития в реалиях Азербайджана» было подчеркнуто, что общенациональный лидер Гейдар Алиев избрал точную идеологическую цель для успешного развития Азербайджана в будущем, благодаря этой политике традиция многокультурности еще больше развилась и поднялась на новый качественный уровень.

Гейдар Алиев считал политику мультикультурализма составной частью демократического развития страны, указывал, что охрана прав и свобод, в том числе и этнокультурных ценностей национальных меньшинств, проживающих на территории Азербайджана, исходит из охраны

прав и свобод человека, что является важным принципом демократии. По словам Гейдара Алиева, Азербайджанская Республика, избравшая путь демократического развития, должна обеспечить равноправие всех своих граждан независимо от их религиозной, языковой и расовой принадлежности. В соответствии с этим появлялись новые пункты Конституции или же они освещались с ракурса новых социальных и политических отношений. Как сказал Президент Ильхам Алиев: «Традиции мультикультурализма, являющегося сравнительно новым словом в нашем лексиконе, существовали в Азербайджане испокон веков. Назывались они по-разному, однако суть от этого не менялась».

В результате целенаправленной и решительной работы, осуществляемой главой государства в данной сфере, интерес мира к этому вопросу еще более повышается, и решение Альянса цивилизаций при Организации Объединенных Наций о проведении VII Глобального форума в 2016 году в городе Баку стало еще одним свидетельством реального проявления отношения к мультикультуральной атмосфере в Азербайджане. В то же время Азербайджан приглашает мир более плодотворно пользоваться политикой мультикультурализма, не имеющей альтернатив.

Наряду со своей энергетической, экономической, национальной безопасностью, каждая страна должна обеспечить и свою мультикультуральную безопасность. Общая сущность мультикультуральной безопасности состоит из сохранения культурных ценностей всех народов, этнических групп независимо от их этнической, религиозной, расовой и культурной принадлежности. Основными принципами мультикультурализма являются построение механизма равномерного распределения политического отношения к различным конфессиям внутри страны, забота государства о сохранении национального разнообразия в стране, защита культурных ценностей всех проживающих на территории страны народов и этнических групп при поддержке государства и общества. Эти принципы нашли свое отражение в подготовленных Бакинским международным центром мультикультурализма при интеллектуальной поддержке НАНА трудах «Литературно-художественные истоки азербайджанского мультикультурализма», «Научно-философские и публицистические истоки азербайджанского мультикультурализма» и «Политические и правовые истоки азербайджанского мультикультурализма», благодаря которым мультикультурализм поднялся на уровень научной дисциплины.

Академия обладает достаточным потенциалом для выполнения на высоком профессиональном уровне всех важных задач, поставленных в Распоряжении, уже разработан и начал осуществляться долгосрочный план мероприятий. Среди этих задач следует отметить учреждение при Президиуме НАНА Научно-исследовательского центра по изучению проблем мультикультурализма и Межинститутского виртуального центра мультикультурализма, проведение в Академии в 2016 году цикла международных конференций на тему «Мировые модели мультикультурализма»,

составление совместно с Бакинским международным центром мультикультурализма «Энциклопедии мультикультурализма» и издание журнала под названием «Мультикультурализм».

Как видно из всего вышеизложенного, перед нами стоит много задач, для осуществления которых есть поддержка государства, и что особенно важно, как было отмечено Президентом Ильхамом Алиевым, есть поддержка общественности. В то время, как столкнувшиеся с миграционной волной страны Европы, основываясь на принципах либеральной демократии, хотят растворить культурные меньшинства в «национальном котле» и, тем самым, подвергнуть их ассимиляции, наше молодое государство, избравшее совершенно иной путь, сказало свое веское слово и подтверждает его на деле.



Kamal ABDULLAYEV

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik

Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək...

Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Ölkə Prezidenti İlham Əliyevin Azərbaycan multikulturalizminin elmi əsaslarla öyrənilməsi və dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar dövlət qurumları, siyasətçilər, hökumət adamları ilə yanaşı, hər bir vətəndaşımızın üzərinə şərəfli vəzifə qoyur.

Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşaviri Xidməti də 2015-ci ildə fəaliyyətini dövlət başçısının daxili və xarici siyasətdə göstərdiyi konkret hədəflərə çatmaq 1istiqamətində qurub. İl ərzində ölkəmizdə yaşayan milli azlıqların hüquq və azadlıqlarının dövlət təminatı, dövlət-din münasibətlərinin qanunvericiliyin tələblərinə uyğun şəkildə tənzimlənməsi, Azərbaycan multikulturalizminin dövlət siyasəti kimi ölkə daxilində və xaricdə təbliği, multikultural ənənələrin qorunması və müasir dövrün tələblərinə uyğun şəkildə inkişafı üçün Xidmət ardıcıl ideoloji-siyasi, həmçinin praktik fəaliyyət göstərib.

Qanunvericiliyimizdən və Azərbaycan multikulturalizminin özəl prinsiplərindən irəli gələrək icra edilən din siyasəti və ölkəmizdə yaşayan azsaylı xalqların, toplumların mədəniyyət nümunələrinin qorunması, hüquqlarının ali təminatı istiqamətində görülən işlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xidmət müəyyən layihələr həyata keçirib.

Azərbaycan multikulturalizmi dünyanın müxtəlif ölkələrində

Xidmətin təşəbbüsü və dəstəyi ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu gün dövlət siyasətinin vacib istiqamətlərindən biri olan Azərbaycan multikulturalizminin dünya ölkələrində təbliğini ən müxtəlif formalarda qurmağa çalışır.

İlk olaraq Xidmət tərəfindən «Multikulturalizmə giriş» (bakalavr pilləsi), «Azərbaycan multikulturalizmi» (magistr pilləsi) fənləri üzrə tədris proqramları hazırlanıb. Bununla paralel bu fənləri xarici dillərdə tədris edəcək müəllimlərin hazırlıq prosesi başlanıb. Qısa zaman kəsiyində bu fənn ölkəmizin 20 ali təhsil ocağında və 11 xarici ölkə universitetində tədris olunub. Onların sırasında Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti (Bolqarıstan), İvan Cavaxişvili adına Tbilisi Dövlət Universiteti (Gürcüstan), Ural Federal Universiteti (Rusiya Federasiyası), Litva Pedaqoji Universiteti (Litva), Praqa Karl Universiteti (Çexiya), Roma Sapienza Universiteti (İtaliya), Belarus Dövlət Universiteti (Belarus), Lusafona Universiteti (Portuqaliya), Ausburq Universiteti (Almaniya), Frayburq Universiteti (İsveçrə), Sakarya Universitetini (Türkiyə) və başqalarını göstərmək olar. Bu universitetlərdə «Azərbaycan multikulturalizmi» fənni həm azərbaycanlı və həm də xarici müəllimlər tərəfindən tədris edilib.

Sülh və dostluq şəraitində yaşamın dünya üçün yeni modeli olan Azərbaycan multikulturalizmi xarici ölkələrdə təkcə universitetlərdə deyil, eyni zamanda müxtəlif təşkilatlarda kollokviumlar, seminarlar, «dəyirmi masa»lar formatında da təqdim edilib. Bu təqdimatlar Londondakı BBC-nin qərargahından tutmuş İndoneziyanın Coqyakarta şəhərindəki Ahmad Dahlan Universitetinə qədər olan geniş coğrafiyanı əhatə edib.

Azərbaycan mədəniyyətini, tarixini, dilini, ədəbiyyatını, iqtisadiyyatını, müasir ictimai-siyasi durumunu özündə kompleks şəkildə birləşdirən «Azərbaycan multikulturalizmi» fənni eyni zamanda ölkəmizdə, özəlliklə, texniki peşələr və dəqiq elmlər təmayüllü universitetlərdə, institutlarda və xüsusi tipli təhsil ocaqlarında tədris olunmağa başladı və bu gün də davam etməkdədir.

Bu istiqamətdə real ənənələri olan Bakı Slavyan Universitetində ölkədə ilk olaraq «Azərbaycan multikulturalizmi» kafedrası yaradıldı və fəaliyyəti təmin edildi.

Azərbaycana maraq Azərbaycana məhəbbətə necə çevrilir?!

Keçən yay xarici ölkə universitetlərində və ölkəmizdəki təhsil ocaqlarında «Azərbaycan multikulturalizmi» fənnini yüksək qiymətlərlə başa vuran tələbələr «Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş» devizi altında təşkil olunan yay məktəbinə dəvət olunmuşdular. Xarici tələbələrin bu fənni seçməklə Azərbaycana göstərdikləri maraq ölkəmizi gördükdən və buradakı reallığın həqiqi şahidləri olduqdan sonra Azərbaycana məhəbbətə çevrildi. Bakıda, Qubada, Qusarda, Xaçmazda gördükləri multikultural əhval və insanlara sevgi, dostluq hissləri ilə dolu həyat onlarda Azərbaycanla bağlı dərin

təəssüratlar yaratdı. Onlar bu gün öz ölkələrində Azərbaycanın yeni dostları, Azərbaycanın maraqlarını müdafiə edəcək şəxslər və daima ölkəmizə məhəbbətlərini izhar edən gənclərdir. Onlar Azərbaycana qarşı baş verən istənilən ədalətsizliyə anında sərt reaksiyalar verir və Azərbaycan reallığının ölkəmizə qarşı ikili standartlar sərgiləyən dövlətlərin və beynəlxalq təşkilatların hesabatlarında təqdim edilən şəkildə olmadığı fikrini başqaları ilə bölüşür və bütün bunları dönə-dönə ifadə etməkdən çəkinmirlər. Onlar Azərbaycanı həqiqi dost kimi sevirlər. Bu yaxınlarda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəvəti ilə Los-Ancelesdəki Sinay sinaqoqunun 50 nəfər üzvü baş ravvin David Volpenin rəhbərliyi ilə Azərbaycana səfər etmişdi. Səfərdən sonra hörmətli David Volpe Amerikanın «Time» jurnalında Azərbaycana məhəbbət və heyranlıq dolu bir məqalə dərc etdirdi. Əslində, o, Azərbaycan həqiqətini Amerika oxucusuna çatdırmaq istəyirdi. Amma nə baş verdi?! Bu məqalə erməni lobbisinin haqsız hücumlarına məruz qaldı. Bu haqsız hücumların qarşısına isə biz azərbaycanlılardan əvvəl yay məktəbinin iştirakçıları olmuş gənclər çıxdı və onlar David Volpeni müdafiə etdilər. Həm öz ölkələrindəki media orqanlarında, həm də sosial şəbəkələrdə onların verdiyi reaksiya, əslində, bir azərbaycanlının verə biləcəyi reaksiya qədər səmimi və kəsərli idi.

Milli mənsubiyyət – qürur, Azərbaycanlı olmaq – fəxarətdir

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin söylədiyi «Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, Azərbaycanlıyam!» ifadəsi bu gün hər bir ləyaqətli ölkə vətəndaşının həyat düsturuna çevrilib.

Xidmət 2015-ci il ərzində də ölkədə milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi, onların mədəni-mənəvi irsinin qorunması və dini etiqad azadlığının təminatı ilə bağlı yerli icra hakimiyyəti orqanları və digər dövlət strukturları ilə öz işini sıx şəkildə qurdu. Milli azlıqların dil və mədəniyyətinin qorunub saxlanması və inkişafı, onlara məxsus milli özünəməxsusluğun, adət-ənənələrin gələcək nəsillərə çatdırılması, eyni zamanda onların sıx yaşadığı bölgələrdə Azərbaycanın dövlət müstəqilliyinin və azərbaycançılıq ideyalarının təbliği, hərbi-vətənpərvərlik, vahid dövlətçilik, vətənə sədaqət hisslərinin gücləndirilməsi istiqamətində müvafiq dövlət qurumları və azlıqların milli mədəni təşkilatları ilə birgə ardıcıl fəaliyyət həyata keçirdi. Xidmətin təşəbbüsü ilə fəaliyyətə başlayan «Kultura+» internet televiziyasında milli azlıqların dil və mədəniyyətinin qorunub saxlanması üçün müxtəlif verilişlər və milli azlıqların dillərinin virtual tədrisini həyata keçirən proqramlar hazırlandı və kulturaplus.az saytında yerləşdirildi. Həmçinin bu saytda Azərbaycanın xaricdəki dostları öz dillərində Azərbaycana məhəbbətlərini ifadə etdilər və bu xoş sözlər dünyanın bir çox ölkələrində izləndi. «Kultura+» vasitəsilə bu gün ən uzaq ölkələrdə belə Azərbaycanın multikultural durumu barədə real təsəvvür yaranmaqdadır.

Xınalıqdan Çinədək

Prezident İlham Əliyevin ötən ilin əvvəlində imzaladığı «Kitabi-Dədə Qorqud»un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi» ilə bağlı xüsusi Sərəncam təkcə bu dastanı deyil, həm də Azərbaycan mədəniyyətini, ədəbiyyatını, tarixini dünya elm adamlarının və gəncliyinin bir daha diqqət mərkəzinə çevirdi. Bu Sərəncamın işığında Fransa, Almaniya, İngiltərə, ABŞ, Portuqaliya, Rusiya, Türkiyə, İtaliya və başqa ölkələrdə Azərbaycan mədəniyyəti bir daha dünya ictimaiyyətinə təqdim olundu. Və məhz ölkə başçısının böyük uzaqgörənliklə imzaladığı bu Sərəncam sayəsində görkəmli alman şərqşünas alimi və diplomatı Henrix Fridrix fon Ditsin 200 il əvvəl Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı qələmə aldığı çox dəyərli fikirlər və «Dədə Qorqud» dastanının «Basat» boyu bir kəndin dili olan Xınalıq dilindən, yüz milyonların dili olan Çin dilinə qədər geniş bir coğrafiyaya yayılmış oldu. Kitab Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən Azərbaycan, türk, alman, ingilis, fransız, rus, Çin, yapon, hind, ərəb, fars, yunan, yəhudi, gürcü, erməni, macar, italyan, Ukrayna və başqa dillərdə çap edildi.

Bu Sərəncamdan ölkəmizdə yaşayan milli azlıqlara da sevinc dolu bir pay düşdü. Çünki qeyd edilən kitab eyni zamanda talış, tat, udi, ləzgi, kürd və Xınalıq dillərinə də tərcümə edilərək çap edilmişdi. Beləliklə, hər bir Azərbaycan vətəndaşı ümumi ana kitabımız «Dədə Qorqud»u indi öz dilində oxuyur.

Hər qarışında Qorqud izi

Xidmət öz fəaliyyətində Prezident İlham Əliyevin şəxsi nümunəsini əsas götürərək, təkcə paytaxtda deyil, bölgələrimizdə yaşayan insanlarla birbaşa sıx ünsiyyət qurub. Xidmət əməkdaşları ötən il ərzində Naxçıvan Muxtar Respublikası da daxil olmaqla ölkəmizin əksər bölgələrində Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə çoxsaylı yerli əhalinin qatıldığı müxtəlif tədbirlərdə iştirak edib. Biz «Dədə Qorqud» dastanının ölkəmizin müxtəlif guşələrinə səpələnmiş izlərinə düşüb Xocavənd-Nərgiztəpə, Ağdam, Füzuli, Tərtər, Tovuz, Qazax, Quba, Qusar, Zaqatala, Qax, Balakən, Lənkəran, Yardımlı, Zərdab, Göyçay, Şamaxı, Qəbələ, Şəki və başqa rayonlarımızda yerli məktəblilərin, ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə saysız-hesabsız tədbirlər təşkil etdik. Bu tədbirlərdə malakanlar ingiloyların, ləzgilər talışların, saxurlar axısxa türklərinin, həmçinin bakılılar tovuzluların, ağdamlılar qubalıların, qazaxlılar şəkililərin, astaralılar maştağalıların evlərində qonaq qaldılar. Hər yerdə Azərbaycançılıq məfkurəsi hökm sürdü. Bu məfkurənin əsl təntənəsi baş verdi. Və bütün bunlar əsl qardaşlıq və vətəndaşlıq nümunəsinə çevrilirdi.

Qafqaz Albaniyasının renessansı

Akademik Ramiz Mehdiyevin öz əsərlərində dəfələrlə erməni fitnəsi və saxtakarlığına qarşı ortaya qoyduğu prinsipial elmi mövqe və bədxahlarımızın əsassız iddialarını elmi-tarixi mənbələr əsasında puça çıxarması Dövlət Müşa-

virliyi Xidmətinin işində də yeni istiqamətin meydana gəlməsinə vəsilə oldu. Erməni yalanlarını üzə çıxaracaq qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının tarixini təkcə yerli və bölgə əhəmiyyətli mənbələr əsasında deyil, xarici ölkə alimlərinin fikirləri, şərhləri və tərtib etdikləri tarixi arayışlar, xəritələr əsasında sistemli tədqiq etmək və bunu beynəlxalq elmi ictimaiyyətin diqqətinə çatdırmaq ötən il Xidmətin əsas işlərindən biri oldu. Bu məqsədlə bölgələrimizdəki Qafqaz Albaniyasına məxsus abidələrin tədqiqinin əsl renessansı başladı. Ermənilərin əsassız Qarabağ iddialarına öz varlığı ilə böyük zərbə vuran qədim Bərdə İmamzadəsi təmir və bərpa olunaraq yenidən insanların istifadəsinə verildi. İmamzadə təkcə dini sitayiş yeri kimi deyil, həm də özündə zəngin tarixi izləri qoruyub saxlayan bir muzey kimi də insanların üzünə öz qapılarını açdı. Bu abidələr məktəblilərin ziyarət edəcəkləri tarixi məkanlara çevrildi. Çünki onlar real olaraq Azərbaycan tarixinin müəyyən səhifələrini yaşadırlar. Təsadüfi deyil ki, elə buna görə də təkcə ölkəmizdə deyil, xaricdə, məsələn, İtaliyada albanşünasların iştirakı ilə bu istiqamətdə müxtəlif konfranslar, «dəyirmi masa»lar və ictimai müzakirələr keçirildi. «Kultura+» internet televiziyası burada da öz missiyasını yerinə yetirdi. Bu internet TV-də erməni yalanlarını ifşa edən sanballı verilişlər və sənədli filmlər hazırlandı. Və bu iş bu gün də Azərbaycan və xarici ölkə ziyalıları tərəfindən davam etdirilir.

İstinad yerimiz – qaynaqlar

Dövlət başçısı İlham Əliyev dəfələrlə öz çıxışlarında vurğulayıb ki, multikulturalizm Azərbaycanda tarixən olub və bu gün də var. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Bu mənada Xidmətin təşəbbüsü ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Azərbaycan Milli Elmlər Akademiyasının və ölkə universitetləri mütəxəssislərinin birgə iştirakı ilə «Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları», «Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları», «Azərbaycan multikulturalizminin siyasi qaynaqları» adlı monoqrafiyalar hazırlanır. Təbii ki, adıçəkilən əsərlərlə bu iş bitməyəcəkdir. Əslində, son dərəcə faydalı və zəruri bir elmi nəşr seriyası işıq üzü görməkdədir. Onun müxtəlif dillərə tərcüməsi, yeni-yeni mahiyyətlər və istiqamətlərlə zənginləşdirilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Xidmətin intellektual dəstəyi ilə «Azərbaycan multikulturalizmi» adlı dərsliyin hazırlanması işinə də start verilib. Bu dərslik həm xaricdə, həm də Azərbaycanda «Azərbaycan multikulturalizmi» fənnini öyrənən tələbələr üçün xüsusi bir əhəmiyyət daşıyan vəsait olacaq. Onu da qeyd etmək istərdim ki, bu dərsliyin səhifələrində eyni zamanda xarici mütəxəssislər də öz ölkələrindəki multikultural dəyər və əhvalı vətənimizdəkilərlə müqayisə etmək imkanına malik olacaqlar. Məsələn, bu müqayisəli prinsip alman, italyan, rus, gürcü universitetlərində artıq həyata keçirilir. Bu halda hər iki ölkəni daha aydın şəkildə «görmək» üçün eyni baxış bucaqları formalaşır.

Azərbaycanda olan tolerant və multikultural reallığın təkcə azərbaycanlıların deyil, xarici ölkə alimlərinin, görkəmli elm xadimlərinin, siyasət nümayəndələrinin, həmçinin tələbələrin gözü ilə dünyaya təqdim edilməsi də müsbət ənənəyə çevrilməkdədir. Bu məqsədlə Xidmət tərəfindən hələlik 4 virtual «dəyirmi masa» təşkil olunub. «Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası», «Multikultural təhlükəsizlik», «Xarici ölkə universitetlərində «Azərbaycan multikulturalizmi» fənninin tədrisi: problemlər və perspektivlər», «Azərbaycana maraq Azərbaycana məhəbbətə çevrilir (Azərbaycan multikulturalizmi yerli və əcnəbi tələbələrin gözü ilə)» mövzusunda olan bu «dəyirmi masa»ların materialları Azərbaycan, rus və ingilis dillərində dərc edilərək ölkə daxilində və xaricdə paylanıb. Virtual «dəyirmi masa»larda Braziliyadan, Amerikadan, İtaliyadan, Litvadan, Bolqarıstandan, Türkiyədən, Rusiyadan, Gücüstandan, Misirdən, İordaniyadan və başqa ölkələrdən tanınmış alimlər, ictimai xadimlər və tələbələr iştirak ediblər.

Portuqaliyadan İndoneziyaya qədər

İl ərzində Azərbaycanda olan sabit və demokratik mühiti, insan haqlarının ali təminatını həzm edə bilməyən və öz qərəzli hesabatları, ölkəmizə qarşı ikili standartları ilə gündəmə gələn bəzi beynəlxalq QHT-lər və təşkilatlara da ölkəmizdəki milli azlıqların hüquqlarının qorunması və dini etiqad azadlığı sahəsində həyata keçirilən dövlət siyasəti haqqında yetəri qədər informasiyalar verilib. ATƏT-in İnsan Ölçüsü Komitəsinin Vyanada keçirilən iclasında «Tolerantlıq və qeyri ayrı-seçkilik: Azərbaycan təcrübəsi» mövzusunda ölkəmizdəki multikultural və tolerant mühit haqda Xidmət tərəfindən xüsusi təqdimat edilib. Ölkəmiz haqqında həqiqətləri öyrənmək üçün qərəzli məruzəçilər və bu təşkilatların nümayəndələri Azərbaycanı yaxından tanımaq və reallıqları öz gözləri ilə görmək üçün ölkəmizə dəvət edilib. Xidmətin həm təklikdə, həm də müxtəlif dövlət qurumları ilə birgə Almaniya, İsveç, İngiltərə, Gürcüstan, Rusiya, İtaliya, Türkiyə və başqa ölkələrdə təşkil etdiyi tədbirlər Azərbaycan multikulturalizmini dünyaya təqdim etməklə yanaşı, həm də Azərbaycan tarixini, mədəniyyətini, dövlətçiliyini və bu gün ölkəmizdə həyata keçirilən uğurlu daxili və xarici siyasəti dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Bu tədbirlərdə ürək genişliyi ilə ölkəmizin müsəlman, xristian, yəhudi konfessiyalarının rəhbərləri iştirak ediblər və Şeyxülislam Hacı Allahşükür Paşazadənin xaricdəki məclislərin birində tribunadan dediyi kimi müsəlmanların (həm sünni, həm də şiələrin), yəhudilərin, pravoslavların, katoliklərin və digər din və məzhəb nümayəndələrinin qardaş kimi yaşadığı Azərbaycan bir model kimi bu gün həqiqətən dünya üçün bir örnəkdir. Qeyd edim ki, dini liderin bu sözləri ilə razılaşmayanlar yox idi.

Belə bir özəl modelin yaranmasına səbəb isə müxtəlif dinlərə və onların nümayəndələrinə ölkə rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən yönəlmiş bərabər siyasi münasibətdir. Azərbaycanda heç bir səmavi dinin başqasından üstünlüyü olmadığı kimi, modelin başqa yaranma üsulu da yoxdur.

Bu gün Portuqaliyadan İndoneziyaya qədər ən müxtəlif ölkələrin universitetlərində, intellektual dairələrində və ictimai-siyasi qurumlarında Azərbay-

can dəyərləri müzakirə edilir. Biz sual-cavabların içindəyik. Maraqlıdır ki, opponentlərimizə cavablar yavaş-yavaş daha çox xaricdəki azərbaycansevərlər tərəfindən verilir. Onlar artıq püxtələşmiş və nə etdiklərini şüurlu şəkildə bilən intellektual qüvvələrdir. Ölkəmizin xeyirxahlarının sayı çoxalır, dostlarının sayı artır. İnanıram ki, onların səsi getdikcə daha aydın və məqsədyönlü şəkildə eşidiləcək. Bunun üçün Azərbaycandaxili mümkün olan və hətta mümkün olmayan koordinasiya məqamlarının gücünü artırmalı, məqsəd və vəzifələri daha aydın şəkildə qarşımıza qoymalıyıq.

Azərbaycan Prezidentinin dəqiqliklə göstərdiyi ideoloji hədəflərə doğru daha qəti addımlarla irəliləmək əzmindəyik.



Mübariz QURBANLI

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

Azərbaycan multikulturalizm modeli dünya səviyyəsində ən mükəmməl örnək kimi qəbul olunur

Multikulturalizm və tolerantlıq bir-birinə oxşar dəyərlərdir. Lakin multikulturalizmin özünəməxsus xüsusiyyətləri var. Multikulturalizm müxtəlif mədəniyyətlərin bir arada dinc şəraitdə yaşamasının təmin edilməsidir. Əlbəttə, multikulturalizm dünyanın müxtəlif bölgələrində də var. Lakin bir var multikulturalizmi nəzəri olaraq mənimsəyəsən, bir də var ki, praktikada həyata keçirəsən. Azərbaycan multikulturalizmin praktikada tətbiq edildiyi ölkələrdəndir. Öz qanunlarında multikulturalizmi təsbit edən dövlətlərdəndir. Bizim multikulturalizm nümunəmiz özünü bir də onda göstərir ki, bu gün dünyanın 13 ali məktəbində "Azərbaycan multikulturalizmi" fənni tədris olunur. Azərbaycanda multikulturalizmə dövlət səviyyəsində diqqətin sayəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Dünyanın heç bir yerində bu formada mərkəz yaradılmayıb. Azərbaycan burada da gözəl nümunə ortaya qoyub. Yəni, biz multikulturalizmi yalnız öz coğrafiyamızda, ərazimizdə, ölkəmizdə tətbiq etməklə işimizi bitmiş saymırıq. Biz multikulturalizm ideyasının bütün dünyada daha geniş yayılması üçün geniş fəaliyyət göstəririk, tədqiqat işləri aparırıq. Eyni zamanda, qeyri-hökumət təşkilatları vasitəsilə çoxlu sayda layihə həyata keçirilir. Multikulturalizmin bu formada geniş təsbit və tətbiq olunması Azərbaycanın dünyaya olan töhfələrindən biridir. Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu da Azərbaycanda multikultural və tolerant mühitin olmasının göstəricisidir.

Multikulturalizm kimi bəşəri dəyərlərə Azərbaycanın münasibəti beynəlxalq səviyyəli təşəbbüslərdə praktik müstəvidə də özünü göstərir. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və əzmkar fəaliyyəti nəticəsində tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşən ölkəmizin Şərqlə Qərb arasında körpü rolu oy-

naması daha da aktuallıq kəsb etmişdir. Heydər Əliyev Fondunun bütün dinlərə xüsusi diqqət göstərməsi, Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Romada katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində yaxından iştirakı dünya ictimaiyyətinə Azərbaycanın dəyərli töhfəsi kimi qiymətləndirilməlidir.

Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, üstəlik, bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər. Çünki tarixən Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din, dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyət multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə dünya gündəmində aktuallaşdırmışdır.

Müasir dövrdə beynəlxalq aləmdə bir sıra siyasi mərkəz və dairələrin, eləcə də bəzi ölkələrin münasibətlərində ikili standartların hakim kəsildiyi şəraitdə humanist dəyərlərin arxa plana keçməsi heç kəsə sirr deyil. Əfsuslar olsun ki, irqçi təmayüllərin, ksenofobiya və neçə-neçə qeyri-insani yanaşma tərzinin gücləndiyi, hətta ölüm hökmü kimi mürtəce cəza növlərinin kütləvi tətbiqi ilə diqqəti çəkən dairələr az qala Azərbaycana insan hüquqları, yaxud din, mənəviyyat "dərs"i keçməyə çalışırlar. Qeyd olunan neqativ mənzərənin fonunda Azərbaycanda multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılması, xüsusilə Prezident İlham Əliyevin multikulturalizmi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirməsi Azərbaycan gerçəkliklərinin genişmiqyaslı ifadəsinin daha intensiv xarakter alması baxımından olduqca əhəmiyyətlidir. Bu gerçəkliklər içərisində Azərbaycanın dövlət və cəmiyyət olaraq bəşəri dəyərlərə həssas və humanist münasibətinin müqabilində ölkəmizə qarşı ikili yanaşmalar xeyli dərəcədə qabarıq görünməkdədir. Ölkə rəhbərinin birbaşa diqqəti və nəzarəti ilə multikultural mühitin daha da möhkəmlənməsi və inkişafı istiqamətində görülən davamlı işlərin sistemliliyini və mütəşəkkilliyini artırmaq baxımından 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması ilə bağlı Sərəncamı xüsusi əhəmiyyətə malik təşəbbüs olaraq qeyd edilməklə yanaşı, dünya ictimaiyyətinə insan amilini, bəşəri dəyərləri bütün fəaliyyətlərin fövqündə tutan Azərbaycan Respublikasının bir mesajı kimi də dəyərləndirilə bilər.

Bəzən multikultural və tolerant dəyərləri yalnız dinə bağlayırlar. Bu, belə deyil. Tarixə nəzər salsaq, eyni zamanda, müasir dünya reallığına diqqət yetirsək görərik ki, etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi dinc xarakterli olsa belə, heç də həmişə humanist prinsiplər əsasında reallaşmamış, bu, gah assimilyasiya, gah da izolyasiya kimi neqativ formalarda təzahür etmişdir. Maraqlı cəhət ondan ibarətdir ki, insan hüquqlarına münasibətdə özünü müasir dünyanın "lokomotiv"i sayan dairələr multikulturalizmi ya inkar, ya da imitasiya etməklə

təzadlı mövqe nümayiş etdirirlər. Yaxın Şərqdə baş verən hadisələrdən sonra biz nəyi müşahidə etdik? Avropa ölkələrinə kütləvi surətdə miqrant axını baş verəndə Avropa siyasətçilərinin bir çoxu dedi ki, artıq multikulturalizm məhv olub. Hətta Böyük Britaniyanın Baş naziri Devid Kemeron multikulturalizmin sona çatdığını bildirdi. Amma Prezident İlham Əliyev bəyan etdi ki, multikulturalizm sona çatmayıb, multikulturalizm toqquşmanın, müharibənin, qarşıdurmanın alternativi olan yeganə yoldur. Bunun başqa yolu yoxdur! Əgər bəşəriyyət qlobal miqyasda, dünyada gedən prosesləri nəzərə almadan ortaq məxrəc tapmasa və ümumi razılaşmalar əldə etməsə, özünü böyük təhlükə ilə üz-üzə qoymuş olacaq.

Azərbaycanda minilliklər boyu dinc yanaşı yaşamış fərqli dil, din və mədəniyyət daşıyıcıları varlıqlarını günümüzədək qorumuş, hazırda isə cəmiyyətdə bu yöndə mövcud olan pozitiv münasibətə çox mühüm çalar – dövlət siyasəti əlavə olunmuşdur ki, bu da respublikamızda multikultural mühitin uğurlu perspektivlərini təmin edir. Lakin Qərb dünyasında təqdim olunan multikulturalizm həmin ölkələrə sığınmış qaçqın və ümumilikdə gəlmələrə olan hörmət və ehtiramdan deyil, sadəcə, "dözümlü" münasibətdən ibarətdir. Təbii ki, həm regional, həm də qlobal miqyasda müxtəlif cəlbedici adlarla öz mədəniyyətlərinin dominantlığını təmin etməyi hədəfləyən, başqa mədəniyyət daşıyıcılarına assimilyasiya obyekti kimi baxan, cismani, yaxud mənəvi əritmək, yox etmək fəaliyyətlərini tarixən və çağdaş dövrümüzdə dövlət siyasətlərində analoqsuz ənənə halına salmış eqoist təfəkkürlü qüvvələrin imitasiyalarını multikulturalizmi alternativsiz həyat tərzinə çevirmiş Azərbaycanla müqayisə etmək belə özlüyündə qüsurlu görünür.

Multikutural və tolerant dəyərlər ümumbəşəri xarakter daşıyır. Biz də Azərbaycanda bu dəyərləri qorumalı və təbliğ etməliyik. Ziyalılarımız, din xadimlərimiz cəmiyyətimizdə həm etnoslar, həm də dinlərarası tolerant münasibətlərin inkişafı üçün çalışmalıdırlar. Bu, ailədə başlamalı, məktəbdə davam etdirilməlidir. Cəmiyyət Azərbaycanın milli marağına, milli və dini birliyimizə ziyan vurmaq istəyənlərə qarşı ictimai qınaq formalaşdırmalıdır.

İslam dünyasının bir parçası olaraq Azərbaycan milli-mənəvi dəyərlərini və xalqımıza məxsus xüsusiyyətləri qoruyub saxlayır. Xalqımızın tarixdən gələn bu xüsusiyyətlərini gələcək nəsillər də yaşatmalıdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı daha da sürətlənib. Azərbaycan dünyaya inteqrasiya edən ölkədir, amma bununla yanaşı, biz öz milli-mənəvi dəyərlərimizi də qoruyuruq.

Milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Ulu Öndərin yaratdığı dövlətçilik prinsiplərinin aparıcı xətti Azərbaycançılıq ideologiyasıdır.

İnsanın mahiyyətini anlamaq üçün onun keçdiyi tarixi yola nəzər salmaq son dərəcə mühüm əhəmiyyət kəsb edir. Bundan təqribən 70 min il əvvəl bizim əcdadlarımız – homo sapienslər meydana çıxdılar. Bioloqlar həmin insanları «önəmsiz varlıqlar» adlandırırdılar. Çünki o insanların heyvanlardan elə də böyük fərqi yox idi. Doğrudur, o, şir kimi güclü pəncələrə, canavar kimi güclü çənəyə, qartal kimi iti gözlərə malik deyildi. İnsan qida zəncirində orta sırada dayanırdı. Daim yırtıcı heyvanlardan, soyuqdan, aclıqdan qoruna-qoruna yaşamaq məcburiyyətində idi. Bütün bu fiziki məhdudiyyətlər insanları daha ağıllı və çevik olmağa vadar edirdi.

Əslində, insanın yeganə növü Homo Sapiens deyildi. Elm sübut edir ki, itlər, meymunlar, qarışqalar kimi insanların da müxtəlif cinsləri olub. Misal üçün, Homo Neandertal adlanan insan da, Homo Sapiens kimi, ayrıca bir növdür. 2010-cu ildə alimlər Sibirdə Denisova deyilən mağarada yeni bir insan qalığı tapdılar və bu insanı da Homo Denisova adlandırdılar. Alimlər on min il əvvələ qədər dünyada ondan artıq insan növünün yaşadığını güman edirlər. Bu, əlbəttə, insanlara qəribə görünür. Lakin itin əllidən artıq növü olduğu halda insanın nəyə görə bir növü olsun ki?

İnsan, daha doğrusu, Homo Sapiens digər canlılara nisbətən daha ağıllıydı. Buna görə də o, əmək alətləri düzəldə bilirdi (Ancaq əmək alətləri hazırlamaq Homo Sapiensin üstün cəhəti sayıla bilməzdi, bunu Neandertal da bacarırdı). Əmək alətlərindən istifadə insanı heyvandan ayıran əsas cəhətlərdən birinə

* Yuval Noah Harari 1976-cı ildə anadan olub. Humanitar elmlər və tarix üzrə mütəxəssisdir. 2002-ci ildə Oksfordda dissertasiya müdafiə edib. Yerusəlimin Hebryu Universitetinin professorudur. Hararinin otuzdan artıq dilə tərcümə olunmuş «Homo Sapiens» (“İnsan növünün qısa tarixi”) kitabı beynəlxalq bestsellerə çevrilib.

çevrildi. Əmək alətlərindən yararlanmaqla insan ölü heyvanların sümüklərini sındıraraq iliyini yeməyə başladı. Bu, insanın ilk mühüm kəşfi sayılır.

Bundan 300 min il əvvəl müxtəlif insan növləri – Homo Erektus, Homo Neandertal və Homo Sapiens oddan istifadə edirdi. Oddan istifadə ilə insanlar yırtıcı heyvanlara qarşı mühüm bir silah əldə etdilər: onlar odla heyvanları qorxuda bilirdilər. Üstəlik, odda bişən qidalar daha dadlı və kalorili olurdu (Hərçənd, Homo Sapiens bunu bilmirdisə də...)

Alimlər 150 min il əvvəl Afrikada eynən bizə bənzəyən Homo Sapiensləri yaşadığını deyirlər. Təqribən 70 min il bundan qabaq Homo Sapiens növü Afrikadan çıxaraq Avrasiyaya yayılmağa başladı. Bəs Avrasiyada yaşayan digər insan növlərinin aqibəti necə oldu? Axı tarixin sonrakı dövrlərində Homo Sapiensdən başqa bütün insan növləri yer üzündən silindi. Bu gün insanın cəmi bir növü var, o da Homo Sapiensdir. Bununla bağlı iki nəzəriyyə mövcuddur.

Birinci nəzəriyyə «İrqlərin qarışması» adlanır. Buna görə Homo Sapiens digər insan növləri ilə nikahlar bağlamış və nəticədə onların qanı qarışmışdır. Misal üçün, Homo Sapienslər Yaxın Şərqə və Avropaya getdikdə orada Neandertal insanlarla qarşılaşmalı idilər. Neandertallar soyuğa dözümlü, gövdəli idilər, oddan istifadə edirdilər. Hətta elm onların xəstələrə və qocalara qulluq elədiklərini də deyir. «İrqlərin qarışması» nəzəriyyəsi doğrudursa, o zaman biz təmiz Homo Sapiens sayıla bilmərik. Çünki avrasiyalılar Homo Sapiensin Neandertalla, Şərqi Asiyadakılar isə Erektusla qarışığından yaranıblar.

Digər bir nəzəriyyə isə «Əvəzləmə» nəzəriyyəsidir. Bu nəzəriyyəni qısaca «soyqırım nəzəriyyəsi» də adlandıra bilərik. Bu nəzəriyyəyə görə, Neandertalla Homo Sapiens bioloji cəhətdən fərqli olduqlarına görə cinsi mənada birbirini cəzb edə bilməzdi. Bu səbəbdən onların qarışması mümkün deyildi. Bəs elə isə Neandertallara nə oldu? Homo Erektuslar, Homo Denisovlar hara getdilər? «Əvəzləmə» nəzəriyyəsi bir neçə variantı nişan verir. Bir variant budur ki, Neandertallar qida azlığından yox olublar. Digər bir ehtimala görə isə, onlardan daha sosial varlıq olan Homo Sapienslər tərəfindən yox ediliblər. Homo Sapiens Neandertalla qarşılaşanda hansı hissləri keçirib – «Hamımız qardaşıq, yaşasın insanların qardaşlığı»mı deyib, yoxsa «onlar bizim düşmənlərimizdir» mülahizəsi ilə soyqırıma tələsib? Bunlar hələ də elmə məlum deyil. Alimlər o dövrlərə aid tapdıqları qəbiristanlıqları təhlil edərkən ölənlərin 4-5 faizinin fiziki zorakılıq nəticəsində öldüyünü müəyyənləşdiriblər. Müharibədə ölənlər də daxil olmaqla indi – XXI əsrdə bu rəqəm cəmi 1 faizdir, deməli, o dövrdə qəddarlıq da indikindən 4-5 dəfə çox olub. Lakin XXI əsrdə belə Homo Sapiensləri bir-birinə qarşı qanlı müharibələr törətdiyini nəzərə alsaq, tarixi rəqabətdən sağ çıxmış insan növünün Neandertalları məhv etdiklərinə inanmaq çətin deyil. Hərçənd, burada söhbət inamdan yox, sübutdan gedir. Sübut isə hələ də yoxdur, elm Homo Sapiensdən başqa insan növlərinin nəyə görə məhv olduğunu dəqiq müəyyənləşdirə bilməyib.

Lakin bəzi elmi faktlar da var. Neandertalların DNT-lərini əldə edən alimlər onları müasir Yaxın Şərq və Avropa insanlarının DNT-si ilə müqayisə etdilər. Nəticə 1-4 faiz çıxdı. Yəni müasir avropalı ilə Neandertalın DNT infor-

masiyaları bu ölçüdə eyni idi. Eyni təcrübə Homo Denisova ilə Avstraliya aborigenləri arasında aparıldı. Bu dəfə rəqəm daha yüksək oldu: 6 faiz. Bu elmi təcrübələr «İrqlərin qarışması» nəzəriyyəsini qismən təsdiqləyir. Lakin araşdırmalar davam etdiyinə görə iki nəzəriyyədən hansının doğru çıxacağını indidən demək çətindir.



Homo Sapiensin günahı olub-olmadığı bilinməsə də, fakt göz qabağındadır: onun ayağı dəyən yerdə yerli əhali məhv olub. 70 min il əvvəl Homo Sapiens növü Afrikadan çıxdı. 50 min il əvvəl Homo Soloensisin nəsli tükəndi. Az sonra Homo Denisova da yoxa çıxdı. 30 min əvvəl isə Neandertal yer üzündən silindi. Bəs Homo Sapiens bu amansız müharibədən necə sağ çıxdı? Mübahisələr hələ də gedir, bununla belə, alimlər ən çox dil məsələsinin üstündə dayanırlar.

Bu dövrdə Homo Sapiens ox-yay, məşəl, paltar tikmək üçün iynə düzəltməyi bacarırdı. Alimlər bu dövrdə yaşamış Sapienslərin ən azı bizim qədər ağıllı, yaradıcı olduğuna inanırlar. Stadel mağarasında (Almaniya) tapılmış Aslan Qadın heykəli 32 min il əvvələ aiddir. Bədəni insan, başı isə aslan başı olan bu heykəl insanın o dövrdə yaradıcılıq qabiliyyətinə malik olduğunu göstərir.

Dil təbiətdə yalnız insana məxsus bir şey deyil. Meymunların da dilləri var. Misal üçün, alimlər meymunların bir-birini aslan təhlükəsinə qarşı xəbərdar etdiyini müəyyənləşdiriblər. Lakin Homo Sapiensin dili meymundan çox fərqli, çox daha mürəkkəb idi. Meymun «Aslan var, qaç!» deyə bilirsə, Homo Sapiens çayın sola burulduğu yerdə bizon ovlayan aslan gördüyünü izah edə bilirdi. Dilin meydana çıxması ilə mühüm bir inqilab baş verdi. Belə ki, insanlar yalnız gerçəyi yox, real həyatda olmayan şeyləri də danışmağa başladılar. Burada söhbət yalandan getmir. Alimlər meymunların da bir-birinə yalan danışdıqlarını, misal üçün, aslan olmadığı halda «Aslan var» dediklərini qeydə alıblar. Burada söhbət mifik varlıqlardan, pərilərdən, cinlərdən, qulyabanılardan gedir. Homo

Sapiensin dili o qədər inkişaf etmişdi ki, yalnız məişətlə bağlı şeyləri yox, fövqəltəbii varlıqları da ifadə edə bilirdi. Elə hekayələrə inanmağa da Sapiens bu dövrdə başlamışdı. Və bu hekayələrə inam onu digər canlılardan tamamilə ayırmışdı. Bu fərqi görmək üçün meymunların həyatına fikir verək.

Şimpanzelər iyirmi-əlli nəfərlik qruplarla yaşayırlar. Qrupun rəhbəri «Alfa erkək» adlandırılır, digər qrup üzvləri kralın qarşısında təbəələrin əyildiyi kimi ona əyilməklə itaətlərini bildirirlər. Başçı qrupda baş verən narazılıqları aradan qaldırır, bəzən qrupun iki fərdi arasında cinsi münasibətləri qadağan edir. Qrup başçısı heç də ən güclü meymun deyil, sosial münasibətləri ən yaxşı qura bilən meymundur. Daha çox tərəfdarı olan meymun başçıya çevrilir.

İlk dövrlərdə insanlar da kiçik qruplarla yaşayırdılar. Çünki qida az idi, bir vadinin yüzlərlə Homo Sapiensi yedizdirəcək qədər resursu yox idi. Lakin zamanla əmək alətləri və dil inkişaf etdikcə insanlar daha böyük qruplarda birləşdilər. Avropalılar Afrikanın içərilərinə getdikcə bu cür kiçik, heç bir halda 150 nəfəri keçməyən insan qrupları ilə qarşılaşmışdılar.

Zaman keçdikcə insanlar çox böyük birliklər qura bildilər. Kiçik qruplarda, elə meymunlarda da olduğu kimi, hamı bir-birini tanıyır, onunla bu tanışlığa görə münasibət yarada bilirdi. Daha doğrusu, münasibət zatən vardı. Lakin böyük insan qruplarının yaranması hekayələrin yaranması ilə başlandı. Bu gün az qala bütün qitələrdə xristianlar yaşayır, onlar, əlbəttə, bir-birini tanımırlar. Bununla belə, bir yerə toplaşdıqda onlar ortaq xristianlıq hekayəsi ilə əlaqə yarada bilirlər. Millətlər də bu cürdür. Misal üçün, alman xalqının bütün üzvləri, şimpanze qrupunda olduğu kimi, bir-birini tanıya bilməz, lakin alman bayrağı, alman himni, alman dövləti onları birləşdirir.

Əslində isə alman milləti deyə bir şey gerçəkdə mövcud deyil, xəyalda mövcuddur. Bu, insanların ideyasında, şüurunda mövcuddur. Yəni bioloji olaraq biz alman millətindən danışa bilmərik. Tarixdə assimilyasiyaya uğramış xalqlar olub, bir xalq digərinin içində əriyib. Lakin bu xalqlar özlərini başqa bir xalqın milli ideyasında tapıblar. Məsələn, bir koreyalı uşaq alman ailəsində doğulubsa, alman ideyasına inanacaq, çünki onun genetikasında koreyalı ideyası yoxdur. Biologiyada koreyalı, ya alman – fərq etmir. Həmin uşaq koreyalı kimi buddist yox, alman kimi xristian olacaq, çünki biologiyada buddizm də yoxdur. Gerçəkdə olmayan ideyaları yaradaraq ona inanmağımız Homo Sapiens nəslini bugünkü səviyyəyə çatdırıb.

Burada zəruri bir əlavəyə ehtiyac var. Meymun yoldaşına «Aslan gəlir, qaç» deyə bilir, hətta aslan olmasa da. Lakin meymun yoldaşına «Qulyabanı gəlir, qaç» deyə bilmir. Meymun aslanı tanıyır, qulyabanını isə yox; qulyabanının nə olduğunu meymun bilmir. Heç insan da qulyabanı görməyib, sadəcə, onun xəyalında qulyabanı ideyası var. O, qulyabanını yoxdan yaradıb və yoxdan yaratdığına inanır. Bu, insanın heyvandan əsas fərqidir.

Məhz gerçək olmayan, dil vasitəsilə yaratdığımız ortaq miflər sayəsində insan cəmiyyəti, dövlətlər, dinlər, beynəlxalq iqtisadiyyat, fəlsəfə elmi, ədəbiyyat, qısası, insanı heyvan aləmindən ayıran hər şey mümkün olmuşdur. Bu, Homo Sapiensi zəif, önəmsiz bir canlıdan kainatın sahibinə çevirmişdir. Min il-

lər boyunca insan planetin landşaftını tamamilə dəyişmiş, minlərlə heyvanın nəslinə son qoymuş və bu gün əlindəki ən müasir silahlarla hətta yer üzündə həyatı məhv etmək gücünə belə yiyələnmişdir. Bu uğurun arxasında isə insanların birgəyaşayışı şərtləndirən hekayələri durur.

Homo Sapiens mövcudluğunun, demək olar, hamısını ovçuluq və yığıcılıqla keçirib. O, cəmi iki yüz ildir kütləvi şəkildə şəhərlərdə yaşayır, əkinçiliyi də 10 min il bundan əvvəl kəşf edib. On min illərlə qazanılmış bilik və təcrübələr əslində bugünkü şəhər həyatında özünü göstərməklə bizə mane olur. Misal üçün, araşdırmaçılar müasir dövrdə insanın çox yeməsini ovçu babalarımızdan bizə miras qalan davranışlarla əlaqələndirirlər. Ovçular və yığıcılar daim hərəkət edirdilər, ona görə də meyvə ağaclarını (Homo Sapiensin yeganə şirin qidası meyvə idi) gördükdə dərhal bütün barını yeyib qurtarırdılar.

Bu gün ailədaxili xəyanət mövzusunu müzakirə edən bir çox ciddi tədqiqatçılar müasir monoqamik ailə quruluşunun insanın bioloji keyfiyyətinə yad olduğunu irəli sürürlər. Onların fikrincə, Homo Sapiens on min illər boyu poliqamik ailə quruluşunda yaşadığı üçün xristianlıqdan sonra aktuallaşan və bu gün dünyada az qala hamı tərəfindən qəbul olunan monoqamik quruluş onun təbiətinə ziddir. Homo Sapienslər icma halında yaşayırdılar, hansı uşağın atasının kim olduğu heç zaman bilinmirdi. Ona görə də kişi Sapiens icmadakı bütün uşaqlara qayğı göstərir, onların hamısını öz övladı hesab edirdi. Məsələn, Avstraliyanın Bari adasında yaşayan aborigenlər arasında seksual kommunizm hələ də qalmaqdadır, onların inancına görə, qadın nə qədər çox kişi ilə sevişsə, onun uşağı da bir o qədər ağıllı, cəsur, çevik olar. Bu insanlar yumurtalığın bir yox, bir neçə sperma ilə mayalandığına inanırlar.

İcma həyatının bir çox cəhətləri indi bizi təəccübləndirir. Misal üçün, Paraqvayda bu gün də yaşayan Axe qəbiləsinin fəaliyyətini öyrənən alimlər qəribə faktlarla qarşılaşmışdılar: icma üzvləri xəstə uşaqları, qocaları heç bir mərhəmət duymadan öldürürdülər. Lakin bu, onlarda adi hal sayılırdı, buna bizim indi evtanaziya və ya aborta baxdığımız kimi baxırdılar. Qrupun mobil hərəkəti naminə bizə qəddar görünən bu cür əməllər onlar üçün adiləşmişdi.

Ümumiyyətlə, qəddarlıq Homo Sapiens üçün adi hal olub. Dörd yüz nəfərlik qədim qəbiristanlığı araşdıran alimlər burada yatan 18 nəfərin zorakılıq nəticəsində öldürüldüyünü aşkar ediblər. Bu da elə ümumi sayın 4-5 faizi qədərdir. Lakin bu gün müharibələrdə həlak olanlar qarışıq öldürülən insanların sayı dünya əhalisinin 1 faizindən artıq deyil. Yəni yuxarıda da dediyimiz kimi, əcdadlarımız bizdən ən azı 4 dəfə qəddar olublar.

Ardı olacaq



Qara ƏHMƏDOV
(1928-2003)

AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor

Bu günə necə gəlib çıxmışıq

İlk alətlər*

İnsan yarandığı gündən təbiətlə mübarizə aparmalı olub. Onun həyat yolunun başlanğıcı olduqca çətin və dözülməz idi. Təbiətin amansız hadisələri – dəhşətli soyuqlar, çovğunlar, buzlaşmalar, daşqınlar, bəzən hədsiz istilər, yanğınlar, üstəlik xəstəliklər, yırtıcı heyvanlar, aclıq... insanı bu yolda daim izləyir, onu məhv olmaq təhlükəsi qarşısında qoyurdu.

Doğrudur, insanın ilk əcdadları başqa vəhşilər kimi bədəncə indikindən daha qüvvətli olublar, onların xarici mühitə uyğunlaşmaq qabiliyyəti güclü, çətinliklərə dözmək bacarığı da artıq olub. Hərəkətlərində olduqca çevik və cəld imişlər, bərk sıçrayır, sürətlə qaçır, yeri gəldikcə əlləri və dişlərilə özlərini müdafiə edirmişlər. Ən qədim əcdadlarımız müasir insan olana qədər uzun müddət elə bu cür yaşamış, nəsillərini davam etdirmişlər.

Zehni zəif olan bu varlıqlar instinkt hərəkətləri və fiziki qüvvələri hesabına özlərini qoruyub saxlaya bilmiş, həyat uğrunda mübarizədə ağıl əvəzinə gücə, fiziki qüvvəyə üstünlük verməli olmuşlar. Onlar bir tərəfdən ardıcıl doğub-törəmə, artım hesabına nəsli kəsilməyə qoymamış, digər tərəfdən özlərini və törəmələrini qorumaq üçün yaşamaq uğrunda təbiətin amansız qüvvələri ilə ölüm-dirim mübarizəsinə girişmişlər.

Heç də təsadüfi deyil ki, insanın ilk müqəddəsləşdirdiyi varlıq Qadın – Ana olmuşdur. Hələ qədim daş dövründə ananın heykəli yaradılmışdır. O, artım, məhsuldarlıq rəmzi idi. İbtidai insanlar ananın doğmaq və yedirmək qabiliyyətini bütün qabarıqlığı ilə nəzərə çarpdırmağa çalışmışlar. Ana insan sürüsünün ən yaradıcı və yaşadıcı dayağı idi. Övladlar ananın ardınca gedirdilər, həyatda ən çox ona pənah gətirirdilər.

Ən qədim dövrlərdə ulu əcdadlarımız vəhşi heyvanlardan, demək olar ki, o qədər də fərqlənmirdilər. Onlar da təbiətdən asılı idilər, tapanda yeyir, tapmayanda axtarırdılar. Qida axtarmaq onların başlıca məşğuliyyəti idi.

* *Qara Əhmədovun «Bu günə necə gəlib çıxmışıq» kitabından.*

Bəs necə olub ki, əcdadlarımız keçdikləri bu yolda heyvanat aləmindən ayrıla biliblər? Marksizm klassikləri bu suala belə cavab verirlər: insanı insan edən əmək aləti olub. İbtidai insanlar əmək alətləri hazırlamaqlarına görə özlərinin ən yaxın həməcdadı olan meymunlardan belə fərqlənmişlər. Yaşamaq uğrunda təbiətlə mübarizədə öz fəaliyyətini əmək aləti hazırlamaq istiqamətinə yönəldə bildiklərinə görə müasir insanların əcdadları heyvanat aləmindən ayrılıb bu gün dünyaya hakim olan bəşəriyyətin təməl daşını qoya bilmişlər.

Əmək aləti ibtidai zamanlarda insana lazım olan əşyaların ən vacibi idi.

İnsanın ilk əmək aləti onun əlləri olub; əldən istifadə etdikcə insan qamətini düzəldib, ayaqları üstə yeriməyə başlamışdır. Fiziki qüvvəsini azaltmaq hesabına zehnini inkişaf etdirmişdir. Yeriməkdən azad olmuş əllər insanın ilk qida əldə etmək və müdafiə olunmaq alətinə çevrilmişdir. Heç də təsadüfi deyil ki, əl – insanın müqəddəsləşdirdiyi ilk bədən üzvüdür. Əl fiquruna arxeoloji qazıntılar zamanı hələ Eneolit dövrü (m.ə V–IV minilliklər) abidələrində təsadüf olunur. Bu dövrdə artıq ondan bəzək əşyası və həmayıl kimi istifadə edirdilər. İndi də bəzən insan bərk ayaqda, başqa kömək görmədikdə «bu əllərim var olsun» deyə özünün ilk əmək alətinə ümid bəsləyir, qolunun qüvvəsinə arxalanır.

İnsan əmək fəaliyyətinə alət düzəltməklə başlamışdır. İnsanların ulu əcdadları təbiətin hazır nemətləri – bitki kökləri, cır meyvələr, balıq, heyvan, quş və s. ilə qidalanmışlar. Bu nemətləri əldə etmək üçün onlar ağacdan, daşdan və sümükdən istifadə etmişlər. Həyat təcrübəsi artdıqca insanlar ağac və daşların daha yararlı olanlarını seçmişlər. Çox təəssüf ki, əcdadlarımızın ağacdan düzəltdikləri alətlər zəmanəmizə qədər qalmamışdır.

İbtidai dövrlərdə alət hazırlamaq üçün ən münasib material cürbəcür daşlar idi. Daş möhkəm, davamlı olduğuna və uzun müddət qaldığına görə ən qədim insan mədəniyyətinin izlərini zəmanəmizə qədər saxlaya bilmişdir. Məhz buna görə bəşəriyyətin keçdiyi təxminən iki milyon ilə yaxın bir dövr tarixdə «Daş dövrü» adlandırılır. Metalın kəşfinə qədər daş alətlər insan həyatında aparıcı rol oynayırdı. Daş alətlərlə bitki kökləri qazılır, heyvanlar öldürülür, ağaclar sındırılırdı.



İlk alətlər, əlbəttə, çox kobud olub. Belə alətləri adi daş qırıntılarından fərqləndirmək çətindir. Ancaq təcrübəli arxeoloqlar bilirlər ki, hansı daşlar çayda yumalananda, yaxud qayadan qopub düşəndə bir-birinə toxunub sınaraq alət şəklini almış, hansılarını isə insanın özü hazırlamışdır. Arxeoloji qazıntılar zamanı respublikamızın Füzuli rayonu yaxınlığındakı Azıx mağarasının ən alt qatlarında tapılan alətlər buna misal ola bilər.

Buradakı alətlər adi çay daşlarına o qədər oxşayır ki, onların əllə düzəldiyinə hər adam inanmır. Buna görə də, Azıxın milyon yarım yaşı olan alt qatlarını alimlər şərti olaraq «Çay daşı mədəniyyəti» adlandırmışlar. Burada tapılan alətlər bir tərəfi əllə tutula bilən, digər tərəfi isə azca işlənmiş kobud çapacaq formasındadır. Bu alətlər çay daşından yanlarını vurub qoparmaq üsulu ilə hazırlanmışdır.

İbtidai insanlar bərk daşlarla parçalanan və yaxud əzilən daşları vurmaqla, döyəcləməklə onlardan münasib alətlər düzəldirdilər. Bir növ, daşın köməyi ilə başqa növ daşlardan alət hazırlayırdılar. Çaxmaq daşı yaxşı parçalanır, dəvəgözü daşından (obsidiandan) nazik qəlpələr almaq olur, həm də bu qəlpələrin qırıqlarını yenidən işləmək xeyli asandır. Əhəngdaşı döyəcləyəndə əzildiyindən onu deşmək və üstündə gözlər açmaq mümkündür və s.

Azərbaycanda ən qədim dövrlərdə alət hazırlamaq üçün istifadə olunmuş daşlar əsasən çaxmaq, felzit, bozalt və dəvəgözü daşlarıdır. Bunlardan parçalamaq, kəsmək və doğramaq üçün işlədilən alətlər hazırlanmışdır.

İlk icad edilən əl çapacaqları bir neçə əməliyyatı görə biləcək, necə deyərlər, universal alət olmuşdur.

Bunlarla yanaşı, daş toxmaqlar yaradılmışdır. Çapacaqlar birağızlı və ikiağızlı olmaqla getdikcə təkmilləşdirilmiş, kubvari alətlər, kobud qaşovlar, qəlpədən olan qaşovlar meydana çıxmışdır. Azıxdan tapılan bu alətlər əmək alətlərinin getdikcə «ixtisaslaşdığını» gözəl nümayiş etdirir. Bəzi qəlpələrdən gəzli alətlər də düzəldilmişdir. Lakin elə alətlər var ki, onların nə məqsədlə istifadə edildiyi alimlərə hələ də aydın deyil. Məsələn, Azıx mağarasından hər biri 4-5 kq ağırlığında olan nəhəng çapacaqvari alətlər tapılmışdır. Bunlara giqantalit (nəhəng daşlar) adı verilmişdir.

İbtidai insanların fəaliyyət sahəsi genişləndikcə əmək alətləri də müxtəlifləşmişdir. Əl çapacaqlarının yeni formaları yaranmış, baltavari alətlər, dişli, gəzli, iskənə şəkilli, itiuclu alətlər meydana çıxmışdır. Belə alətlər «Çay daşı mədəniyyəti» dövrü alətlərindən xeyli cavan olub, 70-500 min ilə qədər yaşa malikdir. Onlar Azıxın Aşel dövrünü əhatə edən altıncı mədəni qatından (Azıxda üstdən alta doğru on qat aşkar olunub) tapılmışdır. Deməli, artıq o vaxt insanlar deşmək, kəsmək, doğramaq, döyəcləmək üçün müxtəlif «ixtisaslaşmış» alətlərdən istifadə etməyə başlamışdılar. Müasir biz, mişar, balta, iskənə kimi alətlərin hələ çox kobud ilk nümunələri, deməli, o vaxt yaradılmışdır.

Alətlər təkmilləşdikcə, müxtəlifləşdikcə insanların təbiətə təsir dairəsi genişlənmiş, onların məşğuliyyət sahələri artmış, cəmiyyət də yeni formalar almağa başlamışdır.

İstehsalın ən çevik, ən dəyişkən hissəsi əmək alətidir; əmək aləti dəyişdikcə ona münasib olaraq istehsalın, təsərrüfatın özü də dəyişir. Cəmiyyətin in-

kişafı nə istehsal etməklə deyil, necə istehsal etməklə, hansı əmək alətindən istifadə etməklə ölçülür.

Kobud daş alətləri olan insanlar sürü şəklində yaşamağa məcbur idilər. Onlar vəhşi heyvanları birlikdə ovlayır, əldə etdikləri azuqəni bölüşürdülər. Təsərrüfatın əsas sahəsi ovçuluq və toplayıcılıq idi.



Ovçuluq yeni silahların, toplayıcılıq isə torpaq işində istifadə olunan yeni alətlərin yaranmasına gətirib çıxarırdı.

Daş qəlpələrindən düzəldilmiş xırda bıçaqlar ovçuluqda ən çox istifadə olunan alətlərə çevrilmişdi. İbtidai bıçaqlar bir çox əməliyyat, o cümlədən, yonmaq, kəsmək, doğramaq, deşmək üçün istifadə olunurdu.

Mezolit dövründə (m.ə X-VII minilliklər) insanlar ilk dülgər alətlərindən iskənə, kərki və rəndənin daşdan kobud nümunələrini hazırlamışlar. Elə bu dövrdə fırladılan burğa da kəşf olunmuşdur. Belə aləti olan insanlar xizək, qayıq, avar (kürək) hazırlamaq imkanı əldə etmişdilər ki, bu da onların hərəkət dairəsini xeyli genişləndirmişdi.

Torpaq işlərində bitki kökləri çıxarmaq üçün qəlpələnmə üsulu ilə yanlarında gəzlər açılmış, sıyrım və gönlə sapa başlanan alətlər yaradılmışdı ki, bunlar da torpağı eşmək, əzmək işini asanlaşdırmışdı.

Sonralar ilk toxalar – ən qədim şum alətləri meydana gəlmişdi. Alimlər hesablayıblar ki, adi əl alətinə nisbətən dəstəkli toxalar məhsuldarlığı 4-10 dəfə, dəstəkli kəsər alətlər isə 3-4 dəfə artırmışdır.

İnsanlar bitki dənləri topladıqca onların ən faydalı və münasib növlərini öyrənir, yabanı buğda və digər bitkilərlə yaxından tanış olurdular. Belə bitkilərin yabanı növlərinə Azərbaycan ərazisində indi də rast gəlmək olur. Əcdadlarımız yabanı dənli bitkiləri kökündən çıxarır, dəyənəklə döyəcləyir və sovurub dənini götürürdülər. Lakin yayılma ərazisi onsuz da məhdud olan yabanı taxılın kökündən çıxarılması onun getdikcə azalmasına səbəb olurdu. Yerə tökülən toxumlardan növbəti ildə yenidən məhsul götürülməsinin mümkün olduğunu görən insanlar topladıqları dənin bir hissəsini əkməyin vacib olduğunu başa düşür,

bunu həyatda tətbiq etməyə başlayırdılar. Bu işdə daş toxalar insanın ən lazımlı əmək alətinə çevrilmişdi.

Bundan sonra tarixdə toxa əkinçiliyi dövrü başlanır. İnsanlar bu alətin köməyi ilə təbiətin hazır neməti olan yabanı taxılı toplamaqdan onu becərməyə keçirlər. Azərbaycanda ən qədim daş toxalar Ağdam rayonunda miladdan əvvəl VI-V minilliklərə aid Çalağantəpə yaşayış yerindən tapılmışdır. Uzunluğu 8,5 sm olan belə toxalar ağac dəstəyə bağlanır və torpağı şumlamaqda istifadə edilirdi. Mədəni bitkilərin yetişdirilməsi dövrü beləcə başlanmışdır. Yeri gəlmişkən, latınca «mədəni bitki» anlamı verən «kultura» kəlməsi ilkin variantda «işləmək», «becərmək» mənasını ifadə etdiyindən alimlər haqlı olaraq belə rəyə gəliblər ki, ilk zamanlar bu söz torpağa, onun işlənməsi və becərilməsinə aid olmuş, sonralar insan fəaliyyətinin başqa sahələrini də əhatə etmişdir.

Toxa əkinçiliyi bir sıra digər alətlərin meydana gəlməsinə səbəb olmuşdur. Bu dövrdə artıq biçin üçün ağac və sümük əsas üzərinə dişli daş qəlpələr yerləşdirilmiş oraqlardan istifadə edilirdi.

İbtidai əkinçilik Neolit (Yeni daş) dövrünün nailiyyəti hesab olunsa da, ən qədim biçin alətləri Azərbaycanda hələlik Eneolit (Mis-daş) dövrünə aiddir. Bu dövrdə Azərbaycanda ibtidai əkinçilik öz inkişafının yetkin dövrünə çatmışdı.

Qazax rayonunda Şomutəpə adlı yaşayış yerindən tapılmış əsası bir az əyri formalı ağacdan, kəsər hissəsi isə dişli çaxmaq və dəvəgözü daşı qəlpələrindən quraşdırılmış oraq bütün Cənubi Qafqazda ən qədim biçin aləti hesab edilir. Dişli qəlpələr ağaca xüsusi maddə – azakeritlə bərkidilmişdir. Belə qurama kəsər alətlər nəinki biçində, həm də başqa işlərdə geniş istifadə olunurdu; biçin alətləri əsası əyri olması ilə fərqlənirdi. Azərbaycanın, demək olar, bütün Eneolit dövrü abidələrində (indi bunların sayı 20-dən çoxdur) belə alətlərin kəsici dişli daş hissələrinə təsadüf edilir. Bu yolla da müasir oraqların ibtidai nümunələri yaradılmışdı. Maraqlıdır ki, sonrakı dişəkli metal oraqların, hətta kombaynların, otçalan maşınların mexanizmlə hərəkətə gətirilən kəsər hissələri öz quruluşuna görə daşağızlı oraqların təkmilləşdirilmiş formasından başqa bir şey deyil.

İbtidai insanlar torpaq işlərində heyvan sümüklərindən də alət kimi geniş istifadə edirdilər. Nisbətən yumşaq torpağı, qumlu sahələri qazma, torpaq atma, palçıq qarışdırma, suvarma işlərində ən qədim zamanlarda insanların ən çox istifadə etdikləri sümük alətlər heyvanların kürək sümüyü idi. Beləliklə də ilk qazma aləti olan kürək (bel) meydana çıxmışdı. Belə alətlərin də daha qədim nümunələri Çalağantəpə abidəsindən məlumdur. Müasir bellər həmin alətlərin xələflərıdir. İlk dövrlərdə əllə tutmaqla istifadə edilən sümük kürəklər sonradan metaldan düzəldilir, onlara ağac sap (dəstək) geydirilməklə istifadəsi dəfələrlə asanlaşdırılırdı. Görünür, «kürək» sözü də mənşə etibarilə sümük kürəkdən yaranıb. Bir sıra dillərdə insan bədəninin kürək sümüyü ilə əmək aləti olan kürək eyni şəkildə adlandırılır (kürək, bel və s.)

Sümüyü işləmək daşdan asandır, həm də sümük daşdan yüngüldür. Onu daha uzağa və daha çox aparmaq mümkündür. İlk balıq tilovları da sümükdən düzəldilmişdi. Heyvan buynuzlarından düzəldilən torpaqeşən alətlər buynuzun

möhkəmliyi və xüsusilə haça olması səbəbindən ibtidai xışların yaranmasına gətirib çıxarmışdı. İlk xışların düzəldilməsi üçün maral buynuzu daha əlverişli idi. Buynuzun bir haçasını yerə sancır, o biri haçasından tutub dartmaqla yeri şumlayırdılar.

Daş toxalara və sümük kürəklərə nisbətən torpağın bu üsulla işlənməsi daha çox fayda verirdi. Məhz buna görə də buynuz formasında, geriyə əyrisi olan bərk ağaclardan xışlar yaradılır, onun torpağa sancılan hissəsinə daş və buynuz ucluqlar bənd edilir, necə deyərlər, xışların daha təkmil formaları düzəldilirdi. Bəzi yerlərdə buynuzu bərk ağaclar (palıd, şabalıd, çaqan və s.) əvəz edirdi. Azərbaycanda Lənkəran və Qəbələ ərazilərində indi də qalmış dəmirağaclar bu cəhətdən çox maraqlıdır. Bu ağac çox bərk olduğuna görə dəmirağac adlanır.

Qəbələ meşələrində olarkən meşəbəyi bizə qəribə bir dəmirağac budağı göstərdi. Gövdədən aralanmış bu budaq palıd ağacının gövdəsini mismar kimi dəlib keçməklə öz inkişafını davam etdirmişdi. Əlbəttə, bu ağacın qurudulmuş hissəsindən xış düzəltmək olardı, yəqin ki, babalarımız belə də etmişlər. Bu cür xışa sümük, daş ucluqların bağlanmasına da ehtiyac yox idi.

Metalın kəşfindən sonra bunlar metal ucluqlarla – gavahınla əvəz olunmuş və torpağın növünə uyğun olaraq müxtəlif gavahınlar (qalın, şiş, enli və s.) yaradılmışdı. Toxa əkinçiliyinin xış əkinçiliyi ilə əvəz olunması məhsuldarlığın artmasına səbəb olmuş, cəmiyyətdə mühüm dönüş yaratmışdı. Taxılı döymək üçünsə əsasən ağac dəyənəklərdən və xırmana sərilmiş dərz üstündə dırnaqlı heyvanların gəzdirilməsi üsulundan istifadə edilirdi.

Naxçıvan yaxınlığında II Kültəpə adlanan yaşayış yerində bir ədəd qalın yastı daş tapılmışdır. Bu daşın bir ucu ip bağlamaq üçün gəz şəklində düzəldilmişdir. Dörd min yaşı olan bu aləti arxeoloqlar daş vəl adlandırmışlar. Həmin daş vəl də Cənubi Qafqaz ərazisində tapılmış ən qədim düyüm aləti hesab olunur.

Arxeoloji qazıntılarda ən çox tapılan alət dən daşlarıdır. Bunların ən qədimləri qayıqvari formalı alt və üst daşlarından ibarətdir. Alt daşın üstünə tökülən dəni üst daşı irəli-geri diyirlətməklə əzir və üyüdürlər. Azərbaycanda belə dən daşlardan hələ Neolit dövründə istifadə etmişlər. Çalağantəpə yaşayış yerindən möhkəm ağ daşdan düzəldilmiş belə dən daşlarının nümunələri tapılmışdır. Alt dən daşının uzunluğu 29 sm, eni 14 sm-dir.

Sonralar dən daşları daha mükəmməl formalı kirkirə ilə əvəz olunmuşdur. Kirkirə – yastı və dairəvi formada düzəldilmiş alt və üst daşlardan ibarətdir. Üst daş alt daşın ortasına bərkidilən oxa keçirilir və qırağına bənd edilən dəstək vasitəsilə fırladılaraq daşın boğazına tökülən dəni üyüdür. Artıq müəyyən olunub ki, əl dəyirmanının 2600 ildən çox yaşı var. Kirkirə adlanan əl dəyirmanları sonralar heyvanlarla hərəkətə gətirilən dəyirmanlar, su dəyirmanları, küləklə və daha sonralar elektriklə hərəkətə gətirilən dəyirmanlarla əvəz olunub. Kirkirə ilə bu dəyirman daşlarının fərqi sonuncuların daha qalın və böyük diametrli daşdan hazırlanmasında, su, külək və elektrik qüvvəsi ilə hərəkətə gətirilməsindədir.

Su dəyirmanında üst daş ox vasitəsilə döşəmədən altda dayanan pərli çarxa birləşdirilir. Yuxarıdan nov vasitəsilə sürətlə axan su pərin qollarını itələyir, çarx hərəkətə gəlir və özü ilə birlikdə dəyirmanın üst daşını da fırladır.

Külək dəyirmanında pər havada olur və su axınını külək axını əvəz edir.



Bu gün ədviyyat əzmək və dərman hazırlamaq üçün istifadə olunan həvəngdəstə də öz mənşəyi etibarilə bizi Neolit-Eneolit dövrlərinə aparıb çıxarır. İlk nümunələri daşdan düzəldilmiş belə alətlər Çalağantəpədən məlumdur. Qobustan qayalarında qeydə alınmış daş çuxurlar belə həvənglərin ibtidai formalarıdır. Bunlardan bitki köklərini, meyvə tumlarını əzmək, qabıqlı dənləri təmizləmək və digər məqsədlər üçün istifadə olunub.

Belə daş çuxurlar – həvənglər sonralar möhkəm ağaclardan hazırlanan dibəklərin, ayaq dinglərinin, daha sonralar isə su dinglərinin meydana gəlməsi üçün əsas olmuşdu. Çəltikçilik təsərrüfatının yaranması ilə Azərbaycanda təxminən miladın başlanğıcından ayaq və su dinglərindən istifadə olunurdu. İstifadə üsulu eyni olan həvəngdəstə – əllə, dibək – ayaqla, ding isə su ilə işlədilməsinə görə fərqlənir. Çalalar, demək olar, hamısında eyni qaydada qalır, ancaq dəstəklər, döyəclərin forması təkmilləşdirilir, hərəkət mexanizmi yeniləşdirilir.

Dibək haça, qol, ox, çala, döyəc adlanan hissələrdən ibarət idi. Dibəkdə ayaqla hərəkətə gətirilən bir döyəcdən istifadə olunurdusa, su dingində yan-yana şaquli vəziyyətdə düzəldilmiş bir neçə qoldan – döyəcdən istifadə edilirdi. Beləliklə də çəltikdən düyü almaq işi asanlaşdırılır və səmərəsi yüksək olurdu. Sonradan su dingləri dünyanın çox yerində elektrik dingləri iə əvəz edildi.

Ardı olacaq



Aqşin YENİSEY

Kirpi.info internet saytının redaktoru,
şair, nasir

Köhnə dünyanın kəşfi

(esse)

Dünyanın ilk gəmi kapitanı, tufan peyğəmbəri Nuhun Yer kürəsinin canlı aləmini kütləvi cütlüklər şəklində – tənhalara hər yerdə olduğu kimi, onun gəmisində də yer yox idi – suda boğulmaqdan qoruyan fövqəladə xilasetmə cəsarətini şumer şairlərinin yazıya köçürdüyü dövrdən, təxminən, üç min beş yüz il keçməsinə baxmayaraq, xalqın kütləyə, kütlənin xalqa keçidi zamanı həmişə yarı yolda ilişib qalan tənha fərd hələ də bu müdhiş çevrilmənin əndişəsində. Harada, nə zaman, nədən ötrü baş verir bu başqalaşma? Müəllifi kimdir bu özgələşmənin? Xalq hansı özəlliyini itirib kütləyə, kütlə hansı dəyəri mənimsəyib xalqa çevrilir? Hansı günahına görə nə xalq, nə də kütlə öz tənhalarını sevmir? Biz bu yazımızda kütləyə xalqın ekzistensial halı kimi baxacağıq və oxucudan xahiş olunur ki, bu yazıda kütlənin altşüuruna özünün fitri «elektrodları» ilə təsir edə bilən «seçilmişi» yalnız siyasi siluet kimi xəyal etməsin.

Əvvəlcə baxaq görək xalq kütləyə necə çevrilir. Xalqın kütləyə çevrilməsi o zaman baş verir ki, inkişaf rəqqası öz amplitudasının ifrat nöqtələrinin birində ilişir, nəticədə mütləq tarixi isterik vəziyyət (müharibə, aclıq, epidemiya, bəzən aşırı hakimiyyət ehtirası – məsələn, «Babil əxlaqsızlığı») peyda olur, bu vəziyyətdə xalq bütöv bir orqanizm kimi qüsurlu dövran həddinə uğrayaraq obyektiv dərketmə xassəsini itirir və şüura tabe olmayan ümumi eqonun nüvəsindən göndərilən nizamsız siqnalların əsirinə çevrilib idarəolunmaz psixi böhrana düşür. Xalqın bu hala düşməsini quduzluq virusunun beyindəki sinir-üstü qişanı zədələməsi nəticəsində insanın apokaliptik əsəblə geri gərilərək öz onurğasını sındırması kimi təkrarsız halı ilə eyniləşdirmək olar.

İnsanlar bu halda öz ideyalarının, iradələrinin, xarakterlərinin məsuliyyətindən qorxduqları və bu qorxunun hamının arasında bərabər bölüşdürülüb dəf edilməsi üçün ya hamının eyni hüquqlu, eyni məqsədli olduğu kütləyə çevrilirlər, ya da bu kütləvi məsuliyyətin ağırlığını könüllü şəkildə öz üzərinə gö-

türə və ümumi istəkləri həyatda realizə edə bildiyi halda kütlənin gözündə müqəddəs xilaskar əlçatmazlığına qalxan, yaxud götürdüyü yükün altında pırtdanağı çıxarsa, ümumi günahkar kimi daşqalaq hədəfi olacaq birinin axtarışına çıxırlar.

Ümumi ekzistensiya halında transsendental situasiyaya uğramış xalq özünü hansısa bir ideyaya inandıra, günahlandıra və bağışlaya, cəzalandıra və mükafatlandıra bilmir. O, Soljenitsının pritçasında olduğu kimi, çöpün yanan ucundan yanmayan ucuna qaçan, cığırı pozulduğundan əzəli müvazinətini itirib odun içinə tökülən qarışqalara bənzəyir. Xalqı bu durumdan çıxarmaq üçün tarixi, mənəvi, psixi keyfiyyətindən asılı olmayaraq, onu hansısa ideyaya inandıran, üzüyolalığına görə mükafatlandıran, özbaşınalığına görə cəzalandıran biri lazımdır.

Kütlə özü-özlüyündə tez yorulur, ruhdan düşür, onun əzələ tənbəlliyini və ruhi keyliyini özünün cəlbedici ideyaları, ümidverici qoçaqlığı, yeri gəlsə, ata şallağı və bütün şübhələrin pıçıltısını kəsə bilən heyranedici nitqi, ürəkçəkici susqunluğu ilə körükləyən «seçilmiş» birinə ehtiyacı var. Bu «seçilmiş» özünün fitri hissetmə istedadı ilə ondan imdad diləyən kütlənin gözünün içinə baxan kimi bu gözüyaşlı kütləni təşkil edən üzvlərin ümumi arzu və istəklərini, hər bir üzvü öz cazibəsində saxlaya biləcək ümumi ideyanı, kütlənin hər bir üzvünə xas olan ümumi irsi xarakterli xüsusiyyətləri və nəhayət, bu mağmın çoxluğun hipnoza, təlqinə reaksiya verən yönünü, onun altşüuruna xitab etməklə yönəldilməsi lazım olan istiqaməti o saat dəqiqləşdirir. Bu dörd xassəni ayırd etməklə «seçilmiş» kütləni yaradan dörd «müqəddəs ünsürü» ələ keçirmiş olur.

Kütlə və «seçilmiş» o zaman bir-birini eyni nöqtədə birləşən qayçının iki tiyəsi kimi tamamlayır ki, «seçilmiş» özünün idarəetmə bacarığı ilə idarə etdiyi kütləni başqa kütlələrdən, yad ideya və məqsədlərdən uzaqlaşdıra, qoruya bilsin. Başqaları həmişə və hər şeyi ilə düşməndir. Kütlədə başqalaşmaya yer yoxdur. Başqalaşma parçalanma deməkdir. Başqalaşma həm də kütlədaxili inamsızlıqdan, kütlə dəyərlərinin arxaik nənəmnehrəliyə uğramasından törəyir. İnamsız kütlə məhvə məhkumdur. «Seçilmişin» əsas üstünlüklərindən biri də budur ki, kütlənin tərkibindəki başqalaşma əlamətlərini hamıdan tez hiss edir və bu əlamətlərin kökünü kəsmək yollarını bilir. Necə ki, qədim Moraviyada qaraçıları yerli kütlədən fərqləndirmək üçün sol qulaqlarını, Bohemiyada isə sağ qulaqlarını kəsirdilər. Başqalarından ibarət kütlə ola bilməz. Başqalaşma fərdləşmədir. Kütlənin şüarı belədir: rədd olsun fərd! Fərd qaraçıdır, qulağı kəsilməlidir!

Elmdə hipnotik təsir yoxdur deyə zəka heç vaxt kütləviləşə bilmir. Din, əksinə, kütlələri elə hipnotik təcavüzə məruz qoyur ki, bu psixi-travmatik təsir kütlənin şüuraltısına hopub uzun illər boyu nəsildən-nəslə ötürülür. Hər dinin öz hipnoz vasitələri var və vasitələrin çərlədici təbliğinin özü bəzən kütlədə başqalarının peyda olmasına səbəb olur. Məsələn, İsanın məsum əzabkeş obrazının təlqinedici hipnotik iniltilərindən təngə gələn xristian ya yarandığı gündən özünütəsdiqə can atan döyüşkən islama, ya da çay kənarında sükunətə dalıb bitki həyatı yaşayan Buddaya üz tutur. Yaxud inancının fanatik gərginliyindən əsəbləri pozulmuş müsəlman canını bu pisixi böhrandan qurtarmaq üçün nəinki baş-

qa bir dini inanca tapınır, ümumiyyətlə, Allahın özünə belə asi çıxır. Sözsüz ki, xristianın və müsəlmanın simasında göstərdiyimiz bu başqalaşma hər iki din tərəfindən yolverilməzdir. Başqalaşma dində Tanrıya xəyanət hesab olunur, cəzası edamdır.

Tabe olmaq kütlənin mənəvi tələbatıdır. Kütlənin azadlıq yanğısı əgər bir qazan şorba bişirməyə yetmirsə, kütlə dərhal özü onu söndürür. Kütlə üçün əmtəəyə çevrilə bilməyən azadlıqdan zənbili dolu gələn əsarət əfzəldir. Azadlığa münasibətdə kütlə özünü həmişə varlı Asiya kişisinin çoxsaylı hərəmlərindən biri kimi aparır; xoşbəxt olmaq istəyirsənsə, tabe ol. Bu xoşbəxtlik tabe edənin ömrü qədər sürür. Ümumi ərin ölümündən sonra onun sadiq hərəmləri pozğunluğa necə can atırlarsa, başsız qalmış kütlələr də növbəti başçı peyda olana qədər idarəolunmaz sapqın yığnağa çevrilirlər. Kütlənin ekzistensiyası məhz belə anlarda üzə çıxır. Bu vaxta qədər o, sadəcə, belindəki başçını məqsəddənməqsədə aparan əhliləşdirilmiş, başınoxtalı dördayaqlı idi. Bu cür gözü qızmış kütlələrin siyasi-sosial təsisatlarını etiqad fanatizminə uğratmaq və təlqin yoluyla şüursuz törədilən istənilən hadisənin müəllifinə və icraçısına çevirmək olar. Məsələn, Roma Papasının «müqəddəs torpaqların azad olunması» çağırışını «məsafə uzaq olduğu üçün» Şərqə gəlib çatdıqdan sonra «eşidə» bilməyən və sadəcə, quldur basqınlarına çevrilən Səlib yürüşlərini, dini elitanın nəzarətindən çıxmış xilafət ordularının Asiya qitəsindəki «mənəvi boşluqları doldurmaq» adıyla törətdiyi amansız dini qırğınları, Fransada vətəndaş müharibəsinin qarşısını almaqdan ötrü kralın əmri və ordunun köməyi ilə əhali tərəfindən protestantların kütləvi şəkildə öldürüldüyü Varfolomey gecəsini, inkvizisiya zamanında az qala el şənlikləri kimi keçirilən dini edamları xatırlamaq, mənə elə gəlir ki, xirtdəyəcən bəsimizdir.

Həyatda artıq qlobal böhran həddinə çatmış vaxt qıtlığı epidemiyasının tüğyan etdiyini nəzərə alıb, oxucunu yubatmayaq. Çünki onun xalqın kütləyə necə çevrilməsi ilə başlayan və naməlum axirətdən məlum cənnətə doğru geriyə, kütlənin sürüyə, sürünün şüursuz məxluqa çevrildiyi əyyamlara aparan sualının davamı var. Qarşıda bizi şüursuz sonsuzluğa uzanan təhlükəli bir ekspedisiya gözləyir – köhnə dünyanın kəşfi.



Məhəbbət PAŞAYEVA

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, Azərbaycan Dövlət İqtisad Universitetinin Azərbaycan tarixi kafedrasının professoru, tarix elmləri doktoru

Azərbaycanda qədim alban tayfalarının izləri

Azərbaycan qədim tarixə, zəngin mədəni irsə malik bir ölkədir. Əlverişli təbii-coğrafi mövqeyi Azərbaycanda tarixin müxtəlif mərhələlərində bir çox qəbilə, tayfa və xalqların məskunlaşmasına səbəb olmuşdur. Qərblə Şərq arasında bir körpü rolu oynayan bu əraziyə axışan tayfaların hər biri müasir Azərbaycan xalqının etnik təşəkkülündə özünəməxsus rol oynamışdır. Azərbaycan etnomədəni mühitində formalaşan və Azərbaycan xalqının etnososial birliyinə daxil olan etnoslar bu ərazidəki təşəkkülü mərhələsində uzun bir tarixi yol qət etmiş, nəticədə Azərbaycan ərazisində minilliklər boyu formalaşmış spesifik, rəngarəng ənənəvi mədəniyyətə özünəməxsus rəng qatmışlar. Bunun nəticəsində Azərbaycan hər zaman «etnoqrafik xəzinələr muzeyi» kimi tanınmışdır.

Əsrlər boyu birgə yaşamış, tarixin müəyyən dövrlərindən Azərbaycanı özlərinə məskən seçmiş etnosların hər biri zaman keçdikcə vahid Ümumazərbaycan dəyərlərinə sahib olmaqla yanaşı etnik spesifikliyi də qoruyub saxlamışlar. Bununla da Azərbaycan mənəvi irsinin daha da zənginləşməsinə öz töhfələrini vermiş, bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin tərkib hissəsinə çevrilmişlər.

Bu gün Azərbaycanda əhalinin böyük əksəriyyətini təşkil edən Azərbaycan türkləri ilə yanaşı tatlar, dağ yəhudiləri, udilər, saxurlar, xınalıqlar, buduqlar, qrızlar, ingiloylar kimi bir sıra etnoslar yaşamaqdadır. Qeyd etmək lazımdır ki, Azərbaycanın Quba bölgəsində, Şahdağın qoynunda məskunlaşdıqlarına görə tarixi-etnoqrafik ədəbiyyatda «Şahdağ etnik qrupları» və ya «Şahdağ xalqları» kimi qruplaşdırılan xınalıqlar, qrızlar, buduqlar kompakt olaraq yalnız Azərbaycanda yaşayırlar və dünyanın etnik xəritəsində yalnız bu ölkədə qeydə alınmış nadir etnoslardandır.

«Şahdağ xalqları»nın, həmçinin udilərin və ingiloyların mənşəyi ilə bağlı aparılan araşdırmalar bu etnosların Azərbaycanın qədim dövləti olan Qafqaz Albaniyasında məskunlaşan, Azərbaycanın, həmçinin Qafqazın antik və orta əsr mədəniyyətinin əsas yaradıcılarından sayılan alban tayfalarından olduqlarını söyləməyə əsas verir. Etnik tərkibinə görə rəngarəng olan Qafqaz Albaniyasında Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış uti, qarqar, hun, udi, kaspi, qel, hər, qat kimi bir çox tayfalar, Strabonun da qeyd etdiyi kimi, alban tayfa ittifaqında birləşmişdilər (Strabon, Coğrafiya, XI kitab, IV fəsil). Bu gün Azərbaycanda yaşayan udilər, ingiloylar, o cümlədən xınalıqlar, qrızlar, buduqlar kimi etnoslar kök etibarilə Azərbaycanın alban mənşəli tayfaları olaraq udi, qel, hər, qat kimi qədim alban tayfalarının varisləridir.

Şahdağın ətəklərinə yayılmış Qrız, Buduq kəndləri, xüsusilə də Şahdağın ən yüksək zirvəsində, dəniz səviyyəsindən 2350 metr yüksəklikdə yerləşən Xınalıq kəndi dağların arasında bəşər sivilizasiyasının dağıdıcı qüvvəsindən qoruna bilmiş canlı tarixdir. Azərbaycan tarixində özünəməxsus izləri olan xınalıqlar, qrızlar, buduqlar müstəqil etnik qruplar kimi öz kəndlərinin adı ilə tanınsalar da, bu etnosların etnik özünüadlandırmasında qədim hər, qat kimi alban etnonimləri özünü büruzə verir (6). Tədqiqatlar nəticəsində məlum olub ki, xınalıqlar, buduqlar, qrızlar erkən orta əsrlərdə Qafqaz Albaniyasının şimal-qərb sərhədlərində bir-birinin qonşuluğunda, Şəki, Kambisena kimi vilayətlərin yaxınlığında yerləşən Xeni, Hereti, Bed mahallarında məskun olmuşlar (7, s.40-41). Bu etnoslar VI-VIII əsrlər boyu davam edən İran, xəzər, nəhayət, ərəb istilalarından qorunmaq üçün Tufan dağını aşaraq hazırda yaşadıqları Şahdağ ətəyindəki kəndləri salmışlar (3). Xınalıqlar və hapıtlar arasında dolaşan əfsanələrdə də onların əcdadlarının Tufan dağının o tayındakı Xeni və Hərnə şəhərlərindən gəldikləri söylənilir. Əhalinin «Tufan dağının o tayı» adlandırdığı ərazi müasir Azərbaycan Respublikasının Şəki-Zaqatala bölgəsi ilə, yəni yuxarıda adları çəkilən alban mahallarının yerləşdiyi ərazilərlə üst-üstə düşür.

Azərbaycanın alban köklü tayfalarından biri də hazırda kompakt şəkildə Qəbələ rayonunun Nic kəndində və Oğuz rayonunda yaşayan udilərdir. Udi etnoniminə antik müəlliflərdən Herodot, Strabon, Plini və Ptolomeyin əsərlərində rast gəlinir. Alban tarixçisi Musa Kalankatlının «Alban tarixi» əsərində (I kitab, 4-cü fəsil) udilər haqda daha ətraflı məlumat verilir.

Qel tayfalarının varisləri sayılan ingiloylar isə Azərbaycanın şimal-qərb bölgəsinin Qax, Zaqatala, Balakən rayonlarında məskunlaşıblar. Qellərin tarixən yaşadığı yer Qafqaz Albaniyasının Hereti vilayəti olub. XIX əsr müəllifləri də Heretinin ingiloyların əcdadlarının yaşadığı qədim Albaniya vilayəti olduğunu qeyd edirdilər (8). XVII əsrin II yarısından etibarən qellər kütləvi şəkildə müsəlmanlığı qəbul etdiklərindən Azərbaycanın şimal-qərb bölgəsinin əhalisi tərəfindən «yengi qeloylar», yəni yeni yolu – müsəlmanlığı qəbul etmiş qeloylar adlandırılmağa başlamışdılar. «Qel» və ya «qeloy» etnonimi tədricən fonetik dəyişikliyə uğrayaraq «yengiloy»-»ingiloy» şəklinə düşmüşdür. Azərbaycanın şimal-qərb bölgəsində yaşayan əhali ingiloyları indi də çox zaman elə keçmiş etnik adları ilə «qeli» və ya «qeloy» adlandırır. Çar Rusiyasının bu bölgədə ye-

ritdiyi milli müstəmləkə və dini parçalama siyasəti nəticəsində hazırda ingiloyların bir qismi xristian, bir qismi isə müsəlmandır.

Azərbaycanlıların mənəvi irsini təşkil edən alban mədəniyyəti və etnosu müəyyən transformasiyaya uğrasa da, bu mədəniyyətin bir sıra zəngin və qədim ənənələri günümüzədək qorunub saxlanmışdır. Həm yazılı qaynaqlar, həm də arxeoloji və tarixi-etnoqrafik araşdırmalar qədim alban etnoslarının təbiət qüvvələrinə, Göyə, Aya, Günəşə sitayiş etdiyini və bu inanclar sistemini xristianlıq, islam ideologiyalarının tərkibində də yaşatdığını təsdiqləyir. Xristianlığın Qafqaz Albaniyasında çox erkən dövrlərdən yayılmasına baxmayaraq, alban tarixçisi Musa Kalankatlının da yazdığı kimi, VII əsrdə belə yerli əhali arasında qədim ilahilərə sitayiş edənlər vardı (Alban tarixi, I, 14). Alban tanrılarını yunan adları ilə tanıdan Strabon xristianlığın qəbuluna qədər albanların Helios (Günəş tanrısı), Zevs (Yerin və Göyün tanrısı) və Seleneya (Ay tanrısı), xüsusilə İberiya yaxınlığındakı Selenaya sitayiş etdiklərini yazırdı (Strabon, Coğrafiya, XI kitab, 4-cü fəsil). Ölkəmizin digər bölgələrinə nisbətən Aya, xüsusilə də təzə Aya sitayişin izlərinə daha çox Azərbaycanın şimal-qərb bölgəsində rast gəlinir. Strabonun qeyd etdiyinə görə, Ay məbədinin yerləşdiyi bu bölgədə qoruyucu vasitə kimi uşaqların boynuna xüsusi ayinlə hazırlanan aypara medalyonu taxılması ənənəsi mövcud olub. Belə medalyon yalnız Ay tutulanda dəyirmi metal parçasını qövsvari formada kəsməklə hazırlanar, bu zaman şər qüvvələri qorxutmaq üçün mis qab döyəclənərdi. Udilər Aya qurban kəsər, həyat, artım simvolu kimi sonsuz qadını təzə Ayın işığında axar sudan keçirər, təzə Aydan uzun ömür diləyərdilər. Azərbaycanın bir çox bölgəsində rast gəlinən bu ənənə hazırda islam ideologiyası ilə qaynayıb-qarışmışdır: təzə ayı görən zaman yaşlı insanlar islam adətilə salavat çevirərlər.

Daşkəsən, Şəmkir, Naxçıvan, Şəki bölgələrindəki arxeoloji abidələrdən aypara və Günəş fiqurlu qəbir örtüklərinin aşkar edilməsi Azərbaycanda Ay, Günəş kultu ilə bağlı qədim inamların hələ m.ə. III minillikdə mövcud olduğunu təsdiqləyir (10, s.29; 1, s.85; 2, s.293-294; 6, s.89-99). Strabonun ay kimi öləndən sonra yenidən doğulacağına inanan yaşlı insanların təzə ayın şərəfinə bütün gecə şənlik etməsi barədə verdiyi məlumat qədim Azərbaycan əhalisinin dəfn mərasimlərində özünəməxsus yer tutan aypara nişanının mahiyyətini anlamağa imkan verir (Coğrafiya, III, 4). Təbiətin ölüb yenidən canlanması, Günəşin, Ayın batması və doğması kimi insanların da ölümdən sonra yeni bir həyata başlayacağına inancın izlərini Azərbaycandakı yas mərasimlərində yayğın olan «Ay kimi doğdun, gün kimi, batdın...» ağısında da görmək olur.

Alban mədəniyyəti üçün səciyyəvi olan astral inamlar, təbiət qüvvələri ilə bağlı müəyyən simvolik işarələr Xınalıq, Qrız kəndlərindəki qədim qəbir abidələrində bugünədək qorunur. Bu qədim alban tayfalarının astral təsəvvürləri sonralar islam ideologiyasının təsiri ilə daha da təkmilləşərək tədricən islami dəyər qazanmışdır. Xınalıq kəndinə etnoqrafik səfərlərimiz zamanı kəndin ən qədim qəbiristanlığında aşkar etdiyimiz bir başdaşının üzərindəki təsvirdə inanc sistemlərinin belə sinkretizmini görmək mümkündür: qəbirüstü abidədə aypara simvolu, ərəb yazıları, eləcə də, alban başdaşları üçün xarakterik olan nəbati və zoomorf təsvirlər bir aradadır. Bu başdaşıda həyat ağacını qoruyan iki quş,

daşın yuxarı hissəsində su qabı, aypara simvolundan başqa, daşın yan tərəfində yuxarı qalxan həyat ağacı təsvir edilmişdir. Göründüyü kimi, həyat ağacı ilə bağlı çox qədim kökləri olan ənənələrin, mifik dünyagörüşlərin izlərini daşıyan bu süjet klassik ideologiyaların da tərkibində yaşamağa davam etmişdir. Xınalıq, Qrız kəndlərindəki qədim qəbiristanlıqlarda Qafqaz albanlarının ta qədimdən riayət etdikləri adətə görə ucaldılmış adsız qəbir daşları da var.

Tədqiqata cəlb etdiyimiz qədim alban tayfalarında Günəş kultunun izləri özünü daha çox büruzə verir. Ümumiyyətlə, azərbaycanlılar səma cisimləri içərisində Günəşi daha müqəddəs hesab edir, hətta günə and içirlər. Udilər Günəşin şərəfinə bazar gününü qədim astroloji təqvimlərdə olduğu kimi, «Günəş günü» adlandıraraq həmin gün ailəlikcə günəşin doğmasını seyr edərlər. XIX əsrdə burada günəşlə bağlı ovsun ayini keçirildiyi məlumdur (9, s.249). Udilər kilsədəki xaç suyunu qızıl suyu adlandıraraq günəşin şərəfinə bu suyu təmizlik, nur suyu kimi qəbul edirlər. Yayın ortalarında udilərin çöl çiçəklərindən günəş simvolu olan xaçşəkilli bəzəklər hörərək keçirdikləri Vərtivər bayramı da Günəşin şərəfinə keçirilən qədim alban bayramının izlərini daşıyır (Alban tarixi, II, 35). Udilər müqəddəs saydıqları bir çox yerləri, hətta xristian məbədlərini belə ocaq (məsələn, Çotari ocağı, Müqəddəs Georgi ocağı, Müqəddəs Yelisey ocağı, Komrad ocağı, Yaloylutəpə ocağı, Bulun ocağı və s.) adlandırırlar. Alban xristian məbədləri əhalinin qədim inanc yerlərində tikildiyi üçün bu məbədlər Günəş simvolu kimi od, ocaq adlandırılıb.

Günəşin, odun qoruyucu qüvvəsinə inanan Şahdağ xalqları arasında da gəlin köçən qıza ata ocağından kömür verilməsi, üzünə qırmızı duvaq örtülməsi, başına kiçik dəmir parçaları, mıxçalar atılması, pis ruhlardan qorunmaq üçün gəlinin ayağını mis məcməiyə basaraq ər evinə girməsi kimi inanclar var. Şahdağ xalqlarının toy mərasimlərində bəzədilən şaxda günəş və məhsuldarlıq simvolu kimi mütləq xoruz təsviri də olmalı idi. Belə adət udilərdə və ingiloylarda da vardı. Bu faktlar qədim alban etnoslarının ortaq ənənələrindən, onların vahid etnogenetik köklərindən xəbər verir.

Musa Kalankatlının «Alban tarixi» əsərində sitayiş edilən təbiət qüvvələri arasında ildırım ilahəsi Kuarın adı çəkilir. Bu inama görə, insanı, ya heyvanı ildırım vurarmışsa, bunu tanrı Kuarın yolunda verilən qurban kimi qəbul edərmişlər (Alban tarixi, II, 41). Xınalıq kəndinə etnoqrafik səfərlərimiz zamanı bu inancın da izlərinə rast gəldik. Yerli əhali arasında «Baba qolu daşı» adlanan qırmızı rəngli daş-serdolikin qoruyucu gücünə indi də inam var. Rəvayətə görə, bu daş ildırımdan yaranıb, odur ki, xalq onu «göydən uzanan müqəddəs qol», «baba qolu» kimi qəbul edir. Qan, həyat rəngini simvolizə edən «baba qolu» daşı, qədim inanca görə, insanları vaxtsız ölümdən, ildırımdan qoruyurdu və hər evdə olması vacib sayılırdı. Bu daş Şahdağ xalqları arasında ən güclü qoruyucu gücə malik daş hesab olunur. Arxeoloji materiallar Qafqaz Albaniyasında serdolikin magik gücünə çox qədim dövrlərdən inam olduğunu təsdiqləyir (12, s.77; 11, s.273).

Udilərin, ingiloyların, eləcə də Şahdağ xalqlarının inanc sistemində dağ kultu mühüm yer tutur. Şahdağ xalqları əhatəsində yaşadıqları Tufan dağını, Qiblə dağını, Baba dağını müqəddəsləşdirmiş, onlarla bağlı müxtəlif əfsanələr

yaratmışlar. Əsasən türkdilli əhalinin məskunlaşdığı ərazilərdə yayılan və Gəmiqaya, İlanlı qaya, Ağrıdağ kimi bir sıra dağlarla əlaqələndirilən Nuh əfsanəsi, xalqımızın yaddaşında dərin kök atmış «Nuh peyğəmbər», «Nuh tufanı», «Nuh gəmisi» əsatirləri Şahdağ kəndlərində də qorunub saxlanmışdır. Xınalıqlar özlərini Nuhun oğlu Yafətin nəslinə bağlayırlar. Kalankatlı da ket tayfasının Yafətin nəslindən törədiyini yazır (Alban tarixi, I, 2,). Xınalıqlar öz dillərini də «Nuhdan qalma» sayır və özlərini *ketiş xalqı* adlandırırlar. Şahdağ xalqlarının Tufan dağı ilə bağlı əfsanəsi bütün türk xalqlarının dini-mifik dünyagörüşündə mühüm yer tutan Nuh tufanı, Ağrıdağ əfsanəsi ilə eyniyyət təşkil edir. Tufan dağı yaxınlığındakı göldə Nuhun gəmisindən qalma taxta parçalarının olduğuna inam xalq arasında hələ də yaşayır. Keçmişdə yerli əhali həm yağışçağırma, həm də günəşçağırma ayinlərinin icrası zamanı qurban kəsərək Tufan dağı yaxınlığındakı gölü ziyarət edərmiş.

Digər azərbaycanlılarla yanaşı udilərin, ingiloyların, Şahdağ xalqlarının da ziyarət etdiyi Komrad, Armatay, Babadağ kimi bir çox dağlara inam alban tayfalarının xristianlığın və islamın qəbulundan sonra da öz qədim inanclarını unutmadıqlarını göstərir**.** Şahdağ xalqları, xüsusilə də xınalıqlar Qəbələ bölgəsindəki qədim alban məbədinin də yerləşdiyi Komrad dağına doğulacaq körpənin saçını nəzir deyirlər. Etnoqrafik səfərlərimiz zamanı Xınalıq kəndində oğlan uşaqlarının başının ortasındakı kəkilin 7 yaşınadək uzadılıb hörülməsi, bu hörüyün də yalnız Komrad pirində kəsilməsi kimi bir adətin də şahidi olduq. Azərbaycanın şimal-qərb və şimal-şərq bölgələrində rast gəlinən bu qədim ənənə XIX əsrədək bir çox türk xalqlarında, məsələn, qumıqlarda, özbəklərdə, müasir dövrdə isə Orta Asiyada, İraq türkmənləri arasında da qeydə alınmışdır. Qədim inanca görə, uzadılan kəkil Tanrının göydən uşağı daha yaxşı görə bilməsinə və qorumasına yardımçı olur.

Bunu da deyək ki, Qəbələ rayonu ərazisində yerləşən Komrad pirini həm müsəlman, həm də xristian əhali ziyarət edir. XIX əsrdə eyni adlı dağın şərəfinə keçirdikləri Komrad bayramında udilər məbəddə qara qoç kəsib kasıblara paylayarmışlar (9, s.223). Xristian udilər Kalaaxsibay (Böyük bayram) adlandırdıqları Pasxanın ilk günündə də qoyunu üç dəfə kilsənin başına dolandırandan və heyvana torpaq qatılmış müqəddəs duz yedizdirəndən sonra qurbanlığı məbədin kənarında kəsərmişlər. Xristian olmalarına baxmayaraq, udilərin az qala bütün dini bayramlarında qoyun, qoç, ya xoruz kəsilir ki, bu da dinlərin sinkretizminin bir əlamətidir.

Albanların uca ağaclara, xüsusilə də palıd ağacına sitayiş etdikləri, ona qurban kəsdikləri məlumdur. Albaniyada müqəddəs palıd ağacının hətta tökülmüş yarpaqlarını, qurumuş budaqlarını belə öz ehtiyacı üçün yığanların ağac tərəfindən cəzalandırılacağına inanardılar (Alban tarixi, II, 42). XIX əsrdə yaşamış udi mənşəli müəllif Bejanovun qeydlərində də bu fikir təsdiq olunur. Həmin mənbədə deyildiyinə görə, indiki Oğuz rayonu ərazisində, müqəddəs sayılan qoca palıd ağacının altında udilər şam yandırar, qurban kəsərmişlər. Heç kəs bu ağacın nəinki yaşıl, hətta quru budaqlarını belə qırmağa cəsarət etməzmiş. Qurumuş budaqlar ağacın dibinə yığılar və ancaq qurbankəsmə mərasimlərində istifadə olunarmış (9, s.256).

Kalankatlı «Alban tarixi» əsərində Qafqaz Albaniyasında ağaca qurban kəsmə, qurbanlığın qanını ağacın yarpaqlarına çiləyib, kəlləsini və dərisini budaqlarından asma adətinin olduğunu da yazırdı. Nic kəndində udilərin qədim sitayiş yerlərindən olan «Toyuq piri»ndə bu ənənənin izlərini görmək mümkündür. Burada qurban kəsilən toyuğun ayaqları və başı hündür ağacdan asılarmış. Toyuğun oğuz qəbilələrinin də zoomorfik totemlərindən biri olduğu tədqiqatlarda təsdiqini tapmışdır (5, s.32). Ümumiyyətlə götürsək, XIX əsrdə Azərbaycanın bir çox bölgəsində müqəddəs ağac altında qoyun, ya toyuq qurban kəsmək, dərisini ağacdan asmaq ənənəsinin olduğu da araşdırmalarda göstərilmişdir (15, s.24-25).

Strabon yazırdı ki, albanlar cənazə ilə birlikdə ölənin sərvətini, malını da dəfn etdikləri üçün ata mirasına sahib olmurdular (Coğrafiya, XI, 4, 8). Arxeoloji materiallar göstərir ki, bu ənənə Qafqaz Albaniyasında xristianlığın yayılmasına qədərki ənənə olsa da, xristianlaşmanın ilkin mərhələsi üçün də səciyyəvi idi (14, s.54-56). Etnoqrafik araşdırmalar göstərir ki, insanı öz əşyaları ilə dəfn etmək kimi bu qədim alban ənənəsinin izləri xristian ingiloyların və udilərin dəfn mərasimlərində qorunub saxlanmışdır. İngiloylar cənazəni məzara qoymazdan əvvəl paltarlarını səliqə ilə qəbrin içinə sərərlər. Udilər də mərhumun paltarlarından yalnız bir dəstini ağlaşma üçün saxlayar, qalan geyimlərini ölü ilə birlikdə basdırarlar. Hazırda Azərbaycanın bir çox yerində ölən adamın paltarlarının məscidə, pirə, yaxud da yoxsullara verilməsi ənənəsi albanların qədim dəfn adətinin izlərini daşıyır. Ölünün paltarları ilə birgə dəfn olunması ənənəsi göytürklərdə, hunlarda da olmuşdur (17, s.99; 18, s.199; 16, s.198).

Qafqaz Albaniyasında keçirilən yas mərasimlərində ağıçıların ağı demək ənənəsinin olduğu «Alban tarixi»ndən məlumdur. Şair Dəvdəkin alban hökmdarı Cavanşirin ölümünə yazılmış mərsiyəsi buna misaldır (Alban tarixi, II, 36). Alban kilsə qanunnaməsində də dəfn mərasimlərində qədim yuğ mərasiminin qalıqları olan ağlaşma və ağıçılarla bağlı qeydlər var (Alban tarixi, II, 45). Bu adət Azərbaycanda günümüzədək qorunmuşdur. Albanların qədim yas ənənəsi olan ağı mərasimi və ölünün mədh edilməsi adəti Azərbaycan müsəlmanları arasında olduğu kimi, xristian udilərin və ingiloyların da yas məclislərində qalmaqdadır.

Alban tayfalarının birbaşa varisləri olaraq etnik mənsubiyyətini günümüzədək qoruyub saxlaya bilmiş xınalıq, qrız, hapıt, udi, ingiloy kimi Azərbaycan etnoslarının milli ənənələrində alban dünyagörüşlərinin bütün canlılığı ilə yaşadığını görürük. Xalqlar və mədəniyyətlər arasında qarşılıqlı canlı əlaqələrin mövcud olduğu Azərbaycanın tarixi təşəkkül prosesində iştirak etmiş qədim alban tayfalarının hər biri Ümumazərbaycan mədəniyyətinin ortaq ənənələrinə sahibdir. Yuxarıda sadaladığımız etnik qrupların qədim ənənələrinin Azərbaycan türklərinin ənənələri ilə üst-üstə düşməsi Ümumazərbaycan ənənələrinin qədim alban köklərindən və bu xalqların vahid mənəvi mədəniyyətin varisləri olmasından xəbər verir. Azərbaycan xalqının etnososial birliyinə daxil olan bu etnoslar bütövlükdə Azərbaycan etnomədəni mühitində formalaşaraq xalqımızın etnik tarixində özünəməxsus yer tutmuşlar.

Ədəbiyyat

1. Müseyibli N. Gəmiqaya. Bakı, Caşıoğlu, 2004.
2. Nəcəfov Ş.N. Zəyəmçay nekropolundakı qəbir abidələri və onların bəzi müqayisəli təhlili // Elmi araşdırmalar.VII buraxılış, Bakı, Günəş, 2004, s.292-296,
3. Paşayeva M. «Şahdağ xalqları»nın etnik tarixinə dair (Qafqaz Albaniyası konfransı), 2012.
4. Voroşil Q. Udin dilində qohumluq terminləri. Azərb SSR EA Xəbərləri İctimai elmlər seriyası, № 9.
5. Seyidov M. Azərbaycan mifik təfəkküründün qaynaqları. Bakı,Yazıçı, 1983.
6. Ахундов Т. Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Баку,Элм, 2001.
7. Армянская география VII века по Р. Х. (текст и перевод К. П. Патканов). Санкт-Петербург. Типография Императорской Академии Наук, В. О., 9 л., № 12.1877.
8. Бакрадзе З. "Заметки о Закатальской округе" ("Зап. Кавк. отдела Имп. рус. геогр. общ."), кн. XIV, вып. I, Тифлис, 1890.
9. Бежанов М. Краткие сведения о селе Варташен и его жителях. СМОМПК, вып.14. отд.1,Тифлис,1892.
10. Геюшев Р.Б. Христианство в Кавказской Албании. Баку, 1984.
11. Марковин В.И. Сердолик – «камень счастья». «Новое в советской археологии». М., 1965.
12. Керимов В. Храм Зейзит Кавказской Албании. Баку, Елм, 2008.
13. Штернберг Л.Я. Первобытная религия в свете этнографии. – Л., 1936.
14. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н.э.) Баку, Элм, 1984.
15. Ямпольский З.И. Древняя Албания III–I вв. до н. э. Издательство Академии Наук Азербайджанской ССР, Баку, 1962.
16. Kalafat Y. Doğu Anadoluda Eski Türk İnançlarının İzleri. Ankara, 2005.
17. Kürşat Öncül. Eskolotoji Mitleri Bağlamında Güzelköy (Denizli) Türk kültürü və Hacı Bektaş Veli. Araşdırma dergisi. Ankara, 2007, sayı 42, s.99
18. Eröz M. Türk Topluluklarının Ölüm Adetleri Üzerine Bir Deneme. İstanbul, 1987, s.19.



Ульвия ГАДЖИЕВА

Старший научный сотрудник отдела этноархеологии Института археологии и этнографии НАНА, доктор философии по истории

Исторические последствия ликвидации Албанского католикосата

С возрождением независимости народы Кавказа обрели возможность переосмыслить свое историческое прошлое, получили право на исследование своей истории, этнографии, культуры и государственности в системе исторических событий региона. Неизменная приверженность азербайджанцев к своим историческим корням, своей традиционно-бытовой культуре помогла уберечь богатство народных традиций, обычаев, народного искусства и ремесел, сохранить особенности национального характера, духовного склада, формирования социальной памяти, национального самосознания [2, с.5-7].

История и культура кавказских албан и Албанской апостольской автокефальной церкви, их историческая роль и место в истории этнокультурного наследия Азербайджана в эпоху раннего и позднего средневековья в период до XIX в. были всесторонне освещены в научных трудах азербайджанских историков, археологов и архитекторов, в которых была неопровержимо доказана вся несостоятельность армянской «научной» концепции относительно принадлежности албанского этнокультурного наследия к истории армянского народа [19, 21, 16, 18]. Что же касается XIX века, то этот период является главнейшим, ключевым моментом в истории Азербайджана, и Карабаха в частности, ибо исторические события XIX в., подписание Туркменчайского договора 1828 г., присоединение земель Северного Азербайджана до р.Аракс к территории Российской империи [1, с.37-53; 5], положили начало юридическому и физическому уничтожению Албанской апостольской автокефальной церкви, одной из древних на Кавказе, просуществовавшей с IV по XIX вв. в мусульманском окружении [19, с.567; 21, с.238].

Местами пребывания Албанского католикосата до 1828 г., согласно данным источников VIII, XIX вв. [4, 15], были Дербент или Чола, Гис (по

преданию), Партав, Ктликосаран, монастырь Апостола Егише или Джревиштик, Гянджа, Карагерц, Хамшиванк, Ахбат, Гандзасар, Джалат, вторично Гандзасар, где и прекратил своё существование Албанский католикосат, и где был похоронен последний албанский католикос Саркис Гасан-Джалалов в 1828 г. [4, ч.I, 6; 23, с.459; 13, с.182]. Согласно источнику XIX вв. [4] каждый албанский округ правобережья Куры до 1836 г. имел свой собственный монастырь и своего отдельного окружного настоятеля с монахами, который в своём монастыре управлял паствой того округа. Центрами епископств Албанской церкви до 1836 г. являлись монастыри: Дизапайт, Кавак, Гтич, Белый Крест (в округе Дизак); Амарас, храм в Гирере, помещение в Кочизе (в округе Варанды); Мец-аранц или Мец-иранц, Майракавак (в округе Хачен), монастырь в Дате (в округе Ростак), Джривиштик/ или апостола Егише (в округе Джраберт); Хорекский монастырь и монастырь Всеспасителя (в округе Мец-колманк), Мланабертский монастырь и Таргманчац (в округе Гардман), монастыри в Парисосе, в Хораншате, в Чареке (в округе Парисоса), монастыри Шихмуратский и Варатский (в округе Кусти/Каве) [4, ч.I, 5]. Как сообщает источник XIX в., «еще в 1828 г., по свидетельству очевидцев, эти монастыри были обитаемы и в цветущем состоянии» [4, ч.I, 5], в полной сохранности в окружении мусульманского тюркского и персоязычного населения Карабаха, благодаря его толерантности. Следовательно, ни о какой григорианизации албан и Албанской церкви до указанного периода не может быть и речи. Албанская церковь [19, с.525] ещё в 1828 г. имела свыше 12-ти епископств, и весь её церковный институт находился в функционирующем состоянии. Церковная иерархия этой Апостольской церкви с присущей ей определённой субординацией позволяла албанскому клиру самому рукополагать албанского католикоса. С XIII в. центром Албанской церкви, резиденцией её католикосата стал Гандзасар, после чего Албанский католикосат стал называться Гандзасарским. Как известно, католикосами Албанской церкви с XV в. по 1828 г. были выходцы из Гасан-Джалаловского албанского княжеского рода, последним из которых, как отмечалось ранее, был Саркис Гасан-Джалалов, умерший в 1828 г. и похороненный в Гандзасарском монастыре [19, с.541-542, 558; 21, с.231-238]. Памятные записи некоторых евангелий, сохранившиеся до конца XIX в. в церквах Карабаха и представляющие собой своеобразные исторические хроники об албанском этносе, начиная с периода позднего средневековья вплоть до начала XIX в., содержали весьма важную информацию об албанском католикосате XI–XVIII вв. [10, с.34-38], которая подтверждала полную самостоятельность Албанской церкви до 1828 г. Царизм, стремясь усилить свои политические и конфессиональные права на Южном Кавказе, сделал ставку на использование Армянской эчмиадзинской церкви и создание в регионе армянского этнического фактора, который можно было бы использовать в качестве фактора сателлита [11, с.68-81; 5, 6, 7, 8, 12, 18], а также распространение и утверждение здесь православия. В целях уси-

ления здесь позиций и влияния Русской православной и Армянской эчмиадзинской церквей царизм подверг полной трансформации Албанскую и Грузинскую апостольские автокефальные церкви, существующие на Кавказе с IV по XIX вв. с их многовековыми сложившимися институтами [3, с.212-221]. В результате церковно-иерархической реформы, произведённой царизмом, Грузинская автокефальная церковь с множеством своих епархий была превращена в составную часть Русской православной церкви – Грузинский экзархат [17], который состоял из 4-х епархий: в 40-х гг. XIX в. из Карталинской, Имеретинской, Гурийской и Мингрельской [14, на 1846 год, 188-191; 95, 110-113], а с 1885 г. до 1914 г. – из Грузинской, Имеретинской, Гурийско-Мингрельской, Сухумской. Царизм использовал Грузинский экзархат для распространения православия на Кавказе и усиления роли и влияния Русской православной церкви в этом крае.

Следующим шагом в российской конфессиональной политике стало усиление Армянской Эчмиадзинской церкви путем увеличения ее паствы за счет переселения армян из Персии и Турции в Азербайджан [5, 6, 7, 8, 9, 12], а также деэтнизации албанского христианского населения Карабаха. Согласно Положению царского правительства 1836 г. об армяно-григорианской церкви Албанский католикосат был упразднен и подчинён Эчмиадзинской церкви. Начиная с этого времени, в подведомственных бывшему Албанскому католикосату, который действовал с IV в. по 1836 г., областях и уездах были созданы две епископские и одна преемственная епархия, подчиненные Эчмиадзинскому католикосату [21, с.238-239]. 11 марта 1836 г. было издано Положение об управлении делами Армяно-григорианской церкви. 21 мая 1837 г. состоялось открытие Эчмиадзинского Армяно-григорианского Синода [14, на 1866 год, (хронология), 9-46; на 1868 год, (хронология), 101-141]. В 1857 г. по уставу духовных дел иностранных исповеданий в России значилось 6 армяно-григорианских епархий, в числе которых были Карабагская, Ширванская, Эриванская [21, с.239].

Таким образом, Грузинская церковь с множеством епархий, преобразованная в составную часть Русской православной церкви – Грузинский экзархат, сохранила право осуществления своей конфессиональной деятельности, хотя и в искаженной для нее церковно-иерархической системе. Что же касается Албанской церкви, то она полностью была упразднена, лишена юридического права существования, и стала составной частью Армянской эчмиадзинской церкви, которая, в свою очередь, никогда не имела своих епархий на Кавказе. В результате конфессиональной реорганизации, произведённой царизмом, Албанская и Грузинская апостольские автокефальные церкви лишились своего самостоятельного католикосата. Сан католикоса этих церквей был упразднён: иверского в 1811 г., имеретинского в 1814 г., албанского в 1836 г. [19, с.110-111; 21, с.238]. Этот церковный сан с соизволения царизма был сохранён лишь за главой Армянской эчмиадзинской церкви, что возвышало значимость этой церкви, не имевшей прежде

никаких епархий на Кавказе, над другими церквами в этом крае. В 1834–1844 гг. экзархом Грузии был албанец-удин Евгений Бежанов [17, с.110-111]. После упразднения Албанской церкви представители Гасан-Джалаловского рода до 1877 г., вначале в сане митрополита, а затем архиепископа, являлись только епархиальными начальниками одной Карабахской епархии Армянской Эчмиадзинской церкви. Как пишет источник XIX в., «в Шуше почти тотчас же после кончины Агванского католикосата восседали епархиальные начальники Карабаха, начиная от Багдасара» Гасан-Джалалова [4, ч.I, 134], который согласно данным «Кавказских календарей», являлся архиепископом, епархиальным начальником Карабахской епархии до 1854 г. [14, на 1846 год, 194; на 1847 год, 213; на 1853 год, 544; на 1854 год, 625]. В сложных условиях упразднения Албанского католикосата и преобразования Албанской Апостольской автокефальной церкви в Карабахскую епархию Армянской Эчмиадзинской церкви, митрополит Багдасар Гасан-Джалалов с целью сохранения исторической памяти и объединения поздних албан в 1839 г. впервые публикует в Шуше труд албанского католикоса XVIII в. Есайи Хасан-Джалаляна «Краткая история страны Албанской», историю борьбы албанцев в 1702–1722 гг. под руководством самого католикоса Есайи Хасан-Джалаляна за свою независимость в условиях господства двух империй – Сефевидской и Османской. Согласно источнику XIX в., митрополит Багдасар Гасан-Джалалов собрал в Шушинском епархиальном управлении архив рукописей и книг, наибольшая часть из которых исчезла сразу после его смерти в 1854 г. [14, ч.II, 222]. Можно утверждать, что в этот архив входили албанские рукописи, и, вполне очевидно, в 1854 г. Армянская Эчмиадзинская церковь способствовала его исчезновению. Багдасар Гасан-Джалалов был последним представителем албанского духовенства в сане митрополита. На его примере хорошо прослеживаются изменения в церковной иерархии во второй половине XIX в., проводимые царизмом.: церковный сан митрополита был временно дарован царским правительством экзархам Грузии с 1811 г. до 40-х гг. XIX в., ибо в «Кавказском календаре» на 1846 г. экзарх Грузии уже значится в звании архиепископа [14, на 1846 год, III, 188]. Глава же Карабахской епархии до 1854 г. Багдасар Гасан-Джалалов был наделён одновременно санами: митрополита, архиепископа, епархиального начальника Карабахской епархии. Другой представитель Гасан-Джалаловского рода Саркис Джалалянц был назначен епархиальным начальником Карабахской епархии в 1865 г., который уже только в сане архиепископа (1859–1879) являлся членом Эчмиадзинского синода (1859–1864; 1869–1874); председателем консистории Карабахской епархии (1865–1868; 1874–1879), епархиальным начальником Карабахской епархии (1865–1879) [14, на 1858, 476; на 1860,25; на 1861, 31; на 1863, 387; на 1864, 331; на 1866, 42, 44; на 1867, 41-42; на 1868,15-16; на 1869, 52-53; на 1870, 59-60; на 1871, 63; на 1873, 75-76; на 1874, 80-81; на 1875,62; на 1876, 65-66; на 1877, 71; на 1878, 75; на 1879, 65; на 1880, 74]. В те годы, когда он был членом Эчмиадзинского Синода, он не являлся председателем Консистории Карабахской епархии.

Таким образом, в результате конфессиональной церковно-иерархической реорганизации, произведённой царизмом, был ликвидирован католикосат двух апостольских автокефальных церквей на Кавказе – Албанской и Грузинской. Сан католикоса был сохранён лишь для главы Армянской эчмиадзинской церкви с расширением его полномочий на Кавказе и за пределами Кавказа. Сан католикоса Грузинской церкви был низведён до сана архиепископа и экзарха Грузии. Но если за экзархом Грузии было сохранено право возглавлять грузинское духовенство, то понятие «албанское духовенство» было изъято, вообще, а глава Албанской апостольской автокефальной церкви был трансформирован в епархиального начальника другой церкви, т.е. Армянской церкви.

С 1836 г. Армянская Эчмиадзинская церковь приступает к уничтожению и трансформации албанского историко-этнокультурного наследия в армянское и деэтнизации албанского христианского населения. Она способствует разрушению албанских культовых сооружений или преобразованию части их в действующие армянские. Источник XIX в. сообщает, что «албанские монастыри до 1828 г. были обитаемы и в цветущем состоянии. После ликвидации Агванского католикосата, т.е. после 1828 г. монастыри постепенно начали хиреть, лишаться монашеских групп и, оставаясь без присмотра, по большей части стали разрушаться» [4, ч.I, 5]; «ни одна область не имеет столько подобных святынь и мест поклонения, тем не менее, ни в одной области монастыри, скиты и святыни до такой степени полностью не лишены своей моральной и материальной славы, как монастыри и святыни» в Карабахе в конце XIX в. [4, ч.I, 8]. К концу века в них царило полное опустошение, разрушение, отсутствие материального благосостояния, церковного ухода, церковной службы, они покрывались деревьями изнутри и снаружи, в них бродили олени [4, ч.I, 69-70, 76-78, 85-86, 105, 151-155, 160-162, 169-170; ч.II, 205-207, 211, 241-242, 246-249, 254-255, 279; 56, 107-119]. Все албанские монастыри, являющиеся центрами епископств Албанского католикосата, процветающие до 1828 г., были планомерно разрушены для того, чтобы перестать быть центрами духовного единения христианского албанского населения. Зато Армянская эчмиадзинская церковь стала увеличивать число армянских григорианских церквей [14, на 1866 год (хронология), 9-46; на 1868, (хронология), 101-141], которые и должны были выполнять эту церковную службу и в которые албанское христианское население должно было просто влиться [4, ч.II, 385, 387, 388]. Это, в свою очередь, привело к григорианизации, арменизации части албанского христианского населения Карабаха [10, с.79-92]. Другая часть этого населения приняла ислам или православие, став прихожанами Русской или Грузинской православных церквей. Примечательно то, что, находясь на протяжении веков в составе азербайджанских мусульманских государств, в окружении мусульманского населения, в условиях непрерывных персидско-турецких, русско-иранских войн до 1828 г. христианское албанское население Карабаха сохранило свою

этническую самобытность, самосознание, выраженное в историко-литературных трудах. И лишь оказавшись в составе Российской империи, Албанская церковь с албанским христианским этносом за полстолетия, к концу XIX в. будучи в составе Армянской эчмиадзинской церкви была полностью насильственно трансформирована. Выявление всей разрушительной деятельности Армянской эчмиадзинской церкви на протяжении всего XIX в. позволяет раскрыть весь процесс агрессивного поглощения одной автокефальной церковью наследия другой, равной по значимости христианской конфессиональной структуры в составе единой христианской империи. Армяне, руководимые Армянской эчмиадзинской церковью и зарубежным армянским лобби, с помощью Российской империи обосновались в XIX в. на Кавказе, на землях Азербайджана; с помощью Советского государства в 1920 г. на азербайджанских землях они получили государственность – Армянскую ССР. Именно ликвидация Албанского католикосата, деэтнизация албанского христианского населения Карабаха, разрушение на протяжении всего XIX в. всей албанской христианской материальной культуры Армянской эчмиадзинской церковью позволили в 80-х гг. XX в. армянской политической верхушке, предъявить свои политические права на земли Карабаха, обосновывая их псевдоисторической принадлежностью трансформированного албанского этнокультурного наследия к истории армянского народа, навязать Азербайджану многолетнюю Карабахскую войну [20, 22], унесшую многочисленные жизни азербайджанцев.

Литература:

1. Azerbaycan tarixi: 7 cilddə, IV c. (XIX əsr). Bakı: Elm, 2000.
2. Азербайджанцы. Историко-этнографический очерк. Баку: Элм, Чашыоглы, 1998.
3. Балаев А.Г. Роль конфессионального фактора в колониальной политике Российской империи (XIX–начало XX вв.) // Azərbaycan arxeologiyası va etnoqrafiyası. Bakı, 2009, № 1.
4. Бархударянц Макар. Арцах. Баку, 1895, часть I–II (арм.яз) / перевод Яргуляна, 1949- НАИИАНА инд. № 1622.2010, 415 с.
5. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990. /Полное собрание публицистических сочинений. И.Л.Величко. Том первый. СПб.: издание М.Д.Муретовой, 1904.
6. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX–начале XX вв.). Баку, 1999.
7. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане в XIX–начале XX вв.: Автореф. докт. истор. наук. Баку, 2005.
8. Вердиева Х., Гусейн-заде Р. «Родословная» армян и их миграция на Кавказ с Балкан. Баку, 2003.
9. Волкова Н.Г. Этнические процессы в Закавказье в XIX–XX вв. // Кавказский этнографический сборник IV. Академия наук СССР. Труды

Института этнографии им. Н.Н.Миклухо-Маклая. Отв.ред. В.К.Гарданов. М.: Наука, 1969, с.3-54.
10. Гаджиева У. Деэтнизация кавказских албан в XIX веке. Баку: Нурлан, 2004.
11. Гасанлы Д. 200-летие Карабахской трагедии // ООК (Организация Освобождения Карабаха). Материалы научно-практических конференций по теме «Карабах вчера, сегодня и завтра». Баку, 2009, ч.II.
12. Глинка С. Описание переселения армянъ аддербиджанских в предълы России, с кратким предварительным изложением исторических времен Армении. Москва: Типография Лазаревых Института Восточных Языков, 1831; Баку: Элм, 1990.
13. Иеромонах Алексий (Никоноров). История христианства в Кавказской Албании. Баку: Нурлан, 2005.
14. Кавказский календарь на 1846 год. Тифлис, 1845; на 1847 год. Тифлис, 1846; на 1853 год. Тифлис, 1852; на 1854 год. Тифлис, 1853; на 1859 год. Тифлис, 1858; на 1860 год. Тифлис, 1859; на 1861 год. Тифлис, 1860; на 1863 год. Тифлис, 1862; на 1864 год. Тифлис, 1863; на 1866 год. Тифлис, 1865; на 1867 год. Тифлис, 1866; на 1868 год. Тифлис, 1867; на 1869 год. Тифлис, 1868; на 1870 год. Тифлис, 1869; на 1871 год. Тифлис, 1870; на 1873 год. Тифлис, 1872; на 1874 год. Тифлис, 1873; на 1875 год. Тифлис, 1874; на 1876 год. Тифлис, 1875; на 1877 год. Тифлис, 1876; на 1878 год. Тифлис, 1877; на 1879 год. Тифлис, 1878; на 1880 год. Тифлис, 1879.
15. Каганкатваци Мойсей. История агван Мойсея Каганкатваци, писателя X века/ перевод с армян. К.Патканова. СПб.: типография Императорской Академии наук, 1861, 376 с.
16. Карабах / Под общей ред. член-корр. НАНА А.А.Аббасова. Баку: Чашыоглу, 2004.
17. Краткий очерк истории грузинской церкви и экзархата за XIX столетие. Тифлис, 1901 // Кавказский вестник. Книга XXV, ежемесячный научно-литературный журнал, год третий, № 1, январь, 1902.
18. Керимова С.М. Роль армянских политиков в захвате и колониализме Азербайджана царизма: Автореф. дис…канд. ист.наук. Баку, 1995.
19. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005.
20. Мамедова Ф. Карабахская проблема // «Azərbaycan Hava Yolları» Dövlət Konserni Milli Aviasiya Akademiyası Elmi məcmuələr. İctimai fənlər. Cild 9, №1, yanvar-mart, Bakı, 2007, s.4-11.
21. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании, Баку: Элм, 1986.
22. Мамедова Ф. Причинно-следственная связь Карабахской проблемы// Проблемы истории, филологии, культуры. Москва-Магнитогорск, №2, 1995, с.215-229.
23. Православная энциклопедия под ред. Патриарха Московского и всея Руси Алексия II, т.I, 2000.

Bakının multikultural mənzərəsi
Мультикультуральный портрет г. Баку



Məşhur fizik, Nobel mükafatı laureatı Lev Landau 1924-cü ilədək Bakının Səbail rayonunda yerləşən bu binada yaşayıb

В этом доме, расположенном в Сабаильском районе г. Баку, до 1924 года жил известный физик, лауреат Нобелевской премии Лев Ландау



L.Landaunun bina üzərindəki barelyefi

Барельеф Л. Ландау на стене дома

«İkinci eşelon» anqlofon ədəbiyyatı: ağdərili «ədəbi zənci» – Harri Harrison

Harri Harrison elmi-fantastik janrda yazan məşhur Amerika yazıçılarından biridir. O, 12 mart 1925-ci ildə ABŞ-ın Konnektikut ştatının Stenford şəhərində anadan olub. Atası Henri Leo Dempsi əslən irland idi. Rusiya yəhudisi olan anası Ria H.Kiryasova Peterburq şəhərində böyümüşdü. 1943-cü ildə Forest Hill gimnaziyasını bitirdikdən sonra Harri orduya çağırılır və ABŞ Hərbi Hava Qüvvələrinin tərkibində İkinci dünya müharibəsinə göndərilir. Müharibədən sonra, o, 1946-cı ildə Nyu-Yorkdakı Hanter kollecinə daxil olur. Komikslərə və elmi-fantastik jurnallara illüstrasiyalar satan bir studiya açır. Harri 1950-ci ildə Haydra Klubda çəkdiyi illüstrasiyalarda təsvir etdiyi Evelin adlı qadınla evlənir, ancaq bir il sonra onlar boşanırlar. 1954-cü ildə ikinci dəfə evlənən Harrisonun bu nikahdan «Yer açın! Yer açın!» adlı romanında təsvir etdiyi övladları Todd və Moira dünyaya gəlir. Yazıçının ikinci evliliyi arvadı Coan Merklerin 2002-ci ildə xərçəng xəstəliyindən vəfatına qədər davam edir.

İşi ilə bağlı Harrison Meksika, İngiltərə, İtaliya, Danimarka və İrlandiya da daxil dünyanın bir çox ölkəsində yaşamalı olub. İrland mənşəli olduğuna görə öz ata-baba yurdunda vətəndaşlıq alıb. Harrison süni dil olan Esperantonun tərəfdarı idi. Bu dilə biz onun «Paslanmayan Dəmir Siçovul» və «Ölüm dünyası» əsərlərində tez-tez rast gəlirik. O, həmçinin Esperanto İrlandiya Assosiasiyasının fəxri prezidenti seçilmişdi.

Yaradıcılığa «Əcaib fantaziya» və «Əcaib elm» jurnallarında illüstratorluqla başlayan Harrison «Veyd Kaempsert», «Filip St. Con», «Feliks Boyd» və «Hank Dempsi» təxəllüsləri ilə yazılar yazmış, uzun müddət Lezli Çarterisin «Müqəddəs yolunda qan davası» adlı romanının yazılmasında «ədəbi zənci» kimi çalışmışdır. Nyu-Yorkda o, Haydra Klubunda elmi-fantastik janrda yazan İsaak Azimov, Alfred Bester, Ceyms Bliş və başqa məşhur yazıçılarla tanış olmuşdur. Harrison yumoristik və satirik elmi-fantastik janrda yazdığı «Paslanmayan Polad Siçovul» və «Bill – qalaktika qəhrəmanı» romanları ilə daha çox tanınmağa başlamışdır. Amma onun ən məşhur əsəri əhalinin həddən artıq çoxalması və dünya resurslarının istehlak edilməsi mövzusunda yazdığı «Yer açın! Yer açın!» (1966-cı il) romanıdır. Bu roman əsasında 1973-cü ildə «Yaşıl soylent» filmi çəkilib. 1983-cü ildə yazdığı «Zamanda üsyan» romanında əsərin qəhrəmanını zaman maşını ilə Amerikadakı vətəndaş müharibəsi dövrünə qaytaran Harrison düşüncə insanı ilə güc insanını üz-üzə qoyaraq bəzən fikir adamının da gücə ehtiyacı olduğunu göstərirdi.

Harri Harrison 2012-ci ilə vəfat edib.



Harri HARRİSON

Aşkelon küçələri

(fantastik hekayə)

Haradasa yuxarıda, Veskerlərin Dünyasındakı əbədi buludların gizlətdiyi bir yerdə göy guruldadı, gurultu getdikcə şiddətləndi. Tacir Qart bunu eşidən kimi dayandı. Onun çəkmələri yavaş-yavaş lıqqaya batırdı. Əlini qulağının dibinə qoyub səsi dinləməyə çalışdı. Səs nazik atmosferdə gah artır, gah azalır, ancaq getdikcə gurlaşırdı.

– Bu səs sizin kosmik gəminizin səsi ilə eynidir. İtin soyuqqanlı Vesker məntiqi ilə bu ideyanı beynində yavaş-yavaş tozlandıraraq və daha yaxından təhlil etmək üçün hissələri bir-bir beynində çevirərək dedi:

– Ancaq sizin gəminiz saxladığınız yerdədir. Biz onu görə bilməsək də, əminəm ki, o deyil. Çünki onu yalnız siz sürə bilirsiniz. Hətta başqa bir şəxs onu sürə bilsəydi də, biz onun səmaya qalxdığını eşitməli idik. Əgər biz eşitmiriksə, üstəlik, gələn səs də kosmik gəmi səsidirsə, onda bu, o deməkdir ki...

– Bəli, başqa bir gəmi, – Qart dedi. O öz fikirlərinə elə qərq olmuşdu ki, yorucu Veskerian məntiq zəncirinin öz halında sonuna qədər cingildəməsini gözləyə bilmədi. Əlbəttə, bu, başqa bir kosmik səyyah idi. Kiminsə gəlməsi an məsələsiydi, şübhəsiz, bu gəmi də, onun etdiyi kimi, S.S. radar reflektoru ilə hədəfə doğru istiqamətlənmişdi. Onun gəmisi yeni gələnin ekranında aydın şəkildə görsənəcək və güman ki, onlar bacardıqca ona yaxın yerə enməyə çalışacaqlar.

– İtin, yaxşısı budur gedin, – o dedi. – Sudan elə istifadə eləyin ki, kəndə çata biləsiniz. Hamıya deyin, geri – bataqlığa qayıtsınlar, sərt zəmindən uzaq dursunlar. O gəmi alətlərin yaxınlığına qonacaq, onun altında qalan hər kəs bişəcək.

Bu təxirəsalınmaz xəbərdarlıq kiçik Vesker amfibiyasına kifayət edirdi. Qart sözünü bitirməmiş İtin damarlı qulaqlarını yarasa qanadları kimi büküb, sakitcə sürüşərək artıq yaxındakı kanala düşmüşdü. Qart palçığın üzəriylə ayaqlarını şappıldada-şappıldada getdi.

Mümkün qədər kəsə getmək üçün yapışqan torpağın üstüylə addımlayırdı. Kəndin kənarındakı talaya təzəcə çatmışdı ki, gurultu artaraq qulaqbatıran nəriltiyə çevrildi və kosmik gəmi başının üzərindəki buludların əlçatan təbəqəsini yararaq aşağıya doğru şığıdı. Qart gözlərini yerə toxunan alovun dillərindən qorumaq üçün əllərini üzünə tutdu və qarışıq duyğular içində qaramtıl gəminin getdikcə böyüyən şəklini gözdən keçirdi. Veskerlərin Dünyasında təxminən bir il qalandan sonra istənilən növ insanla dostluq münasibəti qurmaq istəyini boğmalı idi. Aləmin bir-birinə dəydiyi belə bir vaxtda onun tacir beyni rəqəmləri alt-alta yazaraq cəmi tapmaqla məşğul idi. Bu, başqa bir tacir gəmisi də ola bilər.

Onda onun Veskerdəki ticarət monopoliyası sona çatacaqdı.

Ancaq bu, heç tacir olmaya da bilərdi.

Bu düşüncələrlə o, nəhəng bir qıjı kolunun arxasında daldalandı və əlini uzadıb silahının qoburunu açdı. Gəmi yüz kvadratmetrlik torpağı bişirib qurutdu.

Nərilti səsi kəsildi. Gəmi ayaqlarını xırçıldayan yer qabığının üzərinə basdı. Metal gövdə cırıldayaraq həmin əraziyə qondu. Ardınca da nəm havada tüstü-duman buludu aşağıya doğru hərəkət etdi.

– Qart, yerliləri aldadan fırıldaqçı, hardasan?

Meqafonu guruldayan gəminin cizgiləri bir az tanış gəlirdi, ancaq qulaqbatıran səsin tonunda heç bir səhv ola bilməzdi. Qart açıqlığa çıxıb gülümsədi və barmaqlarını dodaqlarına yaxınlaşdırıb fit çaldı. Yönəldilən mikrofon gəminin gövdəsindəki qabından cırıltıyla çıxıb ona tərəf yönəldi.

– Sinqh, sən burda nə edirsən? – o, mikrofona sarı bağırdı. – Özünə planet tapmaq üçün hər hiyləyə əl atırsan. Bura gəlmisən ki, halal bir tacirin qazancını oğurlayasan?

– Halal! – mikrofondakı səs guruldadı. – Bunu türməyə fahişəxanadan çox getmiş birisi deyir. Bağışla, uşaqlıq dostum, ancaq bu yerli zərərvericilərin yuvalarını istismar etmək üçün sənə qoşula bilməyəcəm. Mən atmosferi daha yaxşı qurulmuş dünyaya gedirəm.

– Pullar orada məni gözləyir. Burada ona görə dayandım ki, taksi xidməti göstərib halal kredit almaq fürsəti əlimə düşmüşdü.

– Sənə bir dost gətirmişəm. Əla dostdur. İşlərində kömək eləyəcək sənə. Tamam fərqli sahənin adamıdır. Gəlib səninlə salamlaşmaq istərdim, ancaq sonra bakteriyaları dezinfeksiya eləməyə məcburam. Şlüzlə sərnişini endirirəm. Ümid eləyirəm ki, onun yükünə əl atacaqsan...

Demək, ən azı planetdə başqa tacir olmayacaq. Daha narahat deyildi. Ancaq Qarta hələ də maraqlı idi ki, inkişaf etməmiş dünyaya, sadəcə, gediş bileti alıb gələn adam necə biri ola bilər. Bir də Sinqhin səsindəki şadyanalığın arxasında hansı gizli eyham vardı? O, gəminin o biri tərəfinə, trapın qoyulduğu yerə keçdi. Başını qaldıranda karqo şlüzündə böyük bir taxta qutunu havayı yerə dartışdıran adamı gördü. Adam ona tərəf dönəndə Qart ruhanilərin taxdığı yaxalığı görüb, Sinqhin niyə rixşəndlə danışdığını anladı.

– Burda nə edirsən? – Qart soruşdu. Özünü ələ almağa çalışsa da, sözləri bağıra-bağıra dedi. Ancaq adam onu vecinə almadı. O, hələ də gülümsəyirdi. Trapla aşağı düşəndə əlini uzatdı:

– Mark ata, – dedi, – Missioner Qardaşlar Cəmiyyətindən. Sizinlə görüşməyə çox...

– Mən soruşdum ki, burda nə edirsiniz? – Qart artıq səsinə nəzarət eləyə bilirdi. Səsi sakit və soyuq idi. O, nə etməli olduğunu bilirdi: bu iş ya dərhal görülməli, ya da heç bir zaman edilməməli idi.

– Zənnimcə, bu, aydın olmalıdır, – Mark ata dedi. O, hələ də iltifatlı idi. – Bizim cəmiyyətimiz tarixdə ilk dəfə yad planetlərə ruhani emissarlar göndərmək üçün pul yığdı. Mən olduqca bəxtəvərəm ki...

– Yükünüzü də götürün, qayıdın gəmiyə! Sizi burada heç kim arzulamır. Burada qalmağa icazəniz də yoxdur. Sizi kimsə öhdəliyə götürməlidir. Veskerlərin Dünyasında sizin qeydinizə qalası kimsə tapılmaz. Qayıdın gəmiyə.

– Cənab, mən bilmirəm siz kimsiniz və mənə niyə yalan danışırsınız? – keşiş dedi. O, hələ də sakit idi, ancaq artıq gülümsəmirdi. – Mən qalaktika qanunlarını da, bu planetin tarixini də çox yaxşı öyrənmişəm. Burda mənim qorxmalı olduğum heç bir xəstəlik, ya heyvan yoxdur. Bura həm də açıq planetdir. Kosmik Tədqiqat bu statusu dəyişənə q ədər sizin kimi mənim də burada qalmaq hüququm var.

Əlbəttə, adam haqlı idi, ancaq Qart onun bunu bilməsinə icazə verə bilməzdi. O, blef eləmişdi. Ümidi buna idi ki, keşiş öz hüquqlarını bilmir. Ancaq bilirmiş. Onun üçün geridə dəhşətli bir yol qalmışdı, vaxt varkən həlledici addımı atması yaxşı olardı.

– Gəmiyə qayıt! – o qışqırdı, bu dəfə artıq qəzəbini gizlətmirdi. Səlis bir hərəkətlə silahını qoburdan çıxarıb lüləsini keşişin qarnından bir neçə santimetr aralı tutdu. Adamın rəngi ağardısa da, yerindən qımıldanmadı.

– Qart, nə edirsən? – Sinqhin heyrətli səsi meqafondan cırıldadı. – Adam yolpulunu ödəyib, onu bu planetdən qovmağa sənin ixtiyarın yoxdur!

– İxtiyarım var! – Qart silahı keşişin qaşlarının arasına tuşlayıb dedi. – Gəminin göyərtəsinə qayıtması üçün ona otuz saniyə vaxt verirəm, yoxsa tətiyi çəkəcəyəm.

– Sən ya dəli olmusan, ya da zarafat eləyirsən, – onlar Sinqhin xırıldayan hirsli səsini eşitdilər. – Əgər zarafatdırsa da, axmaq zarafatdır. Ancaq istənilən halda sən bununla canını qurtara bilməzsən. Bu oyunda iki nəfər olmalıdır, ancaq mən bu oyunu daha yaxşı oynayıram!

Ağır podşipniklər guruldadı və gəminin böyründəki uzaqdan idarə olunan dörd top lüləsini fırladaraq Qartı nişan aldı:

– İndi silahını endir, Mark atanın yükünə əl at! – meqafondan əmr gəldi, səsdə yenidən yumor sezilirdi. – Mən də kömək eləmək istərdim, köhnə dost, ancaq eləyə bilmirəm. Məncə, sənin müqəddəs ata ilə danışmağın üçün yaxşı şərait var. Yer kürəsindən bura gələnə qədər mənim də onunla xeyli danışmaq imkanım oldu.

Qart məğlubiyyət acısı ilə ümidsizləşib silahı qoburuna qaytardı. Mark ata bir addım qabağa gəldi, üzünə yenidən qalib bir təbəssüm yayıldı, əbasının cibindən çıxardığı Bibliyanı yuxarı qaldırdı:

– Oğlum...

– Mən sənin oğlun deyiləm, – Qart cavab verdi. O, içində fışqıran kini, məğlubiyyət acısını güclə boğurdu. Qəzəbi artdıqca yumruqlarını sıxır, sonra yenidən açırdı.

Külək nazik palçıq qatının üzərinə səpələnmiş ağ vərəqləri uçurur, keşiş ora-bura qaçaraq vərəqləri toplamağa çalışırdı. İtin və digər veskerlər baş verənləri laqeyd bir maraqla izləyirdilər. Onların dilə gətirmədikləri sualları Qartın cavablamaq niyyəti yox idi. O, birbaşa evinin yolunu tutdu, ancaq onların hələ də hərəkətsiz dayandıqlarını görüb arxaya döndü:

– Yeni insan gəlib, – dedi, – ona kömək eləmək lazımdır. Əgər əşyalarını qoymağa yeri olmasa, özünə yer tapana qədər onları böyük anbarda saxlaya bilərsiniz.

Qart veskerlərin boş sahəni keçib, yayxana-yayxana gəmiyə sarı getmələrinə baxdı. Sonra içəri girdi. Qapını möhkəm çırpandan sonra bir az rahatladı. Elə bərk çırpdı ki, qapının üstündəki şüşələrdən biri çatladı. Əlamətdar günlər üçün saxladığı İrlandiya viskisinin birini açıb içmək də ona eləcə əzablı zövq verdi. Belə götürəndə bu gün də yetərincə əlamətdar gün idi.

Viski yaxşı getdi, ağzının dadını bir az dəyişdi.

Əgər taktikası işləsəydi, uğur hər şeyə bəraət qazandıracaqdı. Ancaq o, məğlub oldu. Məğlubiyyət ağrısının üstünə özünü gülünc vəziyyətə qoymağının əzablı acısı da gəldi. Sinqh sağollaşmadan havalandı. Bütün olanların onda hansı hisslər yaratdığı barədə heç nə demədi. Ancaq o, şübhəsiz, Tacirlər Lojasına qəribə hekayələr çatdıracaqdı. Bu da Qartın lojaya üzv olmasına növbəti dəfə maneçilik törədə bilər. İndisə o, missionerlə işləri ayırd eləməyə başlamalıdır.

Gözünün ucuyla çölə baxanda kişinin yıxılan çadırını dikəltmək üçün yağışın altında necə əlləşdiyini gördü. Bütün kənd əhli sıraya düzlənib onun tamaşasına durmuşdu. Təbii ki, heç biri də keşişə kömək eləmirdi. Mark ata çadır qurub qutularını, çantalarını onun içinə yerləşdirənə qədər yağış dayandı. Şüşədəki viski də azalmışdı.

Bu vaxt Qart qaçılmaz görüşə can atdığını hiss elədi.

Əslinə qalsa, həmin adamla söhbətləşməyi səbirsizliklə gözləyirdi. Bütün bu çirkin işlər bir kənara, uzun sürən bir ildən sonra hər növ insanla dostluq eləməyə hazır idi.

Köhnə fakturanın arxasına yazdı: «Mənimlə nahar edərsinizmi? Con Qart». Ancaq adam çox qorxub, bəlkə də gəlməyəcək.

Gəlməsə, demək, münasibət qurmaq imkanı da olmayacaq. Taxta çarpayının altını eşələyib böyük bir qutu tapdı, tapançanı qutuya qoydu.

Qapını açanda gördü ki, İtin çöldə gözləyir – Bilgi Toplayan kimi onun vəzifəsi bu idi. Qart kağızı da, qutunu da İtinə verdi:

– Bunları, zəhmət olmasa, yeni gələn adama apar.

– Yeni adamın adı «Yeni Adam»dır? – İtin soruşdu.

– Yox, – Qart hirsləndi, – adı Markdır. Ancaq mən səndən, sadəcə, bunları ona çatdırmağını istəyirəm, onunla danışmağını yox.

Hər dəfə o, hövsələdən çıxanda hər şeyi hərfi mənada başa düşən veskerlər raundu qələbəylə başa vururdular.

– Sən danışmağımızı istəmirsən, – İtin aramla dedi, – ancaq Mark söhbət eləmək istəyə bilər, üstəlik, başqaları da məndən onun adını soruşacaq. Əgər mən onun adını bilmə…

Qart qapını çırpdığı üçün səs kəsildi. Bu üsul uzun müddət işə yaramayacaqdı, çünki növbəti dəfə, deyək ki, bir gün, bir həftə, hətta bir ay sonra o, İtini görəndə monoloq hansı sözdə qalmışdısa, oradan da davam etməyə başlayacaq, fikirlər köhnəlmiş sonluq ətrafında fırlanacaqdı. Qart dodağının altında lənət oxuya-oxuya qoyub getdiyi bir cüt dadlı qatqının üstünə su tökdü.

– Gəl!

Qapı yüngülcə döyülürdü. Keşiş içəri girib silah olan qutunu irəli uzatdı:

– Qonaqlıq üçün sağ olun, bunu göndərməyə sizi cəsarətləndirən ruhu alqışlayıram. Mən bura enəndə nəyin xoşagəlməz hadisələrə səbəb ola biləcəyi haqda heç bir təsəvvürüm yox idi. Ancaq düşünürəm ki, bir müddət bu planetdə yaşamaq istəyiriksə, yaxşısı budur olanları unudaq.

– İçin! – Qart qutunu alandan sonra stolun üstündəki şüşəni göstərdi, iki stəkanı ağzınacan doldurub birini keşişə verdi. – Bu, mənim fikrimdə olanlarla bağlıdır, ancaq burda baş verənləri sizə izah eləməyi özümə borc bilirəm.

Bir anlığa qaşlarını çatıb stəkana baxdı, sonra badəsini qaldırdı:

– Nəhəng kainatdır, düşünürəm ki, bacardığımız qədər anlayışla yanaşmalıyıq. Məncə, sağlam fikirli olmağın təməli budur.

– Allah səninlə olsun! – Mark ata stəkanını qaldırdı.

– Nə mənimlə olsun, nə də bu planetlə, – Qart ciddi-ciddi dedi, – işin mahiyyəti də elə bundadır.

O, stəkanı başına çəkib köks ötürdü.

– Siz bu sözləri məni heyrətləndirmək üçünmü deyirsiniz? – Keşiş gülə-gülə soruşdu. – Əmin olun ki, bu gediş bir işə yaramadı.

– Məqsədim sizi heyrətləndirmək deyildi. Mən sözümü tam hərfi mənada dedim. Səhv eləmirəmsə, mənim kimi adamları siz ateist adlandırırsız. Açığı, din məni maraqlandırmır. Bu yerli adamlar daş dövrünün sadəlövh, bilgisiz varlıqlarıdır. Xurafatsız, Allahsız bura qədər gələ biliblər. Ümid eləyirdim ki, belə də gedəcəklər. – Siz nə danışırsınız? – Keşiş üzünü turşutdu. – Demək istəyirsiniz ki, bunların tanrısı yoxdur, axirətə də inanmırlar? Bəs bunlar ölmürlər?..

– Onlar da ölürlər, ölüb heyvanlar kimi toza çevrilirlər. Onların da ildırımı, ağacları, suları var, ancaq ildırım allahları, ağacda yaşayan ruhları, su pəriləri yoxdur. Onların ifritələri özlərinə işlətmək üçün sehrli dualar, məkrli allahları, tabuları yoxdur. Onlar mənim bugünəcən qarşılaşdığım ən primitiv, xurafatdan tam uzaq canlılardır. Buna görə də cismən daha möhkəm, daha sağlam, ruhən daha xoşbəxtdirlər. Mən onların elə belə də qalmasını istəyirəm.

– Siz onları Allahdan, xilas yolundan uzaq tutmaq istəyirsiniz? –Keşişin bərələn gözləri yüngülcə səyridi.

– Xeyr, – Qart dedi, – mən onları daha çox öyrənib bilənə, dünyanı az-çox dərk eləyənə qədər xurafatdan uzaq saxlamaq istəyirəm.

– Cənab, siz kilsəni xurafata bərabər tutmaqla onu təhqir edirsiniz…

– Xahiş edirəm, – Qart əlini qaldırdı, – heç bir dini, teoloji arqumentə ehtiyac yoxdur. Yəqin, sizin cəmiyyət bu səyahətin xərcini ona görə çəkməyib ki, burda məni dinə-imana gətirəsəniz. Birdəfəlik bu faktı qəbul edin ki, mən öz inancıma uzun illərin əzablı düşüncələrindən sonra gəlmişəm və heç bir natamam metafizika məni yolumdan sapdıra bilməz. Söz verirəm ki, sizi öz dininizdən döndərməyə cəhd göstərməyəcəm, bir şərtlə ki, siz də eynən bu yolu tutasınız.

– Razılaşdıq, cənab Qart. Sizin də buyurduğunuz kimi, mənim burada missiyam bu ruhları xilas eləməkdir, görməli olduğum bütün iş-güc elə bundan ibarətdir. Ancaq mənim işim sizi niyə bu qədər narahat eləyir ki, hətta mənim bura enməyimə əngəl olmağa çalışırdınız, məni silahla hədələyirdiniz, hələ bir…

Keşiş birdən susub stəkanın içinə baxdı.

– Hələ bir sizinlə dalaşıram da? – Qart üz-gözünü turşudub soruşdu. – Bunun bir bəhanəsi yoxdur, demək istəyirəm ki, buna görə təəssüflənirəm. Həqiqətən sizə qarşı pis davrandım. Sizə bütün işlərinizi sona çatdırmağa yetəcək qədər ömür arzulayıram.

O, gözlərini stolun üstünə qoyduğu iri əllərinə zilləyib fikrə getdi. Əlinin içindəki qabarları, çapıqları xatirə kimi oxumağa başladı.

– Gəlin bunu yaxşı sözlərin çatışmazlığından doğan xoşagəlməz hadisə adlandıraq. Sizin işiniz insan beyninin dərin qatlarına enməyə imkan verir. Yəqin ki, motivlər barədə, xoşbəxtlik haqqında az-çox bilirsiniz. Mən də bir yerdə yurd salmağı, ailə qurmağı düşünmədən həlləm-qəlləm ömür yaşamışam, ancaq bundan sonra xoşbəxtliyi bir də əldən qaçırmaram. Ola bilsin, radiasiya sızması mənim beynimi bir az yumşaldıb, ancaq mən bu qıllı, balığabənzər veskerlərin mənim balalarım olduğunu düşünməyə başlamışam. Bu səbəbdən də özümü onlara görə cavabdeh sayıram.

– Hamımız Onun övladlarıyıq, – Mark Ata cəld dilləndi.

– Bunlardır Onun əsl övladları, Onun varlığını təsəvvür eləyə bilməsələr də, – Qart cavab verdi.

İncə duyğularını büruzə verdiyinə görə birdən-birə onun özünə acığı tutdu. Ancaq o dəqiqə də özünü unutdu. Qəfil ürəyində baş qaldıran bir eşqlə qabağa əyilib:

– Bunun önəmini anlaya bilmirsiniz? – dedi. – Bu veskerlərin arasında bir az yaşayın, onda insanların daim arzuladığı sadə, xoşbəxt həyatın nə demək olduğunu görəcəksiniz. Siz onların həyatından zövq alacaqsınız, heç kimə də əzab verməyəcəksiniz. Nəyə görəsə onlar barsız-bəhərsiz dünyada yaranıblar. Buna görə də onların daş dövründən irəli getmək şansları olmayıb. Ancaq ağılda bizə oxşayırlar, hələ bəlkə bizdən də yaxşıdırlar. Hamısı mənim dilimi öyrənib. Buna görə də mən onlara öyrənmək istədiklərini asanlıqla izah eləyə bilirəm. Bilik qazanmaq onlara zövq verir.

Bəzən çox əsəbi olurlar, çünki hər yeni fakt özündənəvvəlki səbəblərə zəncir kimi bağlı olmalıdır. Ancaq onlar nə qədər öyrənirlərsə, bu proses də bir o qədər sürət götürür. Bir gün onlar hər sahədə insanlara çatacaqlar. Bəlkə bizi də ötüb-keçəcəklər, əgər... Siz mənim bir xahişimi yerinə yetirərsiniz?

– Əlimdən gələn hər şeyi eləməyə hazıram.

– Onları rahat buraxın. Lazım gələrsə, onlara tarix, cəmiyyət, fəlsəfə, hüquq öyrədin, kainatın reallıqları ilə üzləşmək ehtimalı yaranarsa, onlara kömək ola biləcək başqa biliklər öyrədin.

Ancaq nifrət, əzab, günah, cəza kimi şeylərlə onların başını doldurmayın. Bu varlıqların xeyrini-ziyanını kim bilir...

– Siz təhqirə keçirsiniz, cənab!

Keşiş yerindən sıçradı. Onun çal başının təpəsi yekəpər kosmonavtın çənəsinə güclə çatırdı. Ancaq inancının müdafiəsinə qalxan keşişin üzündə qorxu-filan duyulmurdu. Qart da toxtaq dayanmışdı, artıq peşmanlıq hissi keçirmirdi. Onlar özünü haqlı sayan bütün kişilər kimi qabaq-qabağa dimdik durub nifrətlə bir-birinə baxırdılar.

– Təhqir sizin dediklərinizdir, – Qart qışqırdı. – Bu xudbinliyi bir qırağa qoyun! Sizin minlərlə insanı hələ də boyunduruqda saxlayan uydurma, əfsanə dininiz onların körpə beynini çaşdırmaqdan başqa heç nəyə yarayan deyil. Hələ də başa düşmürsünüz ki, onlar yalnız həqiqətə inanırlar, yalanın nə olduğunu bilmirlər. Onlar hələ başqalarının özlərindən fərqli düşünə biləcəyini anlamaq dərəcəsinə çatmayıblar. Siz onları bundan qoruya...

– Mən Onun iradəsi ilə öz borcumdan çıxacağam, cənab Qart. Bunlar da Allahın yaratdığı canlılardır, onların da ruhu var. Mənim borcum Onun sözünü onlara çatdırmaqdır ki, bəlkə xilas olalar, ruhları Allahın dərgahına qayıda bilə. Mən öz borcumu çiynimdən ata bilmərəm.

Keşiş qapını araladığı vaxt külək güclü zərbə ilə onu taybatay açdı. Mark Ata fırtınanın silib-süpürdüyü qaranlıqda yoxa çıxdı, qapı irəli-geri açılıb-örtüldükcə yağış damcıları içəri səpələndi.

Qart qapını bağlayanda keşişin çəkmələrinin yerə düşmüş palçıqlı izlərini gördü.

O, fırtınada şikayət etmədən səbirlə oturmuş İtinin qabağını kəsdi. İtin gözləyirdi ki, Qart bir anlıq dayanacaq və sonsuz biliklərindən ona da bir az öyrədəcək.

Birinci gecədən razılığın baş tutmadığını bir də heç zaman açıb-ağartmadılar. Bir neçə günlük yalqızlıq onlara daha da pis təsir etdi. Çünki ikisi də o birinin qaldığı yeri bilirdi. Onlar özlərini neytral torpaqlar haqqında ehtiyatla danışan adamlar kimi aparırdılar. Qart öz mallarını yavaş-yavaş paketləyib gizlədirdi. Heç vaxt boynuna almırdı ki, onun işi artıq bitib, hər dəqiqə gedə bilər. Onun saysız-hesabsız maraqlı dərmanları, bitkiləri vardı, bunlar yaxşı gəlir gətirə bilərdi. Veskerlərin əl işləri, söz yox ki, əntiq bazarında sensasiya yaradacaqdı. Bu planetdə sənətkarlıq onun gəlişindən əvvəl geniş yayılmamışdı, ona qədər əsasən min bir əziyyət hesabına daşla ağac yonurdular. O, özüylə veskerlərə alətlər, xam materiallar gətirmişdi, bundan başqa heç nə eləməmişdi. Bir neçə aya veskerlər nəinki yeni materiallarla işləməyi öyrəndilər, üstəlik, onun

heç vaxt görmədiyi formalarda əl işləri yaratdılar. Qarşıda onun görəcəyi iş bu mallara ilkin tələb yaratmaq üçün onları bazara çıxarmaq, sonra yenə mal dalınca geri qayıtmaq idi. Qarşılığında veskerlər yalnız çoxlu kitab, cürbəcür alətlər, bir də bilik istəyirdilər. Qart bilirdi ki, onlar öz cəhdləri sayəsində qalaktika birliyinə qoşulacaqlar. O buna çox ümid edirdi.

Ancaq səmtini dəyişən külək onun öz kosmik gəmisinin ətrafında saldığı qəsəbədən əsirdi. Artıq o, diqqət mərkəzində deyildi. Kənd həyatının fokus nöqtəsi o deyildi artıq. O, özünün hakimiyyətdən salındığını düşünəndə istehzayla gülürdü. Ancaq gülüşündə çox az yumor vardı. Ciddi və diqqətli veskerlər hələ də Bilgitoplayanlar kimi növbəyə dururdular. Ancaq onların quru faktları qeydə almaları keşişi əhatə edən intellektual fırtınayla kəskin təzad təşkil edirdi. Qart hər kitabın, hər maşının müqabilində onları işlədirdisə, keşiş verdiklərini onlara qarşılıqsız verirdi. Qart bilik təminatında təkamül xətti tutmağa çalışırdı. O, yerli adamlarla zəkalı, ancaq savadsız uşaq kimi davranırdı; onların qaçmazdan əvvəl yerimələrini, hər növbəti addıma alışmalarını istəyirdi. Mark Ata isə onlara, sadəcə, xristianlığın faydalarını gətirmişdi. Onun tələb etdiyi fiziki işlər yalnızca kilsənin, ibadətgahın inşasını öyrənməkdən ibarət idi.

Ucu-bucağı görsənməyən bataqlıq planetində çoxlu vesker peyda oldu, bir neçə gün içində dam quruldu, damı saxlayan sütunlar dikəldildi. Hər səhər bura toplaşanlar divarların tikintisində bir az işləyəndən sonra göylər səltənəti ilə bağlı verilən vədləri eşitmək üçün içəridə yer tutmağa tələsirdilər. Qart veskerlərin yeni məşğuliyyəti haqqında nə düşündüyünü onlara deməmişdi, əsas da ona görə ki, onlar bu barədə ondan heç nə soruşmamışdılar. İstəkli dinləyicilərindən birinin qolundan tutub qəlbindəki incikliyi açıb-tökməməsi üçün Qarta, sadəcə, qüruru və şərəfi mane olurdu. Bəlkə də İtin Bilgi Kollektorunda olsaydı, hər şey fərqli olardı. Aralarında ən zəkalısı o idi. Ancaq keşiş gələndən bir gün sonra İtinin də üzü döndü deyə o gündən Qart onunla danışmadı. Veskerlərin dünyasında bir gün bizim dünyamızın üç mislinə bərabər idi. On yeddi belə uzun gündən sonra bir nümayəndə heyətinin Qartın qapısına gəlməsi çox təəccüblü idi. Qart səhər yeməyindən sonra ortalığa çıxdı. Onların sözçüsü İtin idi, onun ağzı azca aralanmışdı. Bir çox veskerli də onun kimi ağzını ayırmışdı. Onlardan biri hətta əsnədi də; əsnəyəndə onun iki cərgə düzülmüş iti dişləri və bənövşəyi rəngə çalan qara boğazı görsəndi. Ağızların açıqlığı Qartda görüşün ciddiliyi təəssüratını yaratdı: bu, veskerlərin ifadə formalarından biri idi – Qart bunu müəyyənləşdirməyi çoxdan öyrənmişdi. Açıq ağız onlarda hansısa hissin, deyək ki, xoşbəxtliyin, kədərin, əsəbin... gücünü göstərirdi. Ancaq Qart ağzıaçıq olduları vaxt onların nə hiss keçirdiklərini heç zaman təyin eləyə bilmirdi. Veskerlər adətən sakit dolanardılar, odur ki, o, birdən-ikiyə bu qədər ağzıaçıq veskerli görməmişdi. Onlar Qartı dövrəyə almışdılar.

– Bizə kömək edərsinizmi, Qart? – İtin dedi. – Bizim sizə bir sualımız var.

– Bütün suallarınıza cavab verməyə hazıram, – Qart qətiyyətlə dedi. – verin sualınızı.

– Allah varmı?

– Allah deyəndə nəyi nəzərdə tutursan? – Qart soruşdu və dərhal da düşündü: «Bunlara indi nə deyim? Bunların beynində nə baş verir ki, bu suala gəlib çıxıblar?»

– Allah, yəni cənnətdəki Atamız. Bizi yaradan, bizi qoruyan Tanrımız. Bizim dua etdiyimiz. Cənnətdə bizə yer verəcək…

– Bəsdir, – Qart dedi, – Allah yoxdur.– İndi onların hamısının, hətta İtinin də ağzı açıldı. Onun cavabı haqqında düşünürdülər. Qart bu məxluqları yaxşı tanımasaydı, onların iki cərgə çəhrayı dişlərindən qorxardı. Bir anlığa narahat oldu ki, bəlkə onlar artıq dini qəbul ediblər, ona da kafir kimi baxırlar? Ancaq tez bu fikirləri başından atdı.

– Sağ ol, – İtin dedi və onlar dönüb getdilər. Hava sərin olsa da, Qart tərləmişdi, baş verənlər ona hədsiz maraqlı gəlmişdi. Cavab çox da gecikmədi.

Günorta İtin geri qayıtdı.

– Siz kilsəyə gələrsinizmi? – soruşdu. – Oxuduqlarımızın çoxunu öyrənmək çətindir. Ancaq heç biri bunun qədər çətin olmamışdı. Bizə sizin köməyiniz lazımdır, biz sizin də, Mark Atanın da dediklərini bir vaxtda eşitməliyik. Ona görə ki, onun doğru dediyinə siz yalan deyirsiniz. Bunların ikisi də eyni vaxtda doğru ola bilməz. Biz nəyin doğru olduğunu tapmalıyıq.

– Əlbəttə gələrəm, – Qart birdən-birə özündə yaranmış ruh yüksəkliyini gizlətməyə çalışdı. O, heç bir addım atmamışdısa da, veskerlər özləri onun qapısına gəlmişdilər. Demək, onların qurtuluşuna hələ də ümid vardı. Kilsənin içərisi isti idi. Qart ora yığılmış veskerləri görəndə heyrətləndi. Əvvəllər o, bu qədər veskeri bir arada görməmişdi. Çoxunun ağzı açıq qalmışdı. Mark Ata üstü kitabla dolu masanın arxasında oturmuşdu. O, çox bikef görsənirdi, ancaq Qart içəri girəndə heç nə demədi. Birinci Qart danışmağa başladı:

– Güman ki, gəlişimə onların səbəb olduğunu bilirsiniz. Onları mənim yanıma azad iradələri gətirmişdi.

– Bilirəm, – keşiş taleyi ilə barışmış bir tərzdə dedi. – Bəzən onlar çox qəliz olurlar. Ancaq onlar nəyin önəmli olduğunu öyrənmək istəyirlər, inanmaq istəyirlər.

– Mark Ata, tacir Qart, bizə sizin köməyiniz lazımdır, – İtin dedi. – İkiniz də bizim bilmədiyimiz çox şeyi bilirsiniz. Siz bizə inanılması elə də asan olmayan dinə gəlməkdə kömək eləməlisiniz.

Qart nəsə demək istədi, ancaq fikrini dəyişdi. İtin davam etdi:

– Biz Bibliyanı da, Mark Atanın bizə verdiyi qalan kitabları da oxuduq. Burada hər şey aydındır. Hamımız bunları müzakirə eləyib bir razılığa gəldik. Bu kitablar tacir Qartın verdiyi kitablardan çox fərqlidir. Tacir Qartın kitablarında bizim görmədiyimiz kainat Allah olmadan fırlanır. Çünki həmin kitablarda Allahın adı çəkilmir. Biz bunu diqqətlə axtarmışıq. Mark Atanın kitabında isə Allah hər yerdədir, O olmadan heç nə hərəkət edə bilmir. Bunlardan biri doğru, o biri yalnış olmalıdır. Bunun necə ola biləcəyini biz bilmirik, ancaq hansının doğru olduğunu müəyyənləşdirəndən sonra bəlkə də bildik. Əgər Allah yoxdursa...

– Əlbəttə var, övladlarım, – Mark Atanın səsində həyəcan hiss edilirdi, – hamımızı yaradan, cənnətdə bizi gözləyən Atamız…

– Bəs Allahı kim yaradıb? – İtin bunu soruşanda pıçıltı kəsildi. Veskerlər hamılıqla Mark Ataya baxırdılar, bütün gözlər keşişə zillənmişdi. Bu vəziyyət onu bir az gərginləşdirdi. Sonra Mark Ata gülümsədi:

– Allahı heç kim yaratmayıb, çünki tək yaradıcı Odur. O, həmişə olub.

– Əgər O həmişə var olubsa, niyə kainat da həmişə var ola bilməz? Yəni yaradıcı olmadan...

Sözlər İtinin ağzından sel kimi axırdı. Sualın onlar üçün nə qədər önəmli olduğu aydın idi. Keşiş yavaş-yavaş suala cavab verdi – onun gerçəkdən çox böyük səbri varmış:

– Övladlarım, bu suala belə asan cavab vermək olmaz. Hətta alimlər də kainatın yaranması ilə bağlı bir fikrə gələ bilmirlər. Onlar şübhələr əlində vurnuxarkən bizlər – işığı görənlər ətrafımızdakı möcüzələri gözdən qaçırmırıq. Yaradansız yaradılış ola bilərmi? Odur yaradan, bizim Atamız, cənnətdəki Tanrımız. Mən bilirəm ki, siz şübhə edirsiniz. Bunun səbəbi sizdə şübhə ruhunun, bir də azad iradənin olmasıdır. Mənim cavabım çox sadədir: inam. Sizə lazım olan tək budur. Sadəcə inanın.

– Sübutsuz necə inanaq?

– Sən bütün bu dünyanı Onun mövcudluğunun bir sübutu kimi görmürsənsə... Deyə bilərəm ki, inam üçün sübut lazım deyil – əgər inamın varsa!

Zalda həşir qopdu, veskerlər bu qarışıq söz yumağında kələfin ucunu tapıb həqiqət ipini ayrıca yumaqlamaq üçün öz beyinlərini işlətdikcə ağzı açılanların sayı da çoxalırdı.

– Siz nəsə deyə bilərsinizmi, Qart? – İtin az qala qışqıra-qışqıra soruşdu. – Mən sizə deyə bilərəm ki, elmi metodlara güvənin. Elm özü qarışıq hər şeyi araşdırıb, öyrənib sizə cavab verir, hansı iddianın doğru olub-olmadığını sübuta yetirir.

– Biz elə bunu istəyirik, – İtin dedi. – Artıq bəzi qərarlar da qəbul etmişik.

O, əlində nazik bir kitab tutmuşdu. Zalda oturanların başları dalğalanırdı.

– Biz Bibliyanı Mark Atanın anlatdığı kimi oxuyub cavab tapmışıq. Allah bizim üçün möcüzə göndərəcək, bununla da sübut eləyəcək ki, bizi izləyir. Biz Onu bu işarədən tanıyacağıq, tanıyıb Onun yolu ilə gedəcəyik.

– Bu, saxta qürur əlamətidir, – Mark Ata dedi. – Öz varlığını sübuta yetirmək üçün Allahın heç bir möcüzəyə ehtiyacı yoxdur!

– Ancaq bizə möcüzə lazımdır! – İtin bağırdı, insan olmasa da, onun səsində ehtiyacın doğurduğu fəryad hiss edilirdi. – Biz burada çoxlu kiçik möcüzələr, çörəklər, balıqlar, şərablar, ilanlar barədə oxumuşuq.

Onlardan burada çoxdur və çox kiçik səbəblərə görə yaranıblar. İndi bizə lazım olan yalnız möcüzədir. Siz dediyiniz kimi, O bizim hamımızı Onun taxtına tapınan yeni dünyanın möcüzəsinə, öz yoluna doğru yönəldəcək. Bunun nə qədər önəmli olduğunu siz bizə demişdiniz. Biz bunu müzakirə elədik və öyrəndik ki, bu növ işlər üçün ən yaxşı bir möcüzə var.

Bir anda Qartın fasiləsiz dini çəkişmələrdən doğan cansıxıcı marağı sönüb getdi. O, həqiqətən düşünmürdü, dəqiqləşdirə bilmirdi ki, bu söhbətlərin

axırı hara gedib çıxacaq. Azca dönəndə İtinin əlindəki Bibliyanın açıq səhifəsinə həkk olunmuş təsviri görə bildi.

Stulundan astaca qalxdı, gərnəşirmiş kimi qolaylanıb dönərək arxasındakı keşişə pıçıldadı:

– Hazır olun! Arxa qapıdan çıxıb gəmiyə minin. Mən burda onların başını qataram. Düşünmürəm ki, onlar ziyan...

– Nə demək istəyirsiniz? – Mark Ata təəccüblə gözlərini qıyıb soruşdu.

– Axmaq, çıx get! – Qart mızıldandı. – Bilmirsən onlar hansı möcüzədən danışırlar? Hansı möcüzənin hesabına xristianlıq dünyaya yayılıb?

– Yox, – Mark Ata dedi, – ola bilməz, belə şey ola bilməz!

– Tərpən!

Qart onun qolundan tutdu, dartıb stuldan qaldırdı və arxa divara sarı itələdi. Mark Ata duruxub dayandı, dönüb arxaya baxdı. Qart irəli sıçrayıb onun qarşısını kəsdi, ancaq artıq gec idi. Amfibiyalar balaca olsalar da, sayları çox idi. Qart İtini yumruğuyla vurub kütlənin içinə saldı. O vuruşa-vuruşa keşişə tərəf gedərkən qalanları onun üstünə gəlirdi. Onları vurub yıxsa da, bu, bir növ, dalğalarla döyüşməyə bənzəyirdi. Müşk qoxusu verən qıllı bədənlər üstünə axışıb onu tutdular.

O, qolları bağlanana qədər, başına dəyən zərbələr onu keyidənə qədər döyüşdü. Sonra onu çıxarıb çölə, yağışın altına atdılar. O, baş verənləri buradan söyə-söyə izləyirdi. Veskerlər mahir sənətkar idilər, hər şeyi incə detallarına qədər hazırlamışdılar. Bibliyada deyilənlərə tam riayət olunmuşdu. Kiçik bir təpənin üzərində yerə bərk-bərk basdırılmış bir çarmıx, bərq vuran mismarlar, çəkic də öz yerində. Mark Atanı soyundurub qatbaqat qurşaq sarğısına bürümüşdülər.

Onu kilsədən çıxardılar. Çarmıxı görəndə keşiş az qaldı huşunu itirsin.

Bundan sonra o, başının yuxarı qalxdığını hiss etdi: onun inamı ilə birlikdə ölməsi haqqında qərar verilmişdi.

Bu mənzərəyə baxmaq çox çətin idi: kilsənin zəif işığında sayrışan incə vücudlar, taxta dirəkdən asılı lüt kişinin dərisini kəsib bədəninə işləmiş kəndir, iynə uclu mismarların havaya qaldırılıb onun ovcundakı yumşaq əzələlərin üzərinə qoyulması, çəkicin zərgər dəqiqliyi ilə mismarlara vurulması, insan əzələlərinə saplanan incə metalın səsi... Sonra da tükürpədən qışqırıq! Bunlar baş verənləri eləcə seyr edən Qart üçün də dözülməz idi. Bəziləri bu dünyaya şəhid olmaq üçün gəlir. Ancaq Mark Ata onlardan deyildi. Birinci zərbədən sonra o, dişlərini elə sıxdı ki, dodağından qan sızdı. Sonra onun ağzı geniş açıldı, başı arxaya doğru gərildi.

Keşişin sinəsindən qopan dəhşətli bağırtı yağışın səsini batırır, sonra onu izləyən vesker kütləsinin sakit əks-sədası kimi yenidən eşidilirdi. Çünki indi onların ağzını açıq qoymuş əzablı hiss bədənlərində var gücüylə tüğyan eləyirdi, təəccübdən açıq qalmış cərgə-cərgə çənələr çarmıxa çəkilmiş keşişin iztirabını əks etdirirdi. Nə yaxşı ki, sonuncu mıx vurulanda o, huşunu itirdi. Yeni açılmış yaradan axan qan yağışa qarışıb cəhrayı rəng alaraq, sakitcə onun ayaqlarından yerə damcıladı. Beləliklə, keşiş asta-asta can verdi. Bu vaxt haradasa hönkür-hönkür ağlayan və öz kəndirini qırmağa çalışan Qart başından aldığı zərbədən

huşunu itirdi. O, bir də öz anbarında ayıldı. Qaranlıq idi. Kimsə onun sarındığı kəndiri kəsirdi. Eşikdə hələ də yağış yağırdı.

– İtin, – o dedi, ondan başqa heç kim ola bilməzdi.

– Bəli, – yadplanetli pıçıldadı, – o birilər kilsədə söhbət eləyirlər. Siz başına vurandan sonra Lun öldü, İnon da çox pis haldadır. Bəziləri deyir siz də çarmıxa çəkilməlisiniz. Mənə elə gəlir belə də olacaq. Ya da başınıza daş vura-vura öldürəcəklər. Onlar bunu da Bibliyadan tapıblar. Orada deyir...

– Bilirəm, – Qart yorğun-yorğun dedi, – gözə göz. Axtarsanız, çox belə şeylər tapacaqsınız.

– Siz getməlisiniz. Heç kim görmədən öz gəminizə minə bilərsiniz. Xeyli qan töküldü.

İtin də yorğun danışırdı.

Qart ayağa qalxmağa cəhd elədi. Ürəkbulanması keçənə qədər başını sərt divara söykədi.

– O öldü, – bu sözlər Qartın dilindən bir sual kimi yox, bəyanat kimi çıxdı.

– Bəli, çoxdan. Yoxsa sizi görmək üçün bura gələ bilməzdim.

– Yəqin ki, artıq basdırılıb, yoxsa onlar mənə də növbə çatdığı barədə düşünməzdilər.

– Hə, basdırılıb! – İtinin səsində qəribə bir ahəng, öldürülmüş keşişin harayının əks-sədası vardı. – İndi o, göylərə çəkiləcək. Belə yazılıbsa, belə də olmalıdır. Mark Ata buna görə bəxtiyar olacaq.

Səsində elə bir ton vardı, sanki insan fəryad edirdi. Ancaq əlbəttə, belə ola bilməzdi, çünki İtin insan deyil, yadplanetli idi. Qart bir zülmlə qapıya sarı getdi, yıxılmamaq üçün yenidən divara söykəndi.

– Biz düzgün iş tutduq, elə deyilmi? – İtin soruşdu.

Cavab gəlmədi.

– O qayıdacaq, elə deyilmi, Qart? – Qart qapının ağzındaydı, onun çərçivədən yapışmış qanlı əlini göstərmək üçün kilsədən gələn işıq kifayət edirdi.

İtin sifətini yaxınlaşdırdı və Qart iti caynaqları olan zərif, çoxbarmaqlı əllərin yaxasından tutduğunu hiss elədi.

– O qayıdacaq, elə deyilmi, Qart?

– Xeyr, – Qart dedi, – o, sizin basdırdığınız yerdə də qalacaq. Heç nə baş verməyəcək. Çünki ölüb, ölü olaraq da qalacaq.

Yağış İtinin tüklərinin arasından sel kimi axırdı, onun ağzı o qədər geniş açılmışdı ki, elə bil qaranlıqda qışqıracaqdı. Zorla danışa bilirdi, yadplanetli dilindəki yadplanetli fikirlərini sıxıb çıxarmaq istəyirdi.

– Deməli, onda biz xilas edilməyəcəyik? Təmizlənib paklanmayacağıq?

– Siz təmiz idiniz, – Qart bu sözləri ağlamaqla gülmək arasındakı bir tonla dedi. – Siz tərtəmiz idiniz. İndisə siz...

– ...Qatilik, – İtin dedi. Su onun əyilmiş başından aşağı axa-axa qaranlıqda yoxa çıxırdı.

İngiliscədən çevirən: Qabil AŞİROV



Sofiya MURAŞKOVSKİ

Rus əsilli Amerika şairi və dramaturqu,
Nyu York Tisç İncəsənət Məktəbinin məzunu,
Touro kollecində Amerika ədəbiyyatı
fənni üzrə müəllim

Müasir ingilis ədəbiyyatında multikulturalizm

XX əsrin 70-ci illərinə qədər "ingilis ədəbiyyatı" termini Britaniya adaları ətrafında yaranan və formalaşan ədəbi əsərlərə aid olunurdu. İngiltərədən qıraqda yaşayıb-yaradan böyük yazıçıların yaradıcılığı ya tədqiq edilmir, ya da ingilis ənənəsinin təsiri altında assimilyasiyaya uğrayırdı. Özünəməxsus tarixi olduğuna görə Amerika ədəbiyyatı bu sırada fərqlənirdi. ABŞ yazıçılarının İngiltərə və Avropada daha yaygın yaşamasına baxmayaraq, Amerika ədəbiyyatı Şimali Amerika coğrafiyası xaricində nadir hallarda tədqiqata cəlb olunurdu.

XX əsrin ikinci yarısından ingilisdilli ədəbiyyata baxış tərzi köklü şəkildə dəyişdi. Avstraliya, Karib hövzəsi dövlətləri (Vest-Hind), eləcə də müstəqillik qazanmış Afrika və Asiya ölkələri yazıçılarının yaradıcılığı bu zamandan etibarən tənqidçilərin diqqətini daha çox cəlb etməyə başladı. Kanadanın, Avstraliyanın, Cənubi Afrikanın bir çox universitetlərində İrlandiya və Kanada ədəbiyyatı mövzusunda mühazirələr oxundu. Regional və yerli müəlliflərin yazdığı kitablar, bədii əsərlər "yeni yaranmaqda olan ədəbiyyat" haqqında təsəvvür formalaşdırdı. Əsərlərin süjeti, tematik strukturu, üslubu və yazı manerası qeyri-adi xarakterlər üzərində qurulurdu ki, bu da Avropa oxucusuna bəzən anlaşılmaz qalırdı. Kəşf edilməmiş bu "yeni ədəbiyyat" oxucuları bir sıra maraqlı fenomenlərlə – müstəmləkə olmuş ölkələrdə yaşayan insanların şüurunda ingilislərin ümumiləşmiş sosial obrazı, amerikan fərdiyyətçiliyi, Nigeriya qəbilə idarəçiliyi, hind mistikası, Karib hövzəsi (Vest-Hind) xalqlarının milli kimliyi ilə tanış edirdi. İngiltərə xaricində yaşayan yazıçılar öz milli ədəbi ənənələri çərçivəsində yazdıqlarından anqlofon ədəbiyyatının *(mənşəcə ingilis olan, lakin İngiltərədən kənarda doğulub yaşayan yazıçıların yaradıcılığı – **red**.)* mövcudluğunu qəbul etmək bizim oxu vərdişimizin də dəyişmə ehtimalını yaradır.

Mədəniyyətlərarası kommunikasiya problemləri, müasir cəmiyyətlərə xas stereotiplərin qarşılıqlı münasibəti tədqiqatçılarda mədəni, linqvistik və ədəbi transferlərlə, terminlərlə bağlı suallar doğurur. Qərb yazıçıları öz millətlərinə xas mədəni və psixoloji arxetipləri qoruyub saxlayan, həm də ingiliscəyə mü-

kəmməl səviyyədə yiyələnib Britaniya mədəniyyətini, ədəbiyyatını əxz eləyən əcnəbilərə məxsus dilin Qərbin hərbi və elmi üstünlüyünə əsaslanan qlobal dil olması ilə bağlı şübhələrini izhar edirlər.

Belə mühakimələr gündən-günə daha çox aktuallıq qazanır. Kütləvi informasiya vasitələrinin, reklamların, marketinqlərin qulağa xoş gələn şüarları bu dil əsasında yaradıldığına görə bu kütləviliyin mədəniyyətlərarası dialoqun qurulmasında, tərcümənin sosial landşaftın vacib fenomeni kimi formalaşmasında köməkçi vasitə rolunu oynaya bilib-bilməyəcəyinə dair suallar da doğurur.

Müasir kulturologiya və etnologiya sahələrində yer alan mədəni nisbilik nəzəriyyəsi keçən əsrin son onilliklərində qlobal tendensiyalara sipər ola bildi. Müstəmləkəçilikdən xilas olan mədəniyyətlər mədəni nisbilik nəzəriyyəsinin əsasını qoymaqla fərqli mədəniyyətləri, fərqli baxışları inkişaf etdirdilər ki, bu da, öz növbəsində, mədəni siyasətə böyük təsir göstərmiş oldu. Samuel Hantinqton "Sivilizasiyaların toqquşması" nəzəriyyəsini gündəmə gətirdi ki, bu nəzəriyyəyə görə, gözlənilən münaqişələr millətlər arasında yox, fərqli dini, iqtisadi və siyasi sistemləri olan sivilizasiyalar arasında baş verəcək: "Gələcəkdə universal, birləşmiş bir sivilizasiyanın yaranacağı gözlənilmir. Biz, sadəcə, qonşuluq etməyə məcbur olan müxtəlif sivilizasiyalar dövründə yaşayacağıq".

İngilis dilini ikinci dövlət dili kimi qəbul edib yazan və özünü ingilisdilli mədəniyyətə mənsub sayan keçmiş müstəmləkə ölkələri yazıçılarının bu cür postulatları humanitar elmlərin əsasən də Avropa mərkəzçiliyinə yönəlik ənənəvi kateqoriya və konsepsiyalarını ciddi şübhə altına alır və bunlara yeni yanaşma tələb edir. Bu məsələ ətrafında dünyanın tanınmış mütəxəssisləri geniş müzakirələr aparırlar. Rəngarəng mədəniyyətlərin, ədəbiyyatların çoxcəhətli mətnlər «arxivi» kimi qəbul olunması ideyası getdikcə populyarlığını itirir. Bu çoxcəhətlilik mətnin dinamizmi və öz təməlindən ayrılma enerjisi ilə ümumdünya mədəni məkanında ciddi toqquşma yaratmalıdır. Bütün bunlar millətlərdən asılı olmayaraq həmahəng mədəniyyətlərarası bir sistem yaradacaq ki, orada yeni məhsuldar fikirlər, ideyalar ortaya qoyulacaq. Belə bir sistem "multikultural simfoniyalar" sintezini doğurmalıdır.

Belə çıxır ki, dünya ədəbiyyatının üfüqlərini genişləndirən hər bir proses mədəniyyətlərarası anlaşılmazlıqlara gətirib çıxara bilər, lakin bu, eyni zamanda çox böyük yaradıcı inkişafa təkan vermiş olar.

Britaniya imperiyasının süqutu, imperiyanın «şineli»ndən çıxmış ölkələr arasında əlaqələrin zəifləməsi, Amerika Birləşmiş Ştatlarının dünyada daha vacib rol oynamaq cəhdləri, keçmiş müstəmləkələrdə müstəqillik şüurunun möhkəmlənməsi dünya ədəbiyyatına yeni milli ədəbi nümunələrin gəlməsinə və ingilisdilli ədəbiyyatın daha geniş yayılmasına təkan verdi.

Bu gün ingilis mədəni ənənələri Britaniya adaları xaricində hökmranlıq etmək, Böyük Britaniya ideyasına sadiq qalmış elitanı dəstəkləmək gücündə deyil. Milli ədəbiyyatlarda ingilis dili ilə bağlı ehkamın dağılması ingilisdilli dünyanın mədəni fraqmentləşməsinin artdığını göstərir. İngilis dili o dildə danışan və yazan əcnəbilərin həyat tərzi, milli adət-ənənələri ilə təzad təşkil edir.

Alimlər, müəllimlər, yazıçılar keçmişdə şüurlara hökmranlıq etmiş nitq etiketlərinə, davranışlara, əxlaqa, inanclara daha əvvəlki kimi sözsüz sədaqət göstərmirlər. Vahid ədəbi-mədəni mühitin itirilməsi müxtəlif milli ədəbiyyat nümunələrinin ortaya çıxması zərurətini yaradır.

Latın və yunan dilləri alicənab zümrələrin təlim-tərbiyəsində öz rolunu itirdikdən sonra "ingilis dili tədqiqləri" (English studies) aktuallıq qazanmağa başladı. Avropanın mənəvi-intellektual təlim-tərbiyəsi çərçivəsində Homer, Vergili, Siseron öz yerini Şekspir, Donn, Poup və Dikkensə verdi. Əlbəttə, bunun nəticəsində sevimli yazıçıların daxili dünyasına sirayət etməyə üstünlük verən, Avropa dünyagörüşü üçün xarakterik olan həmrəylik hissi korşalmağa, tarixə baxış xırdalanmağa başladı.

XX əsrin əvvəllərində yaranmış ədəbiyyat qədim köklərə instinktiv bağlılıq, klassik ənənələrin əks-sədası kimi anlaşıla bilər. T.S.Eliotun, E.Paundun və C.Coysun transmilli düşüncəsi, dünyagörüşü müasir kosmopolit üslubun bir hissəsi sayılırdı. Lakin yazıçılar keçmişlə əlaqəni həm də müasir dövrün kamertonu hesab edərək, insan təbiətinə, zaman qanunlarına tabe olmayan qeyri-adi baxışlarını qoruya bildilər. İngilis ədəbiyyatında (həm nəsrdə, həm də poeziyada) idealların tərənnümü, kənd həyatının idillik tənhalığı, ailə dəyərləri, atababa ocağı ilə bağlı patriarxal ənənələr və şəhər mühiti qarşı-qarşıya qoyulurdu. Çox zaman, məsələn, C.Ostinin "Mensfild-park", yaxud da E.M.Forsterin "Hauerds-End" əsərində konflikt ailə ocağına kimin yiyələnəcəyi üzərində qurulurdu. Nəticədə ən yaxşı mənəvi dəyərlərə sadiqlik tərənnüm edilirdi. İngilis ədəbiyyatının əxlaqi dəyərləri və motivləri Britaniya mədəniyyətinin qanunauyğun inkişafını bütövlükdə göstərirdi. Yazı dilinin məziyyətləri də ingilis dilində baş verən dəyişikliklərə uyğun formalaşırdı. İngilis dili material kimi özündə real həyati yaşantıları obrazlı şəkildə ifadə etmək üçün geniş üfüqlər açır. Odur ki, formal ədəbi şərtiliklərdən çox, məhz ingilis dilinin zənginlikləri bu dildə yaranan nəsrin və tənqidin inkişafının bünövrəsi sayılmalıdır. İngilis dili cümlə, abzas daxilində öz qüdrətini dinamik variasiyalarda, saysız metamorfozlarda büruzə verir, səs çox vaxt mənanı imitasiya edir. Bu fenomeni, məsələn, yerli, milli təzahürləri çətinliklə imitasiya edən fransız dili ilə müqayisə edə bilərik.

Yalnız ingilis ədəbiyyatı ənənələrinin dəqiq sərhədləri müəyyən olunandan sonra bu ədəbiyyatın yeni yaranan digər ölkə ədəbiyyatları ilə müqayisədə milli özünütanıma prosesi baş tutdu.

Azsaylı xalqın yazıçısı «vasitəçi» dildə yazmağa başlayanda bir çox çətinliklərlə qarşılaşır. Bu zaman o, «Genlərdə daşınan etnomədəni ruhu, azad sənətkar duyğusunu, nəsil-nəsil ötürülən təcrübəni, milli-mənəvi dəyərləri yad dil vasitəsilə necə aşılamalı, oxuculara necə çatdırmalı» kimi sualla üz-üzə qalır. Hind yazıçısı R.Rao deyir: "Yazıçı şüur axınının müxtəlif çalarlarını, incəliklərini təsvir etmək üçün işlətdiyi ifadələrin yad dildə adekvat variantlarını bəzən tapmır. Mən "yad" sözünü işlətdim, lakin ingilis dili bizim üçün heç də yad, özgə dil deyil. Bu dil bizim intellektual qrimimizin dilidir. Biz hamımız instinktiv olaraq ikidilliyik, ingilis dilində doğma dildə yazdığımız kimi yazırıq.

Biz köklü ingilislər kimi yaza bilmərik, yazmamalıyıq da. Ancaq yalnız hindistanlı kimi də yaza bilmərik".

Raonun özünümüşahidələri onu əsl multikulturalist yazıçı kimi qələmə verir. O, ikiüzlü Yanus kimi həmişə ayrı-ayrı səmtlərə nəzər salır. O, mənsub olduğu mədəniyyətin müasir etnoqrafı, eyni vaxtda da interpretatorudur. Əgər yazıçı həm də mətndənkənar qeydlərə, izahlara, haşiyələrə, şərhlərə, önsözə ehtiyac duyursa və bu elementlər nəsrin düzgün oxunuşuna kömək edirsə, demək, o bu üsullardan, bir növ, "yad müəllif" kimi yararlanır ki, bu da həmin yazıçının multikultural dünyagörüşə malik olmasından xəbər verir. «Müasir ingilisdilli ədəbiyyat» anlayışı tədqiqatçının məhz bu cür «şifrələrlə» rastlaşmasını ehtiva edir. Xarici akademik dairələrdə «yeni ingilis ədəbiyyatı" termini ilə adlandırılan bu ədəbiyyat bir neçə xüsusiyyətlə xarakterizə olunur:

a) əslən ingilis olmayıb, gənc ikən Britaniyaya köçən və ingilis dilində çox yaxşı təhsil alan, yazan Britaniya vətəndaşlarının yaratdığı ədəbiyyat;

b) öz millətinə xas mədəni və psixoloji arxetipləri qoruyub saxlayan, eyni zamanda ingiliscəyə mükəmməl səviyyədə yiyələnib, Britaniya mədəniyyətini və ədəbiyyatını əxz edən əcnəbilərin ikinci nəsli;

c) ingilis dilini ikinci dövlət dili kimi qəbul edib yazan və ingilisdilli mədəniyyətə mənsub olduqlarını hiss edən keçmiş müstəmləkə ölkələri yazıçıları;

ç) ikidilli yazıçılar; onlar hər iki dildə həm danışır, həm də yazıb-yaradırlar.

Vest-hindli yazıçı Corc Lamminq 1950-ci ildə Barbadosda keçən həyatı barədə yazarkən təəccübünü gizlətmirdi: «Hələ də anlamıram ki, Britaniya öz adının yanına "Ana" ləqəbinin artırılması möcüzəsinə necə nail olmuşdu. Biz Britaniyanın dilinə, dininə, mədəniyyətinə, hətta kriket oyununun pedant etiket qaydalarına belə könüllü təslim olmuşduq. «İmperiya» bizim dilimizdə elə də pis söz kimi səslənmirdi və onun idarəçiliyi indi «imperializm» adlandırılan hökmranlıq üsulundan çox fərqlənirdi».

Bu və ya digər parametrlərinə görə yeni ingilis ədəbiyyatı kateqoriyasına aid edilə bilən yazıçılar əslən ingilisdilli dünyadan olmayan Şərqi Avropa və Asiya kökənli yaradıcı şəxslərdir. İngilis dili beynəlxalq dil statusu qazandığından bu dildə tailandlılar, yaponlar, ruslar da ədəbi nümunələr yaradırlar. Postmüstəmləkəçilikdən və multikulturalizmdən söhbət düşəndə çağdaş akademik dairələr bu faktlara çox az istinad edirlər. Lakin belə məsələlər diqqətdən kənarda qalmamalıdır. Məsələn, müasir Somali yazıçısı Nurəddin Fərəhin yazı dili ingilis dilidir. Halbuki bu dil onun doğma dili deyil. Beləliklə, ingilis ədəbiyyatının beynəlmiləlləşmə prosesi "gənc" ingilisdilli ədəbiyyatların inkişafı ilə paralel surətdə baş verir, odur ki, imperiyadan qopmuş ölkələrin postmüstəmləkə, multikultural ədəbiyyatları ilə bir kontekstdə öyrənilməlidir.

Bir çox tədqiqatçılar (S.Qrinblat, Q.Tixanov) müasir ədəbiyyatın, ələlxüsus da ingilis ədəbiyyatının inkişaf tarixində müşahidə olunan belə bir tendensiyanı söz sənətinin yeni şərtlərə "çevik və üzüyola şəkildə» adaptasiya olunması kimi ifadə edirlər. Buna parlaq misal kimi yeni nəşr edilmiş 13 cildlik

"İngilis ədəbiyyatının Oksford tarixi"ni göstərmək olar. Çoxcildliyin son iki cildi müharibədən sonrakı dövrə həsr olunub. Bu cildlərdə hər tədqiqatçı öz mövqeyindən "ingilis milli kimliyi" məsələsini izah etməyə çalışır. "1960-2000: İngiltərənin qürubu" (1960-2000: The Last of England) cildini "ingilis ədəbiyyatı ideyasının öz ömrünü başa vurduğunu iddia edən şotlandiyalı" reputasiyasını qazanmış Rendall Stivenson, «1948-2000: İngilis ədəbiyyatının beynəlmiləlləşməsi» (1948-2000: The internationalisation of English Literature) adlı digər cildi isə multikulturalizmi ingilis ədəbiyyatının tənəzzülü kimi yox, əksinə, dirçəlişi kimi tərənnüm edən kanadalı Bryus Kinq yazıb. Beləcə, Oksfordda hazırlanmış yeni ingilis ədəbiyyatı tarixi vaxtı keçmiş milli nəqletmə üslubundan yayınaraq söz sənətini qlobal mədəni müxtəliflik tonallığında təqdim etməyə çalışır.

Tədqiqatda keçmiş müstəmləkə ölkələrinin assimilyasiya olunmuş əhalisinin multikultural qarışımları nəticəsində XX əsrin son onilliklərində dumanlı Albionda yaranmış yeni ingilis ədəbiyyatından bəhs edilir. Bu "yeni ingilislər" Britaniya ədəbi ənənələrinə yiyələnməklə yanaşı, əsərlərində öz millətlərinə xas milli-mədəni arxetipləri də müxtəlif səviyyələrdə və formalarda ifadə etməklə ingilis ədəbiyyatına daşıyırlar. Lakin bu kimi mənbələrdən gələn ədəbi əsərləri Britaniya yazıçısının ənənəvi mətnləri sırasına qatmaq bəzən çox çətin olur.

Tərcümə etdi: Günel EMİNLİ

Bakının multikultural mənzərəsi
Мультикультуральный портрет г. Баку



Bakının Nəsimi rayonunda yerləşən Dağ Yəhudiləri Sinaqoqu

Синагога горских евреев в Насиминском районе г. Баку



Выражаем благодарность многоуважаемому нашему Президенту Ильхаму Алиеву за эту синагогу, подаренную горским евреям Азербайджана



Sinaqoqun daxili görünüşü

Вид синагоги изнутри



Gənc şairlərin şeirləri



Günel ŞAMİLQIZI

Lal tülkünün mahnısı

Evimin küncündə toz yoxdu, qonaq,
Mən küncə qısılıb gözlədim səni.
Bu birdir, bu iki, bu üç, bu da dörd,
Ardını saymağa səslədim səni.

Balaca otaqlar qatdı başını,
Bu boyda tələni ev bilib gəzdin.
Malasız divarda daş adamları
Bilmədən söykənib o qədər əzdin...

Kaş Allah mənə də dil verəydi, dil.
Deyəydim, ay yolçu, adını söylə,
Bilim ki, bir ömür kimi gözlədim,
Kimdir gəlib çıxan bu möcüzəylə?

Deyəydim, ay qərib, yuxuna qurban,
Ayıl, bağrındakı yaranı bağla.
Mən səni ölməyə çağırmamışam,
Yatma, dirəyim ol, evimi saxla.

Ömrümdə bir dəfə tülkü olmazdım,
Sinəmdə sızlayan yalan yeridir.

İndi doğrunu da səssiz deyirəm:
Bura qanadların sınan yeridir.

Hanı mənim səsim, hanı, İlahi?
Onu səsləməkdən batdı, bilmədim.
Hanı mənim ruzim, hanı, İlahi?
Bu yazıq acından yatdı, bilmədim.

Bu gün qonağıma nə verə bildim,
Sabah ayılmağa nə gücü olsun?
Mənim stolumun üç ayağı var,
Üçü də istəmir dördüncü olsun.

Bəlkə yuxu bildin bu qonaqlığı,
Bəlkə də unutdun nə dediyimi.
Xörəyi nimçədə soyuyan durnam,
Ya ac qal, ya sındır öz dimdiyini.

Barter

biz – satmağa heç nəyi olmayan səhra adamı,
siz – əllərinizdə sidik kisəsi boyda qumbaralar,
gəlin dəyişək bazarımızı.

dibi deşik qazanın dəliyindən baxmayın bizə –
dibsizdi baxışlarımız,
azarsız.
bizli-sizli acgözük onsuz da,
gəlin dəyişək qidamızı.

sizə qucaq dolusu boynubükük,
amma boynubükük-boynubükük gülümsəyən
günəbaxanlar verək.
baxan... Günə...
verək, verək... Siz də verin hərdən.
nəsə verin – güllədən başqa!

gəlin dəyişək dilimizi,
mənə dua avazında serenada oxuyun.
didin papağımızın pırpız tüklərini,
amma kəkilimizin sığalını pozmayın.
onsuz da bir-birinə düşməndi bütün saçgizlədənlər,
axır-əvvəl uduzacağıq tüklərimizi
ləçəklərə,
papaqlara...

Kafir qızının Beyrəyə dediklərindən

gör məni harda tapmışdın,
hansı günahındım, igid?
mən səni harda qazandım,
hansı halalımsan, igid?

getdi gül dərən vaxtların,
məni əllərin dərmədi.
məni gözlərin dərmişdi,
niyə əlinə vermədi?

üç öpüb, iki dişlədin,
nədi çatmayan, çatmayan?
gündüz gördüyü yuxudan
gecə yatmayan, yatmayan.

ən dadlı yerində doydun,
daha qalanın almadın.
qurtardı ucuz olanım,
baha olanı almadın.

gələndə – susuz igidim,
gedəndə – bulaq igidim.
səni kim bulaq elədi,
necəydin qabaq, igidim?

gözü yolda qalanın var,
gözlərimə baxma daha.
gedib dolsan o axara,
bir də yola çıxma daha.

orda özünə sorarsan,
sənin tapdığın səndədi?
səndən böyükmüşəm, igid,
mənim qazancım məndədi.



Rəbiqə NAZİMQIZI

Balıqçıya

Səni tora salıblar, balıqçı...
balıqların başqa çaylara üzüb,
başqa süfrələrdə çörək olub,
başqa əllərlə yeyilib...
Mənim sözlərim bitib,
mənədək
hər şey deyilib,
alqışlanıb,
daşlanıb...
Sənin torun,
mənim əllərim boş qalıb...

Səsimi çoxdan alıblar, balıqçı...
Səni tanımırdım onda,
bağışla –
bağışladıqlarımı...
yaşadıqlarımı –
yaşamadıqlarını...

Qarını tanımıram,
bilirəm, onunçun
çörək gətirən ayaqsan,
hər gün gələn,
bir qismət yemək yeyən,
bir fincan çay içən qonaqsan...
Sonuncu dayaqsan,
sonuncu dayanacaqdır sənə, bilirəm –
hara getsən, ona dönəcəksən
balıqlı-balıqsız...

Evimi tanımırsan, deyim –
daş parçasıdır,
kağız üzlüklərdir,
paltar yığınıdır,
kitab qalasıdır...
Heç vaxt balıq qızartmadığım
qaz sobasıdır...
Özümlə aparıb gətirdiyim
mehmanxana havasıdır –
Sənsiz...

Yaxındayam, balıqçı,
gəlirəm,
atıram özümü dənizə –
balıq olmağa...
heç yana aparmazsan,
heç kəsə satmazsan...
ya atarsan,
ya tutarsan...
Torunda məni görüb sevinsən,
bəsimdir...

Zümrüd quşuna

Ətcə balalarını yerindən,
əjdahanı yemindən etmişdim, Zümrüd quşu.
Yuvanı tapmamışdım –
ovcumda saxlamışdım balalarını...
Körpə bədənlərindəki yüngül qızartı –
sığal yeri keçəcək,
Ana qucağında ağrıdan yox, sevgidən ağlayırlar,
səsləri kiriyəcək...

İstəsən, bir də dolaşmaram yaşıl ağacların altında,
əjdahanı görəndə yüz ağaclığından keçərəm,
köçərəm quşların olmadığı yerlərə –
yəni kor ola bilərəm göy üzünə.
İstəmə...

Sən yenə qanadın üstündə qaranlıqdan çıxdığımı xatırla,
işığa dönmüşdün tükdən asılı günlərimdə,
"qu" deyəndə "qurban olum",
"qa" deyəndə "qadan alım" söyləmişdim...

İndi alovlu ahlarını tökmə üstümə, Zümrüd quşu,
qəzəbli lələklərini lənəttək yağdırma başıma,
şimşək gözlərində sevməyənəsə saxla...
Nə-sə.

Tozağacları

Yalnız onlar mənə səndən hündür göründülər,
sən olmayanda təkcə onlar vardı.
Cavandılar,
yaxındılar,
amma uzaqdan baxırdılar...
Sən olmayanda onlara da toxunmadım...
Təkcə baxıb köks ötürdüm
tozağaclarına
məni qısqanma...

Xəbərdarlıq

Mənə heç nə demə –
Tüpürə bilərəm hər şeyə:
rahatlığa, xoşbəxtliyə…
deyingən qonşulara, işə.
çoxdan unutduğum keçmişə…
Əvvəl-əvvəl maraqlı gələr,
doğma görünər...
Sonra bezdirərəm tələblərimlə –
məsələn?! –
hər gün görüşmək istəyərəm…
Mənə heç nə demə –
Tüpürə bilərəm hər şeyə…
Elə qısqanaram səni –
qapıların şüşəsi sınar.
Heç nə vecimə olmaz,
hardasa bir ürək yıxılar…

Tanıyırsan məni, heç nə demə…
bilirsən necə amansızam –
keçmərəm ən kiçik səhvindən –
xoşum gəlməz köynəyinin rəngindən,
qəfildən sərt danışaram hamının yanında…

…Mənə heç nə demə:
Ağıla, nağıla, noğula aldanmaram, –
hamının yanında öpərəm üzündən…
Sənin üzündən tüpürə bilərəm hər şeyə…
Gündüzə, gecəyə, səhərə
nifrət edərəm
sən yanımda olmayınca…
…Unutmayasan deyə məni
şəklimi qoyaram cibinə.
Tezdi-gecdi bilmərəm
gecəyarısı zəng gələr evinə…

Tüpürə bilərəm hər şeyə…
Nəyə? – Niyə sayım?
Özün tanıyırsan
Anlayırsan…
Mənə heç nə demə…



FEYZİYYƏ

***

Kilsəyə çevrilir evim hər dəfə zəngin gələndə,
keşişə dönürəm hər dəfə sənin lə danışanda.
Sən telefonun o üzündə danışırsan,
mən bu üzündə dinləyirəm –
sən tövbəkar,
mən Müqəddəs Ata misalı.

Səsin kilsə zəngi kimi cingildəyir qulağımda,
Günahlarını yuyursan göz yaşında,
xaç suyunda yuyunurmuşsan kimi «təmizlənirsən»,
«Bağışla, müqəddəs insan» deyirsən.
Əsəblərim, hisslərim çarmıxa çəkilir İsasayaq
hər bağışlanma dilədikcə.

Sən isə bağışlanacağına güvənirsən,
hər dəfə yeni, tamam fərqli günahlarla dönürsən.
hər dəfə də, səni bağışlayım deyə rəfiqələrim
rahibələr sayaq xorla moizə oxuyurlar,
məni and verirlər, xaç çevirirlər.

Sən danışdıqca
evimin divarlarında, tavanında
şeytanın cürbəcür şəkilləri canlanır.
Əvvəllər günahlarını bağışlayırdım
«Ulu Ata və Müqəddəs Ruh naminə»
İndi səni günahlara bağışlamışam,
Bütün müqəddəs ataların və müqəddəs ruhların xatirinə.

***

Bozarma taleyin üzünə –
bir gün qızar gözləri,
baxmaz heç nəyə,
Dönüb qatil olarsan –
özü-özünün qatili.
Kəsib-parçalayarsan
içində nə varsa,
doğrayıb səpələrsən sapsarı sonsuzluğa.

Bozarma taleyin üzünə –
Səni quzğun eyləyər, açar leş süfrəsini,
İylənmiş tikələri ləzzətlə didiklərsən,
Leş sökmüş dimdiyini silib lələklərinə,
Sonra çıxıb gedərsən leşlərin arasından,
Ağzında bir parça ət,
İçində bir ömür nifrət.
Gözlərini açanda
«yaxşı ki, yuxuymuş» deyib sevinərsən,
Gördüklərini yozmağa macal tapmamış
quzğuna dönərsən…

Bozarma taleyin üzünə –
Ömrün boyu dua etdiklərin
Sənə lənət oxuyar, sənə qarğışlar tökər
səma qapılarının taybatay açıq vaxtı,
Bədənində nə qan var, çəkilər beyninə,
Əllərin, ayaqların bir damla qan diləyib
Səcdə edər başına,
Sağ əlin, sağ ayağın bozarar soluna,
Sağ gözün boz yaş tökər bozarmış sifətinə.

Bozarma taleyin üzünə –
Bir iri qara dəlik açılar göy üzündə,
dənizin üzərində,
İri tonqal çatılar üzü dəliyə sarı,
dənizin üzərində.
Qırmızı-sarı rəngdə bir pilləkən
uzanar alovun dillərindən
qara dəliyə sarı,
qara dəlikdən çıxıb bir sürü əl çağırar səni
dəliyə sarı.

Ayağın yana-yana
qaça-qaça qalxarsan alovlu pillələri,
Yana-yana can atarsan o qara yüksəkliyə,
qaranlıq ucalığa,
«Bax, az qalıb» – deyərsən,
«Daha çatdım» – deyərsən,
Suluqlamış ayağın dəyəndə son pilləyə
başına daşlar yağar,
Üz-gözünü qalxdığın alovlu pillələrin
qırmızı-sarı dilləri yalar…
Və bir gecə yuxuna gələr
qatili olduğun Bir Dünya Sən,
alarlar dövrəyə,
məhbusa çevirərlər səni öz içlərində,
sonra nəsə deyərlər dönə-dönə...
Və sən hər səhər,
azandan sonra bir səs eşidərsən:
Bozarma taleyin üzünə!

***

sən heç duyğuların əsgər getdiyini
gördünmü, dost, gördünmü?
hisslərinə çağırış vərəqəsi gəldimi,
onlar ön cəbhəyə aparıldımı?
ümidlərin sərhədboyu təngnəfəs qaçdımı?
arzuların mühasirəyə alındımı,
başlarına güllələr yağdımı?
xəyalların ölüm qorxusu ilə
səngərin bir küncündə qıvrılıb
əlləri qulaqlarında hönkürdümü?
istəklərinin gicgahı əlindəki silahın
son gülləsinə sığındımı,
tətiyinə sıxıldımı?
nifrətin düşmənə təslim oldumu,
düşmən ordusuna qoşulub,
özünə qarşı çıxdımı?
həm ordusunu, həm gözlərini itirən
general-sevginin ürəyinə bıçağı
öz nifrətin vurdumu,
sonda özü də bir mərmi partlayışından
parça-tikə oldumu?

duyğularından qara kağız gəldimi,
o qara kağızı pul kimi barmağının arasına alıb
hıçqırtı havasına süzdünmü heç?
hisslərin şəhid olduğunu gördünmü heç?
duyğularına yas saxladınmı?
hər adsız məzar görəndə
qaçıb başdaşını qucaqladınmı, dost, qucaqladınmı?
hər yatdığında yuxunda necə öldüklərini,
qorxunc meyitlərini görəndə
qışqırıb yatağından qalxdınmı, –
özün öz duyğularından qorxdunmu, dost, qorxdunmu?
belin büküldümü, havalandınmı
bunca itkilərdən,
məsxərəyə qoyuldunmu heç?
bir baxımsız parkda,
bir qara kötüyün üstündə oturub
yaşıdlarına baxdınmı?
şəhid duyğularının sağ anlarını xatırladınmı, dost?
gözlərində sıxmağa yaş,
sinəndə ah çəkməyə nəfəs axtardınmı, dost, axtardınmı?
sonra bu qorxunc görkəminlə
qovuldunmu hər yerdən,
yerdən, göydən, varlığından, yoxluğundan
qovuldunmu, dost, qovuldunmu?
sən heç duyğuların şəhid olduğunu
gördünmü, dost, gördünmü?



ALİK

Atamın və oğlumun xatirəsinə

Martın son günləridir.
Ayaq üstə dayanıb
Hamının susduğu kimi susuram.
Sinəmə çəkdiyim hava,
Ayağımı basdığım torpaq
Məni sərxoş edir...

Dağın başında kimsə gedir.
Uzaqlaşmaqda...
Dönüb boylanır,
Havada yellənir bir əl...

Çağırır:
Gəl, gəəl!
Bilirəm ki, indi getməsəm,
Bu köhnə evdə
Toz-torpaq,
Köhnə şəkillər,
Çirkli pəncərələr
Və bozarmış paltarlarım
Var...

Bilirəm təklikdə öləcəm burda...

Martın son günləridir
Həyətdə oturub
Hamının susduğu kimi susuram.

Küçələr boşdur,
Uşaqlar oynamır.
Adamlar köçüb gedib.

Bütün qəsəbə
Sükut içində...
Mən öz evimi sevirəm!

Mart bitir.
Pəncərə önündə
Hamının susduğu kimi susuram:
Həyətimdəki boş yelləncək
Mənimlə birgə gözləyir:
atam – qucağında oğlum – gələcək!

Mən qayıdanda

Palçıqlı yollar
Adamların ayaqqabı izlərini
Öz üzərinə həkk edirdi...
Buludlu səma
Və tutqun göy üzü heç nədən
Xəbər vermirdi...
Bütün kainat
Atasını gözləyən balaca bir qızın
Yerdə oturduğu küçədən başlayırdı...
Bütün kainat
İnsanların unudulduğu yerdə
Başa çatırdı. Əriyirdi...
Kainat başa çatanda insan yenidən doğulur...
Mən qayıdanda yağış kəsmişdi,
Yer üzü evindən çıxan insanları yenidən doğub
Tökürdü küçəyə...
Darvazanı açaraq bir uşaq
Qaça-qaça gəldi və qucağıma tullandı,
«Günəş qalib gəldi», – dedi.
Güldüm...

Bakının multikultural mənzərəsi
Мультикультуральный портрет г. Баку



Bakının Yasamal rayonunda yerləşən
Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi

Православный религиозно-культурный центр Бакинской и Азербайджанской епархии,
в Ясамальском районе г. Баку



Bakının multikultural mənzərəsi
Мультикультуральный портрет г. Баку



Rus pravoslav kilsəsinin daxili görünüşü

Вид Русской православной церкви изнутри



Bakının multikultural mənzərəsi
Мультикультуральный портрет г. Баку



Sünnilərin və şiələrin birlikdə vəhdət namazı qıldığı Heydər məscidi

Мечеть Гейдара, где сунниты и шииты вместе совершают намаз единения



Mir Mövsüm ağa ziyarətgahı

Святилище Мир Мовсум Аги



Ramilə QURBANLI

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun məsləhətçisi, jurnalist, publisist

Sənətkar simasındakı həyat əzabı

2013-cü il iyunun 27-də bir müharibə uşağı, talesiz ata, ər, etibarsızlıqdan sarsılan dost, potensialını tam göstərə bilməyən, dəyərini özü ilə aparan bir sənətkar həyatdan getdi.

Kiminsə qəlbində sadəcə həzin, xoş xatirəsi qaldı, sadəcə qoyub getdiyi obrazlarla... Kimsə «Ondan bir də olmayacaq» dedi. Əksəriyyət isə... heç «təəssüf» belə demədi.

Müharibə övladı

Balacaboy, tösmərək bir oğlan qoltuğuna vurduğu tar boyda idi az qala, Bakının dar dalanları ilə bu tarı güclə daşıya-daşıya hər gün dərsdən sonra «Pionerlər evi»nə gedərdi. O vaxt üçüncü sinifdə oxuyurdu, tarı çox sevirdi, amma dram dərnəyinə gedən Hacıağa adlı dostu teatrın əlçatmaz gözəlliklərindən o qədər danışdı ki, bir gün ona qoşulub dram dərnəyinə yollandı. İlk məşqlər, ilk tamaşalar və ilk rol... Beləcə, gələcəyin məşhur aktyorunun həyat yolu və taleyi müəyyən olundu.

1935-ci il sentyabrın 5-də Bakıda sürücü Məmmədağa kişinin və evdar qadın Anaxanımın kasıb komasında bir oğlan uşağı dünyaya gəldi. Adını Səyavuş qoydular ki, bəxti yüyrək olsun. Səyavuş fars dilindən tərcümədə «atlı» mənasını verir. Hamının uşağı kimi küçədə oynayır, deyir-gülür, axşam evə yığışırdı. Məktəbə gedəndən sonra o vaxtın əksər ailələri kimi uşağı ya musiqiyə, ya idmana, ya da hansısa dərnəyə yazdırmalı idilər. Bu uşaq tarı seçdi, üç il sonra isə könüllü dram dərnəyinə keçdi.



Səyavuşun taleyi yüyrək oldu deyəsən, həyatda hər şey sürətlə, hələ yaşı çatmamış gəlib-keçdi, iz buraxdı.

İkinci dünya müharibəsinin şətəsi bu ailədən də yan keçmədi, taleyinə müharibə dövründə yaşamaq yazılmış hər bir insan bu və ya digər dərəcədə dövrünün qurbanı olur. Bu uşaq da hələ orta məktəbin ilk illərində müharibənin dəhşətlərini gördü. Yaşamaq üçün işləmək, çalışmaq lazım idi, oxumağa artıq vaxt qalmırdı.

7-ci sinfi bitirəndə Dəmiryol Texnikumuna üz tutur ki, tezliklə bir sənət sahibi olsun, əli çörəyə çatsın. Oxuya-oxuya həyatın ağrı-acısının yükünü dram dərnəyindəki müəllimi Ağadadaş Qurbanovdan öyrəndikləri sayəsində çiyinlərindən atırdı. Onunla birgə dostu Həsənağa da dərnəyə gedirdi. Sonralar bu dostlar Azərbaycan kino və teatr mədəniyyətinin iki möhtəşəm sütunu olacaqdılar – Səyavuş Aslan və Həsənağa Turabov.

Ağadadaş Qurbanov Səyavuşu peşəkar teatr səhnəsinə gətirmək üçün çox sınaqlara çəkirdi, ən çətin, fərqli obrazlar verirdi. Həvəskar aktyor hamısının öhdəsindən gəlirdi.

Səyavuş Aslan peşəkar teatr səhnəsinə ilk dəfə 1954-cü ildə Musiqili Komediya Teatrı səhnəsində xorun solisti kimi çıxır. Xorda işləyən Səyavuş Lütfəli Abdullayevin oynadığı rolları o qədər sevir ki, onları istər-istəməz əzbər öyrənir.

Bir gün «Arşın mal alan» tamaşasının premyerası zamanı Lütfəli Abdullayev xəstələnir. Səyavuş teatrın rəhbəri Ələsgər Şərifovdan xahiş edir ki, Vəli rolunu əzbər bildiyi üçün ona Lütfəlini əvəz etməyə icazə versin. Başqa yol yox idi.

Səyavuş Aslan Vəli obrazında yeni heç nə deyə bilməsə də, rolun öhdəsindən gəlir. Lütfəlini uğurla yamsılamağı onu vəziyyətdən çıxarır.

Həmin illərdə onların arasında ata-bala münasibəti yaranır. Lütfəli bu inadkar, oynamaq istəyi ilə yanıb-qovrulan gənci çox sevirdi, hətta hərdən özünü xəstəliyə vururdu ki, Səyavuşun səhnəyə çıxıb özünü göstərmək imkanı yaransın.

Məşədi İbad «qubbax»da

Əsgərlikdə də Səyavuş sevimli peşəsi ilə məşğul olurmuş. Şəhər Mədəniyyət evinin tamaşalarında oynayırmış. Bir dəfə isə çox maraqlı hadisə baş verir. Onu rol aldığı tamaşanın premyerasına getməyə qoymurlar. Səyavuş hərbi hissədən qaçır. Əynindəki əsgər mundirini çıxarıb stulun başına keçirir. Tamaşaya gələn patrul təsadüfən açıq pəncərədən əsgər paltarını görür. Maraqlanır və həqiqət çıxır ortaya.

Səyavuş Aslan İlham Rəhimlinin onun haqqında yazdığı kitabda bu barədə danışıb. Deyir, zalıma nə qədər dil tökdümsə, tamaşanın ikinci hissəsində oynamağıma imkan vermədi: «Məni tutub apardı ki, hərbi hissədən icazə kağızım olmadan çıxmışam. Özü səhnəyə çıxıb Məşədi İbadın ikinci hissədə oynaya bilməyəcəyini söylədi, dedi, Məşədi İbadı tutub aparırıq, üç sutkalıq».

Əsgərlikdən sonra Səyavuş Aslan gah Kukla Teatrında, gah Quba Dövlət Dram Teatrında çalışır, amma hiss edirdi ki, yerində deyil. Nəhayət, bir gün onu Musiqili Komediya Teatrına dəvət edirlər. Şəmsi Bədəlbəylinin teatra rəhbərlik etdiyi vaxtlar idi. Amma onu aktyor heyətinə götürmürlər, bunun üçün o vaxt uğurlu bir rolla sınaqdan keçməli idin.

Şəmsi Bədəlbəyli «Toy» tamaşasına quruluş verəndə Qoşun rolunda Lütfəli Abdullayevə Səyavuşu dublyor verir, amma onu da deyir ki, premyera sənin sınağın olacaq. Premyera günü Şəmsi Bədəlbəyli mötəbər qonaqları nəzərə alıb sözünü geri götürür, «qoyun Lütfəli özü oynasın» deyir. Səyavuş çox pərt halda, amma ötkəm səslə: «Ya premyeranı oynayıram, ya gedirəm», – deyir. Şəmsi Bədəlbəyli, deyəsən, gələcəyin potensial aktyorunu itirə biləcəyini anlayıb razılıq verir. Səyavuş sınaqdan uğurla çıxır və sabahısı teatrın aktyor heyətinə qəbul olunur.

Onun sənət taleyində Mirzağa Əliyevin, Cahangir Zeynalovun böyük rolu var, hər ikisi heç bir məktəb keçməyən Səyavuş Aslan üçün əsl sənət məktəbi olub. Daha bir uğuru Lütfəli Abdullayevlə olan münasibətləri idi. Özünün də bir vaxtlar etiraf etdiyi kimi, doğma atasını itirəndə hələ həyatı dərk eləmədiyinə görə almadığı zərbəni Lütfəli Abdullayev dünyadan köçəndə, onu itirəndə alıb.

Səyavuş Aslan adı artıq afişalarda parlayır, tamaşaçı onun adına tamaşaya gəlir. Yavaş-yavaş kino dəvətləri başlayır. Teatrda bir-birinin ardınca eyni səpkili komik rollar oynayan aktyor kinoda bəzən faciəli obrazların öhdəsindən belə məharətlə gəlməyi bacarırdı.

Onun kinodakı, teatrdakı rollarını sadalamayacam. Səyavuş Aslan dövrümüzün sənətkarı olub, oynadığı rolları hamımız bilirik. Amma onun bir insan kimi, bir sənət adamı kimi zəmanəmizdəki rolu hamıya bəlli deyil.

Səyavuş Aslan səhnədə daha çox eyni tipli komik rollar yaradıb. Bu, onun aktyor potensialından irəli gəlmirdi, əksinə, onun zəngin potensialını ortaya çıxara biləsi dərin dramaturji material qıt idi. Gəncliyində də, orta yaşlarında da, ta ömrünün sonuna qədər ürəyindən xəbər verən, içini açan bir rol yazılmadı onun üçün. Son illər Milli Dram Teatrının səhnəsində gürcü müəllifin «Kaş araba aşmayaydı» əsəri məxsusi onun üçün tamaşaya qoyulsa da, yenə Səyavuş Aslan sənətkarlığı üçün az idi. Bax budur sənətkarın faciəsi.

Səyavuş Aslan təbiətcə təzadlı xarakterə malik insandı. O, həm həyatından çox sevdiyi qadını Ofeliya Aslan üçün göz yaşları tökməyə, həm də onu dəlixanaya saldırmağa qadir idi. Müxtəlif şirkət rəhbərlərindən, brend firma mağazalarından özünə bir kostyum da istəyə bilərdi, ölkə prezidenti ilə görüşəndə özünü unudub gənc aktyorlar üçün təqaüd də xahiş edə bilərdi.



"Əhməd haradadır?" (1963) filmindən kadr

Qibtə doğuran sevginin iflası və sənətdə tənəzzül

25 il Musiqili Komediya Teatrında çalışdı. Bədii rəhbər vəzifəsinə qədər ucaldı.

Həmin illər ərzində bu teatrda parlaq sənətkarlardan ibarət kollektiv formalaşmışdı. Onların arasında gənc, gözəl Ofeliya da vardı. Sevgi özünü gözlətmədən gəldi. Bir-birinə həm xarakter, həm zahiri görkəmcə çox bənzəyən bu iki gənci bir yerdə görməyə alışmış gözlər bir gün onların toy sevincini də yaşadı, övladlarının doğuluşu münasibətilə təbriklər də söyləmək düşdü qismətlərinə.

Teatrın kollektivi elə bil ailə idi, Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Səyavuş Aslan üçlüyü isə Bəşir Səfəroğlu və Lütfəli Abdullayevdən sonra səhnəni çiyinlərində şərəflə daşıyırdı. Bəli, səhnə böyük sənətkarların çiyinlərində daşınır və ötürülür.

Şan-şöhrət, sənət yanğısı, uğur, ailə xoşbəxtliyi – hamısı eyni vaxtda gəldiyi kimi, bir gün ya bir-bir, ya da elə gəldiyi kimi eyni vaxtda əldən çıxa bilərmiş.

Mehriban kollektiv dağılmağa başlamışdı. Teatra, sənətə, sənətkara münasibət də dünənki kimi deyil – axı 90-cı illər astanadadır. Elə bil lənətlənib bu illər, il ildən ağır gəlir. Mədəniyyətimizin tənəzzül illəri.

O, qadınların deyil, qadınlar onun arxasınca gələrdi...

Üstəlik də ailədəki problemlər. Səyavuş Aslan qadın düşkünü deyildi. O, heç bir qadının arxasınca düşməzdi, xanımı onun üçün bütün qadınlardan üstün idi. Amma onun şöhrətinə aludə olan qadınlar vardı ki, Səyavuş Aslana rahatlıq vermirdilər. Bəlkə də haqqında yayılan söz-söhbətlər, şayiələr bu qadınların uydurması, xəyalı idi. Ofeliya Aslan isə bütün qadınlar kimi zəif məxluqdur, bu şayiələrdən artıq təngə gəlib, psixoloji problemlər baş qaldırıb onda. Səyavuş Aslan ailəsini sevir, ürəyi onunladır, amma qayğı göstərmək, bu sevgini nümayiş etdirmək xislətinə yaddır.

Söz-söhbət belə kişilərin ailəsindən əskik olmur. Qadının dığ-dığından qurtulmaq üçünsə ya boşanmaq lazımdır, ya da...

Səyavuş Aslan hər ikisinə əl atır: illərlə həm səhnəni, həm də yastığını bölüşdüyü sevimli Ofeliyadan ayrılır, üstəlik, onu psixoloji dispanserə təhvil verir.

Teatr sənətimizin tarixinə qızıl hərflərlə yazılmış məşhur «Hicran»ın qəhrəmanları arasında da hər şey qaydasında deyil. Nəsibə Zeynalova xanımına göstərdiyi (onun qənaətincə) anlayışsızlığa görə Səyavuş Aslanı qınadı, küsdü ondan.

Hətta «Hicran» tamaşası lentə yazılıb tarixə köçürülən zaman o üç aktyorun üçü də bir-biri ilə danışmırmış. Düzdür, o vaxt hələ Səyavuşla Ofeliya ayrılmamışdılar, qadının psixoloji durumu da pozulmamışdı, amma artıq narazılıq axarından çıxırdı.



"Yol əhvalatı" (1981) filmindən kadr

Hacıbaba Bağırovun
Səyavuş Aslanın yerinə keçməsi

Uzun illərin dostları Hacıbaba Bağırovla Səyavuş Aslan arasındakı soyuqluğa isə tamam başqa amillər səbəb olmuşdu. Burada birincinin ikincinin yerinə göz dikib, dostluğu tapdayıb xəbərdarlıqsız onun vəzifəsinə sahib çıxması amili ilə yanaşı, qadın məsələsi də istisna olunmurdu. Bir qadınla hər ikisi münasibətdə olmuşdu, beləcə biri digərinə sayğısızlıq etmişdi. Düzdür, bədii rəhbər təyinatla olurdu, amma iki dostdan biri o birinin yerinə gəlməyə razılıq verirsə, bu, ikinci dostu incitməyə bilməzdi.

Səyavuş Aslan Musiqli Komediya Teatrının bədii rəhbərliyindən çıxarılanda həm də övlad nisgili vardı, övladlar ata-ana arasında olan soyuq münasibətdən, valideynlərin onlara qayğısızlığından «bəhrələnmişdilər».

Şöhrət bəzən insanın gözünü elə tutur ki, bu şirin «pərdə»dən başqa heç nəyi görə bilmirsən. Görə bilmirsən ki, sənin həyatında başqa dəyərlər var. Onları gözdən qoysan, sadəcə itirə bilərsən, övlad kimi, həyat yoldaşı kimi, ailə kimi dəyərləri. Onlar qayğısızlıqdan, sevgisizlikdən yanlış yollara düşə bilərlər.

Səyavuş Aslanla Ofeliya bir evdə iki yad adam kimi yaşayırdılar. Beləcə, gecələdiyi doğma teatr da, vəzifə də şöhrətli aktyorun əlindən getdi. Bundan sonra onu nə gözləyirdi? Bir yandan da insanların etibarsızlığı. Ən yaxın dostu oturub onun kreslosunda, bir vaxtlar cibinə pul qoyduğu, problemlərini həll elədiyi həmkarları da o dostun ətrafında.

Bundan ağır sarsıntı ola bilərdimi?

Bir vaxtlar üzündən gülüş əskik olmayan insan beləcə aqressiya ilə yüklənir. Milli Dram Teatrına onu uşaqlıq dostu, həmin vaxt teatrın rəhbəri olan görkəmli sənətkarımız Həsənağa Turabov aparır. Bu teatrın səhnəsində də maraqlı obrazlar yaradırdı Səyavuş Aslan, amma insan hamıya qarşı aqressiya ilə yüklənmişdi. Teatrda onu sevən çox az adam olardı, çünki heç kimə xoş münasibət göstərmirdi, daha onda xoşluqdan əsər qalmamışdı. Yalnız çox az – bir neçə adam bunları bilirdi və Səyavuş Aslanın əslində çox kövrək bir qəlbi olduğunu dəyərləndirib ona münasibətini dəyişmirdi.

Əgər həmin vaxtlar bu böyük sənətkarın içinə aqressiya, insanlara inamsızlıq, qəzəb hakim kəsilmişdisə, illər ötdükcə qəlb öz sözünü deyirdi, kövrəkləşir, həzinləşir, günahları üçün öz qarşısında hesabat verirdi. Hesabat zamanı isə heç kim, hətta insanın öz məni belə onu bu günahları eləməyə gətirib çıxaran səbəbləri araşdırmır, başqasına haqq qazandırmır, sadəcə, mühakimə edir.

«Belə çıxır ki, nə həyatda bir işin sahibi olmadın – ata, ər, oğul kimi. Nə də səhnədə olmaq istədiyin kimi ola bilmədin. Niyə yaşadın, nə dedin, kim oldun?» – hər gün özünə bu sualları verir, göz yaşlarını qəlbinin çatlarına axıdırdı. Bəzənsə o göz yaşları elə efirdəcə özünü büruzə verirdi. Xüsusən də həyat yoldaşına görə özünü günahkar bilirdi, qınayırdı. Ofeliya üçün hər şey edirdi, bəlkə günahını yuyar deyə bazarlığına qədər daşıyıb, yaşadıqları eyni mənzildəki otağına gətirirdi, amma qadın qəlbi bağışlamırdı ki, bağışlamırdı.

Ömrünün axırına qədər də belə oldu – o bunu, bu da özünü bağışlamadı.

Beləcə, xanımından sonra yaşadığını da ömründən saymayan bir kişi, sənətkar sakitcə, səssiz-səmirsiz, təəssüfsüz, göz yaşısız köçdü həyatdan. Soyuq, boş divarlar arasından soyuq torpağa əbədi köç elədi.

2013-cü il iyunun 27-də bir müharibə uşağı, talesiz ata, ər, etibarsızlıqdan sarsılan dost, potensialını tam göstərə bilməyən, dəyərini özü ilə aparan bir sənətkar həyatdan getdi.

Kiminsə qəlbində sadəcə həzin, xoş xatirəsi qaldı, sadəcə qoyub getdiyi obrazlarla... Kimsə «ondan bir də olmayacaq» dedi. Əksəriyyət isə... heç «təəssüf» belə demədi.



Cavid ZEYNALLI

yazıçı, jurnalist

Bir şəklin tarixçəsi

– Siz bilirsiniz ki, Nazim Hikmət Yusif Səmədoğlunun toyunda iştirak edib?

– Yox, kim deyir onu?!

– Toyda çəkilən şəkil var: Nazim Hikmət Yusif Səmədoğlunu təbrik edir. Qəribədir, indi hər şeyi tapmaq olur, ilin-günün bu vaxtında interneti ələk-vələk elədim, o şəkli tapa bilmədim. Deyirlər, həmin şəkil Aygün xanımdadır...

– Gözlə, mən dəqiqləşdirim, bir azdan danışaq.

Çox keçmir, telefonda İntiqam Qasımzadənin təəccüb dolu səsi eşidilir:

– Aygünlə danışdım, elə bir şəkil var. Sabah səndə olacaq.

İntiqam müəllimə təşəkkürümü bildirəndə gülə-gülə deyir:

– İnciməye, amma siz bu faktları goreşən kimi hardan tapıb çıxarırsınız? Mən indiyə qədər bu haqda heç nə eşitməmişəm.

Səhəri işə çatan kimi elektron poçtumu açıram ki, «Aygün Vəkilova» ünvanından məktub gəlib. Səməd Vurğunun nəvəsi, Aybəniz xanımın qızı Aygündən...

***

Vaqif Səmədoğlu qardaşının Nazim Hikmətlə tanışlığından danışır:

...Nazim Hikmətlə ikinci görüşüm 1960-cı ildə oldu. Qardaşım Yusifin toyunda iştirak eləmək üçün Bakıya gəlmişdi. Yusif Moskvada Qorki adına Ədəbiyyat İnstitutunda oxuduğu zaman atam onu Nazim Hikmətlə tanış etmişdi. Söhbət zamanı Nazim Hikmət Yusifdən yazılarını hansı təxəllüslə yazacağını soruşdu. O da cavab verdi ki, Yusif Vəkilov.

– Onda elə biləcəklər russan. Atanın adını özünə təxəllüs götür, ol Yusif Səmədoğlu.

Sonralar mən də oldum Vaqif Səmədoğlu.

***

Yusif orta məktəbi qızıl medalla bitirir. Çoxdankı arzusunu yerinə yetirməyin vaxtı-vədəsi idi: Moskva, Qorki adına Ədəbiyyat İnstitutu; adı dillər əzbəri olan o institutun tələbəsi olmaq, o binanın qapısından içəri girmək, pilləkənlərini qalxmaq, divarları arasında ədəbiyyat yolçuluğuna çıxan yüzlərlə tələbəyə qaynayıb-qarışmaq...

Özü də inanırdı ki, «Qorki»nin tələbəsi olacaq, imtahanlara görə qəti narahatlığı yox idi. Vaqif Səmədoğlu qardaşı haqqında lap sonralar heyrətlə danışırmış ki, Yusifin mütaliəsi məni həmişə təəccübləndirib, kitabı necə oxumaq lazım olduğunu mən Yusifdən öyrənmişəm.

Bu da şairin xatirəsidir: «Mən atam Səməd Vurğunun ağlamasını iki dəfə görmüşəm: bir Stalin öləndə, bir də Yusif Moskvada Ədəbiyyat İnstitutuna qəbul olunanda».

«Qorki»də oxumaq asan məsələ deyildi. İmtahanlar, müəllimlərin tələbkarlığı... Gün-gündən artan dərs yükünə tab gətirməyənlər az olmurdu. Günlərin birində Səməd Vurğun yenə Moskvaya səfər edir. Oğlunun yaşadığı otağa gedir, hal-əhval, uzaqdan-yaxından söhbət, çay içirlər. Ata oğuldan soruşur:

– Nə oxuyursan?

– Başım imtahanlara qarışıb, təzə əsərləri oxumağa vaxtım yoxdur.

Səməd Vurğun möhkəm əsəbiləşir, nəlbəkini stolun üstünə qoyub, külqabıdan sönmüş papirosunu götürüb yandırır, dərindən sümürür:

– İyirmi yaşında bir cavan deyəndə ki, təzə əsərləri oxumağa vaxtım yoxdur, tüklərim ürpəşir, – deyir. – A bala, necə yanı vaxtım yoxdur? İnsanda arzu olsa, həmişə vaxt tapa bilər. Mən sənin yaşında olanda, əlimə nə keçirdisə, oxuyurdum. Bəzən səhərə qədər yuxusuz qalırdım. Qəribə sözdür, vaxtım yoxdur...

«Mən üzr istəyib söz verdim ki, bir də belə söz deməyəcəyəm. Sonralar atam hər dəfə Moskvaya gələndə mən ona, necə deyərlər, oxuduğum əsərlər haqqında hesabat verirdim...».

***

Söz yenə Vaqif Səmədoğlunundur:

«Cavan olanda cibim iki qəpikliklərlə dolub-daşardı. Bu qəpiklərlə avtomat telefonlardan qızlara zəng eləyirdim. Əsasən də rus qızlarına. Ancaq Yusifin cibində bir dənə də iki qəpiklik olmazdı, çünki Yusifə qızlar özləri zəng edərdilər. Mən qızlara dil tökürdüm, ancaq qızlar Yusifdən ötrü ölürdülər, elə ona görə də mən şair oldum, o – yazıçı.

Yusif uşaqlıqda dəcəl deyildi. Kiçik yaşlarından davranışı, ədalarıyla çoxumuzdan fərqlənirdi. Mən yaşıdlarımızla həyətimizdə müxtəlif oyunlar oynayırdım. Başım qarışırdı futbol oynamağa, ya da velosiped sürməyə. Yusifin isə heç vaxt futbol topu, velosipedi olmadı. Bunlara həvəs göstərmirdi. Onun dostları iyirmi dörd, iyirmi beş yaşlı oğlanlar idi. Həmişə özündən yaşca böyüklərlə yoldaşlıq edirdi. On altı yaşından Yusif başına şlyapa qoyub, bu vaxt onun

maraqları artıq başqa idi. Görkəmcə son dərəcə yaraşıqlı oğlandı. Buna görə qızların xoşuna gəlirdi. Yusifi uşaqlığından qızlar ayırdılar».

Tez ayırdılar… Elə özü də qızların xatirinə uşaqlığından böyük məmnuniyyətlə ayrılmışdı.



***

Günlərin birində Vəkilovlara toy dəvətnaməsi gəlir. Çoxdan tanıdıqları simsar ailədən. Məclisə Xavər xanımla Yusif gedir. Toyda bir qızı gözaltılayır, yaman xoşu gəlir qızdan. Sən demə, o qız gəlinin bacısı imiş, adı da Nəmidə. Yusif toydan qayıdan kimi deyir, onunla evlənəcəyəm. Heç üç-dörd gün keçməmiş Xavər xanımı Nəmidənin anası Həcər xanımın yanına elçi göndərir. Nəmidənin atası Qurban kişi uzun müddət Gəncə milisinə rəhbərlik edibmiş, polkovnik rütbəsi daşıyırmış. Deyilənə görə, Gəncədə yaşlı adamlar onun başına and içirmişlər...

Yusiflə Nəmidənin iki övladı oldu. Yusif qızlarının ikisinə də atasının əsərlərindən ad seçdi: birinin adı Mehriban, o birinin adı Humay.

***

Mehriban xanıma zəng vurub hal-əhval tuturam, soruşuram ki, Nazim Hikmətin atanızın toyunda iştirakı haqqında nə deyə bilərsiniz?!

Xeyli düşünür, nəyisə saf-çürük edir, yaddaşını qurdalayır. Sonra anasını səsləyir, telefonda xeyli gözləməli oluram. Xəttin o başında səsi eşidilir, Nəmidə xanımdan öyrəndiyi beş-on cümlədən savayı heç nə deyə bilmir. Bu dəfə mən təkid edirəm ki, dəstəyi verin Nəmidə xanıma, özüm danışım...



– Vallah, inanın mənə, anam atam haqqında danışa bilmir. Ona çox çətindir. Bax, indi danışdım, ancaq bunu xatırlayır: toy 1960-cı il fevralın 23-də köhnə «İnturist»də olub. Nazim Hikmət tərcüməçisi və həyat yoldaşı ilə gəlibmiş. O vaxt həyat yoldaşı rus idi. Anam deyir, toy çox maraqlı keçib. O dövrün bütün məşhur yazıçıları, ədəbiyyatşünasları həmin toyda olublar. Nazim Hikmət şeirlərindən birini oxuyub. Anamdan soruşdum, xatırlamır ki, hansını oxuyub. Toyun səhəri Mehdi Hüseyngildə qonaqlıq olub. Mehdi Hüseynin yoldaşı Balacaxanım biş-düş eləyib, süfrə açıb. Xavər xanım, atam-anam həmin qonaqlıqda iştirak ediblər. Nazim Hikmət üç gün Bakıda qalandan sonra Moskvaya qayıdıb. Toyda iştirak edən adamları anam yaxşı xatırlamır. O dövrün bütün məşhur adamları dəvətli olublar: Şəfaət Mehdiyev, Süleyman Rəhimov, Süleyman Rüstəm... Mən sizə şəkildəki adamlar haqqında danışa bilərəm. Soldakı xanımı xatırlaya bilmirəm. Onun yanındakı anamdır. Sonra atam, Xavər xanım, Nazim Hikmət, Aybəniz bibim və Mehdixan Vəkilovun oğlu Cavanşir Vəkilov.

Hə, anam bir də onu dedi ki, Nazim Hikmət Xavər xanımın dəvəti ilə məhz atamın toyunda iştirak etmək üçün Bakıya gəlibmiş...

«Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları» kitabı işıq üzü görüb

(Bakı: Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2016. – 288 səh.)

Bu günlərdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin «Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları» adlı nəfis nəşri çapdan çıxıb.

Sözügedən nəşr «Azərbaycan multikulturalizminin qaynaqları» seriyasından işıq üzü görən birinci kitabdır. Toplunun tərtibçiləri AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Möhsün Nağısoylu, tarix elmləri doktoru, professor Fərid Ələkbərli, filologiya üzrə fəlsəfə doktorları Əkrəm Bağırov və İbrahim Quliyevdir.

Prezident İlham Əliyevin «Multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar» sitatı ilə açılan kitabın elmi redaktoru və önsözün müəllifi AMEA-nın həqiqi üzvü, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdulladır. «Həpimiz bir günəşin zərrəsiyiz!» başlıqlı önsözdə akademik vurğulayıb ki, multikultural əhvalın, tolerant durumun klassik ədəbiyyatımızda əsrlərlə formalaşan və konkret bədii nümunələrdə yaşayan təzahürü çoxşaxəli və çoxistiqamətlidir: «Biz bu kitabdakı nümunələrdən aydın şəkildə görürük ki, xalqımız, onun öncül yaradıcı şəxsləri özündə milli, dini təəssübkeşlik hisləri ilə yanaşı, bəşəri dəyərləri də yaşatmağı bacarmış və «özününkü» saydığını «özgəninki» olandan çox zaman fərqləndirməmişdir. «Öz-özgə» qarşıdurması xalqımızın formalaşma tarixi boyunca özünün ən yumşaq şəklində təzahür etmişdir. «Eşqdir mehrabı uca göylərin» ideyasını yaradıcılığının cövhəri bəyan edən Nizamidən başlayaraq, «Mənim tanrım gözəllikdir, sevgidir» etirafında bulunan Cavidə qədər Azərbaycan ədəbiyyatı eşq üstündə köklənmişdir. Bu ədəbiyyat yaşadığı bütün ictimai-siyasi dönəmlərdə irqindən, rəngindən, dinindən, dilindən asılı olmadan bütün bəşəriyyəti sevib və sevir. Eyni zamanda, bu ədəbiyyatın sahibi olan Azərbaycan xalqı digər mədəniyyətlərdə, dillərdə, tarixlərdə müsbət dəyərlər axtarıb tapan bir xalq kimi öz əvəzsiz mənəvi-əxlaqi töhfə-



sini ümumbəşəri dəyərlər xəzinəsinə səxavətlə daxil edir. Abdulla Şaiq «Həpimiz bir günəşin zərrəsiyiz!» deyirdi. Hüseyn Cavid Gülbahar adlı balaca bir qızcığaza dünyanın bütün insanlarını sevdirirdi. Seyid Əzim Şirvani «İnsan olmaq bir şəxsin müsəlman olub-olmamasından asılı deyil» həqiqətinə inanırdı. Füzuli bəşərin dərdini-qəmini Məcnunun, yəni özünün ürəyinə cəm edib bütün dünyanı dərddən xilas eləməyi arzulayırdı. Mirzə Cəlil kamançanın dili ilə qəlbi köz olan Yüzbaşını ancaq nifrətlə yaşayan aciz düşmənə qarşı mərhəmətə, başqa sözlə, özünün öz üzərində qələbəsinə səsləyirdi. Nəhayət, Nizami ona hədiyyə göndərilmiş dili və məzhəbi ayrı olan kənizə vurulub evlənməsiylə şəxsi həyatı ilə də nəsillərə nümunə olurdu. Oxucu ona təqdim olunan bu kitabda klassik şair və yazıçılarımızı tamam yeni bir rakursda görəcək. Ədəbiyyatımıza multikultural dəyərlər istiqamətindən baxış onun əzəmətini müəyyənləşdirən təməl meyarlardan biridir. Bu, bizə ədəbiyyat tariximizi daha rəngarəng, daha çoxmənalı paradiqmalarda görmək imkanı verir. Biz onun ayrı-ayrı dövrlərinin bir-birilə mükaliməsinin səsini eşidirik. Xaqaninin «Həbsiyyə»sindəki suallara Cavidin Şeyx Sənan vasitəsilə cavabları səslənir. «Erməni» rədifli qəzəl yazan Nəsimiyə «Süsən» adlı erməni qızına şeir həsr edən Vazeh «cavab verir».

Kamal Abdulla önsözdə Azərbaycan multikulturalizminin mənəvi qatdan siyasi müstəviyə qaldırılmasında Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin müstəsna xidmətlərini diqqətə çatdırıb: «Azərbaycan əsl müstəqilliyini XX əsrin sonlarında, nəhayət, əldə edəndən sonra Ulu Öndər Heydər Əliyev ölkəni qorumaq, onu canlı orqanizm kimi geridönməz inkişaf yoluna qoymaq tarixi missiyasını yerinə yetirən əvəzsiz şəxsiyyət oldu. Multikultural və tolerant dəyərlərin Azərbaycan kimi kiçik, amma dərin tarixə, milli-mənəvi ənənələrə malik qürurlu bir ölkə üçün son dərəcə vacib həyati şərtlər olduğunu Ulu Öndər yaxşı bilirdi. Və o, bu dəyərləri yaşatmaq üçün Azərbaycan multikulturalizminin siyasi əsaslarını əzmlə qurdu və qəbul edilmiş siyasi bəyanat və sənədlərdə, göstərişlərdə, Konstitusiya bəndlərində bunu addım-addım və geridönməz şəkildə həyata keçirməyə başladı. Zəngin mənəvi xəzinənin sistemli siyasi bünövrəsi belə yarandı. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev öz ulu siyasi sələfinin yolunu ləyaqətlə davam etdirərək deyir: «Azərbaycanda multikulturalizm dövlət siyasətidir və onun alternativi yoxdur!»

Nəşr klassik ədəbiyyatımızın görkəmli nümayəndələri ilə yanaşı, indiyədək yaradıcılığı az araşdırılan ədiblərin əsərlərindən nümunələr təqdim edir. Bu nümunələr «Kitabi-Dədə Qorqud»dan başlayaraq Qətran Təbrizi, Eynəlqüzzat Həmədani Miyanəçi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Mücirəddin Beyləqani, Nizami Gəncəvi, Şihabəddin Sührəvərdi, Şeyx Mahmud Şəbüstəri, Suli Fəqih, Mustafa Zərir, Əssar Təbrizi, Qazi Bürhanəddin, Qasım Ənvar, İmadəddin Nəsimi, Nemətulla Kişvəri, Həbibi, Aşıq Qurbani, Şah İsmayıl Xətai, Həqiri Təbrizi, Məhəmməd Füzuli, Şahqulu bəy, Rəhməti Təbrizi, Məhəmməd Əmani, Məsihi, Aşıq Abbas Tufarqanlı, Saib Təbrizi, Molla Camal Rənci, Qövsi Təbrizi, anonim «Şeyx Sənan» mənzum hekayəti, «Əsli-Kərəm» dastanı, Nişat Şirvani, Şakir Şirvani, Baba Şirvani, Xəstə Qasım, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh,

Mirzə Nəsrulla Didə, Mir Həmzə Seyid Nigari, Aşıq Alı, Mirzəcan bəy Mədətov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundzadə, Mir Mehdi Xəzani, Xürrəmi, Aşıq Pəri, Aşıq Ələsgər, Mirzə Həsib Qüdsi, Seyid Əzim Şirvani, Sədi Sani Qarabağı, İsmayil bəy Nakam, Məmo bəy Məmai, Mirzə Əbdülxaliq Yusif, Nəcəf bəy Vəzirov, Məşədi Məhəmməd Bülbül, Əndəlib Qaracadağı, Mücrim Kərim Vardani, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Süleyman Sani Axundov, Məhəmməd Hadi, Abdulla Şaiq, Hüseyn Cavid, Əliabbas Müznib, Səməd Mənsur, Üzeyir bəy Hacıbəyov, Seyid Hüseyn, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad, Cəfər Cabbarlı, Qurban Səid kimi görkəmli Azərbaycan ədiblərinin əsərlərində bədii ifadəsini tapan çoxəsrlik multikultural dəyərlərimizə və tolerantlıq ənənələrimizə işıq tutur.

Qeyd edək ki, «Azərbaycan multikulturalizminin qaynaqları» seriyasının davamı kimi yaxın gələcəkdə «Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları», «Azərbaycan multikulturalizminin siyasi qaynaqları» kitabları da nəşr ediləcək.

Sevinc MÜRVƏTQIZI

Çoxmədəniyyətli, çoxdüşüncəli, çoxsəsli cəmiyyətin ideal modeli: Sərbəst insanlar ölkəsində

Əhməd Ağaoğlunun həm real, həm də utopik məmləkəti

1930-cu il iyunun 4-də Ankaranın Keçiörən məhəlləsində Azərbaycanın görkəmli fikir adamı Əhməd bəy Ağaoğlu «Sərbəst insanlar ölkəsində» adlı kitabını tamamladı.

Sorbon Universitetini bitirmiş Əhməd bəy Bakıdan əsrin əvvəllərində köçməyə məcbur olmuşdu. Onu Bakıdan qaçırmışdılar. O, Azərbaycanın ilk mühacir jurnalisti sayıla bilər.

Köçdüyü ölkədə də çox böyük işlərə imza atmışdı. Türkiyə Mətbuat İdarəsinin baş müdiri olmuşdu, millət vəkili seçilmişdi. İstanbul və Ankara universitetlərinin professoru idi. Mustafa Kamal Atatürklə dostluq edirdi.

«Sərbəst insanlar ölkəsində» əsəri öncə «Cümhuriyyət» qəzetində çıxdı. Daha sonra: «Xalqımızın göstərdiyi rəğbət və aldığım bir çox çağırış məktubları bu dəfə onu bir kitab şəklində diqqətinizə yetirmək cürətini verdi». Kitab həmin il İstanbulda nəşr olundu.

Aradan 70 il keçəndən sonra həmin kitab Bakıya da gəldi. Onu Bakıya mərhum Vəli Axundovun qızı Nigar Axundova gətirmişdi. Nigar xanımın anası Ağaoğlulardandı.

2001-ci ilin isti yay günlərində bu sətirlərin müəllifi öz ömür yoldaşıyla həmin kitabın üstündə işləməyə başladı. 70 ilin nəşri sapsarı saralmış, yıpranmışdı, onunla bir körpə kimi davranırdıq. Dili ərəb-fars tərkibləriylə süslənmişdi.



Kitab «Tutu» nəşriyyatında çapdan çıxdı. Professor Rəhman Bədəlov kitaba geniş giriş sözü yazdı. Məqsəd gənc nəslə Əhməd bəyi daha yaxından tanıtmaq, «Sərbəst insanlar ölkəsində» əsərini oxuyanlara bir yol göstərməkdi.

Daha sonra kitab Əhməd bəyin özünün yazdığı önsözlə davam edir. Əhməd bəy kitabını Monteskyönün bu sözü ilə açır: «İstibdad, yəni şəxsi hakimiyyət şərəfə, respublika da ləyaqətə dayanır».



Əhməd bəyə görə, bu bölgü hələ də əhəmiyyətini itirməyib. Şəxsi hakimiyyət zamanı xalq tək şəxsin şıltaq və həvəsinə tabe olduğundan itaət üçün yeganə çarə xalqı qorxutmaq və xof içində saxlamaqdır.

Konstitusiyalı monarxiya zamanı hakimiyyət hökmdarla imtiyazlı bir sinfin əlindədir. Odur ki, bu ortaq hakimiyyətin yaşaması üçün hər iki tərəf bir-birinə sədaqətli və bağlı olmalıdır. Yəni şərəf şərtdir.

Respublikada hakimiyyət xalqın əlindədir. Hər kəsin idarəçiliyə qatılmaq haqqı var. Bu idarəçiliyin sürməsi və bəyənilməsi üçün insanlar yüksək vəzifə və məsuliyyət duyğularına, üstün əxlaqi dəyərlərə yiyələnməlidirlər. Yəni respublikada vətəndaşların ləyaqətli olmaları şərtdir.

Bu ləyaqət nədən ibarətdir? Özünü necə göstərir? Əhməd bəy «Sərbəst insanlar ölkəsində» əsərini məhz bu suallara cavab verməkdən ötrü yazdığını vurğulayır.

«Mən bir əsir idim, azad olmaq istədim» – kitab bu epiqrafla başlayır. İstibdad zəncirlərini qıran bir nəfər iki yol ayrıcında qalır: sol tərəfə gedən yol azadlıq yolu, sağ tərəfə gedənsə köləlik yoludur. Əhməd bəyin qəhrəmanı, əlbəttə, azadlıq yolunu tutur.

Sərbəst insanlar ölkəsinə çatan qəhrəmanı elə sərhəddəcə sorğu-suala tuturlar: «Görürük, əsarətin bağlarını qırmısan, amma iç zəncirlərini də qırmısanmı?»

«Anlamadım», – deyir Əhməd bəyin qəhrəmanı. Onda ondan bu suallara cavab istəyirlər:

1. Tamahına yiyə dursursanmı?
2. Doğrunu sevirsənmi?
3. Həqiqətə dözümün varmı?
4. Ləyaqət sahibisənmi?

«Hə» cavabı alandan sonra onu sərbəst insanlar ölkəsinə buraxırlar.

Yeni vətəndaş azad ölkənin qayda-qanunları ilə tanış olmağa başlayır. Əhməd bəy qəhrəmanın dilindən bu ölkəni xırdalıqlarınadək təsvir edir. Onu ölkənin pirləri (müdrikləri) ilə görüşdürürlər. Pirlər ona ölkənin Ana Yasasını – Konstitusiyasını verirlər. Ana Yasada yazılanlar qəhrəmanı mat qoyur:

– Fikir təmizliyi, söz təmizliyi və əməl təmizliyi azadlığın əsaslarıdır.

– Tamahına yiyə durmayanlar azad ola bilməzlər.

– Azadlıq doğruya və cəsarətə söykənir.

– Yalan sərbəst insanlar ölkəsində yasaqdır. Bu azara tutulan ölkə xaricinə çıxarılır.

– İkiüzlülük və yaltaqlıq ən ağır günahdır. Bu günaha batanlar daşa tutulurlar.

– Qorxaqlıqla sərbəst ölkə vətəndaşı bir araya sığmaz.

– Haqqı qorumaq vəzifədir.

– Ölkə işlərini görmək yalnız təcrübə və ixtisas sahiblərinin haqqıdır.

– Hər bir vətəndaş ölkə məmurlarının fəaliyyətini yoxlaya bilər.

– Hər bir məmur əlindəki sərvət haqqında hər an hesabat verməyə hazır olmalıdır və s.

Pirlər qonağa istibdada alışmış insana azadlıq aşılamağın heç də asan olmadığını anladırlar. İstibdad insanın ruhuna və qəlbinə çökür. Bəzən elə görünə bilər ki, istibdad yıxılıb, ancaq ola da bilər o yıxılmış istibdadın xarabalıqları önündə «azadlıq» bağıranlar qonşunun azadlığına dözə bilməsinlər. Başqasının azadlığı ilə toqquşanda onu məhv etməyə hazır olanlar varsa, demək, istibdad taxtı sınmayıb. Bax elə yerlərdə azadlıq özbaşınalığa çevrilir.

Beləcə, köləlikdən qurtulmuş qəhrəman əsərin sonunacan Sərbəst insanlar ölkəsinin bütün qayda-qanunlarını görür-götürür, mənimsəyir. Kitabın yarımbaşlıqlarına diqqət edin:

***Azadlıq və çuğulçuluq**
***Burada vətəndaşlıq bir tordur ki, içinə girən insanlar bir-birinə bitişik halqalara bənzəyirlər**
***Xalqın yönəltdiyi dövlət**
***Sərbəst ölkədə nəzarət işi**
***Həqiqət və dözüm**
***Ləyaqət sahibisənmi?**
***Ziyalı zümrənin mövqeyi**
***Azadlıq və fikir ayrılığı**
***Parlamentdə nələr gördüm?**
***Hüquqların qorunması bir vəzifədir**
***Azad insan ac qalmaz** və s.

Tanışlıqdan sonra keçmiş kölə bu qərara gəlir ki, buralar qardaşlıq yurdudur. Hər kəs bir-birini, dövlət də hamını düşünür. Vətənsevərlik təbliğatı hesabına insana vətən uğrunda fədakarlıq aşılamaq yetərli deyil. Gərək öz növbəsində vətən də öz vətəndaşına maddi-mədəni nemətlər, sevinclər versin.

Fikirləşmək üçün pirlərdən daha 10-15 gün möhlət alan qəhrəman sonda Sərbəst İnsanlar Ölkəsinin vətəndaşlığını qəbul edir. Bu keçidi müəllif çox maraqlı və gülməli dillə təsvir edir. Köhnə vərdişlərindən qurtula bilməyən qəhrəman vəzifəli adam görərkən yenə yaltaqlıq duyğusunu güclə boğduğunu, zəif və iradəsiz olduğunu, hərdən yalan danışmaq istədiyini hiss edir. Hətta özünəqəsd haqqında düşünür. Sonra Sərbəst insanlar ölkəsinin də vaxtilə istibdad quruluşu olduğunu yadına salır: «Axı niyə bunlar dəyişə bilsinlər, biz yox? Onlar da başladıqları zaman çox əziyyət çəkiblər, qeyrət göstəriblər, axırda istədiklərini bacarıblar».

Əlini Azadlıq mələyinin başına qoyub, azadlığa əbədi sadiq olacağına and içir.

İçdiyi andın sözləri yazılmış vərəqi imzalayır: «İndən belə Sərbəst insanlar ölkəsinin vətəndaşı sayılacaqdım... Gözlərimdə hər şey rəngini və mahiyyətini dəyişmişdi. Hər şeydə yeni bir gözəllik görürdüm, hər şey məni yaşamağa səsləyirdi. Anladım ki, bütün varlığımla Azadlıq mələyinə vurulmuşam!»

Sevda İSMAYILLI

“Kitabi-Dədə Qorqud”un “Basatın Təpəgözü öldürməsi” boyu 25 dildə

(Bakı: Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2015.)

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi görkəmli alman şərqşünası və diplomatı Henrix Fridrix fon Ditsin 1815-ci ildə alman dilinə çevirərək yazdığı ön sözlə birlikdə Berlində çap etdirdiyi “Basatın Təpəgözü öldürməsi” boyunu 25 dildə nəşr edib. Kitabların çapı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Kitabi-Dədə Qorqud”un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi ilə bağlı ötən ilin 20 fevralında imzaladığı Sərəncama əsasən gerçəkləşib.

Sərəncam “Kitabi-Dədə Qorqud” dastanının dünya xalqlarına tanıdılmasına, bir elm kimi qorqudşünaslığın tarixinə yeni bir təkan verib. Sərəncama əsasən qəbul edilmiş tədbirlər planında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən Henrix Fridrix fon Ditsin dünya elmi, filologiya və mədəniyyətşünaslığı üçün son dərəcə önəmli olan bu kitabının iyirmi beş dildə nəşr olunması bir layihə kimi nəzərdə tutulmuşdu.



Azərbaycan dilindən başqa müxtəlif dünya xalqlarının – türk, alman, ingilis, fransız, rus, çin, yapon, hind, ərəb, fars, yunan, yəhudi, macar, italyan, Ukrayna, üstəlik də Azərbaycanda yaşayan etnik toplumların – xınalıq, tat, kürd, talış, udin, ləzgi, gürcü, erməni dillərində nəşr edilən bu kitablar ölkəmizin mənəvi dünyasının zənginliklərini göstərməklə yanaşı, Azərbaycandakı multikultural rəngarəngliyin də bariz göstəricisidir.

Kitaba Henrix Fridrix fon Ditsin yazdığı “Homerinki ilə müqayisədə yeni aşkar edilmiş Oğuz siklopu” adlı ön söz də əlavə edilib. Dastanın sözügedən boyu müxtəlif dillərə həmin dillərin birbaşa daşıyıcıları tərəfindən tərcümə olunub. Layihə-

nin ilkin mərhələsində dastanın 25 dildə nəşri nəzərdə tutulsa da, növbəti mərhələlərdə bu kitabın ispan, portuqal, İndoneziya, holland, polyak, çex, bolqar və başqa dillərdə işıq üzü görməsi də planlaşdırılır.

***

Dekabrın 22-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş elmi-bədii yubiley tədbiri keçirilib. Tədbir Prezident İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" müvafiq sərəncamına əsasən təşkil olunub. Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə reallaşan tədbirin iştirakçılarına görkəmli alman şərqşünası və diplomatı Henrix Fridrix fon Ditsin 1815-ci ildə alman dilində çap etdirdiyi "Basatın Təpəgözü öldürməsi" boyunun 25 dildə nəşri nümayiş olunub. Tədbirdə Türkiyə, Almaniya, Rusiya, İran, Gürcüstan, İtaliya və digər ölkələrdən alimlər, qorqudşünaslar iştirak ediblər.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən görkəmli alman şərqşünası və diplomatı Henrix Fridrix fon Ditsin 1815-ci ildə alman dilində çap etdirdiyi "Basatın Təpəgözü öldürməsi" boyu 25 dilə çevrilərək nəşr olunub. Bu da dastanın daha geniş coğrafiyada yayılmasına və oxunmasına xidmət edəcək.

Taleh EMİNOĞLU

Aşağıda "Dədə Qorqud" dastanından Azərbaycanda yaşayan bir sıra milli azlıqların dillərinə tərcümə nümunələrini təqdim edirik:

Xınalıq dili

E Xan hey!

Məgər, xanım, sa qə Oğuz civtorşunı üstür yağı kaƙuitoa. Dün içir ürkümüşhiyə, köçmüşqi. Çəəpi gourşını Aruz qoce gadacığ qii, sa aslan unkuyə çıkağıı, çixikui.

Oğuz genə əyyamırzışkılı kafiyə yurdur qonmuşbuqii.

Tat dili

Xan mə hey!

Yə ruz bə sərən Uğuz düşman ama. Üşun bə şöyoz tərsirund, kuç birund. Virixtərincə kürpə kuk ən Aruz Qucə aftare, yə şir afte vəgüfte, daşte.

Uğuz avaz ama nişt bə uba xiştəni.

Kürd dili

Xanê, rojekê Oxûzan bêhay warên xweda runiş-tibûn dujmin hate ser wan. Ewana ditirsiyan hema şev bardikirin. Wedê direvin diçin rêda kurê Arûzê kal yê biçûk rêda dikebe dimine, şêrek wî dibîne, hil-dide xweyî dike…

Talış dili

Çımı xan hey!

Bəqəm, çımı xan, i ruj deşmen rube Oğuzi səpe. O ruji pesəməy, kuç kardışe-şe yurdo. Vit-vitədə Aruz Piri zoəle eqınyə kuço, qıləy Əslani vindəşe-peqətışe əv, perosnişe.

Əyyom qarde, Oğuz sənibəton oqarde bəştə yurd.

Udi dili

Ay bez xan!

Sa ği Oğuzi azuk' arxayin arśi vədine içoğoy loxol düşməne hari. Şorox hat'e üşe q'ĭye boş köçt'unpi. T'it'eri tağat'an Aruz işq'ari ğar biti manedi. Şot'o sa aslanen ext'i bĕneği. Sa heq'ədər vaxt' oşa Oğuzi azuk' qaybaki içoğoy bisi ədəten içoğoy yurda art'unśi.

Oğuzi xane ĕkbĕğalen hari xavare eçeri.

Ləzgi dili

Зи хан!

Садра огъузар санал алайла абурал ягъийри вегьена. Йифиз абур чпин чкайрай катна. Катдайла Аруз Къужадин хва гьиляй аватна амукьна. Са асландиз аял жагъана ва ада ам хвена. Са кьадар вахтар алатайла огъузар чпин ватандиз хтана.

Gürcü dili

ნანა ჩემო, ერთ დღეს, როცა ოღუზები თავიანთ მამულში მშვიდობიანად ისხდნენ, მოულოდნელად მომხ-დურნი დაესხნენ თავს. ისინი ღამიანად აიყარნენ და როცა გარბოდნენ, გზად არუზ გოჯას ჩვილი ვაჟიშვილი დაუვარდათ. ერთმა ძუ ლომმა ი ბოვა იგი, წაიყვანა თა-ვისთან და გაზარდა...

Erməni dili

Իմ խան՛ հէյ...

Այո, իմ խան, օրերից մի օր Օղուզը նստած իր տեղը թշնամին հարձակվեց նրա վրա: Ժողովուրդին լքեցին իրենց վայրից: Փախչելու ժամանակ ճանա-պարհում Արուզ Գոջայի տղան ընկավ, նրան մի առյուծն էր գտել, վերցրել, կերակրել ու մեծացրել…



Avar dilində



Hind dilində



Çin dilində



İngilis dilində



Ərəb dilində



Erməni dilində



Fars dilində



Fransız dilində



Alman dilində



Gürcü dilində



İtalyan dilində



Yəhudi dilində



Kürd dilində



Ləzgi dilində



Macar dilində



Rus dilində



Talış dilində



Tat dilində



Türk dilində



Udi dilində



Ukrayna dilində



Xınalıq dilində



Yapon dilində



Yunan dilində

Azərbaycan Yaradıcılıq Fondunun kitabxanası

Azərbaycan Yaradıcılıq Fondu ötən ilin may ayında "İstedadlı insanlara dəstək olmaqla onların ictimaiyyətə tanıdılması üçün yeni imkanların yaradılması" adlı layihəyə start verdi.

Layihənin həyata keçirilməsində əsas məqsəd, adından da göründüyü kimi, fondun mövcud imkanları hesabına istedadlı yaşlı insanların qayğısına qalmaq və istedadlı gəncləri üzə çıxarmaq idi. Bu sahədə görülən işlərə nümunə olaraq fondun imkanlarından istifadə etməklə istedadlı, lakin imkansız gənclərə pulsuz informasiya və kommunikasiya texnologiyaları, eləcə də xarici dil kurslarının təşkil olunmasını, istedadlı insanlar arasında müsabiqələr, yarışlar keçirməklə onların həm şəxsi inkişafına, həm də mükafatlandırma yolu ilə maddi təminatlarının yaxşılaşmasına yardım edilməsini göstərmək olar. Bunlarla yanaşı, layihə çərçivəsində bir sıra kitablar da nəşr edilib. Həmin kitablar haqqında qısa məlumatı sizə təqdim edirik:

1. ***Ömər Xəyyam – "Sayrışan hallar".*** Kitabda gənc yazarın on hekayəsi toplanıb. Hekayələrdə başlıca mövzu ruhi sarsıntı yaşayan insanların həyata baxışıdır.



2. ***Fəridə Məmmədova – "Sevgili üçün notlar".*** Gənc şairin iyirmi doqquz şeirinin salındığı kitabda müəllifin lirik duyğuları ifadə olunub.



3. ***İkinci Mahmud – "Ümid arısı".*** Kitabda müəllifin altı hekayəsi yer alıb. Hekayələrin təməlində insanın özünü nəyəsə inandırması və bu inamın yaratdığı birtərfəli, məhdud dünyagörüşün insanı faciəyə sürükləməsi dayanır.



4. ***Alik Əlioğlu – “Günəş qalib gəldi”.*** Kitabda yazarın on essesi və otuz səkkiz şeiri dərc edilib.



5. ***“Quran” motivləri əsasında hekayələr toplusu.*** Antologiyada əlli iki yazarın hekayəsi toplanıb. Toplu Qurani-Kərimin cəmiyyətdə, xüsusən gənclər arasında düzgün təbliğinə, Müqəddəs Kitabımızdan irəli gələn mütərəqqi ideyalarla gəncliyi daha yaxından tanış etməyə hesablanıb.



6. ***Ramilə Qurbanlı – “33 pərdəli dram”.*** Kitabda R.Qurbanlının dövri mətbuatda zaman-zaman çap olunmuş portret yazıları yer alıb.

Səyavuş Aslan, Telman Adıgözəlov, Yaşar Nuri, Kamal Xudaverdiyev, Həsənağa Turabov kimi dünyasını dəyişmiş sənətkarların portretləri həm peşəkarlar, həm də geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Kitabda Rasim Balayev, Fuad Poladov, Mehriban Zəki, Ramiz Novruz, Nurəddin Mehdixanlı haqqında sanballı materiallar da yer alıb. Adı çəkilən və çəkilməyən sənətkarların həm yaradıcılığı, həm də şəxsi həyatları barədə kitabda dolğun məlumatlar var.



7. ***Qan Turalı – "Fələk qırmancı".*** Roman mətn içində mətn metodu ilə qurulub: əsərdə çağdaş romançılığın paralel zamanlar, pastiş/parodiya kimi məşhur fəndlərindən istifadə olunub. "Əsarət-azadlıq" xətti üzrə inkişaf etdirilsə də, əsər boyu "inanc-şübhə", "sevgi-nifrət", "yazmaq-yazmamaq", "yaddaş-yaddaşsızlıq" kimin yan mövzular da romanın əsas xətti ilə iç-içə keçib, beləliklə, çoxqatlılıq yaranıb.



8. ***Rövşən Asifoğlu – "Qarabağlı Hüseynalı bəy".*** Romanda tarixi şəxsiyyət Hüseynalı bəyin timsalında Azərbaycanın çarizmin müstəmləkəsi olduğu son illər, eləcə də, Xalq Cümhuriyyətinin yaranması, süqutu və Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı dövrlərində ermənilərlə və digər qonşu millətlərlə baş verən hadisələr, həmin dövrdə maarifçiliyin fədakarlıqla təbliğ olunması, yayılması, yerli insanların vətənpərvərliyi və şücaəti öz əksini tapıb.

Həmçinin, Hüseynalı bəyin müasirləri olan bir sıra tarixi şəxsiyyətlər də əsər boyu işıqlandırılıb, həmin şəxsiyyətlər barədə əksər oxuculara məlum olmayan həqiqətlər və onların həyat hekayələri qələmə alınıb.



Taleh EMİNOĞLU

Azərbaycan Milli Elmlər Akademiyasında

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi ilə əlaqədar olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının 5 fevral 2016-cı il tarixli iclasının qərarı ilə institutda "Multikulturalizm" şöbəsi yaradılıb. Şöbənin təşkili fəlsəfə üzrə fəlsəfə doktoru Elsevər Səmədova həvalə olunub.



***

AMEA Folklor İnstitutu azsaylı xalqların folkloru şöbəsi bölmə kimi 2012-ci ildən fəaliyyət göstərir. Azərbaycan Respublikasının Pezidenti cənab İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi ilə əlaqədar olaraq AMEA-nın Rəyasət Heyətinin 20 aprel tarixli qərarı ilə bölməyə şöbə statusu verilib. Azsaylı xalqların folkloru, mədəniyyət nümunələri, məişəti haqqında bilgiləri toplamaq, sistemləşdirmək və təbliğ etmək şöbənin əsas iş prinsipidir.

***

May ayının 19-20-də Zaqatala şəhərində "Azərbaycan folkloru və mədəni müxtəliflik" mövzusunda konfrans keçiriləcək. Qeyd edək ki, konfrans Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, AMEA-nın Folklor İnstitutu və Zaqatala RİH-nin təşkilatçılığı ilə baş tutacaq.

***

Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində xalq yaradıcılığı nümunələrindən ibarət sərgi keçiriləcək. Sərgidə eyni zamanda azsaylı xalqların musiqi folkloruna aid nümunələr də səsləndiriləcək.

***

Filologiya üzrə fəlsəfə doktoru Mətanət Yaqubqızının tərtibçiliyi ilə "Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm" (Şəki, Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında) kitabı çapa hazırlanır.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) Prezident İlham Əliyevin 15 may 2014-cü il tarixli Sərəncamı ilə yaradılıb. Mərkəzin yaradılmasında məqsəd azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, həmçinin Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq, mövcud multikultural modelləri tədqiq və təşviq etməkdir.



***

2015-ci il ərzində BBMM tolerantlıq və multikulturalizm istiqamətində layihələrin gerçəkləşdirilməsini prioritet vəzifələr kimi qəbul edib. Hazırda dünyanın 11, Azərbaycanın 19 nüfuzlu ali təhsil ocağında "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləri tədris olunur.

***

2015-ci ildə Bakı Slavyan Universitetində Multikulturalizm kafedrası açılıb.

***

BBMM istər xarici ölkə universitetlərində, istərsə də ölkəmizdəki ali təhsil ocaqlarında "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənlərini tədris edəcək müəllimlərin hazırlanmasına xüsusi önəm verir. Xarici ölkə universitetlərində təşkil olunan monitorinqlər çərçivəsində Mərkəz tərəfindən müəyyənləşdirilən monitorinqi aparan şəxslər həmin universitetlərdə həm də birdəfəlik mühazirələr təşkil ediblər.

***

BBMM, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə 21 iyul – 01 avqust tarixlərində "Multikulturalizm Azərbaycanın həyat tərzi kimi: öyrən, araşdır, paylaş. Beynəlxalq yay məktəbi" təşkil edilib. Himayəçilik Şurasının sədri, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin ideyası əsasında həyata keçirilən bu layihənin başlıca məqsədi "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədris olunduğu tələbələrə Azərbaycanı əyani şəkildə göstərmək, onların nəzəri biliklərini real həyatda möhkəmləndirmək və Azərbaycanın əsl dostlarına çevirməkdən ibarət olub.

***

2015-ci ildə "Holokost və Xocalı müasirlərin gözü ilə" və "Ermənilərin Qarabağa köçürülməsi, Marağa – 150: tarix və faktlar", Almaniyanın Drezden şəhərində "Kitabi-Dədə Qorqud" dastanında tolerantlıq Azərbaycan multikulturalizminin bədii qaynaqlarından biri kimi" mövzusunda "Dəyirmi masa", İsveçrənin Frayburq Universitetinin Federalizm İnstitutunda "Azərbaycanda və İsveçrədə multikulturalizmin və dünyəviliyin ortaq dəyərləri" mövzusunda seminar təşkil edilib.

***

2015-ci ildə BBMM-in təşkilatçılığı ilə Almaniyanın Brandenburq Elmlər Akademiyasında "Azərbaycanda multikulturalizm və dinlərarası dialoq: tarixi təcrübə və gələcəyin cəmiyyət modeli" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Beynəlxalq konfransda müxtəlif ölkələrin 50-dən çox alimi, dini

konfessiya rəhbərlərinin Azərbaycan multikulturalizminin tarixi qaynaqları və müasir mərhələdə onun dövlət siyasəti səviyyəsinə qaldırılması mövzusunda ciddi diskussiyalar aparılıb.

***

"Kitabi-Dədə Qorqud" dastanının alman dilindən ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında ölkə Prezidenti tərəfindən imzalanmış 20 fevral 2015-ci il tarixli Sərəncama uyğun olaraq "Kitabi-Dədə Qorqud və Fridrix fon Dits – 200" adlı Birinci və İkinci Beynəlxalq kollokviumlar keçirilib. Bu kollokviumlarda Türkiyə, Almaniya, İtaliya, Rusiya, Qazaxıstan, Yunanıstan, Gürcüstan, Latviya kimi ölkələrin qorqudşünasları iştirak ediblər.

***

BBMM-in bilavasitə təşkilatçılığı ilə alman alimi və diplomatı Fridrix fon Ditsin "Kitabi-Dədə Qorqud" dastanına yazdığı müqəddimə və "Basatın Təpəgözü öldürdüyü boy" 25 dildə – Azərbaycan, alman, ingilis, rus, türk, ərəb, macar, italyan, fransız, yunan, Çin, Ukrayna, fars, hind, gürcü, erməni, yapon, ivrit, talış, ləzgi, kürd, udi, tat, avar, xınalıq dillərində ayrıca kitablar şəklində nəfis tərtibatla nəşr və təqdim olunub. Gələcəkdə bu kitabın ispan, portuqal, indonez, holland, polyak, çex, bolqar və başqa dillərdə də çapı nəzərdə tutulub.

***

2015-ci il dekabrın 17-də BBMM Almaniyanın Drezden şəhərində Saksoniya Dövlət Kitabxanası, Humboldt Universitetinin Azərbaycan tarixi kafedrası, Auqsburq Universiteti və Osvald Volkenşteyn Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Kitabi-Dədə Qorqud" dastanlarında tolerantlıq Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqlarından biri kimi" adlı elmi konfrans keçirilib.

***

Ölkəmizin multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilərək xarici ölkələrdə təbliğini təmin etmək məqsədilə 2015-ci il ərzində Mərkəzin təşəbbüsü ilə 6 beynəlxalq "Virtual dəyirmi masa" təşkil edilib. Toplanan materiallar ümumiləşdirilərək rus və ingilis dillərinə tərcümə olunub və kitabçalar formasında nəşr edilib. Azərbaycan Respublikasında mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarını müəyyənləşdirib reallaşdırmaq, Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətinin təbliği mexanizmini hazırlamaq vəzifələrinin yerinə yetirilməsi məqsədilə Mərkəz tərəfindən "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı Azərbaycan dilində çap olunub, növbəti ildə isə həmin kitabın tərcümə edilərək rus və ingilis dillərində nəşr edilməsi planlaşdırılır.

***

Ötən il Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ölkəmizdə fəaliyyət göstərən dini qurumların və konfessiyaların, icmaların rəhbərləri ilə bütünlükdə 21 görüş və müşavirə, 11 "Dəyirmi masa", 8 seminar, xarici ölkələrdə isə 6 beynəlxalq konfrans, 14 seminar və görüş keçirib, bu tədbirlərdə Azərbaycan multikulturalizminin xüsusiyyətləri, ölkə rəhbərliyinin bu sahəyə olan diqqət və qayğısı barədə geniş diskussiyaların aparılmasına nail olunub.

***

Prezident İlham Əliyevin Sərəncamı ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan olunub. Bu da BBMM-in qarşısına yeni vəzifələr qoyub. Bu il Mərkəzin prioritet istiqaməti xaricdə BBMM-in filiallarının yaradılmasıdır.

***

2016-cı il 8-12 fevral tarixində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisi layihəsi çərçivəsində Almaniyanın Auqsburq Universitetində professor Klaus Volfun rəhbərliyi ilə Azərbaycan multikulturalizmi üzrə intensiv kurs təşkil olunub.

***

2016-cı il 8-15 fevral tarixlərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş – 2016" adlı Beynəlxalq Multikulturalizm Qış Məktəbi fəaliyyət göstərib. Qış məktəbi ərzində tələbələr Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və Azərbaycandakı dini konfessiyaların rəhbərləri ilə görüşüblər. 11-12 fevral tarixlərində qış məktəbi Quba, Xaçmaz, Qusar və Şahdağ Turizm Kompleksində işini davam etdirib. Fevralın 15-də Beynəlxalq Multikulturalizm qış məktəbi Bakıda rəsmi tədbirlə yekunlaşıb.

***

2016-cı il fevralın 17-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisi layihəsi çərçivəsində İndoneziyanın Cokyakarta şəhərində ölkənin ən tanınmış təhsil ocaqlarından olan Qacah Mada Universitetinin Mədəniyyətşünaslıq fakültəsində, fevralın 25-də Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya

Universitetində "Azərbaycan multikulturalizmi" fənninin təkrar tədrisinə başlanıb.

***

2016-cı il fevralın 24-də Portuqaliyanın məşhur "Dnoticias.pt" portalında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Lissabon nümayəndəliyinin rəhbəri, Lusofona Universitetinin Beynəlxalq Əlaqələr Departamentinin direktoru professor Tereza Damasionun Azərbaycan multikulturalizmi ilə bağlı fikirlərinin əks olunduğu müsahibə dərc olunub.

***

2016-cı il martın 4-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə İtaliyanın Sandro Teti Nəşriyyat Evi (STNE) arasında multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq tanıdılmasını, bu istiqamətdə müştərək layihələrin icrasını təmin etmək məqsədilə qarşılıqlı əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Mərkəzin icraçı direktoru Azad Məmmədovla STNE-nin rəhbəri, politoloq Sandro Tetinin imzaladığı memoranduma əsasən, İtaliyada BBMM-in Roma filialının yaradılması və fəaliyyətinin təşkili təmin ediləcək.

***

2016-cı il martın 7-də Qəbələ rayonunun Nic qəsəbəsində "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" və 25 dildə, o cümlədən udi dilində nəşr olunmuş "Henrix Fridrix fon Dits. Homerinki ilə müqayisədə yeni aşkar edilmiş oğuz siklopu. Kitabi-Dədə Qorqud. Basat Təpəgözü öldürdüyü boyu bəyan edər" kitablarının təqdimatı keçirilib.

***

2016-cı il martın 11-də Prezident İlham Əliyev "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

2016-cı il 11-13 mart tarixlərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Hindistanın Nyu Dehli şəhərində keçirilən Dünya Mədəniyyət Festivalında Azərbaycanı fəxri qonaq qismində təmsil edib.

***

Martın 18-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsinə dair Prezident İlham Əliyevin təsdiqlədiyi "Tədbirlər Planı"nda yer alan layihələrin icrası ilə bağlı müzakirə iclası keçirilib.

Hazırladı: Sevinc MÜRVƏTQIZI

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xaricdəki filialları

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 may 2014-cü ildə imzaladığı Fərmanın müvafiq bəndində vurğulandığı kimi, "Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini... nəzərə alaraq" Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması Azərbaycanda multikulturalizm sahəsində bir-birini tamamlayan, sistemli hərəkata çevrilən siyasi iradənin növbəti təcəssümü idi.

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin çıxışlarında qeyd etdiyi kimi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi fəaliyyətə başladığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi hədəflərə yetişməyi, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq təşəbbüsünü reallaşdırmağı qarşısına məqsəd qoyub. Bu hədəflərdən biri də ölkə başçısının müvafiq Sərəncamı ilə təsdiqlənən "Multikulturalizm ili" Tədbirlər Planında öz əksini tapmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xaricdə filial və nümayəndəliklərinin yaradılmasıdır.

2016-cı ilin əvvəllərindən başlayaraq bu işə start verilib: hazırda Almaniyanın Drezden, Portuqaliyanın Lissabon, İtaliyanın Roma, Rusiyanın Moskva, Qazaxıstanın Astana şəhərlərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin filialları fəaliyyət göstərir. İstər Azərbaycanda, istərsə də dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq forum və simpoziumlarda səsləndirilən ideya bu gün reallaşmaqdadır: Azərbaycan dünyaya neftlə, təbii qazla bərabər, tolerantlığı, multikulturalizmi də ixrac edir. İndiyədək Azərbaycanın çoxəsrlik həyat tərzi və dövlət siyasətində aparıcı istiqamətlərdən olan və hazırda dünyaya ixrac etdiyi bu qiymətli mənəvi nemət beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

***

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ilk rəsmi filialı 22 yanvar 2016-cı ildə Almaniyanın Drezden şəhərində fəaliyyətə başlayıb. Multikulturalizmin mübahisə və müzakirə mövzusu olduğu və bütün bunların multikulturalizmdən imtinaya gətirib çıxardığı Almaniyada, həm də məhz Drezdendə – xalqımızın ulu ozanı Dədə Qorqudun ruhi enerjisini özündə qoruyan "Kitabi-Dədə Qorqud" əlyazmasının saxlandığı bir şəhərdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ilk rəsmi filialının açılması Azərbaycan həqiqətlərinin Avropaya inteqrasiyası baxımından böyük tarixi hadisədir. Filialın direktoru almaniyalı alim Birgit Vaysgerberdir.



Azərbaycan multikulturalizmi Avropanın Portuqaliya kimi daha bir aparıcı ölkəsinin "qapılarını açmağa" müvəffəq olub. 15 fevral 2016-cı ildə Portuqaliyanın paytaxtı Lissabonda yerləşən Lusafona Universitetində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nümayəndəliyi fəaliyyətə başlayıb. Nümayəndəliyin rəhbəri sözügedən ali təhsil ocağının professoru Tereza Damasiodur.

Qazaxıstanın Astana şəhərində də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin filialının açılması ilə bağlı 15 fevral 2016-cı ildə anlaşma memorandumu imzalanıb.

Mərkəzin daha bir filialı 10 mart 2016-cı ildə Rusiya Federasiyasının Moskva şəhərində fəaliyyətə başlayıb. Rusiya Dövlət Duması yanında yaradılan Moskva filialının icraçı direktoru professor Nataliya Krasovskaya təyin edilib.

Azərbaycan multikulturalizmi "Multikulturalizm ili"ndə İtaliyanı da "fəth etməyi" bacarıb. 15 mart 2016-cı ildə İtaliyanın Roma şəhərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin daha bir filialı yaradılıb. Filiala italiyalı naşir və politoloq Sandro Teti rəhbərlik edir.

Mərkəz hazırda Belçikanın Brüssel və Gürcüstanın Tbilisi şəhərlərində filiallarının açılması üçün danışıqları davam etdirir.

Adıçəkilən filiallar fəaliyyət göstərdikləri ölkələrdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əlaqələndiriciliyi ilə Azərbaycan multikulturalizmi modelinin spesifik xüsusiyyətlərinin təşviqi və təbliği, bununla da bilavasitə həm də Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması ilə məşğul olur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xaricdə filiallarının yaradılması və səmərəli fəaliyyəti Ulu Öndər Heydər Əliyevin multikulturalizm istiqamətində başlatdığı mütərəqqi işin Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi ilə birbaşa bağlıdır.

Filialların rəhbərləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində baş verən, mülki əhali arasında tələfata səbəb olan erməni təxribatlarını pisləyən bəyanatlarla çıxış ediblər. Həmin bəyanatlarda BMT-nin Təhlükəsizlik Şurasının münaqişənin həlli ilə bağlı qəbul etdiyi 4 qətnaməyə uyğun olaraq erməni silahlı birləşmələrinin Azərbaycana məxsus Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğaldan azad etməsi ilə bağlı müraciətlər öz əksini tapıb. Bununla da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xaricdəki filial nümayəndələri Azərbaycanın haqq səsinin beynəlxalq arenada duyulmasına şərait yaradan fəxri səfir missiyasını yerinə yetirirlər.

Sevinc MÜRVƏTQIZI





Şahdağ mənzərələri



"Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş" adlı Beynəlxalq yay məktəbinin iştirakçıları Qubada

Участники Международной летней школы "Мультикультурализм как образ жизни в Азербайджане: изучай, исследуй, делись" в Губе



Yay məktəbinin iştirakçıları Quba Soyqırımı Memorial Kompleksini ziyarət edərkən

Участники летней школы посетили Губинский мемориальный комплекс геноцида

REGİON

“Multikulturalizm” təqdim edir:
ŞİMAL BÖLGƏSİNİN RƏNGİ

Quba ədəbi mühiti barədə *(Ramiz QUSARÇAYLI)* **180**

Ramiz QUSARÇAYLI (Quba)
Mən kənddən çıxanda gecə yarıydı 184
Atamın xatirəsinə 185
Gecə yarısı 186
Yığılır 187
Bu yaz çiçəkləmə, ərik ağacım 187
Namus 188
Qurudub göndərmə bənövşələri 189
Azərbaycan bayrağı 189
Bu qurban olduğum Vətən 190
Zakir MƏMMƏD (Quba)
Sarı 191
Şəhərdəki yağış 191
Bir uşaq görürdüm hər gün 192
Bu, axırıncı göz yaşıdır 192
Həyatda nə itirmisən 193
Yazmayanda, xanım 193
Sən addımladıqca, ey qadın 193
Sənə çox borcluyam, gözəl qadın 193
Tez-tez yandırıb, söndürüb 193
Aybəniz ƏLİYAR (Şabran)
Çıraqqalaya yürüş 194
İstəyim 194
Göynəyər 195
Qafar SÜLEYMAN (Şabran)
Arayış 196
Ağlayan kişilər çoxalıb daha 197
Rəfiqə MƏMMƏDQIZI (Quba)
Dünyaya insan gəlir 198
Bu çeşmənin gözü sərin 198
Səni sevə bildim, Vətən! 198
Telman TƏRAVƏT (Xaçmaz)
Uçub gedəcəyəm göyün üzünə 199
Məmməd QƏDİR (Xaçmaz)
Ağaclar 200
Gözlərin nağılı 201
Rahib ALPANLI (Quba)
Atamın çomağı 202
Aqşin DADAŞOĞLU (Xaçmaz)
Deyil 204

Fərzalı ZİYANUR (Xaçmaz)
Sevirdi 205
Çiçəklər 205
LƏTAFƏT (Quba)
Dağlara qar düşüb... 206
İlğım sevgi 207
Gülarə AYDIN (Quba)
Göyün göyərmiş üzündə 208
Hava da ağır idi 208
Gülən mən deyildim ki 208
Sərvinaz SƏRVƏR (Quba)
Tək-tək 209
Pənah ELQƏM (Xaçmaz)
Açın bu yolları ayaqlarımdan 210
ZƏRİFƏ (Quba)
Aman mənə 211
MÜRFƏTTAR (Quba)
Çatmır 213
Ofeliya Səma RAMAZANLI (Quba)
Mənə ölü deməyin 214

Azərbaycan dağ yəhudilərinin şeirləri

Milix YEVDAYEV
Minnətdarlıq 216
Пилəтəj *Дəдəj (dağ yəhudilərinin dilində)* 217
Худо! Ə туни үмид *(dağ yəhudilərinin dilində)* 217
Дəдəй (dağ yəhudilərinin dilində) 218
Emil YAQUBOV
Vətən sevgisi 219
Simax ŞEYDA
Qürbətdəyəm, qürbətdə 220
Yaşa MAŞİYAXOV
Gəzdim oymaq-oymaq Vətən mülkünü... 221
Yuşva İFRAİM
Qudyalçayım 222
Raxmil MİXAİLOV
Bayramın mübarək 223
9 Ав - руз суруни *(dağ yəhudilərinin dilində)* 223

Qusar şairlərinin şeirləri

Seyidmet SAMURİ
Шагьдагъ *(ləzgi dilində)* 226
Хайи ватандиз *(ləzgi dilində)* 226
Хуьруьн рушар *(ləzgi dilində)* 227
Həsən XASİYEV
Yaşa, ey Qusar! 228
Məhəmməd AĞA
Ləzginin 229
Samur 229
Şahdağım 230
Şəhidlər 230

Ramiz QUSARÇAYLI
Qubadakı «Ay işığı» ədəbi məclisinin sədri

Quba ədəbi mühiti barədə

Təməli böyük mütəfəkkir Abbasqulu ağa Bakıxanov tərəfindən 1835-ci ildə «Gülüstan» ədəbi məclisiylə qoyulmuş Quba ədəbi mühiti bu gün Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsi, «Ay işığı», «Ulduzlar», «Şabran» və «Gülüstan» ədəbi məclisləriylə daha da inkişaf edir.

«Gülüstan» ədəbi məclisinin əhatə dairəsi A.Bakıxanovun rəhbərliyi altında Rusiyadan adlayaraq bir sıra Avropa ölkələrinə qədər uzanmış, bu əlaqələrin nəticəsi kimi nəinki Azərbaycanda, eləcə də bütün Şərqdə ilk qadın dramaturq olan Səkinə xanım Axundzadənin, Mirzə Möhsün Xəyalinin, Xaltanlı Tağının, Xınalıqlı Əminin, Baba Buduqinin, Hacı Qubalının, Yetim Eminin, Süleyman Stalskinin və digər saz-söz ustalarının yetişməsinə gətirib çıxarmış, milli ədəbiyyatımızın, mədəniyyətimizin zənginləşdirilməsi işinə böyük töhfələr vermişdir.

Ədəbiyyat və mədəniyyət tariximizin bir sıra maraqlı səhifələri Quba ilə bağlıdır. 1830-cu illərdə Tiflisdə Azərbaycan türkcəsində nəşr olunan 300 nüsxədən ibarət «Tatar-əxbari» qəzetinin qubalılar arasında 30-dan artıq abunəçisi vardı. Bu qəzetin Qubada yayılmasına Qafqaz canişinliyinin dəftərxanasında tərcüməçi işləyən A.Bakıxanov kömək göstərirdi. 1873-cü ildə qubalı mülkədar Abdulla ağa Bakıxanov (Abbasqulu ağanın qardaşı) Həsən bəy Zərdabiyə «Əkinçi» qəzetini nəşr etdirmək üçün 1000 rubl pul göndərmişdi.

Qubanın yaradıcı ziyalıları milli ədəbiyyatımızın zənginləşməsində, öyrənilməsində və təbliğində mühüm xidmətlər göstərmişlər.

Azərbaycan MEA-nın müxbir üzvü professor Azad Nəbiyevin Qubanın folklor nümunələrinin toplanıb yayılmasında, professorlar Tofiq Rüstəmovun, Vaqif Arzumanlının, Cabbar Xəlilovun, Nazif Qəhrəmanlının, Şahin Fazilin, Qiyasəddin Qeybullayevin, İlyas Babayevin, Qəmərşah Cavadovun, Vaqif Piriyevin, Abdulla Abasovun və başqalarının Quba ədəbi mühitinin və tarixi keçmişinin öyrənilib gələcək nəsillərə çatdırılmasında gördükləri işlər təqdirəlayiqdir.

1500 ildən artıq tarixi olan Qubanın zəngin mədəniyyəti, bölgənin qədim fikir mərkəzlərindən biri olması burada yeni bir ədəbi qurumun yaradılmasına ehtiyac doğurmuşdu. Nəticədə 1993-cü ildə Qubada «Ay işığı» adlı yeni bir ədəbi məclis quruldu. Quba, Qusar, Xaçmaz, Dəvəçi, Siyəzən və Dəmirqapı Dərbəndi təmsil edən istedadlı qələm sahibləri bu işığa üz tutdular, əyalət tən-

halığı, ədəbi nigarançılıq və narahatlıq bu işığın içində əriyib yox oldu, qələm adamları sabaha ümidlə baxmağa başladılar.

1994-cü ildə «Ay işığı» adlı ilk almanax qubalı iş adamı Vidadi Əhmədovun sponsorluğu ilə dərc olundu. Azərbaycanın görkəmli sənət və elm xadimlərindən Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəbi Xəzri, Söhrab Tahir, Nəriman Həsənzadə, Anar, Fikrət Qoca, Qabil, Zəlimxan Yaqub, Ramiz Rövşən, Rüstəm Behrudi, Məmməd İsmayıl, Məmməd Aslan, Vaqif Arzumanlı, Seyran Səxavət, Ələkbər Salahzadə, Vaqif Yusifli, Nazif Qəhrəmanlı, Şahmar Əkbərzadə, Kamil Vəli Nərimanoğlu, Əjdər Ol, İlham Abbasov və başqaları ardıcıl şəkildə məclisə dəvət olundular. Belə görüşlərin nəticəsi kimi məclis barədə onlarla məqalə yazıldı, rəylər söyləndi. Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı: «Mənim çox sevdiyim, haqqında bir neçə dəfə yazdığım şair Ramiz Qusarçaylının rəhbərlik etdiyi «Ay işığı» ədəbi məclisinin fəaliyyətini yarandığı vaxtdan izləyirəm. Məclisin yaratdığı təzə səs, təzə nəfəs bu gün Azərbaycanın heç bir bölgəsində yoxdur». AYB-nin Natəvan klubunda məclislə keçirilən görüşdə birliyin sədri, Xalq yazıçısı Anar öz çıxışında: «Bu gün «Ay işığı» ədəbi məclisinin üzvlərinin əksəriyyəti Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunmağa layiqdir. Odur ki, onlar hissə-hissə bizim sıralarımıza qəbul olunacaqlar», – deyirdi.



Xalq şairi Söhrab Tahir yazırdı: «Qubada mədəniyyət səviyyəsi o qədər yüksəkdir ki, «Ay işığı» adlı bir məclis bu şəkildə formalaşıb. Məclisin görüşünə Dərbənddən, Dağıstandan, Bakıdan və Türkiyədən qonaqlar gəlir ki, bu da məclisin səviyyəsini göstərir». Az sonra şair Məmməd Aslan: «Ay işığı» poetik ümid parıltılarının bir yerə toplaşıb gurlandığı ədəbi məclisdir»; Türkiyədən gəlmiş professor Adəm İşıq: «Həm Türkiyənin, həm də Azərbaycanın bayrağında ortaq bir şəkil var ki, o da Aydır. İnşallah, bu «Ay işığı» da Türkiyə-Azər-

baycan dostluğunun möhtəşəmliyinə böyük töhfələr verəcək»; Dərbəndin «Narınqala» ədəbi məclisinin sədri, «Dərbənd» qəzetinin baş redaktoru Təhmiraz İmamov: «İşığa, sözə, fikrə sərhəd yoxdur. Torpaq, Yer kürəsi Allahındır. Onda da sərhədlər yox idi. Sərhədləri biz insanlar, hökmdarlar yaratdı. Müqəddəs «Ay işığı»! Bizə sərhədlər olsa da, sözlərimiz qoy sərhədsiz olsun, bütün ürəklərə yol tapsın, hətta sərhədləri yaradan daş ürəklərə belə. Bəlkə yumşaldı», – deyəcəkdi.

Müzakirələrdə oxunub bəyənilən ədəbi nümunələr 1998-ci ildə «Ay işığı»nın ikinci toplusunda «Quba» Xeyriyyə Cəmiyyətinin sədri professor Vaqif Arzumanlının köməyi ilə dərc edildi. 2002-ci ildə məclisin üçüncü, 2009-cu ildə isə dördüncü toplusu işıq üzü gördü. Bu toplularda Dərbəndin «Narınqala», Xaçmazın «Ulduzlar» dərnəyinin üzvləri, Dəvəçinin, Qusarın, Siyəzənin ədəbi qüvvələri geniş təmsil olundu.



2002-ci ildə Xalq yazıçısı Anar və xalq şairi Qabil bölmənin qonağı oldular, bu da Quba ədəbi mühitinə yeni ab-hava gətirdi. Elə həmin vaxt «Ay işığı» ədəbi məclisinin rəhbəri Ramiz Qusarçaylı Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsinə yekdilliklə sədr seçildi.

Özünü respublika oxucusuna tanıtmış Bəxtiyar Ərşad, Zakir Məmməd, Həsən Xasiyev, Zərifə, Məhbubə Hidayətqızı, Cəlaləddin Budadoğlu, Kərim Dünyamalı, Naməddin Mirzəxanlı, Şövkət Tacibəy, Səbuhi Hacıxanlı, Nəcməddin Mürvətov, Muxail Yaqubov, Aybəniz Əliyar AYB-yə üzv qəbul olundular. Qərib Aşkari, İzmirağa Töhmərli, Aybəniz Əliyar, Rahib Alpanlı, Fərzalı Ziyanur, Məmməd Qədir, Telman Təravət, Camal Pirkəndli, Firəngiz Alp Ana, Afaq Səma, Səyyad Sərraf, Surxay Əhməd, Arzu Hacızadə, Sərvinaz Sərvər, Gülarə Aydın, Orxan Xalidoğlu, Məsim Əliyev və Cahad Göyçəlinin ilk kitabları işıq üzü gördü. Mürfəttar, Rəfiqə Məmmədqızı, Lətafət, Mövlan Şahid,

İbrahim Ağçaylı, Arzu Tağıqızı, Pənah Elqəm, Pərvanə, Günəş Yanar, Eldar Lamayev, Ofeliya Səma, Teymur Mustafayev və Qəhrəman Adıgözəlovun silsilə şeirləri, hekayələri mətbuat səhifələrində dərc olunaraq oxucuların ixtiyarına verildi.



Bölgədə yaşayıb-yaratmış klassiklərlə birgə Dəmirqapı Dərbəndin də Hüseynəli Xan Məhzun, Xəlil Dərbəndi, Zərnigar Dərbəndi, Əhməd Dərbəndi, Niftullah Dərbəndi, Məşhur Dərbəndi, Şikəstə Dərbəndi, Bayat Abbas, Yusif Dərbəndi, Diləfruz Pəri, Məhəmməd Tağı Qumru kimi ulu qələm sahibləri, eyni zamanda Təhmiraz İmamov, Fəxrəddin Qəribsəs, Elman Abbas, Düriyyə Rəhimova, Bikəxanım Əlibəyova, Aşıq Sakit, Natiq Seyidov və başqaları kimi müasir söz ustalarının da əsərləri «Ay işığı» ədəbi məclisinin toplularında dərc olunur, respublika mətbuatında təbliğ edilir.

Professor Vaqif Arzumanlının Quba ədəbi mühiti və Ramiz Qusarçaylı barədə yazdığı «Təbiət, qeyrət, həqiqət şairi», şair-publisist Zakir Məmmədin «Haqqın cəlalı Qusarçaylı şeirində», şair Gülarə Aydının isə «Məni yaman tutub şeir havası» adlı kitabları artıq dərc olunub oxucuların ixtiyarına verilmişdir.



Ramiz QUSARÇAYLI
(Quba)

Mən kənddən çıxanda gecə yarıydı

Mən kənddən çıxanda gecə yarıydı,
Söyüdlər yol üstdə tellənirdilər.
Coşan ürəyimin duyğularıydı,
Sinəmdən süzülüb sellənirdilər.

Enib dərələrin, düzlərin üstə
Gecə öz diliylə layla deyirdi.
Baş qoyub dağların dizləri üstə
Yollar şirin-şirin mürgüləyirdi.

Mehlə sığallanıb nazilən otlar
Şehli nəvazişə bükülürdülər.
Ayağım altında əzilən otlar
Torpaqdan yapışıb dikəlirdilər.

Qönçələr çəmənə pıçıltı salıb
Yuxulu-yuxulu çiçəkləyirdi.
Yumru evlərini çiyninə alıb
İlbizlər izimlə imələyirdi.

Gedirdim, gecənin haysız-haraysız,
Həzin nəğməsindən doyammamışdım.
Qəlbimdə sübhədək oyaq qalan qız
Hələ yuxusundan oyanmamışdı…

Mən kənddən çıxanda gecə yarıydı,
Ay örpək çəkmişdi çöllərin üstə.
Heyrətim yolunu azan arıydı –
Uyuyub qalmışdı güllərin üstə …

Atamın xatirəsinə

Gözündən ölməyə başladı atam,
Gözündən düşməyə başladı dünya.
Saraldı gözünün ağ çiçəkləri,
Gəlib gözlərində qışladı dünya…

Ölümü nar kimi sıxdı gözünə,
Gözünün içində nar çiçəklədi.
Öpdü gözlərindən ölüm mələyi,
Gözünün odunda qar çiçəklədi.

Gördüm ki, soyuyur həyət-baca da,
Gördüm buz sallanır gül tağlarından.
Bağın başındakı qoz ağacı da
Asılıb qarğanın ayaqlarından…

Pəncərə önündə gilas ağacı
Hamıdan gizlicə
tək ağlayırdı.
Quru budaqları qara əl kimi
Divarın üzünü cırmaqlayırdı…

Gözləri çıxmışdı hədəqəsindən,
Sanki kirpiyində dağ dolaşırdı.
Həyat gözlərində özgələşirdi,
Gözləri ölümlə doğmalaşırdı.

Göz-göz oxşayırdı ölümü atam,
Oxşaya-oxşaya nələr danışdı…
Gözləri ölümə sığmadığından
Öləndən sonra da yumulmamışdı.

Dünyanın şəklindən qaçıb gözləri
Ölümün şəklini çəkirdi o gün.
Ölümün şəklini olduğu kimi
İlk dəfə atamın gözündə gördüm.

Gözüylə dünyanın arasındakı
İşıqlı nə varsa uçuracaqdı.
Elə yapışmışdı gözü ölümdən
Elə bil əlindən qaçıracaqdı.

Ölməyə heç nəyi yox idi o gün,
Nəfəsi yox idi, dili yox idi.
Elə nazlanırdı gözündə ölüm,
O gün ondan gözəl ölü yox idi.

Gözünə dikilən gözlərdən qaçıb,
gözünə tökülən səslərdən qaçıb,
gözünə çəkilən bizlərdən qaçıb
gözüylə öpüşdü yetimliyiylə,
gözüylə öpüşdü yavanlığıyla,
gözüylə öpüşdü uşaqlığıyla,
gözüylə öpüşdü cavanlığıyla,
öpmək istəmədi qocalığını,
gözləri üzünü yana çevirdi…

Yolu iman yolu,
yolu can yolu,
getdi öz yoluyla, iziylə getdi.
Gözündən qəbrinə uzanan yolu
atam bizdən qabaq gözüylə getdi…

Gecə yarısı

Bir şeir ağladım gecə yarısı,
Bir şeir hönkürdüm ağ vərəqlərə.
Göydə Ay bildiyim saman sarısı
Qopub yarpaq-yarpaq töküldü yerə.

Gözümün nəmində məzar sükutu,
Üzümdə şehlənən ölüm buxarı.
Çiynimdə gecənin qara tabutu –
İçində bir ölü sevinc ağarır.

Bu gecə ürəyim elə ağrıdı,
Heç kəsin ürəyi ağrımaz elə.
Bu gecə özümə elə ağladım,
Ölsəm, heç anam da ağlamaz elə...

Yığılır

Ötüşür qəm buludları,
Gözümə ulduz yığılır.
Dərd ürək-ürək dərilir,
Bənövşə qız-qız yığılır.

Ömür əldə bağ kimidi,
Yollar yaşıl tağ kimidi,
Vicdan da papaq kimidi –
Atdın, üstə toz yığılır.

Təndir dolu küt adamlar,
Ayaq yuyur «büt» adamlar.
Elə artır şit adamlar,
Bədənimə duz yığılır.

Bu yaz çiçəkləmə, ərik ağacım

Ayaqlarının donu təzəcə açılan balaca qızcığaz
xəstəxanada yuxudan oyanıb dedi ki, Şuşada,
evimizdəydim. Qapımızdakı ərik ağacı çiçəkləmişdi…

Nə göyərt bu dərdi,
nə ləkdən keçir,
Silkələ, çalxala, ələkdən keçir.
Daha güldən keçib, çiçəkdən keçib,
Bu yaz çiçəkləmə, ərik ağacım.

Qeyrət başı bağlı,
dərd başı açıq,
Səhər ürək götür, dərd başına çıx…
Ağaclar Şuşada qurğuşun açır,
Bu yaz çiçəkləmə, ərik ağacım.

Dərdə bax,
can dözür, qan dözür belə,
Yaralı daşları kim üzür belə?
Ağla Mehri belə, Zərgəzur belə,
Bu yaz çiçəkləmə, ərik ağacım.

Oyatma, qoy yatsın yatan dərdləri,
Köz-köz ürəyimi çatan dərdləri...
Gördüm çiçəyini, atam, dərdlərin –
Bu yaz çiçəkləmə, ərik ağacım.

Bu dərd qaya-qaya,
daş-daş güllənir,
Daş-qaya üstündə savaş güllənir,
Yiyəsiz yurd yeri yavaş güllənir,
Bu yaz çiçəkləmə, ərik ağacım.

Namus

Mühasirə zamanı ermənilərin əlinə keçməsin
deyə yeganə qızını güllələyən naçar atanın dilindən

Əl saxla, xain balası,
Qoy namusumu basdırım.
Gözümün ağı-qarası
Bircə qızımı basdırım.

Bu yerlər boşalır, qaçır,
Allah da baş alıb qaçır,
Öpüb torpağı, ağacı,
Yalayıb qumu, basdırım.

Dalımca yortar izlərim,
Daşları yırtar dizlərim,
Baxsam tökülər gözlərim,
Gözümü yumub basdırım.

Sayan sayıb, nə say tutum,
Ölüb bu dərdə boy tutum?!
Harda özümə toy tutum,
Harda özümü basdırım?!

Qurudub göndərmə bənövşələri

Əlimə alınca əlim qurudu,
Qurudub göndərmə bənövşələri.
Nəfəsim qurudu, dilim qurudu,
Qurudub göndərmə bənövşələri.
Çatmadım bu il də yaza, bilirəm,
Darıxa bilirəm, susa bilirəm.
Özüm quruyanda dözə bilirəm,
Qurudub göndərmə bənövşələri.

Əl saxla, dər saxla, təzə-tər saxla,
Çıxart ürəyimi, üstə sər, saxla.
Mənə də ölməyə bir az yer saxla,
Qurudub göndərmə bənövşələri.

Donetsk

Azərbaycan bayrağı

Şənini vəsf etməyə yetər, qüdrətim yetər,
Ulduzunu, ayını göydə mələklər ötər,
Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,
Sən ey İstiqlalımın əbədiyyət sancağı –
Azərbaycan bayrağı!

Yağının min hiyləsi küydən, kələkdən keçər,
Sən sancılan ucalıq min-min ürəkdən keçər,
Dağlar yerindən oynar, daşlar ələkdən keçər,

Göylərin nur yağmuru, yerlərin göy qurşağı –
Azərbaycan bayrağı!

Sən Arazın, Samurun umuduna bələndin,
Çəni ağlar Göyçənin buluduna bələndin,
Dərbəndin dərd hıçqıran sükutuna bələndin,
O tayımda Savalan, bu tayımda Şah dağı,
Azərbaycan bayrağı!

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
Dalğalı ləngərlərin yelpiklənən yarpağı –
Azərbaycan bayrağı!

Sənsən Azadlıq eşqim, sənsən Hürr deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm,
Çəkəcəyəm gözümə kölgən düşən torpağı,
Azərbaycan bayrağı!
Azərbaycan bayrağı!

Bu qurban olduğum Vətən

Düşməndən dərs yükü alıb
Dərdinə daldığım Vətən...
Qarabağda «iki» alıb
Sinifdə qaldığım Vətən...

Oğul-oğul çiçəkləndi,
Şəhid-şəhid ləçəkləndi...
Xocalıda çilikləndi
Əlimdən saldığım Vətən.

Gedir, yad əldə can gedir,
Can-can Azərbaycan gedir,
Gör kimlərə qurban gedir
Bu qurban olduğum Vətən...



Zakir MƏMMƏD
(Quba)

Sarı

İsti ölkələrə köçəri quştək
Sən də qanad çalıb uç bu payızda.
Mən uzaq yerdənəm, uzaq eldənəm,
Bu elə, bu yurda köç bu payızda.

Bu dünya bir evdir, mən bu evdəyəm.
Bir cavan budağam, qoca gövdəyəm.
İndi nə yerdəyəm, nə də göydəyəm,
Yaxını, uzağı ölç bu payızda.

Səni görməsəm, qəm könlümü sarır,
Getməyə yer qalmır, dünya qurtarır.
Geyinib əyninə sarı paltarı
Bizim qapımızdan keç bu payızda.

Şəhərdəki yağış

Maşın təkəri altında tələsən küçələr də
faş edə bilmir dünyanın sirlərini.
Avtomobillərin arxa və yan şüşələrinin
dalı qatında gizlənir elə bil cəmiyyət;
Şəhər üzünü gizlədir gün uzunu,
bir könül açmalı adam da gözə dəymir,
Ara-sıra əlini qabağa uzadan ağaclar
adamlardan bir az doğma görünür,
bir də, doğma şəhərimiz Bakıdan...

***

Bir uşaq görürdüm hər gün
tinin o başında,
qəlbini tum kimi çırtlayırdı;
tum kimi səpilirdi
bir tin o yana, bir tin bu yana.
Cibləri boşdu deyə, nə vaxtdı
indi qəlbini doldurub gəzirdi
soyuq və acı şeylərlə,
yeyirdi qəlbini
acından ölməsin deyə.
Qəlbini dinləyirdi,
onu dinləyən yoxdu deyə.
Qəlbini oxuyurdu
oxumağa məktəbi yox deyə.
Yanından adamlar, maşınlar,
bir də fəsillər keçirdilər,
qəlbindən keçənləri
tanıyan yoxdu deyə...

***

Bu, axırıncı göz yaşıdır,
Onu göstərməyin
xilaskar ölkələrin başçılarına.
Yoxsa onu da qurutmaq istəyəcəklər
ən müasir texniki qurğularla;
Dünyanın başına yenə od yağdıracaqlar.
Sonuncu göz yaşını
verin, qoy körpələr böyüsün.
Analar ağı desin Suriyadakı –
canını heç kəsə tapşıra bilməyən
Adəmlə Həvvanın övladlarına.
Sonuncu göz yaşını
Vətənin başı üstündəki
qara buludlara bükün,
bir gün qələbə təbilləri ilə eyni vaxtda
gülə-gülə qarşılasın göylər də
qalib əsgərlərimizi.

***

Həyatda nə itirmisən,
nə qazanmısan – deyərdilər mənə.
İndi cavab verə bilirəm
bu məşhur suala, indi –
itirdiyim günlərin birindən
səni tapandan sonra...

***

Yazmayanda, xanım,
əllərinizi hara qoyursunuz –
mənim hər gün axtardığım əllərinizi?

***

Sən addımladıqca, ey qadın,
ayağının birini götürüb,
birini qoyduqca
dəniz dalğalanır,
ləpələr bir-birini qovur;
mən dalğaları seyr etməkdən
doymuram.

***

Sənə çox borcluyam, gözəl qadın,
sənə hədsiz minnətdaram
şəkillərinlə
gözəlliyini paylaşdığına görə.
Ordan öz payımı götürüb,
qadına və gözəlliyiə şeir yazıram.

***

Tez-tez yandırıb, söndürüb,
duyğularımı korlamısan.
Sındıra-sındıra gedirsən,
ürək-göbək qalmır məndə.
Bu qədər qab-qacağın
pulunu kim verəcək?..



Aybəniz ƏLİYAR
(Şabran)

Çıraqqalaya yürüş

Cığırlara səpdim şeirlərimi,
Düzüldü dağların boynuna sanki.
Bu dağlar sevimli övladı kimi
Alıbdır Şabranı qoynuna sanki.

Uzaqdan seyr elə göy düzənliyi,
Ətrafda xoş ətir ruhu oyadır.
Torpaqmı yaradır bu zənginliyi,
Yoxsa saf havadır, belə xoş dadır?

Sehr dünyasıdır ana təbiət,
Şeh düşüb gözündən kəpənəklərin.
Gəlir torpaq kimi cana təbiət,
Sinəsi güllənir incə ləklərin.

Qalxıram aramla Çıraqqalaya,
Meşənin qoxusu çəkir insanı.
Bu qala ruhumu titrədən qaya,
Bu qala vəhdətin doğulan anı.

İstəyim

Bir qürub istəyirəm,
Günəş görməmiş olsun.
Bir məktub istəyirəm,
Göz yaşıyla yazılsın.

Bir dilək istəyirəm,
Diləyimə yanaşı.
Bir ürək istəyirəm,
Ürəyimin sirdaşı.

Bir çiçək açsın xəzan,
Payız yaza tutulsun.
Göylər gülsün anbaan,
Yerlər gülüzar olsun.

İstəyim körpə üzlü,
Körpə gülüşlü fidan.
Saxlayıb onu gizli,
Can verəcəm canımdan.

Göynəyər

Əcəldisə, gəlib artıq,
Ölənə diri göynəyər.
Bu məhəbbət ölüb artıq,
İçimdə yeri göynəyər.

Günün borcu ildə qalmaz,
Bülbül uçar, güldə qalmaz.
Deyilənlər dildə qalmaz,
Ürəyin sirri göynəyər.

Yaş əlacdır quruluğa,
Çəkək dərdi yarılığa.
Qəfil gələn ayrılığa
Axşamın şəri göynəyər.

Sevgisi bol yağışların
Salar ömrə naxışların,
Sənin gözəl baxışların
Tuşlanar bəri, göynəyər.



Qafar SÜLEYMAN
(Şabran)

Arayış

Verilir
Şabran şəhərinin
meri tərəfindən
ona, –
Azərbaycan vətəndaşı
olmasıyla fəxr edən
Qafar Süleymana.
Ondan ötrü ki,
o, həqiqətən,
özünün dediyi kimi,
dünyaya gəlməyə
arzusu, istəyi olmadan,
atası ilə anasının
aralarında olan
izdivaca əsasən,
1951-ci ildə
bu fani dünyaya göz açıb.
İlk öncə sevincindən
qanad açıb uçub.
Sonralar illər ötdükcə,
dünyanı dərk edib
böyüdükcə
həyat onu əyib,
kədəri sevincini üstələyib.
Hansı istəyinə çatıb,
hansı arzusuna yetib?
Qayğılı günlərini
xərcləyə-xərcləyə

yaşı 60-ı ötüb.
Yenə qələm əlindədir,
vəsf etdiyi Vətəndir,
eldir, obadır.
Üç övlad böyüdüb,
altı nəvəyə babadır.
Şabran şəhərinin
Şəhriyar küçəsində
12 saylı evində yaşayır.
Bu gün də dünyanın
özündən böyük dərdini
çiyinlərində daşıyır.

Ağlayan kişilər çoxalıb daha

Dərd var ötüb keçər, ürək dağlamaz,
Hər əzaba dözən coşub-çağlamaz.
Çox da deyirlər ki, kişi ağlamaz,
Ağlayan kişilər çoxalıb daha.

Vətənin içində vətənsiz olan,
Əlləri göylərə uzalı qalan.
Çadırda doğulan, çadırda solan,
Ağlayan kişilər çoxalıb daha.

Doğma obasından, elindən uzaq,
Dağından, daşından, çölündən uzaq,
Yaşılbaş sonalı gölündən uzaq
Ağlayan kişilər çoxalıb daha.

Göydən üstümüzə yağan daş deyil,
Gözlərdən süzülən qandı, yaş deyil.
Ağlamaq, sızlamaq yersiz, boş deyil,
Ağlayan kişilər çoxalıb daha.

Nə üçün belədir dünyanın işi?
Pozulub zamanın sanki gərdişi.
İntiqam almaqçün ağlayır kişi –
Ağlayan kişilər çoxalıb daha.



Rəfiqə MƏMMƏDQIZI
(Quba)

***

Dünyaya insan gəlir,
Hamı sevinir, gülür,
Özü ağlayır.
Dünyadan insan gedir,
Hamı ağlayır,
Özü...

***

Bu çeşmənin gözü sərin,
Bu ocağın közü dərin,
Günahımı yuyub sərin,
Qoymayın sabaha qala.

Məni sevib əzizləyin,
Sonra izləyib gizləyin.
Məni məndən təmizləyin,
Qoymayın Allaha qala.

***

Səni sevə bildim, Vətən!
Sənin üçün ölə bildim, Vətən!
Özümü köksünə gömdüm,
gömdüm, Vətən!
Məni yenidən yarat, yenidən yaşat, Vətən!
Mən yenidən səni görmək istəyirəm!
Mən səni yenidən görmək istəyirəm!
Mən yenidən sənin üçün ölmək istəyirəm!
Torpağına damla-damla hopmaq istəyirəm!
Mən yenidən şəhid olmaq istəyirəm!



Telman TƏRAVƏT
(Xaçmaz)

Uçub gedəcəyəm göyün üzünə

İçimdə güc bitib, can tükənəndə
Nə ağlayıb, nə də gülməyəcəyəm.
Heç də hamı kimi doğulmamışam,
Heç hamı kimi də ölməyəcəyəm.

Misram yağış olar, misram qar olar,
Misram şimşək olar, görünər gözə.
Qışqıra-qışqıra can verəcəkdir,
Kim ki, əzab verib yaxşıya, düzə.

Büsbütün çəkilib qeybdən-qeybə,
Çəkmişəm nə qədər ağrı-acı var.
Tanrının yanında durubdu ruhum,
Göylərin də mənə ehtiyacı var.

Dərdin üstünü də sevinclə örtdüm,
Ağrı sevdim, ağrı bilməyəcəyəm.
Uçub gedəcəyəm göyün üzünə,
Mən bu adamlartək ölməyəcəyəm.



Məmməd QƏDİR
(Xaçmaz)

Ağaclar

Bu dünya oxdan asılıb,
Varlığı yoxdan asılıb.
Asılan çoxdan asılıb,
Quruyub dar ağacları.

Hər qaranlıq axşam deyil,
Hər şölə saçan şam deyil.
Bu gəzənlər adam deyil –
Qəhər, qubar ağacları.

Ölüm imiş bildikləri,
Ağlamaqdı güldükləri...
Kim güldürər kötükləri,
Kim ağladar ağacları?

Torpağa yeriyib dizim,
Daha kötüyəm, əzizim.
Dibimizdən çıxıb bizim
Bitir bahar ağacları...

Gözlərin nağılı

İki şəhid oğlunu bir gündə dəfn edib,
bir gilə göz yaşı tökməyən ataya

Dedilər ağlamadı,
Cüt oğlunun yasında.
Axı gözlər yox idi,
Başında, qafasında.

Hər gözü bir oğluna
Qurban vermişdi ata.
Gözlər də şəhid kimi
Qoyulmuşdu tabuta.

Gözlərin haqqı yoxdu
Bu dünyada qalmağa.
Gedirdi oğulların
Üstündə göz olmağa.

Tabutlara söykənib
Yeriyirdi o qoca.
Dərdbədərd, tabut-tabut
Yeyilirdi o qoca.

Bu dərd pilləkənini
Addım-addım qalxırdı.
Hər gözünün yerindən
Bir damla yaş baxırdı...



Rahib ALPANLI
(Quba)

Atamın çomağı

Atam çoban idi –
çomağı vardı,
Deməzdi yağışdı,
deməzdi qardı,
yoldaş idi çomağına,
qardaş idi çomaq ona.

Deyirlər şirindi səhər yuxusu,
burnunda çöllərin səhər qoxusu
qəribə gəlir adama.
Atam söykənərdi çomağa,
Bəlkə də çomaq atama.
Kimi oyaq, kimi yatardı,
Göz acısın atardı.

Çomaqla gedərdi
kəndin yasına, toyuna,
Bildirərdi həddini
dəcəl keçiyə, qoyuna.
Bayraq kimi qaldırardı
çomağı başı üstünə,
səksəndən yuxarı yaşı üstünə.

«Gidi dünya» deyib hərdən
onunla dərdləşərdi atam.
Dərdini ovcunda sıxıb
bir az mərdləşərdi atam.

Qüvvət idi dizinə,
Yoldaş idi izinə,
Dərəsinə, düzünə –
Atamın çomağı.

Kölgələri bir yerdə uzanardı,
axşam, səhər.
Nə atam yorulardı,
nə çomaq usanardı.
Keçərdi günləri birtəhər.

Günlərin bir günü
ayrıldı atamla çomağın
uzun yolları, izləri.
Bu ayrılıq od kimi
yandırdı bizləri.

O boyda kişini
yedi axirət yurdu.
Çomağını da
ağacqurdu.



Aqşin DADAŞOĞLU
(Xaçmaz)

Deyil

Qozbeli qəbir düzəldər,
Bu dünya düzələn deyil.
Daş başlara döyülməsə,
Daş qəlblər əzilən deyil.

Qəm sazı mənim sazımdı,
Son payız mənim yazımdı,
Əllərim yaman uzundu,
Allahdan üzülən deyil.

Mürvətsizlə yox savaşım,
Zaman deyil durum çaşım.
Axır könlümə göz yaşım,
Gözümdən süzülən deyil.

Mən şairəm, pusun məni,
Şər, iftira yusun məni,
Həqiqətdən asın məni,
Kəndiri nazilən deyil.



Fərzalı ZİYANUR
(Xaçmaz)

Mənsur şeirlər

Sevirdi

Sirli bir aləmə düşmüşdümü? Şirin bir yuxu görürdümü? Bilmirdi o. Yollar həmin yollardı. Artmışdı amma hamarlığı, düzlüyü. Kələ-kötür çınqıllar naxış olub səpilmişdi yollara: ağ, qara, qonur...

Bulaq həmin bulaqdı. Şəffaflığı, təmizliyi çoxalmışdı yalnız.

Həyətdəki çiçəklər də həminkiydi. Əlvanlığı, rayihəsi dəyişmişdi bir az.

Dəyişmişdi o özü də. Səliqəsi, rəftarı, danışığı, sözləri də; insanlara məhəbbəti, qayğısı və hörməti də.

Yox olmuşdu ürəyinin kin-küdurəti. Oyanmışdı neçə şirin arzu-dilək...

Sirli bir aləmə düşmüşdümü? Şirin bir yuxu görürdümü?

...Yox, sevirdi o...

Çiçəklər

Çiçəklər... İnsanın qəlbini həyatla dolduran gözəllik.

Dünyaya gəldi insan. Uşaq oldu. Dostlaşdı çiçəklərlə: «Ana, mənimkidir bütün bunlar, mənimki», – dedi.

Yaşa doldu, gəncləşdi, sevdi, sevildi insan. O qıza ən gözəl, ən qiymətli hədiyyəsi oldu çiçəklər!

Qocaldı insan. Telləri ağ-ağ çiçəklər açdı. Yenə sevdi çiçəkləri. Əkdi, becərdi... İnsanın arzusu tək açıldı güllər!

Yol sona yetdi. İnsan köçdü bu dünyadan. Amma əbədi ayrılığa dözə bilməyib, məzarının üstündə bitdi çiçəklər.



LƏTAFƏT
(Quba)

Dağlara qar düşüb...

Dağlara qar düşüb, donur nəfəs də,
Sən məni bağına çağırma, bağban.
Qırov işıldayır budaqlar üstdə,
Sən məni bağına çağırma, bağban.

Dağlara qar düşüb gör bir nə vaxtdı,
Allah özü kəssin verdiyi baxtı.
Ruhun bu ac günü, yaşın bu vaxtı
Sən məni bağına çağırma, bağban.

Bu bağın meyvəsi çoxdan dəyibdi,
Dəymiş meyvəsini dərən dəribdi...
Səni ismarıca kim göndəribdi?
Sən məni bağına çağırma, bağban.

Baxma könlüm acdır, iştaham küsüb,
Bu bağın yoluna kimsə gül düzüb...
Ləpirin üstünə yüz ləpir düşüb,
Sən məni bağına çağırma, bağban.

Dağlara qar düşüb, qarşıda qışdı,
Bu soyuq gerçəkdən alın qırışdı.
Bu, vaxtsız dəvətdi, boş çağırışdı,
Sən məni bağına çağırma, bağban.

Vaxtında gəlsəydim, ondan nə dərdim,
İpək gülü üstə düşüb ölərdim,
Üşüyən qəlbimi günə sərərdim, –
İndi gecikmişəm, gecdi, gec daha,
Gəl məni bağına çağırma, bağban,
Əl çək inadından, sığın Allaha,
Sən məni bağına çağırma, bağban.

İlğım sevgi

Sən yarı sevinctək, yarı qəhərtək
Gəldin taleyimə qarışıq belə.
Sevgin ürəyimə elə sarıldı,
Sarmaşmaz nəyəsə sarmaşıq belə.

Bu ilğım sevginin gözəlliyindən
Ürək doya bilmir, göz doya bilmir.
Bir pay ki, verilib alınacaqmış,
Adam nə ad versin bu paya, bilmir.

Bu, Tanrı işimi, ya bir təsadüf?
Bu gəliş mənimçün açılmayan sirr.
Mənim taleyimə sən niyə gəldin –
Mən ki bir həsirəm, bir Məmmədnəsir.

Nə ürəkdolusu sevinc verənəm,
Nə bir dodaq boyda gülüşüm qalıb.
Gör yolum bu vədə hara dirəndi –
Mənim bu yerlərdə nə işim qalıb?..

Sən yarı sevinctək, yarı qəhərtək
Gəldin taleyimə qarışıq belə.
Sevgin ürəyimə elə sarıldı,
Sarmaşmaz nəyəsə sarmaşıq belə.



Gülarə AYDIN
(Quba)

***

Göyün göyərmiş üzündə
Buludlar cücərib qalıb.
Mənim uşaq arzularım
Ürəyimdə qərib qalıb.

Səhərin alatoranlığı
Ulduzları biçib gəlib.
Yetim arzular yuxuma
Ayaqyalın qaçıb gəlib.

Görən kimdədir günah –
Sizmi məndən üz döndərdiz,
Mənmi analıq etmədim?
Bəlkə bu, son vidaymış,
Niyə sizinlə getmədim...

***

Hava da ağır idi,
nəfəsim də,
Ayaqlarım da,
səsim də,
Gözümdəki gözlüyüm də,
eşitdiyim son xəbər də –
Səni itirdiyim gün...

***

Gülən mən deyildim ki,
üzüm gülürdü.
İndi mən gülürəm,
üzümsə gülmür...



Sərvinaz SƏRVƏR
(Quba)

Tək-tək

Qəribə sevinir torpaq –
yamyaşıl otlar.
Qəribə sevinir otlar –
çiçək-çiçək.
Qəribə ağlayır güllər –
ləçək-ləçək tökülərək.
Qorxu bulağında həsrət –
ürək-ürək.
Nəfəs – addım-addım
sökülərək.
Həyat – nəfəs-nəfəs,
Bu da son – tək-tək.



Pənah ELQƏM
(Xaçmaz)

Açın bu yolları ayaqlarımdan

Qoy gedim özümdən, sonuma çıxım,
Açın bu yolları ayaqlarımdan.
Bu yollar qoymur ki yoluma çıxım,
Açın bu yolları ayaqlarımdan.

Sovurub külümü közümdən açın,
Açın ürəyimdən, gözümdən açın,
Ləpirimdən açın, izimdən açın –
Açın bu yolları ayaqlarımdan.

Qəlbə enib gözə dikiləndilər,
Qədlərdə əyilib bükülənlər,
Axarsız axıra tökülənlər,
Açın bu yolları ayaqlarımdan.

Qəmlər sevinclərin döngəsidirsə,
Günahlar savabın kölgəsidirsə,
Bu dünya Tanrının ölkəsidirsə,
Açın bu yolları ayaqlarımdan.



ZƏRİFƏ
(Quba)

Aman mənə

Görünmədi nə bir ahu, nə bir quş,
Aman, nənə, zalım nənə, yar nənə.
Əl çəkmədi gülşənimdən zalım qış,
Yenə yağdı güllərimə qar, nənə,
Aman, nənə, zalım nənə, yar nənə.

Çiçəklərdə qalmadı bir təravət,
Yenə düşdü gülüstana ədavət.
Göylərəmi çəkilibdir ədalət?
Gül boynuna sarılıbdır xar, nənə,
Aman, nənə, zalım nənə, yar nənə.

Heç görmədim bəxtim kimi yatanı,
Qara sapla bəzədiblər butamı.
Uşaq ikən itirmişəm atamı,
İlk şerimin şahı ahu-zar, nənə,
Aman, nənə, zalım nənə, yar nənə.

Ürəyimdə bir körpə eşq bəslədim,
Zəhər içib, hicran udub, dərd yedim.
Hay vermədi... səadəti səslədim,
Səadətin qulaqları kar, nənə,
Aman, nənə, zalım nənə, yar nənə.

Ümidlərim – dil açmamış quzular,
Göy çəmənlər, duru sular arzular.
Qışa düşdü saf duyğular, arzular,
Oldu könül mülküm tarimar, nənə,
Aman, nənə, zalım nənə, yar nənə.

Qabaqdadır imtahanlar, sınaqlar,
Qınlarında pas atmasın yaraqlar.
Əsirlikdən çıxmayınca torpaqlar,
Çalınmasın bir də kaman, tar nənə,
Aman, nənə, zalım nənə, yar nənə.



MÜRFƏTTAR
(Quba)

Çatmır

Bu cığırlar çıxmır yola,
Ya bir izə gedib çatmır.
Ayrılıbdı neçə qola,
Çay dənizə gedib çatmır.

Dərd bizə bir çətən düşüb,
Nə çox, nə az, nə tən düşüb.
Səsim pərən-pərən düşüb,
Ay bənizə gedib çatmır.

Dalğa yatıb, gəmi batıb,
Ümid itib, güman artıb.
Bəxt ulduzun duman örtüb,
Nuru bizə gəlib çatmır.

Gəl oyadaq fələkləri,
Birləşdirsin bu təkləri.
Tez əsdirək küləkləri,
Meh Təbrizə gedib çatmır.



Ofeliya Səma RAMAZANLI
(Quba)

Mənə ölü deməyin

Geydiyim əcəl kürküdü,
Soyunsam, ölü deməyin.
Başımdan bir ağıl düşüb,
Tapmasam, dəli deməyin.

Nələr var tale yazımda,
Çal-oxu ömür sazımda.
Sönsə ocağım yasımda,
Oynasın külü deməyin.

Tanrıya dua tutmuşam,
Əllərimi unutmuşam.
Sözümü çölə atmışam,
Lal olub dili deməyin.

.

Azərbaycan dağ yəhudilərinin şəirləri







Quba rayonu, Qırmızı Qəsəbə

Красная Слобода, Губинский район



Milix YEVDAYEV

Minnətdarlıq

Alqış söyləyirik, Prezident, Sizə!
Qəşəng bir Sinaqoq bəxş etdin bizə.
Doğmasan, əzizsən hər birimizə,
Dərin minnətdarıq, Prezident, Sizə!

Odlar yurdumuzun mətin oğlusan,
Heydər məktəbinin davamçısısan.
Vətənə, xalqına arxa-dayaqsan,
Dərin minnətdarıq, Prezident, Sizə!

Xalqların yaşayır indi dinc, rahat,
Yaşayış yüksəlir hər gün, hər saat.
Xalqınçün daima yaşa, qur, yarat,
Dərin minnətdarıq, Prezident, Sizə!

Hər eldən, obadan Sizə var salam,
Hamının qəlbində Sizədir inam.
Humanist Prezident, mehriban insan,
Dərin minnətdarıq, Prezident, Sizə!

Пилəтəj Дəдəj

Ə jop офторəнки чумho нам бирə,
Ширин-ширин сухдəнбуho у пилəтəj Дəдəjму!
Тə əхир hүмүриш jə нəғүл бирэ,
Ширин-ширин сухдəнбуho у пилəтəj Дəдəjму!

Салho охмиш бири, рузho кирошди,
Кəлəтəho ə тəшнəj дүл чəрусди.
Вojкəj дүлмə бири сəвкəнд зуhунмэ,
Ширин-ширин сухдəнбуho у пилəтəj Дəдəjму!

Ə аташү чəнд кук-дүхдəр нүшдəнбу,
Ə хəjолү коф бəбəho мундəнбу,
Əри дустho хубə атэш дошданбу,
Ширин-ширин сухдəнбуho у пилəтəj Дəдəjму!

Чүл нүh сали əз аташтү дур бирəм,
Дүлмə чилид бəсди, хəрлмə сузов,
Чəнгədə мə hисдүм ə jормə мијов
Ширин-ширин сухдəнбуho у пилəтəj Дəдəjму!

Худо! Ə туни үмид

Худо, тү күмək бош, ə түни үмид,
Дүлhорə шор сохдə, гəмhорə дур сох.
Тү яратмиш сохдəй, түни кумəкмə,
Ə hилом ə түни əнчəг үмидмə.
Hүмүрə тү дорə,түш вəкүрдəни,
Гисмətə вəкүрдəш ə дəстү дəри.
Бəхthорə тү бəсдə, тү очмиш сохдə,
Доғитмиш тү сохдə, түш вокундəни.
Ə миннət пойисдəм мə ə пишойтү,
Шүкүр ədəй сохдə hилом ə нумтү,
Парчой həр дү hилом түни, Худоймə!
Ə инчош, ə унчош мə нүкəртүнүм.

Мә кинүм, мә чүнүм, һүкүм ән түни,
Рәһмош ә дәстү дә, зулмиш ән түни.
Түсүз сәбәһ нибу, түсүз шәв нибу,
Имурә чү һисдкә һәммә ән тү бу.
Әгүлиш ән түни, чуниш ән түни,
Иму гиногтүним, һилом ән түни,
Үмидһо, мәтләбһо ә дәстү дәри,
Дәс һәммә бәндәһо ә бәлтү вәри.
Худо! Әри һәммә сәһиби сохдә,
Мәйил бәндәһорә үмидсиз мундә.

Дәдәй

Әдәм шори сохдә ә тәһәр һәйил,
Оморәм ә сәртү чәрх хурум, Дәдәй.
Худоймә -Тироймә, гобул сохдикә,
Ә хокһо - сәнгһойту руй вәнум, Дәдәй.

Йә хәбәр, йә сурог насданум әз тү,
Бәлкә гәһри бирәй, дир оморәм мә.
Чәнд сали һәсрәтүм ә үшүг, "товтү,"
Ә хубә дәһәмһо, мәтләбһой дүлтү.

Һүмүр нә варасдә кәмәр гәд сохди,
Ә сохдә коровоз дәс гәбәр сохди.
Зимусту-һәминон һүмүр руз түрә,
Ә рәһ ән балаһо тү гурбу сохди.

Чәнгәдә һәзизиш дошдумкәш түрә,
Ә дәрдтү йә чорә нә офдум, Дәдәй!
Чу зу омо варасд рузһой һүмүртү,
Мат мунди Милихиш әйи кор, Дәдәй!



Emil YAQUBOV
İkinci dünya müharibəsində qəhrəmancasına həlak olmuşdur

Vətən sevgisi

Dinləyin, a dostlar, Vətəndən deyim,
Ürək sözlərimi sizə söyləyim!
Böyük vətənimiz çiçəkli bağdır,
Al-əlvan gülləri solmayacaqdır.
Biz ana Vətənin qucağındayıq,
Ömrün xoş çağında, sübh çağındayıq!
Belə bir diyarda nə qəm, nə kədər,
Vətənə sevgimiz ümmanlar qədər.
Yurdumun hər yanı güldür, çiçəkdir,
Möhtəşəm diyarım dünyada təkdir.
Xoşbəxtdir yurdumuz, şən Vətənimiz,
Bağında açılan güllәriyik biz.
Bir nəzər salın yaşıl bağlara,
Zirvəsi dumanlı uca dağlara!
Baxınız göydəki ulduza, Aya,
Baxınız bu qədim, ulu dünyaya!
Baxınız qaynayan şən ölkəmizə,
Ulduza, Günəşə tən ölkəmizə,
İnamla, qürurla yaşayıram mən,
Döyüşçü adını daşıyıram mən.
Əgər lazım gəlsə Vətən uğrunda
Əziz canımı da qurban verərəm,
Ağır döyüşlərdə sinə gərərəm!
Sən mənim varlığım, canımsan, Vətən!
Namusum, qeyrətim, qanımsan, Vətən!
Dünyada adımsan, sanımsan, Vətən!

Quba, 1938



Simax ŞEYDA

Qürbətdəyəm, qürbətdə

Düşdüm Vətəndən uzaq, qürbətdəyəm, qürbətdə.
Çəkirəm qüssə, fəraq, qürbətdəyəm, qürbətdə.

Daim düşür yadıma Azərbaycan torpağı,
Neçə yurd, neçə ocaq, qürbətdəyəm, qürbətdə.

Hacıkəndin, Göygölün havasına həsrətəm,
Hardasan, ay Xoşbulaq, qürbətdəyəm, qürbətdə.

Lənkərandan, Göyçaydan, Oğuzdan yox xəbərim,
Çıraqqala, Dəlidağ, qürbətdəyəm, qürbətdə.

Səfalı Qubadandır ismi-pünhanım mənim,
Canımdır o gülyanaq, qürbətdəyəm, qürbətdə.

Simax Vətən həsrəti çəkə-çəkə qocalır,
Yazmaqdan qalmır ancaq, qürbətdəyəm, qürbətdə.



Yaşa MAŞİYAXOV

Gəzdim oymaq-oymaq Vətən mülkünü...

Bu gün məhmizləyib köhlən atımı,
Gah aranı gəzdim, gah da yaylağı.
Hər toyu-düyünü bir mehman kimi
Süzüb seyr elədim aşıqsayağı.

İçdim Qırxbulaqdan, Qızbənövşədən,
Barlı bağçalarda min budaq əydim.
Ey köpüklü çaylar, büllur bulaqlar,
Kaş sizi bağrıma basa biləydim.

Taxıl zəmiləri bir ümman kimi
Coşdu, dalğalandı, üzümə güldü.
Yaşıl çəmənliklər, uca zirvələr
Qəlbimdə qaynayıb şeirə töküldü.

Gəzdim oymaq-oymaq Vətən mülkünü,
Mənə əziz gəldi hər dərə, hər düz.
Hüsnünə baxmaqdan doya bilmədim,
Daşına baş qoydum, torpağına üz.

Quba, 1961

Yuşva İFRAİM

Qudyalçayım

Sən bizim yerlərin təbiətində
Gözəl mənzərəsən, a Qudyalçayım.
Hər qərib ötəndə, səni görəndə
Dalır xəyallara, a Qudyalçayım.

Bir yanın Qəsəbə, bir yanın Quba,
Sənինlə fəxr edir bizim el-oba.
Yığışır qız-gəlin axşamlar toya,
Yaylı gecələrdə, a Qudyalçayım.

Şahdağ zirvəsindən aşıb-daşırsan,
Daşlarla, qumlarla pıçıldaşırsan...
Hərdən də coşaraq həddi aşırsan,
Yorulmaq bilmədən, a Qudyalçayım.

Soyuq bulaqların çıxmaz yadımdan,
Seçildin həmişə başqa çaylardan.
Mənim sevgilimsən uşaq vaxtından,
Hələ də sevirəm, a Qudyalçayım.



Raxmil MİXAİLOV

Bayramın mübarək

Vətənim, bayramın mübarək olsun,
Parlaq gələcəyin arzumdur mənim.
Xoşbəxtlik, səadət sənə yar olsun,
Çiçəklən hər zaman, ana Vətənim.

Şad görüm həmişə bütün dostları,
Hamının yanında üzün ağ olsun.
Tanrımız qorusun daim onları,
Qoynunda yaşayan bəxtiyar olsun.

İnanırıq nurlu gələcəyinə,
Nəğmələr qoşuruq şan-şöhrətinə.
Təriflər deyilir sənin şəninə,
Ürəkdən bağlıyıq, Vətənim, sənə.

Alqış olsun sənə, Odlar diyarı,
Ərənlər məskəni, mərdlər diyarı,
Oyandır qəlblərdə saf duyğuları,
Şirin xəyalları, xoş arzuları.

Dağ yəhudilərinin dilində

9 Ав - руз суруни

Данит ки, ə hилом чү корно бири,
Залумно, саданно лап хунхур бири.
Хəрəбз сохдəткəш Битəмигдошə,
həр дүбо ə 9(нүйүм) ən мəh Ав бири.

Имбуруз 9(нүиүм) Ав- руз сурунини.
И руз əри həммə руз овилини.

Чəhм бирə əйəки гоhум - гəрдəшhо
Варафдəнүт уhо ə сəр говрəhо.

Дəшəндəнүт əйор мүрдəкорhорə,
Кими кəлəтəhо, кими дустhорə.
Оморəни əйор кирошдə рузhо,
Сохдəнүт həйфбəри əри у рузhо.

Имбуруз hисдүм мə əйə күнч Москов,
Hаштанки, дəрүм мə ə гəд ən йə хов.
Ədəм oh кəширə əз дорун дүлмə,
Əиор оморəнки həзизə Дədəймə.

Имой чəнд салhойи дədəйсүз мундəм,
Мə əзун бəгдəйкə гəрибиш бирəм.
Hисдикəш кифлəтмə, мə ə дурhоиүм,
Гəрибүм, чон Дədəй, мə лап тəhнойүм.

Нисдикə инсонə вətən нə хори,
Hич кəрək ниимбу у зиндəкуни.
Ə йор нə мундикə кирошдə рузhо,
Шəх никəрə бири рафдайо салhо.

həйилиш бирəмкə, мунди əйормə,
У рузhо ə хунəй Кəлəбəбəймə.
Мунда ə хəйолмə Кəлədədəймə,
Hүрмətлү- hүззətлү Холу- Həмлəймə.

Имбуруз 9(нүйүм) Ав- руз сурунини,
И руз əри həммə руз овилини.
Рəhмил, кура сохдə хəhəр- бирорə,
Бурайт вəкир сохит ишму уhорə.

Шүкүр кəрдо кəнə ə нүмтү, Худо,
Ədəйм кузət сохдə рəh Мошийəhə.
Тазадан мокуним Битəмигдошə,
Мичарним ə миhид руз сурунирə.

ш.Сходня, Москов, 27.07.2004

Qusar şairlərinin şeirləri





Seyidmet SAMURİ

Ləzgi dilində şeirlər

Шагьдагъ

Дагьдин цуьквер алван я,
Гьар са тІалдин дарман я.
Гьатин дагьлариз рекье,
Дагьлар лекьрен макан я.

Шагьдагь чилин дамах я,
Чарчар булах авахьиз.
Шагьдагь элдин даях я,
Шагьвар гьарнихь алахьиз.

Ракьин нурдикай кьачуз,
Живер авахьиз вацІуз,
Дагьлар цІиргьина авай
Гуьзел я гьар са чІавуз.

КІанид патав хьайила,
Дагьлар хуш жеда рикІиз.
Нуш я ашкъидиз дуьнья,
Уьмуьр ракъурмир текдиз.

Шагьдагь чилин дамах я,
Чарчар булах авахьиз.
Шагьдагь элдин даях я,
Шагьвар гьарнихъ алахьиз.

Хайи ватандиз

КуькІуьрна вил кьуд патахьди килигна,
Хуш я рикІиз мани лугьун ватандиз.
Илгьамдин цІа чарни къелем гьиликна,
Хайи чилин тІвар чукІурин жагьандиз.
Хуш я рикІиз мани лугьун ватандиз.

Шад манидин ван акъудиз къушари
Саф рикIера ашкъидин цIай курзава.
Хайи элдин гадайрини рушари
ЦIийн салар, цIийи багьлар хьурзава.
Саф рикIера ашкъидин цIай курзава.

Чи зегьметдин бегьер аку, бар аку!
Девран — гуьзел, бахтавар я инсанар.
Ашукьдив гвай чуьнгуьр аку, тар аку!
Кьвезва чиниз гьар патахьай мугьманар.
Девран – гуьзел,бахтавар я инсанар.

Фикир – азад, гуьгьуьл – шад инсан я зун,
Зи нефесдин ялав, чан я вун, Ватан!
Ви арандал, ви дагьдал гьейран я зун,
Зи ширрин макьам, ван я вун, Ватан!
Зи нефесдин ялав, чан я вуи, Ватан!

Хуьруьн рушар

Эхь, экуьн яралай акъатна кьецел,
Ракъинив гьуьжетда хуьруьн рушари.
ЦIару тир гуьллуь чит алукIна чпел,
Дамахда зегьметдал хуьруьн рушари.

Нур авай вилерин мана я дерин,
Гуьрчегвал рикIиз хуш яргьи киферин.
Милидиз хьвер ийиз, килигиз ширин,
Шадвилив сугьбетда хуьруьн рушари.

Цаварин дегьне хьиз гегьенш я рикIер,
Лаз алай хъуькъвер я кукупIдин цуьквер.
Гьамга хьиз нурлу я пак чинавай хъвер,
Мугьмандиз гьуьрметда хуьруьн рушари.

Яраб тIебиатдин аламат ятIа?
Куь кьамат акурбур «саламат» ятIа?!
Шаирди гуда рикI аманат ятIа,
ТагайьIа туьгьметда хуьруьн рушари.

Həsən XASİYEV

Yaşa, ey Qusar!

Şahdağın havası ciyərlərimdə,
Axır damarımda Şahnabat suyu.
Gözüm yox dünyanın heç bir yerində,
Yaşaram Qusarda həyatım boyu.

Daş əkdim, Silibir çiçək bitirdi,
Sünbüllər başını əyər aranda.
Məni istəyimə Vətən yetirdi,
Şarvili dadıma çatar son anda.

Bal kimi şirindir öz ləzgi dilim,
Hər kəlməm şərbətdir, hər sözüm şəkər.
Onsuz heç keçməsin bir ayım, ilim,
Ölərəm dilimi itirsəm əgər.

Bələdəm hər yola, cığıra, izə,
Bu xalqı, obanı, eli sevirəm.
Heç yaddan çıxarmı səfalı Ləzə,
Əniği, Suduru, Hili sevirəm.

Bu torpaq xəstəni gətirir cana,
Doğrusu, bu işə mat qalıram mən.
Hardasa möhtacam təbib-loğmana,
Burda öz-özümə sağalıram mən.

Ləzgi gözəlləri elə bil candır,
Kişini qeyrətli bir ər görmüşəm.
Əhdini unutma, pozma, amandır –
Əlində çox iti xəncər görmüşəm.

Oxu «Pərizada», əl çalsın hamı,
«Ləzginka» oynasın qoy sevimli yar.
Çağlasın Samurtək şair ilhamı,
Yaşa Azərbaycan, yaşa, ey Qusar!

Qusarım ilhama çağırır məni,
Mənə yarat deyir, mənə yaz deyir.
İlahi eşq ilə sevdim Vətəni,
Bu torpaq Həsəni unutmaz deyir.

Məhəmməd AĞA

Ləzginin

Qartallar dağlara qonandan bəri
Seyr edir dünyanı gözü ləzginin.
Dolanıb hər yanı, gəzib hər yeri
Şöhrəti, söhbəti, sözü ləzginin.

Vüqarı dağ kimi ucadır onun,
Tarixi, keçmişi qocadır onun.
Çiynində yapıncı haçadır onun,
Dəyməyib torpağa dizi ləzginin.

Deyildir xeyirdən-şərdən o qalan,
Varını yoldaşla bölləndir olan.
Görsə ki, bir adam danışır yalan,
Qızarar pul kimi üzü ləzginin.

Ləzginin həmişə canı sağ olur,
Yediyi qaymaqla sarı yağ olur.
Qonağın yanında üzü ağ olur,
Aparım yanına sizi ləzginin.

Samur

Samur, səni sevir hamı,
Yardın ürək, Samur çayı.
Yorulmuram gəzdikcə mən
Gah o tayı, gah bu tayı.

Ağarıbdı təmiz başım,
Yetmiş olub çoxdan yaşım.
Vətənimdə hər bir daşın
Yazılmayan tarixi var.

Başım tez-tez dəyir daşa,
Arzularım çatmır başa.
Qocalmışam indi daha,
Ürək deyir yenə yaşa.

Bülbülsüz bağça, bağ olmaz,
Yazıb-yaradan qocalmaz.
Fələk məni elə vurdu,
Yaralarım heç sağalmaz.

Şahdağım

Tarixi qocadır,
Dağlar arasında
Hamıdan ucadır
Mənim Şahdağım.
Qopsa da tufan,
Yağsa da leysan,
Dəyişən deyil
Öz libasını
Mənim Şahdağım.
Vüqar yaraşır
Qoca yaşına,
Xətər toxunmasın
Xırda daşına.
Bütün dağların
Şahıdır, şahı –
Mənim Şahdağım.

Şəhidlər

Şəhid xiyabanındakı məzarlar
Bizim yaddaşımız, heyrətimizdir.
Azadlıq yolunda şəhid olanlar
Andımız, adımız, qeyrətimizdir.

Azadlıq bayrağı ucaltmısınız,
Sizin qarşınızda baş əyirik biz.
Müstəqil ölkəmin təməlisiniz,
Sizinlə fəxr edir bizim ölkəmiz.

Şəhid adı Şahdağ kimi yüksəkdir,
Onların adına hörmət gərəkdir.
İllər də, aylar da ötüb keçəcək,
Qəbir üstdən əskik olmaz gül-çiçək.

Gec də olsa, axır torpaqlarımız
Düşmən tapdağından azad olacaq,
Şəhidlərin ruhu da şad olacaq.
Onların məzarları nurla dolsun,
Daha bir nəfər də şəhid olmasın!

Baş redaktordan:

Təqdim etdiyimiz ədəbi nümunələrin bəyənildiyinə ümid edirik. "Region" əlavəsinin növbəti səfəri isə Cənub bölgəsinə olacaq.
Mətnlərinizi gözləyirik.

“Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur.

Çapa imzalanıb: 26.04.2016. Ofset çap. Ofset kağızı.
Format: 70x100 1/16. Həcmi 14,5 ş.ç.v. Tiraj: 1000 nüsxə.

Qiyməti razılaşma yolu ilə.

MÜTƏRCİM

Az1014, Bakı şəh., Rəsul Rza küç., 125
Tel./faks (+994 12) 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az